# *ƏHLİ-BEYTİN*

***(ƏLEYHİMÜS-SALAM)***

# *MATƏMİNDƏ MƏRSİYƏLƏR, ŞE`RLƏR, XÜTBƏLƏR*

***TOPLAYAN M. ƏLİZADƏ***

# *BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM*

***Bu kitabdakı növhə, mərsiyə və mədhiyyələr, habelə, Əhli-beyt (əleyhimüs-salam)-ın fəzilətinə dəlalət edən hədislər müxtəlif kitablardan–təqribən iyirmiyə yaxın–və məşhur rövzəxanların lent yazılarından seçilmişdir. Bunları yazmaqda məqsədimiz Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əhli-beytinə qarşı rəva görülən zülmlərin, kinələrin tanıtdırılmasında xalqımıza azacıq da olsa, agahlıq verməkdir.***
***İlahi insanların həyatları da, şəhadətləri də insanlara yol göstərir. Onların şəhadət tarixini yad etməklə, onlara ağlamaqla getdikləri yolu davam etdirmək ruhu hər bir azadlıqsevər insana yeni ruh verir, zülmə, zülmkarlara və qəsbkarlara qarşı mübarizə ruhunu xatirələrdə canlandırır.***

### *HƏZRƏTİ PEYĞƏMBƏRİ ƏKRƏM (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)*

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: **"Heç kəs mənim kimi əzab-əziyyətə məruz qalmam°şdır."**
Peyğəmbərlər içində bizim peyğəmbərimiz hamısından artıq həm cismi, həm də ruhi əzab-əziyyətlərə məruz qalmışdır. Bəni-üməyyə qəbiləsinin, Qüreyş kafirlərinin o həzrətə verdiyi əzablar, özündən sonra bəzi üzdəniraq müsəlmanlar o həzrətin adı ilə o qədər cinayətlər törətmişlər ki, qələm onları yazmaqdan həya edir. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in həyatının son anlarında həzrət buyurdu ki, mənə kağız-qələm gətirin, bir vəsiyyət yazım ki, məndən sonra zəlalətə düşməyəsiniz. Ömər hiss etdi ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) özündən sonrakı xəlifəni (Həzrət Əli əleyhis-salamı) yazılı olaraq xalqa tanıtdırmaq istəyir, ona görə də həyasızcasına dedi. Bu kiişi sayaqlayır! Nəuzu billah! Hələ həzrətin cənazəsinə qüsl verilməmişdi ki, 4 nəfərin vasitəsi ilə Əbubəkri xəlifə seçdilər, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in Qədir-Xumdakı vəsiyyətini ayaq altına saldılar. Çox keçmədi ki, o Həzrətin Quran ayəsi əsasında qızı Fatimə salamullahi əleyhaya verdiyi "Fədək" kəndini ondan aldılar. Əbubəkrin zorakılıq hakimiyyətinə etiraz edib Fatimə əleyha-salamın evində oturanları aparmaq məqsədi ilə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qapısını yandırdılar, qızını şəhadətə yetirdilər. O həzrətin vəfatından sonra Ömər qılıncını siyirib dedi ki, hər kəs Peyğəmbərdən hədis nəql etsə, boynu vurulacaq. Bizə Allahın Kitabı kifayətdir! Amma əməl olunmayan yeganə şey elə Allahın Kitabı oldu. Çünki, mübarək "Bəqərə" surəsinin 247-ci ayəsində Bəni İsrail tayfasının Həzrət Musa (əleyhis-salam)-dan, cihad etmələri üçün padşah seçməsini istədilər. Həzrət Musa (əleyhis-salam) da dedi ki, Allah sizin üçün Talutu padşah seçdi. Dərhal etiraz edib dedilər ki, hardan onun üçün padşahlıq ola bilər, halbuki, ona

mal-dövlət verilməyil və biz padşahlığa ondan da artıq layiqik?! Həzrət Musa buyurdu ki, Allah onu sizin aranızdan padşah seçib və ona elm və cismdə vüs”ət əta etmişdir. Deməli, xalqa hakimiyyətdə əsas şey elm və qüvvətdir. Bunun da hər ikisi xəlifələr arasında yalnız Həzrət Əli (əleyhis-salam)-da hamıdan artıq idi. Beləliklə, uzun illər o həzrətdən hədis nəql etmək qadağan olundu, özlərindən hədislər uydurub Əbubəkr və Ömərin nalayiq əməllərinə bəraət qazandırmaq üçün Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in məqamını alçaldırdılar. Bu məqsədlə o həzrətin atası Əbdüllaha iftiralar deyir, əmisi və din yolunda bütün var-yoxunu verərək Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) canla-başla müdafiə edən Əbutalib əleyhis-salamı nəuzu billah kafir hesab edirdilər! “Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) elminin qapısı” olan Həzrət Əli (əleyhis-salam)ı kənara vurur, öz ağıllarına gələn fətvaları verirlər. Peyğəmbərin “behişt cavanlarının ağası” adlandırdığı İmam Həsən və İmam Hüseyn əleyhiməssalamı zülm ilə qətlə yetirir, atası bəlli olmayan Müaviyəni, Yezidi Peyğəmbərin xəlifəssi hesab edirdilər. İtaətləri vacib olan Əhli-beyti sülaləsinin hər birini qətlə yetirir, Allah düşmənlərini isə öpüb gözləri üstünə qoyurlar və s. Bu və bunun kimi minlərlə əzab-əziyyətə, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in ruhunu sarsıdan işgəncələrə hansı bir şəxs dünyada tab gətirə bilər?

***

Sənəma[1], sənin cəmalın, “kəşəfət düca”[2] deyilmi?
Həbiba, sənin kəmalın, “bələğəl-ula”[3] deyilmi?
İki bərqozidə[4] adın, sənin ey həbibi-Rəhman
Biri Əhmədi Mühəmməd, biri Müstəfa deyilmi?
O Əhəddi, sən də Əhməd, götürülsə “mim” adından,[5]
Aradan hicab açılsa, bir adın Xuda deyilmi?
Sifəti-kəmali-məhmud,[6] yığışıb Mühəmməd üzrə
Nə əcəb “həbib”ü-”məhbub” iki aşina deyilmi?
Nə dil ilə bu cəmalı, bu kəmalı vəsf edim mən?

---

[1]Əzizləmə mənasında: əzizim, ağam

[2]“Qaranlığı yardı”

[3]“ən yüksək nöqtəyə çatdı”

[4]Seçilmiş

[5]İslam filosoflarının nəzərincə, Allah Təalanın “əhəd” adı ilə Peyğəmbərin “əhməd” adı arasındakı yeganə fərq–”m” (mim) hərfi “Mümkünül-vücud”a işarədir, yəni Allah təala Vacibül-vücuddur, (varlığı özündən olan) amma Peyğəmbərin adında olan “m” hərfi onun mümkünül-vücud (varlığı başqasından olan) olduğunu göstərir.

[6]Bəyənilən kamal sifəti

Belə sərvi qəddi rə"na sən üçün səza[1] deyilmi?
İki gözlərin qarası, fələki nücuma dair
Səqəleyni insi-cinnə[2] ələmül-hüda[3] deyilmi?
Üfiqi cəbini alun iki nuri həqqə mətlə[4]
Birisi ziyayi vəş-şəms,[5] biri vəz-züha[6] deyilmi
İki qaşların arası, şəbi Qədrə qabə qovseyn,[7]
Biri qafi Qul huvəllah, biri "qul kəfa"[8] deyilmi?
İki ləblərin dəmindən axar abi hövzi Kövsər,[9]
Biri nəbati şəkkər, birisi səfa deilmi?
İki şüddə dürri dəndan sədəfi dəhəndə qəltan,[10]
Düzülüb çü dürri rəxşan,[11] dürrü-pürbəha[12] deyilmi?
O gül üzdə xali əsvəd,[13] həcəri səvadi Kəbə[14]
Bu qara üzümü sürtüm, gözümə ziya[15] deyilmi?
Dolanıb təvafi qılsam başuva, dəxi nə lazım
Mənə Kəbənin təvafı məgər iftixar deyilmi?
Başımı qoyum ayağın tozuna, gəlim fədaya
Kəsiləm yolunda qurban, sənə can fəda deyilmi?
Məhi təl"əti cəmalun[16], üfüqi ziyayi Həqdən,[17]

---

[1]Layiq
[2]Cin və insanlar üçün
[3]Hidayət ələmi, nişanəsi
[4]Haqq nurunun parladığı yer
[5]Quran ayəsidir, tərcüməsi: "And olsun Günəşə!"
[6]Quran ayəsidir, tərcüməsi: "And olsun Günəşin nuruna!"
[7]Peyğəmbərin meraca getdiyi vaxt Allaha yaxınlaşdığı ən yaxın yer (Quran ayəsi)
[8]Quran ayəsidir, tərcüməsi: "De: Allah mənə kifayətdir"
[9]Kövsər hovuzunun suyu
[10]Ağız sədəfində qəltan
[11]Parlaq dürr kimi düzülüb
[12]Qiymətli dürr
[13]Qara xal
[14]Kəbənin qara daşı
[15]İşıq
[16]Camalının parlaq ayı
[17]Haqq nuru üfüqündən

Verir aləmə “Şüai”, əcəb incila[1] deyilmi?

HƏZRƏTİ FATİMƏ (SALAMULLAHİ ƏLEYHA)-NIN ŞƏHADƏTİ

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: **“Fatimənin nuru, asimanlar və yer xəlq olunmamışdan qabaq yaradılmışdır.”**

HƏZRƏTİ FATİMƏ (SALAMULLAHİ ƏLEYHA) bir neçə mühüm məsələdə mehvəriyyət təşkil edir. O cümlədən:

1) İmkan aləminin xilqətində; Belə ki, Allah-Taala Həzrət Peyğəmbərə xitabən buyurur:

**“Ya Peyğəmbər, əgər sən olmasayd˚n, kainat˚ xəlq etməzdim; və əgər Əli olmasayd˚, səni xəlq etməzdim və əgər Fatimə olmasayd˚, siz ikinizi xəlq etməzdim.”**

2) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Fatiməni “Ümmü-əbiha” deyə səsləyərdi, yəni “atasının anası”. Bu cümlədən məlum olur ki, əgər Fatimə olmasaydı, Peyğəmbər də olmazdı.

2) İlahi mərifətdə Həzrəti Zəhra (əleya salam) mehvəriyyət təşkil edir. Fatimənin adının Fatimə soyulmasının səbəbi budur ki, heç kəsin əqli onu dərk etməyə çatmaz. Fatimənin ən kamil nümunəsi “Qədr” gecəsidir. Zəhra Allahın Qədr gecəsidir. Qədr gecəsi sirli olduğundan, Zəhra da sirli bir varlıqdır və heç kəsin əqli onu dərk etməyə çatmaz. Əgər bir kəs Qədr gecəsini dərk edə bilsə, Həzrəti Zəhranın da məqam və mənzilətini dərk edər.

3). Həzrəti Fatimə Allah məhəbbətində də mehvəriyyət təşkil edir. Belə ki, Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur:

**“Hər kəs Fatiməni sevsə, həqiqətən məni sevmişdir və hər kəs də məni sevsə, həqiqətən Allah˚ sevmişdir.”**

4) Həzrəti Fatimə Allahın razılığında və qəzəbində də mehvəriyyət təşkil edir.

**“Həqiqətən Allah-Taala Fatimənin razı olması ilə razı olar, qəzəblənməsi ilə qəzəblənər.”**

5) Həzrəti Fatimə (əleyha-salam) təvəssül olunmaqda da mehvəriyyət təşkil edir. Duada oxuyuruq:

**“İlahi, Səni and verirəm Fatimənin həqqinə, onun atasının, onun ərinin və onun oğlanlar˚n˚n həqqinə, salavat göndər Həzrəti Mühəmməd və onun Əhli-beytinə, mənim barəmdə mənim bəyəndiyim şeyləri deyil, Özün məsləhət bildiyin şeyləri rəva gör!**”

[1]Cilvələnmə, aşkar olma

Həzrəti Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in vəfatından sonra, vilayət yolunda şəhid olan ilk şəxs Fatimeyi Zəhra əleyha-salamdır. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) ömrünün son ilində, “Vida Həcci”ndən qayıdanda, “Qədir Xum” adlı çöldə, 120 min hacının gözü önündə Allahın əmri ilə Həzrəti Əli (əleyhis-salam)-ı özündən sonra canişin, islam ümmətinin dini və siyasi rəhbəri təyin etdi, buyurdu: “Mən hər kəsin mövlası və rəhbəriyəmsə, Əli də onun mövlası və rəhbəridir.” Bu mərasim sona yetdikdən sonra, birinci Ömər, sonra Əbubəkr... həzrət Əliyə, bu ilahi məqama təyin olunduğuna görə, təbriklər deyərək, həzrət Əlinin onlara rəhbər olması ilə iftixar etdilər. Amma... Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in cənazəsinə qüsl verilən anda, artıq 4 nəfərdən ibarət bir dəstə Əbubəkri o həzrətin yerinə xilafətə təyin etdilər. Bəs Peyğəmbərin vəsiyyəti? Ona baxan kim idi! Əsas məsələ hakimiyyəti ələ keçirmək idi! Əbubəkrin atası eşidəndə ki, oğlunu xilafətə seçiblər, təəccüblə soruşdu:–Bəs Peyğəmbərin vəsiyyətinə nə üçün əməl olunmadı və Əli ilə beyət edilmədi? Cavab verdilər ki, Əli çox cavandır, Əbubəkr isə yaşlıdır, təcrübəlidir. Əbubəkrin atası dedi: –Əgər yaşlılıq əsas götürülürsə, onda mən bu vəzifəyə oğlumdan daha artıq layiqəm! (Və ömrünün sonuna kimi oğluna beyət etmədi)...Beləliklə, haqqın tapdalanmasının ilk əsər-əlamətləri aşkar olmağa başladı. Həzrət Əli (əleyhis-salam) dəfələrlə Peyğəmbərin Qədir Xumdakı vəsiyyətini xatırlatmaq, camaatı ayıltmaq istəyirdi, amma onlar elə dərin qəflət yuxusuna getmişdilər ki, onun sözünü təsdiqləyən yalnız 2-3 nəfər oldu, üstəlik 25 il səbr edəndən sonra[1] camaatın israrı ilə xilafətə gələndə, Ayişənin əmri ilə yüz minlərlə adam onun qanını tökməyə can atırdı. (Cəməl vuruşunda) Sonra Əbubəkr xilafət kürsüsündə yerini bərkitmək üçün beyət etmək istəməyənlərdən zorla beyət almaq qərarına gəldi. Bu işə etiraz əlaməti olaraq başda Həzrət Əli olmaqla bir neçə nəfər Həzrət Fatimənin evinə yığışdılar. Lakin... Əbubəkrin göndərdiyi məmurlar onları zorla çıxarıb beyətə aparmaq istədilər. Ömər qapı arxasında dayanıb kobud səslə Fatimə əleyha-salamı hədələdi: Qapını açmasan yandıraram! Halbuki, Qurani Kərimin hökmünə görə, icazə verilmədən Peyğəmbərin evinə girmək olmaz, necə ki, “Əhzab” surəsinin 53-cü ayəsində buyurur: “Ey iman gətirənlər, sizlərə icazə verilməyincə, Peyğəmbərin evlərinə daxil olmayın!” Deməli icazə olmadan Peyğəmbərin evinə girənlər Allah kəlamına belə, əsla əhəmiyyət vermirlər, öz məqsədlərini həyata keçirmək yolunda hər bir alçaq hərəkətlərə əl atırlar. Dedilər ki, axı içəridə Fatimə var! “Hətta Fatimə də olsa!”-deyə cavab verdi, sonra Qonfizə əmr etdi ki, qapını yandırsın.
Ravi deyir: Mən Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in evinin yanından keçirdim, gördüm evdən tüstü qalxır. Çox təəccübləndim, axı ərəblərdə bir qayda

[1]Həzrətin özünün buyurduğu kimi, bu 25 ili gözlərində qum, boğazında sümük qalan adamlar kimi başa vurdum.

var ki, birinin əzizi öləndə, 40 gün orada xörək bişirməzlər. Öz-özümə fikirləşdim ki, axı Fatimə atasına qarşı bu qədər hörmətsizlik etməz, yəqin başqa bir iş var. Yaxına gedəndə gördüm ki... Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qapısından alov qalxır. Rəvayətdə var ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qızı Fatimə (əleyha-salam)-ın qapısını yandıran məlun Kərbəlada da xeymələri yandırmışdı. Sonra Ömər qapıya həmlə edib onu açmaq istədi. Həzrəti Fatimə (əleyha-salam) "bəlkə məndən həya edib içəri soxulmaz"–deyə qapının arxasına gəldi, amma kaş gəlməyəydi! Ömər yanan qapını elə şiddətlə Zəhrayi-Əthər (əleyha-salam)-ın qabırğasına çırpdı ki, qapıdakı mismar qabırğasını deşdi, 4 aylıq uşağı siqt oldu. Həzrəti Əli Peyğəmbərin Mədinəyə hicrətindən sonra onun ailəsini Mədinəyə gətirəndə, Qüreyş kafirlərindən biri Peyğəmbərin qızı Zeynəbin mindiyi dəvəni hürkütdü, Zeynəb qorxdu və bətnindəki uşaq siqt oldu, Peyğəmbər də o uşağın qatilinin qanını halal etdi. Əgər Peyğəmbər sağ olsaydı, Fatimə əleyha-salamın 4 aylıq uşağının qatilinin də qanını halal edərdi. Şair deyir:

***Mismar aman vermədi, Zəhra gec ölərdi***
***Dəldi sinəsin ox kimi mismar, öz evində***

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) mütəvatir[1] hədislərə əsasən, Fatimeyi Zəhra barəsində buyurmuşdur "Fatimə hər iki dünyanın xanımıdır, seyyidəsidir."

Dünya və axirətdə yeganə xanım olan bir qadının şəhadətinə səbəb olan şəxs də dünya və axirətdə ən alçaq, ən bədbəxt və cəhənnəm oduna ən layiqli adamdır.

Quran "Əhzab" surəsinin 57-ci ayəsində buyurur:

**"Həqiqətən Allaha, Onun Rəsuluna əziyyət verənləri, Allah bu dünyada və axirətdə lənətləmiş, onlar üçün dərdli əzab hazırlamışdır."**

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) də buyurur:

**"Fatimə mənim canımın bir parəsidir, hər kəs onu incitsə, məni incitmişdir."**

Ömərlə Əbubəkr Fatimə əleyha-salamı incitdilər, deməli, Peyğəmbəri incitmişlər, (özü də bu məsələni sünnülərin ən böyük hədisyazanı mərhum Buxari özünün "Səhihi-Buxari" kitabında, Müslüm isə özünün "Səhihi Müslüm" kitabında yazırlar ki, Fatimə Əbubəkr və Ömərdən qəzəbli halda dünyadan getdi.) Peyğəmbəri incidənlər isə...

Fatimə əleyha-salamı incitdilər, halbuki Allah-Taala bu ailəni, bu sülaləni hər hansı eybdən, nöqsandan, xətadan pak etmişdir ki, insanlar onları özləri üçün örnək, nümunə seçərək düz yoldan azmasınlar, inhirafa yuvarlanmasınlar. Belə ki, Quranın "Əhzab" surəsinin 33-cü ayəsində Allah-Taala buyurur:

---

[1]Mütəvatir–istər şiə, istərsə də sünnü hədisçiləri tərəfindən dəfələrlə, həddindən artıq nəql olunan və azacıq da olsun, doğruluğunda şəkk-şübhə yeri qalmayan hədislərə deyilir.

**“Allahın iradəsi, istəyi yalnız bu olmuşdur ki, siz Əhli Beytdən hər növ çirkinliyi, aludəliyi aradan aparıb sizi pak etsin.”**[1]

İmam Şafeyi necə də gözəl demişdir (bu şer “Əs-səvaiqul-muhriqə” və sair kitablarda qeyd olunmuşdur):

***Ey Peyğəmbər xanədanı! Sizə məhəbbət göstərmək***
***Allahın nazil etdiyi Quranda vacib olmuşdur.***
***Sizin əzəmət və cəlalınız üçün bu kifayətdir:***
***Hər kəs (namazda) sizə salavat göndərməsə, namazı batildir.***

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) bu ayə nazil olduqdan sonra, 6 ay müddətində hər gün sübh çağı Həzrət Əli və Fatimənin evinin qapısına gələr, salam verib buyurardı: “Əs-salamu əleykum ya Əhləl-beyt”, sonra isə yuxarıda qeyd olunan ayəni tilavət edərdi ki, bəziləri sonradan bu ayənin başqaları barəsində nazil olduğunu iddia etməsinlər.

...Beləliklə, Həzrət Fatimə əleyha-salam 18 yaşında ikən, “xəlifənin” vasitəsi ilə, günahsız olaraq, zülm və haqqın tapdalanması əleyhinə qiyam etdiyinə görə, şəhadətə yetirildi və bununla da Peyğəmbər Əhli-Beytinə qarşı amansız düşmənçiliklərin əsası qoyuldu. Yenə də Quranın hökmlərinə qarşı çıxdılar, çünki, Allah-Taala Quranda Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-ə buyurur:

**“Ey Peyğəmbər xalqa de: mən sizdən, bu risalətin müqabilində (sizi hidayət etdiyim üçün) Əhli-beytimə ən yaxın a**damlarıma **aşkar məhəbbət bəsləməkdən başqa bir şey istəmirəm.”**[2]

Peyğəmbərin 23 il müddətində çəkdiyi əzab-əziyyətlərin haqqını onun Əhli Beytinin qanına susamaqla verdilər.

Allah-Taala Öz bəndələrinə verdiyi sonsuz nemətlərin müqabilində onlara heç bir minnət qoymamışdır, yalnız bir işdə–nübüvvət məsələsində minnət qoymuşdur. Belə ki, “Ali İmran” surəsinin 164-cü ayəsində buyurur: **“Allah möminlərə, onların özlərindən olan bir peyğəmbər göndərdiyi zaman onlara minnət**

---

[1] ərəb dilində “istəmək” sözü həm “yüridü”, həm də “yəşaü” kəlmələri ilə gəlmişdir. “Yüridü” o əmr və göstərişlərə aid olunur ki, onlar Allah tərəfindən inşa edildikdə ondan qaçmaq heç cür mümkün olmaz, amma “yəşaü” ilə bəyan olunan əmrlərdə isə, Allah hər hansı bir işi istəyir, amma kimsə bu istəklə müxalifət edə bilər. Deməli, qeyd olunan ayədə əhli Beytin paklığı elə sadəcə istək deyil, əksinə, elə bir istəkdir ki, əsla ondan qaçmaq olmaz.

[2] İbni Abbasdan nəql olunub ki, bu ayə nazil olanda soruşdular ki, ya Rəsuləllah, məhəbbət bəsləməyin vacib olduğu yaxın adamların kimlərdir? Həzrət buyurdu: “əli, Fatimə, Həsən və Hüseyn.” əlavə məlumat üçün bax: “əd-dürrül-mənsur”, 6-cı cild, səh.7; Təbərinin təfsiri, 25-ci cild, səh.14; “Müstədrəki-Hakim”, 2-ci cild, səh.444; “Müsnədi-əhməd”, səh.199; “Yənabiül-məvəddət”, səh.15; “əs-səvaiqül-muhriqə”, səh.11 və 102; “Zəxairül-üqba”, səh.25. (Hamısı mötəbər sünnü kitablarıdır.)

**qoydu.”** Deməli, risalət və nübüvvətin dəyəri o qədər böyük və mühümdür ki, Allah bu barədə minnət qoyur. İndi görək risalətin əvəzində Allah-Taala bizdən nə istəmişdir. Yenə də Qurani Kərimə müraciət etsək, görərik ki, Peyğəmbər bu əzəmətdə ilahi risaləti yerinə yetirməkdə (Allahın əmri ilə) onun Əhli-beytinə qəlbən məhəbbət bəsləməkdən başqa bir şey istəməmişdir:

**“(Ya Peyğəmbərimiz, müsəlmanlara) De ki, mən bu risalətim üçün sizdən, ən yaxın adamlarıma–Əhli-beytimə məhəbbət bəsləməkdən başqa bir şey istəmirəm.”**

Amma nə fayda, məqampərəstlik, cəhalət, qəflət və nadanlıq insanları heyvandan da alçaq dərəcələrə aparıb çıxarır. ”Və ati zəl-qürba həqqəh” (Ya Peyğəmbər, öz yaxın adamlarının haqqını (beytül-maldan) ver” ayəsi nazil olanda Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Həzrət Fatimə əleyha-salamı çağırıb “Fədək” adlı yeri ona verdi. Amma Əbubəkr xilafəti qəsb edədən sonra, Ömərin təhriki ilə oranı zorla zəbt etdi.

**Ayişə deyir:** “Atam Əbu Bəkr Peyğəmbərin mirasından Fatiməyə heç nə vermədi və ondan qalanların hamısını müsadirə edib beytül-mala qatdı. Fatimə də Əbu Bəkrdən incidi, Peyğəmbərdən altı ay sonra vəfat etdi və ömrünün axırına qədər onunla danışmadı. Əli onun vəsiyyətinə əsasən, Əbu Bəkrə xəbər vermədən gecə dəfn etdi və təklikdə ona cənazə namazı qıldı.”

Həzrət Zəhra (əleyha salam)-ın öz vəsiyyətinə əsasən gecə ikən dəfn olunması hadisəsini “Səhihi-Buxari”nin şərhçiləri, habelə Qəstəlani “İrşad” kitabında, Ənsari “Töhfə” kitabında nəql etmişlər.[1]

***

Sonra Fatimeyi Zəhra buyurdu: “Məgər Allah sizi bir ayə ilə məxsus etmişdir ki, mənim atamı həmin ayədən xaric etmiş olsun? Yoxsa güman edirsiniz ki, siz Quranın ümumi və xüsusi ayələrinə mənim atamdan və əmioğlumdan daha artıq agahsınız?! Və ya deyirsiniz ki, biz iki başqa-başqa din ardıcıllarıyıq və ona görə də irs aparmırıq?!”

Əziz oxucular, diqqət edib görün ki, Fatimeyi Zəhra peyğəmbərlərin irs aparmasını isbat etmək üçün, hər şeydən əvvəl, Həzrət Davud və Zəkəriyyanın dediklərinə istinad edir. Belə ki, bu ayələrdə onların övladları üçün irs qoyub getməsi açıq-aşkar şəkildə bəyan olunmuşdur.

Qəti və inkarolunmaz bir məsələdir ki, Fatimeyi Zəhra Quranın hökmlərinə, İslamı onun nazil olmasından sonra qəbul edənlərdən daha artıq agah idi. Amma həmin şəxslər bu ayələrdəki irsi mal-dövlət mənasına deyil, kitab və nübüvvət mənasına yozdular, heç bir dəlil-sübut olmadan sözün məcazi mənasını həqiqi mənasından

[1]Bax: “Səhihi-Buxari”nin şərhi (İbni Həcər), 8-ci cild, səh.157; habelə, “Səhihi-Buxari”nin Kermani tərəfindən şərhi.

irəli keçirtdilər. Halbuki, insanın hər hansı sözdən ilk növbədə düşündüyü məna–məhz onun həqiqi mənasıdır.
Əgər onların yozduqları bu cür yozumlar düzgün olsaydı, onda Əbu Bəkr, onun ətrafında olan mühacir, ənsar və sairləri Peyğəmbərin qızı ilə mübahisəyə qalxmalı idilər. Amma onlar Peyğəmbərin qızının gətirdiyi dəlillər qarşısında etiraz edib, irad tuta bilmədilər.
Həzrəti Fatimeyi Zəhra ilə onun ətrafında olanlar tərəfindən irəli sürülən mübahisəli məsələlərdən biri də bu idi ki, Həzrəti Fatimə soruşdu: Ey Əbu Bəkr! Əgər bu gün sən ölsən, irsin kimə çatacaqdır?
Əbu Bəkr dedi: Övladlarıma və ailəmə.
Həzrət buyurdu: Onda nə üçün sən Peyğəmbərin varisi olmusan və o Həzrətin övladları və ailəsi ondan irs aparmamalıdırlar?!
Əbu Bəkr dedi: Ey Peyğəmbərin qızı! Bu iş məndən baş verməmişdir.
Həzrət buyurdu: Yox, elə sənin işindir! Sən Peyğəmbərin şəxsi mülkü olan və Allah tərəfindən bizə əta olunan Fədəki bizdən zorla almısan.
Bu hədisi İbni Əbil Hədid mötəbər sənədlər əsasında (Əbu Bəkr Covhəridən nəqlən) Əmirəl-möminin Əli **(əleyhissalam)**ın bacısı Ümmü Haninin qulamından nəql etmişdir.[1]
***
Bu yer bir neçə əsr şəcəreyi-xəbisə olan Bəni üməyyənin övladlarının əlində əldən-ələ ötürüldü. Yəhudi sifətlərə hörmət edir, əşrəfi-məxluqatı isə öz qanuni haqqından məhrum edir. Sünni və şiələrin mütəvatir hədislərinə görə, Əhli-beyt Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qızı Fatimə əleyha-salam və 12 İmamdan ibarətdir. Tarixə baxsanız, görərsiniz ki, bu pak insanların hamısına qarşı Quranın buyurduğu məhəbbət yerinə, ədavət bəsləyiblər. Hətta ingilislərin 19-cu əsrdə icad etdikləri vəhhabilik firqəsi Əhli-beytə məhəbbət bəsləməyi küfr və şirk hesab edirlər. Bunun müqabilində isə, Əhli-beyt düşmənlərini, o cümlədən, məlun Müaviyə və Yezidi haqq xəlifə kimi tanıtdırır. Tarix boyu Əhli-beytə (əleyhis-salam) rəva görülən zülmü yazmaqla qurtarmaz, lakin hər bir haqq axtaran müsəlman haqq onun üçün aydın olduqdan sonra haqqın tərəfini saxlamalı, qəflətdə olanları ayıltmalıdır, əks halda, "Bəqərə" surəsinin 159-cu ayəsi onun halına şamil olar: "Həqiqətən Bizim nazil etdiklərimizi–aydın dəlillər və hidayəti, biz onları camaat üçün bəyan etdikdən sonra gizlədənlərə Allah və bütün lənət edənlər lənət edir."
****

[1]"Nəhcül-bəlağə"nin şərhi, 4-cü cild, səh.87

ÖZ EVİNDƏ...

Hər fərdi-bəşər edər imrar[1], öz evində
Əmniyyəti nisbət özünə var, öz evində
Qanuni-təbiətdir, nizami-mədənidir[2]
Asudə yaşar müslimü-küffar, öz evində
Kanuni-fərağətdi[3] hərif əhlinə söz yox
Heç kəs edə bilməz birini xar, öz evində
Rahət yata hətta gərək hər quş yuvasında
Pərrəndələrə[4] yetmiyə azar, öz evində
Ey piri-xerəd![5] Var bu suala nə cavabın:
Zəhra nə səbəb oldu giriftar, öz evində?
Bir Fatimə ki miyveyi-qəlbidi Rəsulə[6]
Dözməzdi ola zərrə diləfkar,[7] öz evində
Baxdıqca Peyəmbər ona balidələnərdi[8]
İylərdi gülün Əhmədi Muxtar, öz evində[9]
Fərmayiş edərdi:[10] Məni Zəhra ata səslə![11]
Şad olsun atan, məfxəri-əbrar,[12] öz evində
Bir Fatimə ki, bəzli[13] çox idi füqərayə

[1]Ömür sürmək, yaşamaq
[2]Mədəni bir qanun
[3]Asudəlik ocağı
[4]Quşlara
[5]Ey müdrik qoca
[6]Həzrəti Rəsulun qəlbinin meyvəsi
[7]Pərişan, qəmgin
[8]Qol-qanad açardı
[9]Peyğəmbəri əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) həmişə qızı Fatimeyi Zəhra əleyha səlamın üzündən öpərdi, bəzi vaxtlar Ayişə etiraz edib deyərdi ki, ya Rəsuləllah, artıq Fatimə ərli qızdır, onun üzündən öpmək eybdir, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurardı ki, Fatimədən behişt iyi gəlir.
[10]Buyurardı
[11]Fatimeyi Zəhra əleyha səlam atasına hörmət əlaməti olaraq “Ya Rəsuləllah” deyə çağırardı, həzrət buyuradı ki, qızım məni “ata” səslə, qoy ürəyim şad olsun
[12]Yaxşı insanların iftixarı
[13]Ehsanı, bəxşişi

Etməzdi doyunca özü iftar, öz evində
Bir Fatimə ki, aşiq idi sövmü-səlatə[1]
Eylərdi münacati-səzavar[2], öz evində
Bir Zəhra ki, nazil olub şəninə "Kövsər"
İncitdi onu firqeyi-əşrar[3], öz evində
Şeyxeyni[4] xilafət nə qədər kəc[5] yola çəkdi
Zəhrayə günü eylədilər tar[6], öz evində
Əndişə[7] qələt olsa, bəşər fərdidi mütləq!
Nahaq yerə əxyarı[8] edər zar, öz evində
Yandırdı Ömər babi-hümayuni-Əlini[9]
Şəhbanuyi-islam[10] görüb nar[11], öz evində
Odlandı qapı Saniyə[12] "əl çək!" dedi, məndən,
Zəhra ilə gəl eyləmə peykar[13], öz evində
Qardaşsızam, incitmə atam tazə ölübdü
Qoy Fatiməni olsun əzadar[14], öz evində
Hər bir üzə bu dərgəhi-valadı[15] açılmaz
Fikr et kimə gör eylirsən ixtar[16], öz evində
Fikr eylirsən olmaya köməksizdi əmoğlum?!
Zəhra tək ona vardı tərəfdar, öz evində

---

[1]Namaz-oruc
[2]Layiqli ibadət
[3]Şər tayfası, düşmən dəstəsi
[4]Məqsəd əbubəkr və Ömərdir
[5]əyri, nadürüst
[6]Qara
[7]Düşüncə, fikir tərzi
[8]Yaxşı insanları
[9]əlinin mənəviyyət qapısını
[10]Müsəlman qadınlarının şahı
[11]Od
[12]İkinci xəlifə–məqsəd Ömərdir
[13]Dava-dalaş
[14]Matəmli
[15]əzəmətli qapı
[16]Hədə-qorxu

Biz istəmirik əmri-xilafət[1] sizin olsun
Qoy rahət ola İtrəti-əthar, öz evində
Ta var nəfəsim bu qapını bir kəs açammaz
Getsin otusun qövmi-təbəhkar[2], öz evində
Ahularımı evdə mələşdirmə, həya et!
Dörd xırda balam qorxudan ağlar, öz evində
Baxmadı sözə Sani nə bildi onu etdi,
Həqqin elədi həqqini inkar, öz evində
Bir zur vurub qəhrilə[3] yanmış qapı sındı
Zəhra əcəlin gördü pədidar[4], öz evində
Bimarə[5] ki təkyə eləmişdi[6] elə qaldı
Saldı onu candan dərü-divar[7], öz evində
Mismar aman vermədi Zəhra gec ölərdi
Dəldi sinəsin ox kimi mismar, öz evində
Sındı sədəfi-Tahirə dürrü yerə düşdü
Oldu əcəl ol dürrə xəridar[8], öz evində
Fizzə elə səsləndi Əli çıxdı otaqdan
Gördü yıxılıb dilbəri-dildar, öz evində
Nə cayi məzəmmət[9] var Əlidə çətin işdi
Öz məhrəmini çün vurub əğyar[10], öz evində
Ey vay dedi Allah anasız qaldı uşaqlar
Bu dörd balama kimdi pərəstar[11], öz evində
Oğlanlarımın, qızlarımın göz yaşı axmaz:
Dildən düşənim eyləsə qoftar[12], öz evində

---

[1]Xilafət işi
[2]Qarətçi, fitnə-fəsad törədənlər
[3]Qəzəblə, hiddətlə
[4]Göz qabağında
[5]Xəstə
[6]Söykənmişdi
[7]Qapı və divar
[8]Alıcı, müştəri
[9]Məzəmmət yeri
[10]Düşmən
[11]Başçı, sahib
[12]Danışsa

Qəşş eyləyib hökmən, səsimə səs verə bilmir
Bihuş eliyib yarımı əğyar, öz evində
Gəlsə dilə, səslənsə “əmoğlu” qəmim olmaz
Billəm ki, Əlinin köməyi var, öz evində
Hasil, işi təqdiri-qəza bir yerə çəkdi
Durdu ayağa Fatimə naçar, öz evində
Gördü ki, Əlini baş açıq qolları bağlı
Çox qüssəlidir Heydəri Kərrar, öz evində
Miri hərəmin[1] Sani çəkir, məscidə sarı
Şəhbazə açır şəbpərə[2] minqar[3], öz evində
Tutdu iki əlli şəhi dinin ətəyindən
Qəhr eylədi məhbubeyi-Qəhhar[4], öz evində
Sani dilə gəldi dedi: Qonfuz nə durubsan?!
Zəhra necə gör eyliyir isar, öz evində
Fövrən o dəli qəmçisini açdı belindən
Vurdu gülü-Tahanı o qəddar, öz evində
Taqətsiz oldu Bətulin qolu əl çəkdi Əlidən
Zərbət yetişən vəqtidə təkrar, öz evində
Siddiqeyi-Kübra yıxılıb səhni-səradə[5]
Qalmadı şəhi Kövsərə qəmxar, öz evində
Gəldi balalar Fatiməni aldı arayə
Zeynəb elədi Fizzəni ehzar[6], öz evində
Qolu bağlı atanın fikrinə qalmış
Kim gəldi ona oldu tərəfdar, öz evində
Çarə yenə qalmış anama bizdə nə çarə
Bir çarə tapa olmasa bimar, öz evində

## HƏZRƏTİ FATİMƏ (əleyha-salam)-IN ŞƏHADƏTİ

---

[1]Ağasını
[2]Yarasa
[3]Dimdik
[4]Allahın sevimlisi, dostu
[5]Evin qapısında
[6]Ehzar etmək–çağırmaq

***<u>Can üstəyəm canım sənə qurban əmoğlu (2)</u>***
***<u>Tez gəl gözüm bağla oxu Quran əmoğlu(2)</u>***

Hərçəndi bir gün olmadım dünyada dilşad[1]
Gəldi əcəl oldum qəmü-möhnətdən azad
Qoy gözlərim üstə əlin ey qəlbi naşad[2]
Ey gənci ehsan[3] xaneyi-ehsanın[4] abad
Giryan dilimsən[5] olma dil giryan əmoğlu
***
Ey sahibi-fəzlü-kərəm[6] eylə kəramət
Zeynəb balam çox ağlasa etmə məlamət[7]
De hamiye din eyliylə Gülsumə himayət
Bu Müctəbanı mən sənə verdim əmanət
Yoxdu dodağında hənuz[8] əlqan əmoğlu
***
Yannam Hüseynin halinə qəlbimdə heyrət
Neylim əlimdən çarəmi aldı bu ümmət
Əşgim olur cari[9] üzə bi tabü-taqət
Səlb eyliyir[10] aramimi əfkari-qürbət[11]
Sinəmdə var bəs ki[12] qəmi pünhan əmoğlu
***
Mən ağlaram əhvalüvə bir də Hüseynə
Sən ağlama ey şahi-din mən dil həzinə[13]

---

[1]Ürəyi şad
[2]Qəlbi şad olmayan
[3]Ehsan xəzinəsi
[4]Ehsan evi
[5]Ağlar qəlbim
[6]Fəzilət və kəramət sahibi
[7]Məzəmmət
[8]Hələ ki
[9]Axar
[10]əldən alır, aparır
[11]Qürbət fikirləri
[12]O qədər
[13]Hüznlü, qəmli qəlb

Qəsb oldu həqqin baxdılar əhli-Mədinə
Od vurdular dərgahimə[1] əşrarü-kinə[2]
Yandı qapın yandı dilim hər an əmoğlu
***
Verrəm Hüseyni mən sənə baş peykər[3] üstə
Barmaqları salim-salamət əllər üstə
Mərcan kimi xüşk[4] olmuyub qan ləblər üstə
Xarü-müğilandan[5] nişan yox güllər üstə
Rüxsari olmub gül kimi əlvan əmoğlu
***
Şeyxeyni-qasib[6] olmasın hərgiz[7] xəbərdar
Təşyiü-dəfnimdə[8] olardən etmə ehzar[9]
Ruhum olardan çəkməsin qəbr içrə azar
Ta həşr[10] ola bizarəmü-bizarü-bizar
Əsrari-gizlin[11] eylirəm elan əmoğlu
***
Beyni dərü-divaridə[12] düşdüm fişarə[13]
Cismim yarəsin salmadım çox aşikarə
Sinəm yara bazulərimdə[14] ayrı yarə
Qüslüm gecə ver dəfn elə tapşır məzarə
Zəhrayla ta olsun fişar asan əmoğlu
***

---

[1]Qapıma
[2]Kin-küdurətli, şər adamlar
[3]Bədən
[4]Quru
[5]Tikanlardan
[6]Qəsbkar şeyxlər (əbubəkr və Ömər)
[7]Heç vaxt
[8]Cənazənin dəfn işlərində
[9]Çağırma
[10]Qiyamət
[11]Gizli sirlərini
[12]Qapı ilə divar arasında
[13]Təzyiqə, sıxılmaya
[14]Biləklərimdə

Qəlbində var arami-taqət dizlərində
Badi-xəzandan[1] bir əsər yox gülşənində
Qan ləxtə-ləxtə dolmuyub şəhla gözündə
At dırnağından bir əsər yox sinəsində
Gülşən şükufa[2] gülləri xəndan əmoğlu
***
Pəjmürdə[3] olsa gülləri yox məndə taqət
Görsəm Hüseynin cismidə var bir cərahət[4]
Barmaq kəsilsə eylərəm bərpa[5] qiyamət
Tapmaz nəvadən qəbridə qəlbim fərağət[6]
Getsə diyari-Kufəyə mehman əmoğlu
***
Xuli[7] evində qoymaram yatsın kül üstə
Allam yaralı başını məhzun dil[8] üstə
Öz bülbülüm naz eyliyə gülşən gül üstə
Sayə[9] sala bülbül gülə gül bülbül üstə
Dərya kimi əşkim eylər tufan əmoğlu
***
Bu köynəyim qüslüm verən vaxda çıxarma
Bazulərimə baxma çox nalən ucaltma
Eylə kəfən tez qəbrə qoy fikrindən atma
Xuni-dilin göz əşkivə səbr eylə qatma
Etmə hisari-səbrivi[10] viran əmoğlu
***
Gəlsən evə yığ dövrəvə tiflani-zari[11]

---

[1]Xəzan yelindən
[2]Gülləri açılmış
[3]Solmuş
[4]Yara
[5]Qiyamət qopararam
[6]Sakitlik, asudəlik
[7]İmam Hüseyn əleyHissalamın mübarək başını gecə təndirdə saxlayan məlunun adıdır
[8]Qəmli qəlb
[9]Kölgə
[10]Səbir kasasını
[11]Ağlar uşaqları

Olmaz gələn didarüzə[1] bir kimsə bari
Matəm tutun yad eyliyin mən dil fikari
Mən olmuşam səyyadi bi rəhmin[2] şikari
Qoyma yetimlər çox edə əfğan əmoğlu
***
“Qəmkeş” yazar bu qəmləri ba ahi cansuz[3]
Zikri olar ey vay Hüseyn hər şamü-hər ruz[4]
Zülmət evin rövşən qıl[5] ey şəm”i-şəbəfruz[6]
Saildi[7] ehsan eyliyin əltafü-fəzliz[8]
Olsun Hüseynin yasinə dərban[9] əmoğlu

YA ƏLİ
Qıl bir nəzər əhvalıma, gör ahü-zarım, ya Əli
Aləm yanar bu halimə, yoxdur qərarım, ya Əli
***
Ey tacidari Həl-əta,[10] həddən aşıb cövrü-cəfa[11]
Zəhra qalıb düşmən ara[12], ey şəhsəvarım, ya Əli
***
Bax bu cəlalü-cahimə[13], qəlbimdə dudi ahimə[14],
Od vurdular dərgahimə[15], getdi qərarım, ya Əli

---

[1]Görüşünüzə
[2]Qansız, rəhmsiz ovçu
[3]Ürək yandıran
[4]Hər gecə-gündüz
[5]İşıqlandır
[6]Gecələr yanan şam
[7]Dilənçi (məcazi mənada)
[8]Lütf və fəzlinizdən
[9]Qapıçı
[10]“Həl-əta” surəsi həzrət əli (əleyhissalam) və əhli-beyt (əleyhimüssəlam) barəsində nazil olmuşdur
[11]Zülm, sitəm, haqsızlıq
[12]Arasında
[13]Cah-cəlalıma
[14]Ahü-fəğanımın şö”ləsinə
[15]Qapıma

***

Qoyma bu qədri xar olum, olma riza[1] gül tək solum
Vurdu Ömər, sındı qolum, yox ixtiyarım, ya Əli
***

Çoxdu əmoğlu möhnətim, oldu digərgün[2] halətim
Qalmadı tabü-taqətim, ümmidvarım, ya Əli
***

Sür''ətlə şiri kirdigar[3], qıldı qapuya çün nəzər
Gördü deyir Zəhrayi zar: gəl tacidarım ya Əli
***

Gördü olub od şö''ləvər, yanar qapısı sərbəsər[4]
Durmuş xitab eylər zibəs[5] sənsən şikarım, ya Əli

HƏZRƏT ƏLİ (əleyhis-salam)-ın
HƏZRƏTİ FATİMƏNİN (Ə) QƏBRİ ÜSTÜNDƏKİ ZƏBAN HALI
***Fatimə qəbrin üstə mən, gəlmişəm ağlıyam gedəm(2)***
***Evdə yatıb Hüseyn, Həsən, gəlmişəm ağlıyam gedəm(2)***
***
Gün batırı, qara salır, başə Hicaz dağları
Ağlırı dərdimə mənim, həsrətilə bulaqları
Yel əsiri, çalır əcəb, qəmli təranə bağları
Qəmlidi gülşənü-çəmən, gəlmişəm ağlıyam gedəm
***

Evdə gedər gecə hamı, mərdü-zən[6] istirahətə,
Gün batırı Əli batır bəhri qəmü-məlalətə[7]
Boş görə bilmirəm yerin, nail olam ziyarətə
Qəbrivin üstə qüssədən gəlmişəm ağlıyam gedəm
***

---

[1]Razı
[2]Başqa cür
[3]Allah şiri–həzrəti əli
[4]Büsbütün
[5]O qədər
[6]Arvad-kişi
[7]Qəm-qüssə dəryası

Rişeyi-səbri-Heydəri[1], seyli-fəraqətin[2] yolun
Yadə salanda möhnətin[3], gözlərim əşgilən[4] dolur
Körpə uşaqlar ağlaşır, dördü də gül kimi solur
Yox oların nazın çəkən, gəlmişəm ağlıyam gedəm
***
Rehlət edən zaman atan, başüvə qarə bağladın
Mən belə bildim hicrəti-Əhmədə[5] sinə dağladın
Bilməz idim yaralısan, sən gecə-gündüz ağladın
İndi o sirr olub əyan, gəlmişəm ağlıyam gedəm
***
Xeymə vurubdu qüssəvü-qəm dili dağidarimə[6]
Yadə salanda yarəvi, əşkim axır üzarimə
Həsrət ilə düşür gözüm qəbzeyi-Zülfüqarimə[7]
Çəkmədim heç qilafidən[8], gəlmişəm ağlıyam gedəm
***
Aldılar həqqimi mənim, məclisi şur[9] qurdular
Boynuma şal saldılar, şiri-Xudanı yordular
Sən kömək eylədin vəli[10], vay sənə qəmçi vurdular
Torpağa düşdün onda sən, gəlmişəm ağlıyam gedəm
***
Təhti nəzərdədir[11] mənim, mənzili-vəhy mənzilim
Sən sağ idin bir az yenə, evdə var idi get-gəlim
Getdin əlimdən indi sən, bağlı qalıb dilim, əlim
Yoxdu bizə gəlib-gedən, gəlmişəm ağlıyam gedəm

---

[1]Heydərin səbir kasası
[2]Ayrılıq seli
[3]Qəm
[4]Göz yaşı
[5]əhmədin (səlləllahu əleyhi və alihi və səlləm) ayrılığına
[6]Dağ çəkmiş qəlbimə
[7]Zülfüqarın dəstəyi
[8]Qın
[9]Peyğəmbərin vəfatından sonra, o həzrətin vəsiyyətinin əksinə olaraq, həzrəti əlinin haqqını qəsb etdilər və xəlifə təyin etmək üçün şura qurdular.
[10]Lakin
[11]Nəzarət altında

***
İndi qəmin nişəst edib[1] bu dili dağidarimə[2]
Yalvarıram yuxu gələ dideyi-əşkibarimə[3]
Möhsini al qucaqivə, gəl yuxuda kənarimə
Ruh tapa, müvəqqətən, gəlmişəm ağlıyam gedəm
***
Sən evimə gəlin gələn vəxdə yox idi çün anan
Qüssələnərdin hər zaman, göz yaşın eylədin rəvan
Zeynəb ərus olan zaman bəxt evinə gedən zaman
Fatimə neylərəm onda mən? Gəlmişəm ağlıyam gedəm
***
Ya həbibi, əcibi, caə ila qəbrik həbib[4]
Ha! Əliyyün bəşərün keyfə bəşər[5] oldu qərib
Dur Əli qəbrivin üstə əli qoynunda gəlir
Dolanır başıma dünya necə mən ağlamıyım
***
Qəm qəm üstən yaralı, qəlbimə Zəhra qalanı
Vay mənə, sən yıxılan kuçədə sani dolanır
Zülfüqarı çəkə bilməm, ürəyim parçalanır
Bir belə səhnədə aya necə mən ağlamıyım

## HƏZRƏTİ ƏLİNİN FATİMEYİ ZƏHRANIN QƏBRİ ÜSTÜNDƏKİ ZƏBAN HALI

Bəqiyə xəstə gəlmişəm, Qəlbi şikəstə gəlmişəm
Məzarın üstə gəlmişəm, Məni qocaltdı ölməyin
Məhəllədə döyülməyin, Qapı dalında qalmağın
Qəmində sinə dağlaram, Dizlərimi qucaqlaram
Tək oturub tək ağlaram
**Yaralı Zəhra, vəfalı Zəhra (4)**
***

---

[1]Oturub, çöküb
[2]Dağ görmüş qəlbimə
[3]Yaşlı gözlərimə
[4]Ey sevimlim, cavab ver, qəbrinə tərəf dostun gəlmişdir. (ərəbcə)
[5]Tərcüməsi: Agah ol ki, əli (əleyhis-salam) bəşərdir, özü də necə bəşər! (ərəbcə)

Qəmində sinə dağlaram, Tək oturub tək ağlaram
Dizlərimi qucaqlaram, Yaralı Zəhra, vəfalı Zəhra
***
Bəqiyə xəstə gəlmişəm, Qəlbi şikəstə gəlmişəm
Dözəmmirəm fəraqüvə, Möhsini al qucaqüvə
Vəfalı Zəhra, yaralı Zəhra
***
Ey gülü-bixari Əli, Yarü-mədəd kari Əli
Bəqiyə xəstə gəlmişəm, Qəlbi şikəstə gəlmişəm
Qəbrüvün üstə gəlmişəm
***
Dözəmmirəm fəraqüvə, Dur nəzər et qonaqüvə
Möhsini al qucaqüvə, Var yeri aləmi pozam
Fatimə cani yalqızam
***
Köməksizəm adamsızam, Bax qəmimə məlalimə
Gözdəki əşgi halimə, Ağla mənim bu halimə
Adamsızam, admsızam
***
Hər gecə sinə dağlaram, Dizlərimi qucaqlaram
Tək oturub tək ağlaram, Ey məni bi kömək qoyan
Qüssəli dəhridən doyan, Bikəs əmoğlunam oyan

## ƏMİRƏL-MÖMİNİN ƏLİYYİBNİ ƏBİTALİB

“Bədr” döyüşündə Qureyş kafirlərindən 70 nəfəri müsəlmanlar tərəfindən öldürüldü ki, onların 36 nəfəri, həm də ən böyük pəhləvanları, o cümlədən, Müaviyənin qardaşı, dayısı və əmisi Həzrət Əli (əleyhissalam)ın əli ilə qətlə yetirilmişdi.
“Ühüd” müharibəsində Qureyş kafirləri 9 nəfər ən güclü cəngavərləri bayraqdar seçib müsəlmanların üstünə göndərmişdi. Onların hamısı Həzrət əli (əleyhissalam)ın mübarək əli ilə qətlə yetirildi. Bu işdən qəzəblənən Sovəb (o, qətlə yetirilənlərin qulu idi) and içdi ki, Peyğəmbəri mütləq qətlə yetirsin. Lakin o da həzrət Əli (əleeyhissalam)ın əli ilə belindən yarı böləndü. Elə bu müharibədə Həzrət Əli 70 yara almışdı, yaraların hamısı da arxadan deyil, bədənin qabaq tərəfindən idi. (Həzrət Əli müharibələrin heç birində arxadan yaralanmamışdı.)
“Xəndəq” müharibəsində kafirlərin ən şxcaətli pəhləvanı Əmr ibni Əbdi Vudd Həzrət Əli (ə)ın qılınc zərbəsi ilə cəhənnəmə vasil oldu. Peyğəmbər (s) buyurdu: “Xəndəq günündə Əlinin bir zərbəsi cinn və insin ibadətindən daha fəzilətlidir.”

"Siffeyn" müharibəsində Həzrət buyurmuşdu: Allaha and olsun əgər bütün ərəblər mənimlə müharibəyə çıxsalar, əsla onlara arxa çevirmərəm."
Peyğəmbəri Əkrəm (s) buyurmuşdur: "Mən elmin şəhəri, Əli isə onun darvazasıdır. Hər kəs elmi istəsə, gərək bu qapıdan gəlsin."
Böyük islam müfəssiri və Həzrət Əmirəl-möminin (əleyhis-salam)-ın xas tələbələrindən olan İbni Abbas belə nəql edir: "Gecələrin birində Həzrət Əli (əleyhis-salam) axşamdan sübhə kimi mənə Quranın "Fatihə" surəsinin bismillahının təfsirini dedi, axırda buyurdu ki, bütün Quran "Fatihə" surəsində cəm olmuşdur, "Fatihə" surəsi isə onun "bismil-lahir-rəhmanir-rəhim" kəlməsində, o da bismil-lahın "bey" hərfinin nöqtəsində cəm olmuşdur, o da mənəm."
Bey hərfinin nöqtəsi olmadıqda məna vermədiyi kimi, Həzrəti Əli (əleyhis-salam)-ın Allah tərəfindən haqq rəhbər (vəliyy) olmasına inanmayanların da imanı nöqtəsiz bey hərfi kimi naqisdir, Allah-Taala isə qiyamətdə naqis imanlıların əməllərini qəbul etməz.
Peyğəmbəri Əkrəm buyurmuşdur: "Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır, hər kəs elm istəsə, gərək o qapıdan gəlsin."
5-ci hicri əsrinin dahi ravilərindən olan "Firdovsil-əxbar" kitabının müəllifi Peyğəmbəri Əkrəmdən 300 min hədis eşidib əzbərləmişdir, məhz buna görə də "Seyyidül-hüffaz" (Hafizlərin ağası, seyyidi) ləqəbini almışdır. Zeydi firqəsindən olmasına baxmayaraq, etimadlı və düzdanışan adam olduğuna görə, onun nəql etdiyi hədis və rəvayətlər həm sünnü alimləri, həm də şiə alimləri tərəfindən səhih qəbul olunur. O, Peyğəmbərdən (səlləllahu əleyhi və alihi və səlləm) belə nəql etmişdir ki, həzrət Əliyə (əleyhis-salam) xitabən belə buyurmuşdur: "Ya Əli, əgər bir kəsin Həzrət Nuhun ömrü qədər ömrü olsa və bu müddət ərzində yaşayıb bütün gündüzlərini oruc tutsa, gecələrini sübhə kimi ibadətlə keçirsə, hər il bir dəfə piyada həccə getsə və "Ühüd" dağı qədərində qızılı olsa və o qızılları Allah yolunda paylasa və axırda "Səfa" və "Mərva" arasında məzlumcasına ölsə, amma sənin vilayətinə etiqadı olmasa, heç vaxt behiştin iyini iyləməyəcək."
***"Agah olun! Mən hər kəsin mövlası və rəhbəriyəmsə bu Əli də onun mövlası və rəhbərdir. İlahi, onu sevəni sən də sev, onunla düşmən olanla sən də düşmən ol, ona kömək edənə kömək et, onu xar etmək istəyənləri xar et. Hara getsə, haqqı hər yerdə onun mehvərində dövr etdir!"***[1]

[1]Bax: "əl-müsənnəf" (İbni əbi Şeybə), 12-ci cild, səh.67 və 68; "Sünəni-İbni Macə", 1-ci cild, səh.43; "Sünəni-Termezi", 5-ci cild, səh.633; "əs-sünnə", (İbni əbi Asim), səh.591; "Müsnədi-əhməd", 1-ci cild, səh. 118-119, 4-cü cild, səh.281, 368, 370 və 372; "Xəsaisün-Nəsai", səh.102; "ənsabül-əşraf" (Bilazəri), 2-ci cild, səh.156; "Kəşfül-əstar" (Bəzar), 3-cü cild, səh.190-191; "əl-möcəmül-kəbir" (Təbərani), 3-cü cild, səh.21, 4-cü cild, səh.173; "əl-möcəmüs-səğir", 1-ci cild, səh.65; "Müstədrəki-Hakim", 3-cü cild, səh.109; "Tarixi-Bəğdad", 7-ci cild, səh.377 və 14-cü cild, səh.236; "əl-mənaqib" (İbni Məğazili), 16-cı cild, səh.27; "Şəvahidüt-tənzil", (Həskani), 1-ci cild,

Peyğəmbər (səlləllahu əleyhi və alihi və salləm) Əli (əleyhis-salam)-ın İmamətini[1] ilk dəfə, risalətin ilk çağlarında, öz yaxın adamlarını İslama də”vət etdiyi məclisdə aşkar buyurmuşdu:

***"Bu, mənim qardaşım, məndən sonra canişinim və xəlifəmdir. Ona qulaq asıb əmrlərinə itaət edin."***[2]

***

Amma... çox təəssüflü məsələ budur ki, böyük sünnü alimi olan Buxari öz "Səhih" kitabında Əhli-beyt hədislərinə istinad etmir, onları dəlil və şahid kimi gətirmir; çünki o, özü ilə müasir olan İmam Sadiq, İmam Kazim, İmam Cavad, İmam Hadi və İmam Həsən Əskəridən heç bir hədis nəql etməmişdir!

Bundan əlavə o, sair Əhli-beyt rəvayətçilərindən: Həsən ibni Həsən, Zeyd ibni Əli ibni Hüseyn, Yəhya ibni Zeyd, Məhəmməd ibni Əbdüllah ibni Həsən Nəfsi-Zəkiyyə və onun qardaşı İbrahim ibni Əbdüllah, Hüseyn ibni Əli, Şəhid Fəxx, Yəhya ibni Əbdüllah ibni Həsən və onun qardaşı İdris ibni Əbdüllah, Məhəmməd ibni Cəfər Sadiq, Məhəmməd ibni İbrahim Təbatəba və onun qardaşı Qasim Rəssi, Məhəmməd ibni Məhəmməd ibni Zeyd ibni Əli, Məhəmməd ibni Qasim ibni Əli ibni Ömər, Əşrəf ibni Zeynul Abidin (**əleyhissalam)** (o, Taliqanın hökmranı və Buxarinin müasiri idi, Buxarinin vəfatından altı il əvvəl (250-ci ildə) İraqda şəhid edilmişdi), Əhli-beyt xanədanının sair böyük şəxsiyyətlərindən: Əbdüllah ibni Həsən, Əli ibni Cəfər Ərizi, həmçinin Rəsuli Əkrəmin ümmət arasında olan sair varislərindən, hətta Peyğəmbərin reyhan gülü, o Həzrətin böyük nəvəsi və behişt cavanlarının sərvəri olan İmam Həsən (**əleyhissalam)**-dan da heç bir hədis nəql etməmişdir. Halbuki Əhli-beytin qəddar düşməni, xəvaricin təbliğatçısı olan İmran ibni Həttandan hədis rəvayət edərək ona istinad etmişdir.

Belə ki, o məlun, Əli (**əleyhissalam)**-ın qatili və böyük cinayətkar olan ibni Mülcəmi tərifləyərək deyir:

*(Onun Əliyə vurduğu zərbə) necə qəribə bir zərbə idi!*
*ki, pərhizkar və təqvalı şəxs tərəfindən vurulmuşdu.*
*Allahın razılığından başqa heç bir məqsədi yox idi!*

---

səh.157; "Tarixi-Dəməşq" (İbni əsakir), 2-ci cild, səh.37-84; "Təzkirətül-xəvass", səh.36; "Üsdül-ğabə, 1-ci cild, səh.367, 4-cü cild, səh.28; "Zəxairül-üqba", səh.67; "əl-isabə, 1-ci cild, səh.304.

[1]"İmam" kəlməsi Qurani Kərimdə 12 yerdə zikr olunub. Yeddi yerdə tək halda (İmam: "Bəqərə" 124, "Hud" 17, "Hicr" 79, "İsra" 71, "Furqan" 74, "Yasin" 12, "əhqaf" 12), qalan 5 yerdə isə cəm halında (əimmətun: "Tovbə 12, "ənbiya" 73, "Qəsəs" 5, və 41, "Səcdə" 12) gəlmişdir.

[2]Bax: "əmali" (Şeyx Səduq), səh.523; "Elamül-vəra" səh.167; "Ehqaqül-həqq", 4-cü cild, səh. 297; "Müsnədi-əhməd", 1-ci cild, səh.111, 159; "Xəsaisün-Nəsai", səh. 66, 87; "Tarixi-Təbəri", 2-ci cild, səh.319; "Təfsiri-Təbəri", 19-cu cild, səh.74; "Şəvahidüt-tənzil", 1-ci cild, səh.420; "Nəhcül-bəlağənin şərhi" (İbni əbil-Hədid), 3-cü cild, səh.267; "Yənabiül-məvəddət", 1-ci cild, səh.104; "əl-kamil", 2-ci cild, səh.62; "Məcməüz-zəvaid", 8-ci cild, səh.302.

*Mən hər gün onu (ibni Mülcəmi) yad edəndə görürəm ki,*
*Onun yaxşı əməli bütün insanların əməllərindən çoxdur.*

Kəbənin Rəbbinə və peyğəmbərləri göndərən Allaha and olsun ki, mən bu yerə çatanda (yəni Buxarinin İmran kimi pozğun, xarici və Əmirəl-mömininin qatilini– İbni Mülcəmi tərifləyən bir adamdan hədis nəql edib, Əhli-beyt imamlarından isə heç bir rəvayət nəql etməməsini gördükdə) mat-məəttəl qaldım. Mən heç vaxt işin bu yerə çatacağını güman etməzdim!

***

Ha! Əliyyün bəşərün keyfə bəşər!
Rəbbuhu fihi təcəlla və zəhər!
***Agah ol! Əli bəşərdir, özü də necə bəşər!***
***Rəbbi onda təcəlli etmiş, zahir olmuşdur.***
İllətul kovni və lo lahu ləma
Kanə lil aləmi eynun və əsər
***kainatın yaranma səbəbidir və əgər o olmasaydı,***
***Aləm üçün bir əsər-əlamət olmazdı.***
Və ləhu ubdiə ma təqiluhu
Min uqulin və nufusin və suvər
***Yalnız onun xatirinə sənin əqlin işlədiyi şeylər yaradılıb***
***Əql aləmi, nəfslər aləmi və surətlər aləmi***
Fələkun fi fələkin fihi nucum
Sədəfun fi sədəfin fihi durər
Fələkdə bir fələkdir ki, onda ulduzlar var
Sədəfdə bir sədəfdir ki, onda dürrlər var
Ma rəma rəmyətən illa və kəfa
Ma ğəza ğəzvətən illa və zəfər
***Elə bir ox atmadı ki, hədəfə dəyməsin və kifayət etməsin;***
***Elə bir döyüş olmadı ki, zəfər çalmasın.***
Əğmədəs-seyfə məta qabələhu
Kullu mən cərrədə seyfən və şəhər
***Qılıncını qınına qoydu onunla qarşılaşanda***
***Hər o kəs ki, qılıncını siyirib məşhur pəhləvan*** idi
Əsədullahi iza salə və sah,
Əbul-əytam, iza cadə və bərr
***Allah şiridir–şir kimi həmlə edib düşməni parçalayanda***
***Yetimlər atasıdır–ehsan edib nəvaziş edəndə***
Hubbuhu məbdəu xuldin və niəm
Buğzuhu məbdəu narin və səqər
***Ona məhəbbət bəsləmək nemətlərin və əbədi cənnətin başlanğıcıdır***

***Ona kinə və ədavət bəsləmək cəhənnəm odunun və cəhənnəmin başlanğıcıdır.***
Huvə fil kulli imamun li kull
Mən Əbu bəkrin və mən manə Ömər?
***O, küllü aləmdə aləmlərin imamıdır,***
***Əbubəkr kimdir və Ömər kimdir?!***
Leysə mən əznəbə yəvmən bi imamin
Keyfə mən əşrəkə dəhrən və kəfər?!
***Hətta bir gün Allaha şərik qoşan kəs imam ola bilməz;***
***Onda bir ömür Allaha şərik qoşub kafir olanların halı necə olar?!***
Kullu mən matə və ləm yərifhu
Movtuhu movtu himarin və bəqər
***Hər kəs onun haqq imam olmasını dərk etmədən ölsə***
***İnək və ulaq ölümü kimi ölmüşdür.***
Xəsmuhu əbğəzəhullahə və lov
Həmidəllahə və əsna və şəkər
***Onun düşməni Allahı qəzəbləndirmişdir–hətta***
***Allaha həmd, səna və şükr etsə də belə.***
Mən ləhu sahibətun kəz-Zəhra?
Əv səlilun, kəşəbirun və şəbər
***kimin Zəhra kimi həyat yoldaşı ola bilər?!***
***Yaxud kimin Həsən və Hüseyn kimi iki oğlu ola bilər?!***
Ənhu divanu ulumin və hikəm
Fihi tumari izazin və ibər
***Ondan çoxlu elmlər divanı və hikmətlər gəlibdir***
***ki onda çoxlu xütbələr və mövizələr vardır.***
Bu Turabin və kunuzil-aləm
İndəhu nəhvu sufalin və mədər
Əbu Turabdır (torpaq atası) və aləmin xəzinələri
Onun yanında
Və huvən-nuru və əmməş-şurəka
Kə zulamin və duxanin və şərər
***O nurdur, amma ona (xilafətdə) şərik çıxanlar***
***Zülmətlər,tüstü və şər insanlardır.***
Əyyuhəl xəsmu təzəkkər sənədən:
Mətnuhu səhhə bi nəssin və xəbər
***Ey inadkar insan! Xatırla o sənədi ki,***
***Mətni aşkar xəbər və rəvayətlərlə təsdiqlənib***
İz əta Əhmədu fi Xummi Qədirin
Bi Əliyyin və ələr-rəhli nəbər

***O zaman ki, Əhməd Qədir-Xumda gətirdi-***
***Əlini və yəhərlərdən minbər düzəltdi,***
Qalə mən kuntu ənə movlahu,
Fə Əliyyin ləhu movla və məfərr
***Dedi: Mən hər kəsin mövlasıyamsa,***
***Əli də onun mövlası və pənahgahıdır.***
Qəblə təyini vəzirin və vəsiyy
Həl təra fatə nəbiyyun və həcər?
***Vəzir və canişin təyin etməzdən əvvəl,***
***Elə bir peyğəmbəri görmüsənmi ki, vəfat edib və hicrət etsin?!***
Mən əta fihi nususin bi xususin,
Həl bi icmai əvamin yunkər?
***Bir kəsin barəsində xüsusi aşkar dəlillər gələrsə,***
***Avam camaatın fikir birliyi ilə inkar oluna bilərmi?***
Ayətullahi və həl yuchədu mən
Xəssəhullahu bi ayin və suvər?
***O, Allahın ayəsi, nişanəsidir; və inkar oluna bilərmi***
***Allahın ayə və surələri ilə məxsus seçdiyi bir kəs?***
Vuddəhu ovcəbə ma fil-Quran
Ovcəbəllahu ələyna və əmər
***Ona məhəbbət bəsləməyi Quran ayələri vacib edib,***
***Ona məhəbbət bəsləməyi Allah bizə vacib və əmr edib.***

HƏZRƏT ƏLİ ƏLEYHİSSALAMIN MƏDHİNDƏ

Əlidi nuri-Kibriya[1], Əli çırаği-rahnüma[2]
Əli vəsiyyi-Müstəfa, Əli İmami-müqtəda[3]
Əli müinü-yavəri yüz irmi dörd min ənbiya[4]
Əli ədüvv üçün bəla, Əli mühibb üçün şəfa
Əli rümuzi həl-əta[5], Əli xəzineyi əta[6]

---

[1]Allah nuru
[2]Hidayət çırağı, yolgöstərən
[3]İqtida olunan imam, yəni haq rəhbər
[4]124 min peyğəmbərin köməyi, arxası
[5]“Həl-əta”nın rəmzləri
[6]əta və bəxşiş xəzinəsi

Əli vəsileyi dua[1], Əli qülub üçün şəfa[2]
Əli fəna, Əli bəqa,[3] Əli əmiri övliya[4]
Əli süruri sineye cəmali xətmül-ənbiya[5]
Gedin çıxın fələklərə, gəlin gəzün məmaliki[6]
Görün ki hansı millətin bu no"i rəhnuması[7] var!
Cənabi Məryəm istədi doğa Məsihi beytidə
Nida yetişdi zadigəh[8] deyil yerin bəhası[9] var
Bir ayrı yerdə vəz"i həmli qıl[10] o nuri pakuvi
Bu vadiye Müqəddəsin məqami-kibriyası[11] var
Amma Əli anası istədi Əlini vəz"e həml edə
Yarıldı Kəbənin evi, görüb Həqqün sədası var
Məhəbbət eylə qoy qədəm, gətir vücudə nurimi
O nuri pakilən bu Beyti ə"zəmin cəlası var
Qədəm qoyanda gördü dörd xanımdı mahi parətək
O banuye müqəddəsə salamü-mərhəbası var
Mələklər oldu qabələ[12], vücudə gəldi nuri Həqq
İşıqlı bir çırağı tək təcəlliye ziyası[13] var
Ziyarət etdi hurilər dübarə ğaib oldular
Anası gördü oğlunun behiştidən libası var
Götürdü basdı bağrına, görüb yumuqdu gözləri
Dedi: İlahi olmuya gözündə ibtilası[14] var?
Dübarə Kəbənin evi yarıldı çıxdı Fatimə

---

[1]Duanın qəbul olunma səbəbi, vasitəsi
[2]Qəlblərə şəfa
[3]əbədiyyət, əbədilik
[4]Allah övliyalarının əmiri, padşahı
[5]Həzrəti Xatəmül-ənbiyanın (səlləllahu əleyhi və alihi və səlləm) qəlbinin və cəmalının nuru
[6]Ölkələri, diyarları
[7]Belə bir yolgöstərəni, rəhbəri
[8]Doğum yeri
[9]Dəyəri, qiyməti
[10]Dünyaya gətir
[11]Böyük, əzəmətli məqamı
[12]Mama
[13]Nuru, işığı
[14]Eybi, nöqsanı

Nə gördülər: qucaqda bir işıqlı ay parası var!
Atası aldı iylədi, yenə Əli göz açmadı
Öpüb ziyarət eylədi, nə qədri əqrəbası var
Peyambərin qucağinə gəlincə yumdu gözlərin
Peyambər aldı gördü bir cəmali məhliqası var
Be fövri[1] açdı gözlərin baxıb cəmali həzrətə
O aşiqanə baxmağın nişan verir vəfası var
Dolandı ruzigarilər gəlib 16 sinninə[2]
İşıqlanırdı ay kimi, şücaətü-səxası var
Kəbin kəsildi ərşidə, bəzəndi asimanilər
Əlini gördilər hamı, geyibdi toy libası var
Sənin o toy libasivə, təmami şiələr fəda
Mədinənin xanımları Hicazi ləhni oxşadı
Ərus olubdu Fatimə, əlində toy hənası var
Oxurdu əndəlibilər ucaldı sövti nəğməcat
Həvadə quşların əcəb sədaye del güşasi[3] var
Dağın dalında batdı gün, hava qızardı qan kimi
Şəfəqdə geydi qırmızı, neyçünki toy əsası var
Elə ki daldalandı gün Əli evində çıxdı ay
Bu aydı? Yox! Ərusidi, cəmali Həq nüması var
Nə ya, nə gün? Gərək düşə sitarələr əyaqinə
Bu bir ərusidir bunun, Hüseyn kimi balası var
Cənabi Xətmül-ənbiya gəlib zifaf[4] otağına
Solda oturdu Fatimə, sağında Mürtəzası var
Buyurdu ya Əli bir az ucalt görüm əmmaməni
Əmmamə qovzananda gördi gün kimi cəlası var
Ərus otağı nur alıb ucaldı 7 rəng nur
Baxan deyərdi aləmin zəbərcədü-təlası var
Dönüb buyurdu Fatimə götür görüm niqabını
Aşağı saldı başini geyindi çün həyası var
Niqab gönürdü Fatimə, qarışdı nurə nurilər
On iki rəngi nuridi on iki rəhnumasi var
Ərusi verdi əl-ələ, buyurdu bax əmoğlucan

---

[1]Dərhal
[2]Yaşına
[3]Ürək açan, qəlboxşayan səsi
[4]Bəy otağı

Bu bir ərusidir Xuda yanında çox bəhası var
Nəzarə qıl ərusivə, mənim əmanətimdi bu
Nə sınmayıbdı qolları, nə sinədə yarası var
***
Aman o vaxta ey Xuda, ucaldı Zeynəbin səsi:
Anam yıxıldı gəl baba, yanıqlı ahu-vası var
Yetişdi gördü Mürtəza, Peyambərin əmanəti
Üzün qoyubdu torpağa, həzin-həzin nəvası var
Götürdü çaldı torpağa, o zalimi sitəmgəri
Başın kəsəndə gördülər, dilində iltiması var
Buyurdu: olmasaydı gər Peyambərin vəsiyyəti
Görərdün onda tiğimin[1] qana nə iştəhası var!
Bu kəlməni eşitcəyin, çığırdı bağlıyın qolun
Be fövri bağlanıb qolu, vəsiyyətə rizası var
Kəşan-kəşan[2] apardılar, baxanda Zeynəb ağladı
Dedi: İlahi başimin nə qədri gör bəlası var!
Anam yıxıldı, verdi can, babam da getdi neyləyim
Hara gedim kimə deyim, bu Zeynəbin harası var
Əli gedir, Hüseyn gedir, baxıb dalınca ağlıyır
Dolandı gördü Zeynəbi, səfaye "ya əxa"sı var
Çağırdı gəl Hüseyn, Hüseyn amandı getmə bir dayan
Gəlin görək anamızı, ölübdü, ya bəqası var
Alıb əmaməsin ələ gəlib dolandı başinə
Göz açdı gördü Fatimə, əzizinin əzası var
Buyurdu: bəs Əli hanı? Hüseyn dedi: apardılar
Dedi: görüm əmoğlumun başında nə bəlası var
Dedilər beyət etməsən vücudüvün cəzası var
Əli dayandı dinmədi, ucaldı onda həl-hələ
Baxanda xəlqi gördü bir yəhudinin sədası var
Uca səsiylə səslənir: İlahi şahid olgunan!
Qəbule diynün eylirəm, zamanın iqtizası var
Dedi: özüm yəhudiyəm, Peyəmbərə baş əymədim
Bu səhnə ayrı səhnədir, bir ayrı macərası var
Özüm gözümlə görmüşəm o bağlanan biləkləri
Vuranda böldü Mərhəbi, bölündü hər əzası var
O gün ki, gəldi Xeybərə, bu şahsəvari Lafəta

---

[1]Qılıncımın
[2]Çəkə-çəkə

Dalında 7 yüz nəfər qılınc vuran fədası var
Həvayə qalxdı quş kimi, atıldı keçdi xəndəgi
Gətərdi vurdu səhnəyə, əlindəki livası[1] var
12 min qılıc vuran befövri çıxdı qəl"ədən
Edəndə həmlə gördülər, nə xovfü-nə hərası var
Ölən ölüb qalanları dağıtdı tökdü xəndəgə
Bir iddə qaçdı qəl"əyə, dayanmağın xətası var
Gəlib yapışdı babidən, təkan verəndə titrədi
Uçuldu 7 saxtiman, o qəl"ənin binası var
Çıxartdı babi Xeybəri, gətirdi qoydu xəndəgə
O körpüdən gəlib keçib nə qədri aşinası var
Təəccübəm bunun qolun o hansı ipdi bağlayıb?!
Necə görün durub baxır, bu möhnətə rizası var
O qolları 12 min səvarə bağlayammadı
Bunun qolunu bağlayan o dinidir xudası var
Mən indi bildim ey Xuda, bu din, dini həqqidir
Bu dinə məzhəbim fəda, fənası yox, bəqası var
Qızışdı birdən ağladı, qaçıb yıxıldı torpağa
Üzün qoyub əyağinə, ürəkdə ahü-vası var
Dedi: atam-anam fəda o bağlanan biləklərə
Bu bəxti qarə nökərin, sənə bir iltiması var:
Sabah, qiyamətin günü gələndə səhni məhşərə
Şəfaət eyləsən mənim günahımın dəvası var
Üzün tutub cəmaətə dedi: budur vəliyyi həqq
Sizin bu dini-həqqizin, nə qədri xudnəması var!
Məgər vəsiyyət etmədi cəhanə Xətmül-ənbiya
Kitabı, bir də itrəti görün kimin vəfası var!
Ucaldı onda həl-hələ, yol açdı qövmi bihəya
Gəlib yetişdi Fatimə, başında bir əbası var
Sağında Müctəba gəlir, alıb əmmaməsin ələ
Solunda 7 sinnidə Hüseyni Kərbəlası var
Həzin səsiylə səslədi: açın əmoğlumun qolun
Ömər cavabi vermədi, rəyasətin həvası var
Xanım əl atdı sinəyə, çıxartdı qəm nişanəsin
Əlində gördülər tutub Peyəmbərin qəbası var
Əzəl öpüb o köynəgi yapışdı böldü nisfidən
Tutub həvadə saxladı,hər əldə bir parası var

---

[1]ələm, bayraq

O köynəgin parasını Hüseyn başına bağladı
Birin də bağladı Həsən başına, müddəası var
Həsən, Hüseyn qabağidə ayaq götürdü Fatimə
Yetişdilər o qəbrə ki, yatıbdı, Müstəfası var
Həsən, Hüseyn qucaqladı Peyəmbərin məzarini
Xanım əl atdı başinə atsının qərası var
Elə ki, istədi aça o qarənin girehlərin[1]
O qəbri paki titrədi göründü qəm həvası var
Bəla əhatə eylədi, təzəlzül etdi titrədi
O məscidin nə qədri sütunu var, binası var
Gəlib be fövri açdılar, o bağlanan biləkləri
Əlini gətirdi mənzilə, o banuye mücəllələ
Dedi: İlahi qəlbimin cəlalüvə şünasi var
Yapışdı 4 balasının əlin dolandı başinə
Dolandı baxdı ağladı, nə qədri gör vəfası var!
Deyən yox idi Fatimə, baxıb bu qədri ağlama!
Nə teşnədir, nə xəstədir, nə qürbətin cəfası var
***
Hüseyn gələndə xeymiyə, Ruqəyyə döndü başinə
Baxanda gördü sinədə, sağalmayan yarası var
35 il dolanmışam, sənin yasında ya Hüseyn!
Bu bəxti qarə "Mün"imin" ürəkdən iltiması var
Mənim axanda gözlərim, başımda bir dəqiqə gəl
Gözüm gözündə can verim, bu ölməyin səfası var
Rəfiqü-aşinalərə, salami verdim almadı
Rəfiqi neyləyir o kəs sənə ki ittikası[2] var.

HƏZRƏTİ ƏLİ (əleyhis-salam)-ın MƏDHİNDƏ

**Məhbubi Xuda, xosrovi bəxşəndə[3] Əlidir**
**Dəryayi əta, gövhəri rəxşəndə[4] Əlidir**
**Əli, ey şəhi xuban, gözəl aduva qurban (2)**
***
Göz tikmiş Əlinin əlinə dideyi aləm[1]

---

[1]Düyünlərin
[2]Arxalanacağı, ümid yeri
[3]Bağışlayan şah
[4]Parlayan gövhər

Cənnətdi onun verdiyi kim bəxşişi Hatəm
Heydərdir namaz üstə verən sailə xatəm[2]
Sultani səxi[3], rəhbəri zibəndə[4] Əlidir
***
İslamidə şəxsiyyəti mümtazidi[5] mütləq
Simayi dirəxşani[6] verib xilqətə rövnəq
Hərçəndi başın etdilər mehrabidə münşəqq[7]
Mehrabi ibadətdə gözəl bəndə Əlidir
***
İsmin də onun ismi-cəlalət qoyub Allah
Qəddində onun dəsti şücaət qoyub Allah
Başınə onun taci vilayət[8] qoyub Allah
Allaha vəli,[9] həqqə nümayəndə Əlidir
***
Dünyadə yetimlər atası adlanan adil
Rə"fətlə verən qüssəli xatirlərə şadi
Şəmşir ilə sərkub eliyən[10] zülmü-fəsadı
Peyğəmbəri islamə bərazəndə[11] Əlidir

---

[1]Aləmin gözü

[2]Üzük (Bir gün Həzrəti Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) minbərdə camaata nəsihət edərkən, bir sail gəlib camaatdan bir şey istədi, heç kim ona bir şey vermədi, bu zaman həzrəti əli əleyhissalam namazın rükusunda idi, əlini ona tərəf uzatdı, sail üzüyü çıxarıb getdi. Bu anda vəhy mələyi "Maidə" surəsinin 55-ci ayəsini nazil etdi: "Həqiqətən sizin vəliyy və rəhbəriniz Allah, Onun Rəsulu və iman gətirib namaz qılıb rüku halında (sailə) zəkat verənlərdir." Bəziləri bu həqiqəti gizlətmək üçün şərif ayədəki "və hum rakiun" cümləsindəki "vav" hərfini bağlayıcı götürüb belə tərcümə ediblər: "...namaz qılıb zəkat verənlər və rüku edənlərdir", yəni belə çıxır ki, namazla rüku başqa-başqa şeylərdir, halbuki ərəb dilində hal bildirən vavdan xəbərləri yoxdur, yaxud xəbərləri var, amma həqiqəti gizlətmək istəyirlər. Hər kəs də həqiqəti gizlətsə, "Bəqərə" surəsinin 159-cu ayəsindəki Allahın, mələklərin və bütün lənət edənlərin lənəti ona olacaq.

[3]Səxavətli padşah

[4]Gözəl rəhbər

[5]Seçilmiş rəhbər

[6]Parlaq siması

[7]Parçalanmış

[8]Rəhbərlik tacı

[9]Dost

[10]Məhv edən

[11]Kəsərli qılınc

***

Zeynəbdə təcəlla elədi[1] məntiqi Heydər

Şəni elədi vəqti Məsihiylə müsəxxər[2]

Hər yerdə süxən eylədi ağavü-süxənvər[3]

Mərdüm[4] belə fikr eylədi quyəndə[5] Əlidir

## HƏZRƏTİ MƏSUMƏ ƏLEYHA SƏLAMDAN NƏQL OLUNAN HƏDİS

1. Həzrəti Məsumə əleyha-salam İmam Sadiq (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Baqir (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Səccad (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Hüseyn (əleyhis-salam)-ın qızı Fatimə və Səkinədən, onlar da Fatimeyi Zəhranın (salamullahi əleyha) qızı Ümmü-Külsumdan, o da anası Fatimədən (salamullahi əleyha) belə nəql etmişdir: "Siz Qədir-Xumda Rəsulullahın buyurduğu "Mən hər kimin mövlasıyamsa (mövla– rəhbər, ixtiyar sahibi), Əli də onun mövlasıdır" hədisini, habelə, o həzrətin Əliyə xitabən buyurduğu "Sənin mənimlə münasibətin Harunun Musa ilə olan münasibəti kimidir" sözlərini yaddan çıxartdınızmı?"
2. Həzrəti Məsumə əleyha-salam İmam Sadiq (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Baqir (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Səccadın qızı Fatimədən, o da İmam Hüseyn (əleyhis-salam)-ın qızı Fatimədən, o da həzrət Əli (əleyhis-salam)-ın qızı Zeynəbdən (salamullahi əleyha), o da Fatimeyi Zəhradan (əleyha-salam) belə nəql etmişdir: "Həqiqətən hər kəs Ali Mühəmmədin (Peyğəmbər övladlarının) məhəbbəti ilə dünyadan getsə, şəhid kimi dünyadan getmişdir."
3. Həzrəti Məsumə əleyha-salam İmam Sadiq (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Baqir (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Səccad (əleyhis-salam)-ın qızı Fatimədən, o da İmam Hüseyn (əleyhis-salam)-ın qızı Fatimədən, o da həzrət Əli (əleyhis-salam)-ın qızı Zeynəbdən (salamullahi əleyha), o da Fatimeyi Zəhra (salamullahi əleyha)dan, o da Peyğəmbərdən (səlləllahu əleyhi və alihi və səlləm) belə nəql etmişdir: "Məni asimanlara doğru apardıqları vaxt behiştə daxil oldum və orada ağ və həlqə şəkilli dürlərdən qurulmuş bir qəsr gördüm, qapısı dür

---

[1]Cilvələndi

[2]Ram, müt"i

[3]Cilvələndi, əks olundu

[4]Xalq, camaat

[5]Danışan, natiq

və yaqutla zinətləndirilmiş, qapısından bir pərdə asılmışdı. Başımı qaldıranda gördüm ki, belə yazılıb: “La ilahə illəllah, Muhəmmədun rəsulullah, Əliyyun vəliyyul-qövm”, yəni “Allahdan başqa heç bir məbud yoxdur, Mühəmməd Onun rəsuludur, Əli xalqın ixtiyar sahibi (və rəhbəri)dir.” Pərdədə isə belə yazılmışdı: “Bəh-bəh! Kim Əlinin şiələri kimi ola bilər?!” Daxil oldum, içəridə qırmızı və həlqə şəkilli əqiqlərdən düzəldilmiş bir başqa qəsr vardı, gümüş qapısı yaşıl zümrüdlərlə zinətləndirilmişdi. Onun da qapısından pərdə asılmışdı. Başımı qaldırdım, gördüm ki, qapıda belə yazılıb: “Mühəmməd Allahın rəsuludur, Əli Müstəfanın canişinidir”. Pərdədə isə belə yazılmışdı: “Əli şiələrinə, onların halalzadə olduqlarını müjdə ver.” İçəri daxil oldum, həlqə şəkilli zümrüdlə tikilmiş daha bir qəsr vardı, belə ki, ondan yaxşısını görməmişdim, qapısı qırmızı yaqutdan idi, lö”lö ilə zinətlənmişdi. O qapıdan da pərdə asılmışdı. Başımı qaldıranda gördüm ki, pərdədə belə yazılıb: “Əlinin şiələri nicat tapanlardır.” Cəbrəildən soruşdum: –Bu qəsr kimə məxsusdur? Dedi ki, sənin əmioğlun və canişinin Əliyyibni Əbitalibindir. Əli şiələrindən başqa insanların hamısı qiyamət günü çılpaq və ayaqyalın məhşərə gələcəklər və hamını analarının adı ilə, Əli şiələrini isə atalarının adı ilə çağıracaqlar. Dedim: –Ya Cəbrəil, nə üçün belə olacaqdır? Dedi: –Çünki onlar Əlini sevirlər, buna görə də halalzadədirlər.”
Çoxlu rəvayət və Quran ayələri də Əli (əleyhis-salam)-ın rəhbər və vilayətinə dəlalət edir, o cümlədən:
***“Şəksiz sizin rəhbər və mövlanız yalnız Allah, Onun Rəsulu və iman gətirib rüku halında zəkat verənlərdir.”***[1] (Bu ayə Əli (əleyhis-salam) namaz qılıb rüku halında öz üzüyünü sailə verəndə nazil olmuşdur.)[2]

HƏZRƏTİ ƏMİRƏL-MÖMİNİN ƏLİ (əleyhis-salam)-IN ŞƏHADƏTİ

Verilər bu xəbəri nisbət Ümmü-Gülsumə
Mənə qonaq idi Şiri-Xuda, Şəhi-əbrar[3]
Dürüst etdim[4] iki qursu co,[5] bir az da nəmək[1]

---

1

[2]Bax: “Təfsirü Fəratil-Kufi”, səh.40-41; “əmali” (Şeyx Səduq), səh.107; “Təfsiri-tibyan” (Şeyx Tusi), 3-cü cild, səh.559; “əl-ehticac” (Təbərsi), 2-ci cild, səh.489; “Təfsiri-Təbəri”, 6-cı cild, səh.186; “əsbabün-nüzul” (Vahidi), səh.113; “əl-mənaqib” (İbni Məğazili), səh.312, 313; “əl-mənaqib” (Xarəzmi), səh. 264; “Təzkirətül-xəvass”, səh.24; “Təfsiri-Razi”, 12-ci cild, səh.26; “Kifayətüt-talib”, səh.250; “Zəxairül-üqba”, səh.88; və s.

[3]Yaxşı insanların şahı

[4]Hazırladım

[5]İki arpa çörəyi

Əlavə bir kasa süd gətirdim eyləsin iftar
Atan Əlini, dedi, görmüsən qızım ta hal[2]
İki xüruşt[3] yeyə bir yerdə ey həmidə şüar[4]
Birin götür buların! İstədim duzu götürəm
Dedi bu kaseyi-şiri[5] götür qızım, zinhar[6]!
Əli ləziz təamı[7] nə növ[8] meyl eləsin?
Hesabını çəkəcək Kirdigar[9] yövmi-şümar![10]
Qərəz, İmam iki lüqmə təam meyl elədi
Namaz başladı rüknü-səlati-Maliki-Barr[11]
Qılıb namaz gəhi səhni xaliyə[12] çıxdı
Nücumə[13] eylədi gəh çeşmi həsrətilə nəzar[14]
Baxıb göyə dedi: Səddəqtə[15] ya RəsulAllah!
Nişan verir ölüm asarı[16] sabitü-səyyar[17]
Dedim: baba, niyə vəhşətdəsən, nə var bu gecə?
Çox iztirabdasan, qıl qəmin mənə iş"ar[18]
Buyurdu: Bu gecəni Müstəfa veribdi xəbər,
Tülui-sübhidə[19] var çox mühüm bir xəbər

---

[1]Duz
[2]Bu vaxta qədər
[3]İki növ xörək
[4]Ey bəyənilən insan
[5]Süd kasasını
[6]Amandı
[7]Ləzzətli yemək
[8]Necə
[9]Allah
[10]Qiyamət günü
[11]Maliki-Barrın (Allah) namaz rüknünü
[12]Boş həyətə
[13]Ulduzlara
[14]Baxış
[15]"Doğru buyurmusan"
[16]əsər-əlaməti
[17]Sabit və hərəkətdə olan ulduzlar
[18]Elan
[19]Sübhün açılışında

Deyib bunu yenə ibadətə oldu məşğul
O qədər ibadət edib sübhə qaldı bir miqdar
Durub ayağa eylədi atam vüzui-təcdid[1]
Xiyal edibdi[2] gedə məscidə şəhi-əbrar
O dəm kəmər qapı qüllabəsində bənd oldu
Açıldı bəndi-kəmər, çəkdi ahi-atəşbar[3]
Kəmali-vəhşət[4] ilə şahi-din kəmərbəndi
Götürdü, bağladı, la hövl[5] eylədi təkrar
Buyurdu: bağla Əli, ölməyə belin möhkəm
Fəraq başa yetibdi, yaxındı vəsli-nigar[6]
***
Var idi bir neçə mürğabi[7] səhni-xanədə
Onlar da daməni-mövlayə[8] vəsl edib minqar[9]
Zəbani-hal ilə guya deyirdilər: getmə
Olubdu qətlivə amadə[10] düşməni xunxar[11]
Əlini Kufədə qoy, Kərbəladə oğluna bax
Vidayi-şahi-şəhidanın əcəb şadimani[12] var
Çıxıb vəliyyi-Xuda xanidani-izzətdən[13]
Olubdu məscidə miri-ənar,[14] rəhsipar[15]
O gecə məscidi Kufənin qəribə aləmi var
O yerdə cəm idi yeksər mühacirü-ənsar

---

[1]Dəstəmazı təzələmək
[2]İstəyibdi
[3]Yanıqlı ah
[4]Tam həyəcanla
[5]"La hövlə və la qüvvətə illa billah" dedi
[6]Allahla vüsal
[7]Qaz
[8]Mövlanın ətəyindən
[9]Dimdik
[10]Hazır
[11]Qaniçən düşmən
[12]Şadlığı
[13]İzzət və şərafət sülaləsi
[14]Həzrəti əmir (əleyhis-salam)
[15]Yola düşən

Biri dua, biri Quran tilavət eyləyirdi
Demə haman gecə yatmışdı bir nəfər dəyyar[1]
Namazi-şəb[2] qılan, Allaha kəşfi-raz eləyən[3]
Nə haldaydı? Ona yoxdu taqəti-qoftar[4]
Çadır qurulmuşdu, etikaf[5] edən vardı
İbadət etməyə məşğul idi təmami-əhrar[6]
Yazırlar qurmuş idi bir çadır da Quttamə
Özünü mötəkifə[7] eyləmişdi ol qəddar
Bunlar bu yanda, Əli qətlinə edib iqdam
O yan tərəfdə Əli dilşikəstə hüzzar[8]
Kəmali-şövq ilə mehrabi-taətə[9] keçdi
Üzün qibləyə döndərdi qiblətül-əxyar[10]
İmam nafileyi-sübhə eyləyəndə şüru[11]
Açıldı babi-səma,[12] götürdü pərdəni Səttar[13]
Göyün mələklərinə əmr edib: yer üstə baxın,
Görün vəliyyim edir can, nə rəğbət ilə nisar![14]
Əlini cəzbeyi-eşqi-Xuda[15] edibdi məczub[16]
Şikəstə qəlbi olub hübbi-Həqq[17] ilə sərşar[1]

---

[1]Alçaq, məlun
[2]Gecə namazı
[3]Allahla raz-niyaz edən
[4]Deməyə taqət
[5]Məsciddə qalıb ibadətlə məşğul olmaq
[6]Bütün azad insanlar
[7]Məsciddə müəyyən ibadət növüdür
[8]Qəlbi sınıq, hazır
[9]İbadət mehrabına
[10]Gözəl insanların qibləsi
[11]Sübhün nafiləsinə başlayanda
[12]Asimanın qapıları
[13]Allahın adıdır
[14]Can nisar etmək–canını Allaha təslim etmək
[15]Allahın eşq cazibəsi
[16]Cəzb etmişdir
[17]Allah məhəbbəti ilə

Veribdi xatəmə üç rüknə, rüknü-əsli-salat[2]
Qoyubdu səcdəyə baş, qütbü-nöqteyi-pərgar[3]
Qılıc əlində Muradi[4] kəmin edib nagah,[5]
Xudadan etmədi şərmü-həya, ol kani-nigar
Əbu Turab başını səcdədən götürdü vəli,
Qalaydı səcdədə ey kaş, İmami-əşki-vüqar
O endirir qılıcı, Mürtəza başın götürür
Təsadüf eylədi[6] fərq ilə tiği-kin,[7] naçar
Bölüb əmmaməni, baş parçalandı, qan axdı
Edib başından axan qan mühasinin[8] gülnar[9]
Həvadə başın açıb Cəbrəil səsləndi,
Dedi: hidayətin ərkanı münhədim oldu[10]
Boyandı qanə namaz üstə Heydəri Kərrar

Əflakidən[11] gəlir səs: Şahi-vilayət öldü!
İslamə yetdi sədmə, elmü-ədalət öldü
Yer-göy gəlib nəvayə, ağlarlar Mürtəzayə
İslama yetdi sədmə,[12] dinü-şəriət öldü
***
Bir kimsə ki, var idi şəxsiyyəti-cəhani[13]
Hər kəlmə həqq sözündə min hikmətü-məani[1]

---

[1]Dolu
[2]Namazın əsl rüknləri
[3]Pərgarın qütb nöqtəsi, yəni imkan aləminin, kainatın qütb nöqtəsi
[4]əbdürrəhman ibni Mülcəm
[5]Pusquda durub
[6]Qarşılaşdı, toqquşdu
[7]O həzrətin mübarək başına kinə qılıncı dəydi
[8]Saqqalını
[9]Qırmızı
[10]Dağıldı
[11]Fələklərdən (kainatdan)
[12]Zərbə dəydi
[13]Dünyəvi şəxsiyyəti

Mehrabidə töküldü dəsti-sitəmlə[2] qani
Haqqü-həqiqət öldü, ruhi-səadət öldü
***
Nəhcül-bəlağəsindən məfhum olan həqayiq[3]
Dünya boyu cahanda nahəqqü-həqqi fariq[4]
Fövqi-kəlami-məxluq, duni-kəlami-Xaliq[5]
Din öldü, daniş[6] öldü, nami-fəzilət[7] öldü
***
Gizlətdi əbri-xunin,[8] simayi-aftabi[9]
Zülmət cahanı tutdu, bağlandı elm babı
Çəkdi turabi-tirə,[10] ağuşə Bu Turabı
Babi-məcaz[11] açıldı, ruhi-həqiqət öldü
***
An radmərdi-tarix, an rəhbəri-səadət[12]
Bəs ki[13] qəzavətində göstərdi çox ədalət
Ta şiddəti-ədalət tövlid edib[14] ədavət
Öldürdülər Əlini, billah, ədalət öldü
***
Şəxsiyyətin olsaydı gər[1] xarici vücudi

---

[1]Hikmətlər, mənalar
[2]Zülm əli ilə
[3]Həqiqətlər
[4]Nahaqla haqqı ayıran
[5]Məxluqun kəlamından yüksəkdə, Allah kəlamından aşağıda
[6]Elm, bilik
[7]Fəzilətin adı
[8]Qanlı bulud
[9]Günəşin simasını
[10]Qara torpaq
[11]Haqqı-həqiqəti görməməzliyə vurub məcazi mənalara istinad etdilər
[12]Tarixin o alicənab şəxsiyyəti, o səadət rəhbəri
[13]O qədər
[14]Yaradıb, əmələ gətirib Corc Cordaq məsihi olmasına baxmayaraq, Həzrəti əli əleyhissalamın aşiqlərindəndir və həzrətin ədaləti barədə “Sövtül-ədalətil-insaniyyə (insani ədalət səsi) adlı dəyərli bir kitab yazmışdır. O, bu kitabda yazır ki, əlini öz ədaləti qətlə yetirdi, həddindən artıq ədalətli olduğuna görə, münafiqlər buna dözə bilmədilər.

Şəkli-Əlidə mütləq məri[2] olardı budi[3]
Ərzi-qəriyyə olsun, Rəbbüs-səma dürudi[4]
Orda yatan, ölən gün, cudü-səxavət[5] öldü
***
Xak ilə zər[6] Əlinin yeksan idi gözündə
Xəlq olmadı naziri, manəndi[7] yer üzündə
Hər xeyrə əmr edibdi mövcud idi özündə
Tapdı Əli şəhadət, cudü-səxavət öldü
***
Müstəcmiü-sifati-ziddeyn[8] idi o mövla
Mehrabidə duranda mir"ati-zöhdü-isar[9]
Meydani-rəzmigəhdə[10] şiri-süfufi-iycar
Şir öldü, sövlət[11] öldü, nami-şücaət[12] öldü
***
Başdan qılıclananda ol radmərdi-aləm
Oldu bu şeş cihatın[13] nəzmü-nizamı bərhəm[14]
Baş verdi sübhü-sadiq, kəşf oldu razi-mübhəm[15]
Azadəgi,[1] fütüvvət,[2] zöhdü-ibadət öldü

---

[1]əgər
[2]Görünən
[3]Vücudu
[4]Salamı
[5]Səxavət və ehsan
[6]Qızıl ilə torpaq
[7]Misli, tayı-bərabəri
[8]Bir-birinə zidd olan gözəl sifətlərə malik; yəni ehsan, bəxşiş, mehribanlıq, ibadət, səxavət və s. kimi Allah bəyənən sifətlərdə hamıdan qabaqda idi, həmçinin, Allahın bəyənmədiyi sifətlərdə, günahlarda özünü ən yaxşı qoruyan, beytül-malın məsrəfində ən çox diqqət yetirən, zalımlardan ən güclü surətdə intiqam alan, haqsızlıqla barışmaz vəs.
[9]Zöhd və fədakarlıq rəmzi
[10]Döyüş meydanında
[11]Heybət
[12]Şücaətin adı
[13]Yəni kainatın
[14]Pozulmuş
[15]Gizli sirrlər

***
Yerdən ucaldı ərşə fəryadi-va-Əliyya!
Bu səsləri eşitdi, Zeynəbi-Sitri-Ülya
Qaldı nə halə bilməm tövzihə yoxdu yara[3]
Səsləndi od üzündə mehrü-ütufət[4] öldü
***
Ağlar göz ilə gəldi, ərz etdi Müctəbayə
Övza[5] da münqəlibdir,[6] yer-göy gəlib nəvayə
Dur gör nədir bu səslər, nə gəldi Mürtəzayə?
Biz səs gəlir deyirlər: Şahi-vilayət öldü!

Behişt ki, eşidibsən, Əli vilayətidir[7]
Əli ədavəti duzəxdi,[8] besə darül-qərar[9]
Xuda cəhənnəmi xəlq eyləməzdi əhli-zəmin[10]
Göy əhli tək eləsəydi vilayətə iqrar
***
Xəlaiqin[11] əməlini vəzn edərlər[12] məhşərdə

---

[1]Azadlıq
[2]Comərdlik
[3]İzahata taqət yoxdur
[4]Mehr-məhəbbət
[5]Vəziyyət
[6]Pərişan
[7]"Vilayət" möminlərin dini və siyasi rəhbərliyi deməkdir, bu da islam dininin əsas sütunlarından biridir. Hər kəs "Bəqərə" surəsinin 124-cü ayəsində azacıq təfəkkür etsə, başa düşər ki, imamət məsələsi adi bir iş olmayıb əksinə, nübüvvətdən də yüksək bir məqamdır, çünki, Həzrəti İbrahim bütün imtahanlardan başıuca çıxıb Allahın yanında üzüağ olduqdan sonra Allah buyurdu ki, Mən səni imam təyin edirəm. əgər ümmətə rəhbərlik camaat tərəfindən seçilməklə olsaydı, onda Allah buyurardı ki, qoy camaat səni imam və rəhbər seçsin, halbuki, Allah buyurur ki, "Mən səni camaata imam seçdim." İbrahim (əleyhis-salam) soruşanda ki, mənim övladlarımdan da imam olacaqmı, Allah buyurdu ki, Mənim əhdim (imamət) zalımlara əsla yetişməz. Zalım isə "Loğman" surəsində buyurulduğu kimi, Allaha şərik qoşan şəxslərdir. əbubəkr, Ömər və Osman besətdən əvvəl şirk bataqlığında üzürdülər və müşriklərin başçıları idilər, halbuki, həzrət əlinin (əleyhis-salam) özündən əlavə, əcdadlarından da heç biri, bir an da olsun belə, müşrik olmamışlar.
[8]Cəhənnəm
[9]"Nə pis yerdir ora!"
[10]Yer əhli
[11]Məxluqatın
[12]Tərəzidə ölçərlər

Əli əməllərə mizandı, faili-muxtar[1]
Biri əgər səqəleynin[2] ibadətin gətirsə
Gedər cəhənnəmə–Əli həqqin eyləsə inkar!
***
Peyğəmbər ilə müvəhhid[3] qəbul edər tövhidi
Əli məhəbbəti möminlərə olub meyar
Əli əlaməti-imandır, miri-əhli-yəqin[4]
Əlidir ayineyi-Həyyü-Qadirü-Ğəffar
***
Əli adına zebəs[5] ruhumun əlaqəsi var
Başına dolannam, nə qədər ki ömrüm var
Fəna cahanda Əli 63 il ömr elədi
Bu 63 ili gördü çox əziyyətü-azar
***
Nə zəhmət ilə əziz ömrünü başa vurdu
Dilimdə yoxdu təvan, edəm təmami-izhar[6]
Keçəndə hicrəti-Tahadən ərbəinə sənə[7]
Əcəl piyaləsini etdi nuş Heydəri Kərrar

Allaha and olsun ki, hidayət sütunları dağıldı;
Təqva nişanələri məhv oldu,
Allahla insanlar arasında olan möhkəm ip–"ürvətül-vüsqa" naziklәşdi

## HƏZRƏTİ İMAM HƏSƏN (əleyhis-salam)-IN ŞƏHADƏTİ

İmam Həsən (əleyhis-salam)-ın müqəddəs vücudu möhkəm, alınmaz bir qala idi ki, şiələr canlarını onun pənahında hifz edirdilər. Müaviyənin o Həzrətin həyatda olduğu zaman faciə törətməyə, zülüm etməyə cürəti yox idi. Buna görə də onun

[1]İxtiyar sahibi
[2]İnsanların və cinnlərin
[3]Allahpərəst
[4]Yəqin əhlinin şahı
[5]O qədər
[6]İzharı tamam edim
[7]Peyğəmbərin vəfatından 40 il keçəndə

şiələri ilə yaxşı tərzdə rəftar edirdi. Belə ki, Əmirəl-mömin (əleyhis-salam)-ın dostları və şiələri Şama səfər edir, Müaviyə ilə qarşı-qarşıya durub öz söhbətləri ilə həqiqətlərin üstünü açmağa başlayırdılar.
Müaviyə İmam Həsən (əleyhis-salam) kimi böyük bir şəxsiyyətin müqabilində dizə çökdü, Həzrəti özü üçün böyük böyük bir sədd, maneə görüb bu fikrə düşdü ki, onu aradan götürsün. Əks halda heç vaxt özünün alçaq niyyətli əməllərini həyata keçirə bilməzdi. Məxsusən Müğeyrət ibni Şö”bənin təlimi ilə Yəzidin vəli-əhdlik məsələsi onu daha çox maraqlandırırdı. O, nəyin bacasına olursa olsun Bəni-üməyyə sülaləsinin napak, murdar səltənətini möhkəmlətmək istəyirdi.
Müaviyə Həzərti İmam Həsən (əleyhis-salam)-ın vücudundan çox qorxurdu. Çünki, sülhün şərtinə əsasən Müaviyə öldükdən sonra xilafət İmam Həsən (əleyhis-salam)-a çatmalı idi. O, bundan çox nigaran idi ki. O zaman İmam Həsən (əleyhis-salam)-ın 48, Müaviyənin isə 68 yaşı var idi. Buna görə də qərara gəldi ki, həzrəti zəhərləsin. Bu məqsədlə Həzrətin həyat yoldaşına (o, Əşəsin qızı idi) çoxlu pul vermək, onu oğlu Yəzidə almaq kimi yağlı vədələr verərək aldadıb İmam Həsən (əleyhis-salam)-ı zəhərləməyə məcbur etdi. Cödə bu işi gördükdən sonra Müaviyə pul verdi, amma onu Yəzidə almaq vədəsindən imtina edərək kinayə ilə dedi: “Mən oğlumun həyatına çox əhəmiyyət verirəm!”

**Göz aç bu hali zarə bax amandı Zeynəb**
**Dil oldu parə-parə bax amandı Zeynəb**

***

Dur indi bülbül ayrılır çəməndə güldən
Anam bacı göz aç gedir əzizün əldən
Dur eylə çarə, bu biqərarə
Tez al bacı can, məni kənarə

***

Bu qədri yatma aç gözün amandu bacı
Üzümə göz yaşım, nə gör rəvandu bacı
Sudan dolubdu ağzıma, nə qandu bacı?
Gedib qərarım, var intizarım
Dəxi əlimdə yox ixtiyarım

***

Sənə çətindü çox bacı, mənim fərağım
Kəsildi tabü-taqətim, dur ol dayağım
Alışdı səmmi zəhridən, dilim-dodağım
Bacı bu halə, dur eylə çarə
Bu sərvi-qəddim, dönüb hilalə

***

Solub səmumi zülmidən, gülüm çəməndə

Bu zəhr tabi qoymadı, dəxi bədəndə
Dilü-dəhanə qan dolur, nəfəs çəkəndə
Dur bax bu halə, nə növ"i zillət
Verib bu zarə bu bəd cəmaət
***
Nə vardu səbrü-taqətim, nə ixtiyarım
Düşüb dəxi o aləmə mənim güzarım
Gedibdü səmmi zəhridən, bacı qərarım
Dur ey həzinə, bu qövmi-kinə
Qoyubdu həsrət, bu məh cəbinə
***
Nəfəs kəsildi, xuni-dil gedibdü əzbəs
Nə vardu yarü-yavərim, nə vardu bir kəs
Oyan bu xabi-nazidən, səsimə ver səs
Çəkim bəyanə, qəmi-zəmanə
Dur bax bacı bir, ləbimdə qanə
***
Tükəndi ömrüm ey bacı, bu binəvayə
Tərəhhüm et, bu bikəsi yetir dəvayə
Çağırgilən Hüseynimi, gələ harayə
Gözüm qan ağlar, gələ o sərdar
Ola bu gündə, mənimlə qəmxar
***
Başuva qəmli bacı sən, qaramı bağla
Şərari dudi ahilə, cahanı dağla
Qəm etmə barı Tutiya, əzamı saxla
Qəm eylə təhrir, be hali dilgir
Qəmü-məlali, sən eylə təqrir

**Ey Müctəbanın qəm günü qəmxari Zeynəb (2)**
**Az qaldı solsun ömrümün gülzari Zeynəb (2)**
***
Od tutdu yandı zəhr ilə bu cismü-canım
Az qaldı dünyadən gedəm, ey mehribanım
Nazilə rahət yuxlama getdi təvanım[1]
Dur gör bu zülmilə solan rüxsari Zeynəb

---
[1]Qüdrətim

***
Dur ver xəbər qardaşlarım imdadə gəlsin
Yalqız Hüseynim baş açıb fəryadə gəlsin
Nəhr üstə ətşan can verən səqqa də gəlsin
Eylə xəbərdar İtrəti Əthari Zeynəb
***
Bir cür"ə su içdim bacı düşdüm əyaqdan
Dur sil bacı qan qətrəsin bu gül dodaqdan
Dəsti cəfa gül tək məni dərdi budaqdan
Qaldı bu zarın məhşərə didari[1] Zeynəb
***
Zəvvar uzaqdan həlqeyi matəm qurarlar
Gözlərdə yaş qəbrim kənarında durarlar
Öpsə mazarimdən biri qəmçi vurarlar
Göz yaşın eylərlər üzarə cari Zeynəb
***
Axər nəfəsdə eylərəm bacı vəsiyyət:
Nazın özüm tək Qasimin çək etmə qəflət
Kərbübəladə nuş edər cami şəhadət
Qanilə rüxsari olar gülnari Zeynəb
***
Məndən sonra gəlmə bacı şurü-nəvayə
Eylə zəxirə göz yaşın Kərbübəlayə
Düşmən vuranda Qasimin başın cidayə
Əşgilə doldur dideyi xunbari[2] Zeynəb
***
Narahət olma göz yaşın döndərmə seylə
Yandı vücudim qəlbimi yardırma beylə
Doğrandı əkbadım[3] bacı təşt hazır eylə
Ey bu cəhanda dərdü-qəm bimari Zeynəb
***
Ağlar "Kərimi" göz yaşın eylər rəvanə
Bəzmi əzadə Qumri tək başlar təranə
Bir etiqadiylə gəlib bu asitanə

---

[1] Görüşü
[2] Qanlı gözü
[3] Ciyərlərim

Ünvan edib bu yazdığı əş''arı Zeynəb

### *MƏHƏRRƏM AYI*

Məhərrəmdir, xanım Zeynəb əzası
Bizi səslir Hüseynin Kərbəlası
Daha zəvarinin yox səs-sədası
*******
**Bu gün kərbübəla viran olubdur,**
**Hüseyn öz qanına qəltan olubdur.**
*******
Çağır Şahi Nəcəf gəlsin haraya
Cihad ilə açaq yol Kərbəlayə.
Əlinin Zülfüqari dadə çatsın
Hüseyn qurbanları gəlsin Minayə.
**Bu gün kərbübəla viran olubdur,**
**Hüseyn öz qanına qəltan olubdur.**
*******
Cihad meydanıdır, millət dayansın
Müsəlman xabi-qəflətdən oyansın,
Ucalsın nə''reyi Allahu Əkbər,
Gərək kafər cəhənnəm içrə yansın.
*******
**Bu gün kərbübəla viran olubdur,**
**Hüseyn öz qanına qəltan olubdur.**
*******
Gəlib qeyrət günü, himət zəmani,
Ucaldaq başda Azərbaycani.
Gedək Səddam kafər ilə cihadə,
Yıxaq bu bimürvət ev yıxani.
*******
**Bu gün kərbübəla viran olubdur,**
**Hüseyn öz qanına qəltan olubdur.**
*******
Hüseyn zəvarinin qurtardı səbri,
Qıraq bu qurdları, kaftarı, bəbri.
Açaq yol Kərbəlaya, Kazimiyyə
Çəkək ağuşa o şeşguşə qəbri.
*******

**Bu gün kərbübəla viran olubdur,**
**Hüseyn öz qanına qəltan olubdur.**
***
Gərək din olmasa, dünyayi atmaq
Şərəf, izzətli bir dünya yaratmaq.
Səadətdir Hüseyn qurbanları tək
Şəhadətlə liqailləhə çatmaq.
***
**Bu gün kərbübəla viran olubdur,**
**Hüseyn öz qanına qəltan olubdur.**
***
Müsəlman səf çəkib də”vayə gəlsin,
Çağır Əbbasi tasuayə gəlsin
Qızı Zeynəb özü sahib əzadır,
Çağır Zəhrani Aşurayə gəlsin.
***
**Bu gün kərbübəla viran olubdur,**
**Hüseyn öz qanına qəltan olubdur.**
***
Ana! Oğlun şəhid oldu, mübarək
Şəhadətlə səid oldu, mübarək
Ümid çətin tapdın da səndən
Cəhənnəm naümid oldu, mübarək.

:
İMAM HÜSEYN ƏLEYHİSSALAMIN ŞƏHADƏTİ
“Həqiqətən İslamın meydana gəlməsi Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) ilə, qalıb davam etməsi isə Hüseyn (əleyhis-salam) ilədir.”
İmam Hüseyn (əleyhis-salam) buyurur: “Əgər Mühəmməd (əleyhis-salam)-ın dini mənim qətlimdən başqa bir şeylə qalmazsa, onda ey qılınclar, tutun məni!”
Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) İmam Hüseyn (əleyhis-salam)-ın şəhadəti barəsində belə buyurmuşdur: “Həqiqətən İmam Hüseyn (əleyhis-salam)-ın şəhid olması ilə möminlərin qəlbinə bir iman odu–hərarət düşər ki, bu da heç vaxt sönməz.”
İmam Rza əleyhis-salam buyurmuşdur: “Ey Rəyyan, əgər bir faciə üçün ağlamalı olsan, Əlinin oğlu Hüseyn ücün də ağla, çünki əməvilərin əli ilə o həzrətin başını qoçun başını kəsən kimi kəsdilər və onunla birlikdə İmamın əhli-beytindən 18 nəfər şəhadətə yetirildi.”

İmam əleyhis-salam belə buyurdu: “Ey Aşuranın yasını saxlayanlar, əgər bilsəydiniz ki Allah-Taala sizin saxladığınız yasın əvəzində sizin üçün nə qədər nemətlər hazırlayıb, sevinciniz kədərinizdən çox olardı.”
İmam əleyhis-salam buyurub: “Hər kəs Hüseynə ağlasa, yaxud başqasını ağlatsa və yaxud başqaları ilə birlikdə Hüseynin yasını saxlasa, behişt ona vacib olar.”
İmam Riza əleyhis-salam buyurdu: “Hər kəs Hüseynə ağlasa və yaxud düşmənlərimizin biz Əhli-beytə qarşı etdikləri müsibətləri danışaraq başqalarını ağlatsa, Allah-Taala onu qiyamət günündə bizimlə birlikdə (bizim zümrəmizdə) məhşur edəcəkdir.”
İmam Hüseyn (əleyhis-salam) şəhid olduqdan sonra o həzrətin kəsik boğazından belə bir səs eşidildi: “Ey mənim şiələrim, hər vaxt sərin su içsəniz, məni yada salın; bir şəhiddən, yaxud qəribdən söz düşəndə məni yada salıb ağlayın.”
“Həqiqətən Hüseyn hidayət çırağı, nəcat gəmisidir.” İbni Həcər başqa bir yerdə belə bir hekayət nəql etmişdir. Cəbrəil Peyğəmləri Əkrəmə xəbər evrdi ki, sənin ümmətin onun öldürəcəklər
Peyğəmbər (səlləllahu əleyhi və alihi və sælləm) dedi: Mənim övladımı?
Cəbrail cavab verdi: Bəli sizin övladınızı və əgər istəyirsən onu şəhid olduğu ölkəni sizə göstərim. Sonra Tiff (Kərbəlanın başqa bir adıdır) diyarına işarə etdi, və oradan qırmızı rəngli türbət gətirdi və Rəsuli Əkrəmə göstərib dedi: Bu torpaq sənin övladın olan Hüseyn (əleyhis-salam)-ın şəhadət olnduğu yerin torpağıdır.
Bu qəbildən çoxlu rəvayətlərdən sünnü qardaşların Səhih və başqa sənədlərində gəlmişdir, və aşkar şəkildə elan edirki Kərbəla diyarı Rəsulullahın nəzərindən Əmirəl-möminin və islam hədisçiləri nəzərində məşhəd (şəhadət yeri sırasındadır və ehtirama layiqdir. buranın pak və mütəhhər türbəti imtiyazlara malikdir.) İslamın başqa rəvayətlərdə gəlmişdir ki, Peyğəmbər əkrəm Kərbəla torpağını iyləyən zaman sonra o, müqqəddəs torpağa göz yaşı axıtdı və buyurdu: Xoş olsun onun türbətin halına

## MƏHƏMMƏD HƏNƏFİYYƏ İMAM HÜSEYN (əleyhis-salam)-IN HÜZURUNDA

İmam Sadiq (əleyhis-salam) buyurmuşdur: “İmam Hüseyn (əleyhis-salam) Kufəyə yola düşmək istədiyi gecə Məhəmməd Hənəfiyyə o həzrətin hüzuruna gəlib dedi: “Qardaş, sən əvvəllər Kufə əhalisinin atamıza və qardaşımıza qarşı etdikləri məkr və hiyləni görmüsən. Qorxuram sənə də qarşı belə etsinlər. Əgər Məkkədə, Allahın əmin-amanlıq hərəmində qalsan, hörmətli, əziz olacaqsan. Məkkədə heç kimin səninlə işi olmaz.
İmam (əleyhis-salam) buyurdu: –Qorxuram ki, Yezid məni elə Məkkədə şəhid etsin, buna görə də istəmirəm ki, mənə görə Kəbə hərəmində hörmətsizlik olsun.

Məhəmməd dedi: –Belə isə Yəmənə, yaxud da səhralara get, bu halda heç kim səni tapa bilməz.
İmam (əleyhis-salam) buyurdu: –Gərək bu barədə fikirləşəm.
Səhər açılanda həzrət buyurdu: –Dəvələri yükləyin.
Bu xəbər Məhəmməd Hənəfiyyəyə çatanda taqətsiz halda gəlib, qardaşının dəvəsinin yüyənindən yapışaraq dedi: –Qardaş, mənə söz vermişdin ki, bu iş barəsində fikirləşəsən, bəs nə üçün bu tezlikdə səfərə çıxırsan?
İmam (əleyhis-salam) buyurdu: –Sən gedəndən sonra Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm) mənim yanıma gəlib, buyurdu: "Ey Hüseyn, (Məkkədən) çölə çıx, Allah istəyir ki, səni Öz yolunda öldürülmüş halda görsün."
Məhəmməd Hənəfiyyə dedi: –İndi ki, bu məqsədlə gedirsən, onda əhli-əyalı niyə özünlə aparırsan?
Həzrət (əleyhis-salam) buyurdu: –Allah istəyir ki, onları əsir olmuş halda görsün.
Məhəmməd Hənəfiyyə ağlar halda İmam (əleyhis-salam)-la vidalaşıb qayıtdı.
Həmzət ibni Ə"yən İmam Sadiq (əleyhis-salam)-dan soruşdu: "İmam Hüseyn (əleyhis-salam) İraqa tərəf yola düşəndə, hansı səbəbə görə Məhəmməd Hənəfiyyə ondan ayrıldı?
İmam Sadiq (əleyhis-salam) buyurdu: "Mən sənə bir söz deyim, daha bu barədə heç nə soruşma: İmam Hüseyn (əleyhis-salam) İraqa yola düşərkən, bir kağızda belə yazdı: "Bismillahir rəhmanir rəhim. Bu məktub Hüseyn ibni Əlidən Haşim övladlarınadır, (bilin ki) həqiqətən hər kəs mənə qoşulsa, şəhid olacaq, hər kəs də məndən ayrılsa, nicat tapmayacaq. vəssalam.[1]"

## ÜMMÜ SƏLƏMƏ İMAM HÜSEYN (əleyhis-salam)-IN HÜZURUNDA

İmam (əleyhis-salam) hərəkətə başlamazdan əvvəl, Ümmü-Sələmə (Peyğəmbərin arvadı) onunla görüşüb ona dedi: –Ey Peyğəmbərin nəvəsi, İraqa tərəf yola düşmək barədə qəm-qüssə yemə. Mən sənin cəddin Peyğəmbərdən eşitmişəm ki, buyururdu: "Oğlum Hüseyn İraqda, Kərbəla adlı bir yerdə şəhadətə çatacaqdır." Mən şüşədə sənin qətlgahının pak türbətindən bir ovuc saxlamışam. Onu Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm) mənə vermişdi.
İmam Hüseyn (əleyhis-salam) buyurdu: –Mehriban ana! Mən bilirəm ki, öldürüləcəyəm və düşmənlər zülm ilə başımı bədənimdən ayıracaqlar. Allah istəmişdir ki, mənim ailəmi qovulan halda, uşaqlarımı öldürülmüş, ya əsirlik zəncirlərinə giriftar olan halda, zülm zəncirləri ilə dartılıb aparılaraq ondan-bundan pənah axtarıb heç bir sığınacaq tapmadıqları halda görsün.
Ümmü-Sələmə heyrətlə soruşdu: –Əcəb! Öz ölümün barədə yəqinin olan halda, necə İraqa yola düşürsən?

[1]"Kamilüz-ziyarət", (İbni buləveyh)

İmam (əleyhis-salam) buyurdu: –Anacan! Əgər bu gün getməsəm, sabah getməliyəm və əgər sabah getməsəm, gərək birisi gün gedəm. Ölümdən qaçıb qurtarmaq mümkündürmü?
Allaha and olsun, mən şəhadətə çatdığım günü, dəqiqəni, dəfn olunduğum yeri görürəm və bu məsələ barədə səni tanıdığım qədər agahlığım vardır. Kərbəla diyarına sənə baxdığım kimi baxıram. Ana, əgər istəyirsənsə, özümün və dostlarımın yerini sənə göstərim.
Ümmü-Sələmə bunları görmək istədiyini bildirdi, İmam (əleyhis-salam) da özünün və dostlarının məzarını ona göstərdi.[1] Sonra öz pak türbətindən bir az götürüb, Ümmü-Sələməyə verib buyurdu: –Bunu şüşədə saxla, hər vaxt qana dönsə, bil ki, mən şəhadətə çatmışam.
Aşura günü günortadan sonra Ümmü-Sələmə gördü ki, hər iki şüşədəki türbət qana dönmüşdür[2].

İMAM HÜSEYN (əleyhis-salam)IN ŞƏHADƏTİ

**Saldı Hüseyn cəhanə, qovğayi inqilabi (2)**
**Qaniylə etdi rəngin, simayi inqilabi (2)**
***
Tərk etdi həsrət ilə, Peyğəmbərin məzarin
Həm qəbri Müctəbanı, həm Fatimə kənarın
Üz qoydu Kərbəlayə, tərk etdi öz diyarın
Ta gəldi məskən etdi, səhrayi inqilabi
***
Gördü Yezidi tutmur, Allahı heç nəzərdə
Ehsas edibdi Quran, var mərəzi xətərdə[3]
Musayi dəhri[4] getdi, Firon ilə nəbərdə[5]
Doldurdi cilvəsindən simayi iinqilabi
***
Səhrayi Kərbəladə, bərpa edib xəyamın[6]
Yetmiş nəfər mücahid, dövrün alıb İmamın

---
[1]Mədinətül-nəaciz, səh 244.
[2]Xəramcü Rarəndi, "Hüseynin möcüzələrzi" qəsli.
[3]Təhlükədə
[4]Dövrün Musası
[5]Döyüş
[6]Xeymələrin

Bir-bir dedi o qövmə, bərnameyi qiyamın[1]
İçirtdi Əhli-Beytə şəhdayi inqilabi
***
Ərz eylədi İlahi, tövfiqi ver Hüseynə
Yetmiş iki fədani, qurban verim bu dinə
Üz Kəbədən çevirdim, gəldim bu sərzəminə[2]
Ta bildirəm cəhanə, mənayi inqilabi
***
Mən etmişəm iradə, səhrayi Kərbəlada
Quranü-din yolunda, başım gəzə cidadə
Ya səbri ver Hüseynə, hər möhnətü-bəladə
Ya tez çıxart başımdan sövdayi inqilabi
***
Mülkü-əyalü-malım, yeksər Sənindir ya Rəb
Əbbasü-Ovnü-Fəzlü, Cəfər Sənindir ya Rəb
Qasim, Əliyyi Əkbər, Əsğər Sənindir ya Rəb
Cəm etmişəm bu dəştə şurayi inqilabı
***
Bilməz Bəni-üməyyə, Quran nədir İlahi
Quran müqabilində baş-can nədir İlahi
Cananə candan artıq, Quran nədir İlahi
Qandan yazar mücahid suğrayi inqilabi
***
Əl verməm Yezidə, düşə əlim biləkdən
Mümkün deyil İlahi, eşqin çıxa ürəkdən
Sancılsa ox ürəkdən, rədd eylərəm[3] kürəkdən
Balinimə[4] gətirrəm, Zəhrayi inqilabi
***
Mən varisi Xəliləm, bu Kərbəla Minadi
Zinət verən bu dəştə yetmiş iki fədadi
Bu sərzəmin Hüseynə, çoxdandı aşinadi
Gözlərdi xəlq olandan mövlayi inqilabi
***

---

[1]Qiyam proqramını
[2]Diyara
[3]Çıxararam
[4]Başımın üstünə

Ağlar "Kərimi" daim, saxlar əza Hüseynə
Növhə deyər sızıldar sübhü-məsa[1] Hüseynə
Hətmən keçər günahın yeksər Xuda Hüseynə
Var təb"i atəşini şivayi inqilabı[2]

QURAN OXU SƏN

**Quran oxu sən, natiqi Quransan Hüseynim**
**Bilsin hamı Quranivə qurbansan Hüseynim**
***
Aramımı aldı sitəmi əhli nifaqın
Amma bu keçən şəblərə sər saldı fəraqın
Çox başüvə müştaq idim dil əfsus saraldın
Tutsun dedilər Xuliyə mehmansan Hüseynim
***
Gəl nizədə Quran oxu sən, surəbəsurə
Gah döndərirsə**n** mətbəxi Musa kimi nurə
Gahi qoyursan gül üzivi künci tənurə
Gah nuki cidadə məhi tabansan Hüseynim
***
Qol bağlı çəkərlər məni hər şəhrü-diyarə
Hər yerdə vurarlar yaralı başivə yarə
Çarəm kəsilib eylə Hüseyn, dərdimə çarə
Biçarələrin dərdinə dərmansan Hüseynim
***
Allah Özü rüsva eləsin ibni Ziyadı
Övladi Rəsulə qoyub o xarici adi
Başun qabağıyca çöküri qari Minadı
Quran oxu bilsinlər müsəlmansan Hüseynim
***
Gər versələr başın öpərəm bir də üzündən
Silləm o tənurun külünü qanlı gözündən
Xuli eliyən zülmü xəbər allam özündən
Ehsas edərəm hali pərişansan Hüseynim
***
Ol dad edirəm var bacuvin bəndi tənabı
Ya Şümri vuran qəmçilərin çoxdu əzabı

---

[1]Sübh-axşam
[2]İnqilabın atəşin və gözəl təbi

Amma deyirəm Zeynəbivin çoxdu əzabı
Sən peykəri, ya qeyrəti Yəzdansan[1] Hüseynim
***
Mən şahi vilayət qızıyam duxti Əliyəm
İsmətdə nümayəndeyi Zəhrayi Bətuləm
Bu zülmi cəfadəndən Hüseyn cani məluləm
Mən naqədə, sən nizədə nalansan Hüseynim
***
Ey kaş, anam Fatimə gəlsin bu diyarə
Etsin özü öz bəslədiyi barə nəzarə
Başüvə rəvadır vuralar bir belə yarə
Gülşəndə solan gül kimi xəndansan Hüseynim
***
Bax gör necə bir halı pərişandı Ruqəyyə
Zəcri sitəmi cövridə odlandı Ruqəyyə
Həm xəstədi, həm acdı, həm ətşandı Ruqəyyə
Al könlünü, qəmxari yetimansan Hüseynim
***
Qardaş bu həmən şəhridi Zeynəb sənə qurban
Hər övrətin halını soruşdum məni nalan
Bir ömri oleydi mənə fəxriyyə sənə xan
İndi mənim əhvalimə giryansan Hüseyim
***
Asi "Kərimi"nin əli boşdur üzü qarə
İstər gələ bir ol şeş guşə məzarə
Bəlkə gələ qəbrindən ala dərdinə çarə
Məhşər günü sən şafei üsyansan Hüseynim

Qurani Kərim buyurur: "Hər kəs məzlumcasına qətlə yetirilsə, Biz onun üçün vəli (intiqamçı, qisasçı) qərar verərik və o da qisas hökmündə israfçılıq etməsin, həddi aşmasın. Həqiqətən o, (qətlə yetirilən) nüstətə yetmişdir." Bəni üməyyə İmam Hüseyni zülm ilə qətlə yetirdi, amma hələ də onun qisası alınmayıb. Hədislərdə var ki, onun, həmçinin Xanım Fatimənin intiqamını İmam Zaman (əleyhis-salam) zühur edib kafirlərdən alacaqdır.

HƏZRƏT İMAM HÜSEYN (əleyhis-salam)-ın ŞƏHADƏTİ
Dəftəri imtəhanidə[1] kəlmeyi-ibtida[2] Hüseyn

---

[1]Allahın qeyrəti

Pirəhəni-bəla[3] geyib zinəti-övliya[4] Hüseyn
Məş"əli-səbri[5] yandırıb fövci-bəlanı[6] sındırıb
Gəldi dilə bəla özü söylədi: mərhəba Hüseyn!
***
Ərseyi-Kərbəladə[7] çün açdı bəla büsatini
Böldü ayırdı nurilən zülmətin ixtilatini[8]
Pozdu, dağıtdı zalimin süfreyi-inbisatini[9]
Məsdəri-hökmə[10] müstəqim[11] artırıb irtibatini[12]
Ta ki vəfayi-əhdinə Həqdən ala riza[13] Hüseyn
***
Ləm"əbələm"ə[14] nur enir Musiye-əsr-Turinə[15]
Mülhəq olur[16] o nurilər yerdə Hüseyn nurinə
Əhli-səma nüzul edər[17] zibhi-əzim[18] hüzurinə
Də"vət edərlər Həzrəti Həzrətin öz qüsulinə
Mənsəbi-iftixar edər hər birinə əta Hüseyn
***
Saxlayıb əldə kufiyan[19] deşnələri[1], bıçaqları

---

[1]İmtahan dəftərində
[2]İlk söz, ilk kəlmə
[3]Bəla köynəyi
[4]Allah dostlarının zinəti
[5]Səbir məş"əlini
[6]Bəla dalğasını
[7]Kərbəla çölündə
[8]Zülmətin qarışıqlığını
[9]Açılmış süfrəsini
[10]Hökm çıxarılan yer
[11]Birbaşa
[12]əlaqəsini, rabitəsini
[13]Razılıq
[14]Dəstə-dəstə
[15]əsrin Musasının Tur dağına
[16]Qovuşur, birləşir
[17]Enər, nazil olar
[18]Böyük, əzəmətli bir qurbanlıq
[19]Kufəlilər

Ruyi-həvadə[2] səf çəkib göydən enən qonaqları
Xeymə səradə müntəzir[3] Fatimənin uşaqları
Tayifeyi-əcinnənin[4] qeybidə ağlamaqları
Doldurub hər tərəfdən ol dəşti sədayi "ya Hüseyn!"
***
Mahi-məhərrəmin[5] onu yovmi əzayi aşiqan[6]
Gün tutulub həva dönüb qara yel əsdi yağdı qan
Dağ-daşa düşdü zəlzələ, gəldi təlatümə cahan
Verdi yer əhlinə xəbər hatifi-qeybi[7] nagəhan[8]
Sübbiğə biddima Hüseyn qütilə bi Kərbəla Hüseyn[9]
***
Nə"şi İmam idi gərək həml olunaydı[10] göylərə
Ta ki yetəydi ərşidə rö"yəti-Həyyi-Davərə[11]
Sadir olaydı izni-Həqq dəfnə o pak peykərə[12]
Gördü müqəttəat[13] olub cismi-Hüseyn düşüb yerə
Hökm yetişdi olmaram gəlməyivə riza Hüseyn
***
Nuri-cəmali-Kibriya,[14] açdı niqabi-təl"əti[15]
Qıldı əhatə-məqtəli[16] Kə"beyi-mənəviyyəti

---

[1]Xəncərləri
[2]Havanın səthində, havada
[3]Hazır
[4]Cin tayasının
[5]Məhərrəm ayının
[6]Hüseyn aşiqlərinin matəm günü
[7]Qeybdən gələn səs
[8]Gözlənilmədən
[9]Qanına qəltan oldu Hüseyn, Kərbəladə qətlə yetirildi Hüseyn
[10]Aparılaydı
[11]Allahın görüşünə
[12]O pak bədənin dəfninə izn veriləydi
[13]Tikə-tikə
[14]Allahın cəmalının nuru
[15]Parlaq pərdəni
[16]Qətlgahı əhatə etdi

Ruhi-müqəddəsi-Hüseyn tapdı liqayi-vəhdəti[1]
Zati-Rəhimidən ələ aldı çirağı-rəhməti
Sahəti-rəhmətiyyədən[2] dərk elədi nida Hüseyn
SƏS GƏLDİ:
Mən bilirəm ki, şadisən, qərqi-bəliyyəsən[3] Hüseyn
Xətmi-Rəsulidən mənə töhfə hədiyyəsən Hüseyn
Nəfsi-zəkiyyəsən[4] Hüseyn, əbdi-rəziyyəsən[5] Hüseyn
Layiqi-təxtü-pərçəmü, taci-əliyyəsən[6] Hüseyn
Ruzi-cəza[7] başında var əfzəli-xunbəha[8] Hüseyn
***
Gərçi bu mərdümi-şəqi[9] sındırıb ehtiramuvi
Müntəqimi-həqiqiyəm[10] hifz edərəm məqamuvi
Allam özüm bu qövmidən həşridə intiqamuvi
Bəxş edərəm mühibbivi xadimivi qulamuvi
Yazdığın əhdnamənin həqqi olar əda Hüseyn
***
Canını bəzli-yar[11] edib çıxdı Hüseyn fəraqətə
Qanını tutdu Cəbrəil, şişeyi-səbzi-Cənnətə[12]
Ərşidə verdi şişəni xazini-gənci-rəhmətə[13]
Rəhməti-Həqq o şişədən tabiş edər[14] qiyamətə
Möhrü-münəvvəri[1] onun "şafeü-mən bəka-Hüseyn"[2]

---

[1]Allahla görüşdü
[2]Rəhmət (Allah) tərəfindən
[3]Bəlalara, imtahanlara qərqsən
[4]Pak bir nəfs, ruh
[5]Rəbbindən razı olan bəndə
[6]Taxt-taca layiq, yüksək məqamlı
[7]Qiyamətdə
[8]ən gözəl qan bahası
[9]Alçaq və bədbəxt camaat
[10]Həqiqi intiqamçı
[11]Canını yara (Allaha) bəxşiş edib
[12]Yaşıl Cənnət şüşəsinə
[13]Rəhmət xəzinəsinin xəzinədarına
[14]Saçar

***
Xeymeyi-Ümmü-Məbədə[3] Xətmi-rüsul edib güzər[4]
Aldı namaza dəstəmaz həzrəti-Seyyidül-bəşər
Orda dirəxti-ovsəcə[5] var idi xüşkü-bi səmər[6]
Abi-vüzu[7] ilən onun rişəsini edibdi tər[8]
Batini bir nəzər salıb cəddi-kərəm nəma Hüseyn[9]
***
Gördülər ol dirəxti çün mənəvi bağiban əkib
Rişə atıb qəvilənib[10] qəddi sipehrə baş töküb
Yarpaq açıb budaqların bərgi-zümürrüdə[11] büküb
Şaxələrində gül açıb miyveyi-sorxqun[12] töküb
Bərgilərində nəqş olub: "ya mətərəssəfa Hüseyn"[13]
***
Ay keçib, il keçib neçə müddəti, ruzigar olub
Əhli-qəbilə meyvəvü-sayədə kamkar olub[14]
Bir günü gördülər ağac, yeksərə tar-mar olub
Şaxələrində qan damar, yarpağı ləkkədar[15] olub
Meyvələri solub düşər, səslənir yerdə va Hüseyn!
***
Tünd yel əsdi, sındırıb rişəvü-qol-budağını
Parçalıyıb səpib çölə kəlləsini, ayağını

---

[1]İşıqlı möhürü
[2]"Hüseynə ağlayana şəfaətçidir"
[3]Ümmü-Məbədin xeyməsinə
[4]Yolunu saldı
[5]Quru bir ağac
[6]Quru və səmərəsiz
[7]Dəstəmaz suyu ilə
[8]Ağacın kökünü yaş etdi
[9]Hüseynin kəramətli cəddi
[10]Kök atıb güclənib
[11]Zümrüd rəngli yarpaqlar
[12]Qırmızı meyvələr
[13]"Ey səfa, rəhmət yağışı, Hüseyn"
[14]Bəhrələnib
[15]Ləkəli

Gəldi sədayi səhngin[1], titrədib ərşi taqini:
“Fatimənin əzizinin pozdular ittifaqini
Oldu həmin dirəxti tək xeymələri fəna Hüseyn”
***
Əhli qəbilə hər gecə sübhə kimi həzin-həzin
Orda eşitdilər neçə möhtərəm övrətin səsin
Zəccə[2] çəkib deyərdilər: vay bala vay Hüseyn Hüseyn!
Cinnü-pəri o məclisin cəm”ən oxurdu növhəsin
Koşteyi-əşqiya[3] Hüseyn, vay gülü-Müstəfa Hüseyn
***
Ravi[4] deyir o gün Hüseyn, qətlə yetən zəman idi
Beyti-Müqəddəsin çölü tirə qara[5] duman idi
Hər ağacın kolun dibi, rişəsi ləxtə qan idi
Hər daşın altda çeşmə tək qırmızı qan rəvan idi
Qətrələri yazıb yerə “qüslühü-biddima”[6] Hüseyn
***
Dəfni Hüseynə gəldilər qövmi Əsəd qəbilədən
Ərz elədilər Seyyidi Sacidə: ey şəhi zəman:
İsti su hazır etmişik, sidrü-hənutü-ağ kəfən
Qüslün edək icazə ver, dəfn ola nəhr olan[7] bədən
Gün qabağında qalmasın bundan əlavə ta Hüseyn
***
Əhli qəbiləyə dedi, varisi-Seyyidül-bəşər:[8]
Axı evdə vəfat edib məgər, bu yaralı cənazələr?
Qüsl olunub kəfən geyə, tibqi-rüsumi sərbəsər?[9]
Siz görürsüz ki doğranıb qanə olublar qutəvər[10]

---

[1]Dəhşətli, qorxunc
[2]Nalə, fəğan
[3]Qansızların öldürdüyü
[4]Rəvayəti nəql edən, rəvayətçi
[5]Qaranlıq, qara
[6]“Qüslü qan ilədir”
[7]Doğranan
[8]Peyğəmbərin varisi
[9]Qayda-qanuna tamamilə uyğun olaraq
[10]Qana batıbdır

Bu dağılan bədənləri Həqqə verib fəda Hüseyn
***
Ağ kəfən istəməz, bu yer Kərbübəla diyarıdır
Sərvəri-əhli-cənnətin, cənnətinin baharıdır
Sinələr üstə yarələr gülşəni-ətr-baridir[1]
Qüslləri, kəfənləri qandı, çölün qübarıdır
Qırmızı ləxtədən geyib, peykərinə[2] qəba[3] Hüseyn
***
Qışda ki qar yağar yerə, torpaq olar sefid qar[4]
Meyyitə bənzəyər hamı, dərrəvü-dəştü-kuhsar[5]
Yeksərə ağ kəfən geyər, bağü-derəxtü-nəxlizar[6]
Sakitü-bi səda qalar, müntəzirani-nobahar[7]
Misli həmin bəhari ki orda edib bina Hüseyn[8]
***
Əhli qəbilə bu gecə, getməyin istirahətə

---

[1]ətirli gülşən

[2]Bədəninə

[3]Bir növ paltar növüdür

[4]Ağ

[4]Dərələr, dağlar, səhralar

[5]Dərələr, səhralar, dağlar

[6]Bağlar, ağaclar, xurmalar

[7]Təzə baharın intizarını çəkənlər

[8]Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in vəfatından sonra ümmətin qəflətinə işarədir. Həzrəti Fatimə əleyha səlamı zülmilə qətlə yetirdilər, səsini çıxaran olmadı, Həzrət əli əleyhissalamı qətlə yetirdilər, danışan olmadı, üstəlik məlun Müaviyə o həzrətin əleyhinə o qədər zəhərli təbliğat aparmışdı ki, Şam əhalisi eşidəndə ki, Həzrəti əli əleyhissalamı məsciddə öldürüblər, təəccüblə soruşdular ki, əlinin məsciddə nə işi vardı, məgər o namaz qılırdımı?! İmam Həsən əleyhissalamı zəhərləyib şəhadətə yetirdilər. Müaviyə Quranın buyurduğu “xəbis sülalədən olduğu və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in bu sülalənin xilafət üçün ləyaqətsiz olduğunu bəyan etdiyi halda, Ömər tərəfindən Şama vali təyin edildi, Osman da onun yerini möhkəmlətdi. Müaviyə kafir olmasına baxmayaraq, zahirdə dini qayda-qanunlara ciddi şəkildə riayət edir, hətta gecə namazını belə, tərk etmirdi. Camaatı da bu kimi təzahürlərlə aldadır, qəflətdən ayılmağa qoymurdu. Amma məlun Yezid atasının yerinə xilafətə gələndə, aşkar surətdə islam qanunlarını tapdalamağa, pozmağa, təhqir etməyə başladı. O, xilafəti dövründə 3 böyük cinayət törətdi ki, onlardan biri İmam Hüseyn əleyhissalamı qətlə yetirməsi idi. Məhz bu cinayətdən sonra qəflət pərdələri yırtıldı, islam ümməti ayıldı. Onlarla il sürən islam ümmətinin qəflətini şair qışa, donuqluğa bənzətmişdir, sanki hamı nəsə böyük bir hadisənin baş verməsini gözləyirdi. İmam Hüseyn əleyhissalamın qızıl qanı donuşluqları açdı, ümmətə hakim olan qışı bahara çevirdi.

Diqqət ilə baxın görün, kimdi gələn ziyarətə
Qəbriləri təvaf edib növhə deyən cəmaətə?
–Cəddi, atası, qardaşı su səpəcək bu türbətə
Səslənəcəkdi madəri Fatimə, vay balam Hüseyn!
***
Yandı bəhari Müstəfa, düşdü oda bəharələr[1]
Gün batıb, asimanidə oldu əyan sitarələr[2]
Parə çadırda gizlənib yatdılar mahi-parələr
Qarə qəfəsdə həbs olub qarə geyən qənarilər[3]
Nəğmələri ürəkdə var: koştiye-əşqiya Hüseyn![4]
***
Yatdı qoşun, kəsildi səs, sayə çəkildi dövrədən
Çıxdı Ruqəyyə xaricə, nisfi şikəstə[5] xeymədən
Başı açıq, ayaq yalın, caməsi[6] köhnə pirəhən[7]
Qətligəhə tərəf qaçır, yel kimi titrəyir bədən
Hər qədəm ağlıyır deyir: hardasan ay baba Hüseyn?
***
Guşeyi-qətligahidən nagəh eşitdi bir səda:
Gəzmə bu qanlı ərsəni[8], sinəmin üstə gəl bala
Cəzb edib aşinasını ləhni-sədayi-aşina[9]
Xaneyi-eşqidən işıq sate olurdu bərməla[10]
Oldu çırağі-nur ilən ol qıza rahnəma[11] Hüseyn?
***
Tapdı nişani-nur ilən məqtəl ara[12] babasını

---

[1]Ay üzlülər
[2]Ulduzlar
[3]Bülbül növüdür
[4]Bədbəxt millətin öldürdüyü
[5]Yarısı dağılmış
[6]Paltarı
[7]Köynək
[8]Çölü
[9]Tanış səs
[10]Gur işıq saçılırdı
[11]Yolgöstərən
[12]Qətlgahda

Gördü çuxur məkanidə qan bürüyüb yarasını
Açdı yaralı şəh iki bazuyi-həqnəmasını[1]
Sinəsinə yapışdırıb doxtəri-binəvasını[2]
Nisgil ilə dedi o qız: canüvə mən fəda Hüseyn!
***
Harda idin qoşun gəlib xeyməni yandıran zaman
At qabağında qızları çöldə dolandıran zaman
Məcərü-guşivarədən[3] ötrü qovub yoran zaman
Rəxtimizi[4] soyan zaman, qəmçi ilə vuran zaman
Vermədin, eylərəm giley, naləmizə səda Hüseyn
***
Bir də məriz[5] qardaşım od tutub odlanan zaman
Vurdu bibim özün oda, xeymə alovlanan zaman
Damənin od tutub mənim şö"lə çəkib yanan zaman
Əmmələrim, anam, bacım qol-qola bağlanan zaman
Səs niyə vermədin hamı səslədi onda "ya Hüseyn!"
***
Etmə Ruqəyyə can giley, mən niyə dadə gəlmədim
Qərq idi xakü-xunidə[6] nə"şim aradə gəlmədim
Köynəyimi apardılar, sinə qoşadə[7] gəlmədim
Nazir idim o halizə nuki-cidadə[8] gəlmədim
Fikr eləmə Dəməşqəcən sizdən ola cüda[9] Hüseyn
***
Qovzanıb istədim gələm, atlar ayağı qoymadı
Tutdu məni çuxur yerin qanlı qucağı qoymadı
Qəlbidə növcavanımın suzişi-dağı[1] qoymadı

---

[1]Haqqı göstərən biləklər, qollar
[2]Binəva qızını
[3]Örtük və sırğa
[4]Qiymətli paltarlarımızı
[5]Xəstə; Kərbəlada Allah təala imamətin ardı kəsilməsin deyə, İmam Səccad əleyhissalamı xəstələndirməklə diri saxladı
[6]Torpaq və qan
[7]Açıq
[8]Nizə ucunda
[9]Ayrı

Nizə, qılıc sınıqları, kəsdi qabağı qoymadı
Oldu bu seyri-rahidə[2] manei-mübtəla[3] Hüseyn
***
İndi öpüm icazə ver surəti-şəms-təl"əti[4]
Sən də müqabilində qoy, surətimə o surəti
Çək o mübarək əllərin başıma qıl məhəbbəti
Pak elə zülfümün tozun, sən bil anamın hörməti
Ta bu yetimə doxtərin xatiri xoş ola Hüseyn
***
Yoxdu başım Ruqəyyə can, ta öpəsən cəmalimi
Ya ki qoyam o surətə surəti por məlalimi[5]
Yoxdu bədəndə əllərim gör bu şikəstə halimi
Başuvə əl çəkib siləm, zülfü-çəmən misalini[6]
Yoxsa edərdi xahişin, şövqilə cabeca[7] Hüseyn
***
Yatma bu qanlı sinədə, dur, bala get, Ruqəyyə can
Əmmələrin gəzir çölü, sinə xəraşü[8] bağrı qan
Ərsədə rəddi-payuvi[9] dərk edib axtarır nişan
Gör necə səs gəlir, deyir: nazlı Ruqəyyəm hardasan?
Bir də deyirlər qıl kömək, bizlərə ya əxa Hüseyn!
***
Ey yaralı Hüseynimə doxtəri-nazidanə[10] gəl
Başı bəlalı bülbülüm, boş qalıb aşiyanə[11] gəl
Bu gecə aləmi səni saldı çölə zəmanə gəl
Ləl kimi boyanmısan başdan-ayağə qanə gəl

---

[1]Yandırıcı dağı
[2]Yol boyunda
[3]Mübtəla edən maneələr
[4]Günəş kimi parlayan surət, üz
[5]əzab-əziyyət görmüş surət
[6]Çəmənə bənzər zülf
[7]Yerbəyer
[8]Sinə dağlı
[9]Ayaq izlərini
[10]Nazlı qız
[11]Yuva

Zülfüvə xuni-sorx[1] ilə vermiş əcəb cəla[2] Hüseyn
***
Gəldiyi yoldan ol xanım istədi ric"ət eyliyə[3]
Əmmələrin gəzib tapa, ya gedə parə xeymiyə
Qorxdu, itirdi düz yolu, düşdü vücudi lərzəyə
Bir Nəcəfə tərəf baxıb bir də səvadi[4] Kufəyə
Gəl yolumu itirmişəm, ol mənə rahnəma[5] Hüseyn
***
Zülməti-şəb[6] hərasnak[7], əmmələri gəzir çölü
Bir qız uşağı nabələd, ərsə tikanilən dolu
Oxdu, qılıcdı, nizədi, qanlı cənazə sağ-solu
Əmmələrin gəlir səsi, leyk tapammayır yolu
Nazir idi o qəmfəza aləmə bərməla Hüseyn
***
Əhli əza kim elədi bəs o qıza dəlaləti[8]?
Getdi mənim əqidəmə, şəmsi-həyavü-möhnəti[9]
Yəni anası Fatimə tapdı o mürği-möhnəti[10]
Əmmələrinə əlbəəl verdi həmin əmanəti
Hifz edələr ki Şamidə salim onu ala Hüseyn
***
Kərbübəla çün güzər eylədi Şahi-la fəta[11]
Baxdı o sərzəminə[1] bir diqqətilən edib nəva

---

[1]Qızıl qan ilə

[2]Bəzək

[3]Qayıda

[4]Kufə tərəfdən görünən qaranlığa

[5]Yolgöstərən

[6]Gecə zülməti

[7]Qorxulu

[8]Yol göstərmək, bələdçilik etmək

[9]Möhnət və ismət, həya şünəşi

[10]Qəmli quş

[11]"Ühüd" döyüşündə Peyğəmbəri əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in canının təhlükəyə düşdüyü ən həssas anlarda əli (əleyhis-salam) onu müdafiə edir, 50-60 nəfərlik dəstələri öz qüdrətli qılınc zərbələri ilə vurub dağıdırdı, bu anda Cəbrəil havada səsləndi ki: "La fəta illa əli və la seyfə illa Zülfüqar" əlidən başqa qəhrəman, Zülfüqardan başqa qılınc yoxdur. Bunu hətta məşhur sünnü tarixçilərindən olan Təbəri və İbni Hişam öz tarix kitablarında nəql etmişlər.

Ərz elədi səhabələr, canuvə canımız fəda
Sən niyə ağladın belə, illətini[2] buyur ağa
Ey pədəri-müəzzəmi-gövhəri-ətqiya[3] Hüseyn
***
Verdi cavab o kəslərə Həzrət Şahi-övliya
Bu yerin adı Kərbəla, bir adı ərzi-Neynəva
Burda mənim Hüseynimin xeymələri olur bina
Qətlə yetər köməkləri, qardaşı, oğlu bərməla
Xəncəri-Şimrilən olur zibhi-minəl-qəfa[4] Hüseyn
***
Bəs ki mənə xəbər verib bu sözü Sadiqi-Xəbir[5]
Xeymələrinə od vurub yandırır ləşgəri-şərir[6]
Zülm ilə Əhli-Beytimi eyləyir əşqiya[7] əsir
Qarət olur xiyamidən[8] məsnədü-cameyi-hərir[9]
Girdü-qübari-dəştidən[10] puşiş edər[11] qəba Hüseyn
***
"Yəhyəvi"nin ki, no cavan oğlu gedib cəhanidən
Əhli-nəcibi-Ərdəbil təziyə tutdu mərdü-zən
Nokəri-pirə ehtiram oldu ziyadə həddidən
Həqqin o hörmətin əda eyliyə bilmərəm ki mən
Gərdəni-Yəhyəvidən[12] et həqlərini əda Hüseyn

## HÜRRÜN TÖVBƏSİ

---

[1]Diyara
[2]Səbəbini
[3]Nəcabətli nəsildən olan Hüseynin əzəmətli atası
[4]Başı arxadan kəsilən
[5]Allahın adlarındandır
[6]Şər, bədnam ləşgər
[7]Şəqilər, bədbəxtlər
[8]Xeymələrdən
[9]İpək parçalar, kürsü
[10]Çölün toz-torpağından
[11]Geyər
[12]Yəhyəvinin boynundan

Hürr əvvəlcə Ömər Sədin qoşununda idi, İmam Hüseyn (əleyhis-salam)-ın da yolunu bağlamış, istiqaməti Kərbəlaya tərəf döndərmişdi. Bunların hamısını Yezidin əmrinə tabe olmaqla görürdü. O heç vaxt inanmırdı ki, Ömər Səd İmamı qətlə yetirmək fikrində ola bilər. Amma hadisələrin tədricən inkişşafından Hürr başa düşmüşdü ki, bu qoşun İmam Hüseyn (əleyhis-salam)ı öldürmək barədə qəti qərara gəlmişdir. Buna görə də Ömər Sədlə bir az danışıqdan sonra döyüş meydanından uzaqlaşdı, yavaş-yavaş İmam (əleyhis-salam)-ın xeymələrinə doğru hərəkət etdi. Mühacir onu gördü, elə bildi ki, o, İmam Hüseyn (əleyhis-salam)-ın qoşununa hücum etmək istəyir, ondan soruşdu: –Hücum etmək istəyirsənmi? Lakin cavab eşitmədi, yalnız görürdü ki, Hürrün bədəni lərzəyə düşmüşdür, dedi: –Mən sənin işindən təəccüb edirəm, sənin barəndə şəkkə düşmüşəm. Allaha and olsun, indiyə kimi səni heç vaxt bu halda görməmişdim. Məndən Kufənin ən şücaətli pəhləvanı barədə soruşsaydılar, yalnız sənin adını deyərdim. Bu nə haldır?
Hürr dedi: –Mən elə bu andan etibarən behiştlə cəhənnəmin arasındayam, amma Allaha and olsun ki, hətta məni tikə-tikə doğrayıb odda yandırsalar da, heç nəyi behiştdən üstün saymayacağam. Bunu deyib atını çapdı; əllərini başına qoyan halda İmam Hüseynə (əleyhis-salam) tərəf getdi. Gözlərindən yaş axan halda, zümzümə edirdi: "İlahi, Sənə tərəf qayıdıram, ümidvaram ki, tövbəmi qəbul edəsən. İlahi, mən sənin dostlarının və peyğəmbərinin övladlarının qəlblərini qorxuya salmışam. Bu böyük günahımı bağışla.
Elə ki, gəlib İmam (əleyhis-salam)-ın hüzuruna çatdı, dedi: –Mən həmin şəxsəm ki, sizin Mədinəyə qayıtmağınıza mane oldum, yolunuzu bağladım və sizi çöl-biyabanlarda dolandırdıb, bu diyara gətirdim. Mən heç də təsəvvür etmirdim ki, bu qövm sizə qarşı belə rəftar etsin, sizin təklifinizi rədd etsin və sizə qarşı hörmətsizlik etsinlər. Allaha and olsun, əgər bilsəydim ki, onlar işi bu mərhələyə gətirib çıxaracaqlar, heç vaxt bu işə əl atmazdım. İndi isə öz əməlimdən peşman olmuşam; Allahın dərgahına tövbə edirəm, sənin yolunda canımdan keçməyə, gözün önündə şəhadət feyzinə çatmağa hazıram. Görəsən mənim tövbəm qəbul olunacaqmı?
İmam Hüseyn (əleyhis-salam) buyurdu: –Bəli, mehriban Allah tövbələri qəbul edəndir, atdan düş.
Hürr dedi: –Əgər mən sizin yolunuzda at üstündə vuruşsam, piyada vuruşmaqdan daha yaxşıdır, baxmayaraq ki axırda işim atdan enməklə nəticələnəcək.
İmam Hüseyn (əleyhis-salam) buyurdu: –Necə istəyirsənsə, o cür də et. Allah öz rəhmətini sənə göndərsin.
Hürr İmam Hüseyn (əleyhis-salam)-ın gözləri önündə üzünü kufəlilərə tutdu, onlara nəsihət edib danladı. Kufənin namərdləri onun sözlərini eşitməyə tab gətirmədilər, ona ox atdılar. Hürr İmam (əleyhis-salam)-ın yanına qayıtdı.

***
Mühəddis Cəzairi “Ənvari-nömaniyyə kitabında Hürr ibni Yəzidin qəziyyəsini nəql edir: Şah İsmail Səfəvi Kərbəlaya gəldiyi vaxt eşidir ki, (Kərbəlada Yezid qoşunundan üz döndərib İmam Hüseyn Əleyhissalamın yoldaşlarına qoşulan) Hürrə tənə edib, onun haqqında pis danışanlar var. Onun Allah-Tərəfindən bağışlanıb, sevimli bəndə olmasını sübut etmək üçün Şah İsmail qəbrin açılmasını əmr edir. Qəbri açıb, cənazənin təravətli qaldığına şahid olurlar. Sanki, yenicə şəhid olmuş Hürrün başında Həzrət Hüseyn (əleyhissalam)-ın dəsmalı bağlanmışdı (Tarixə görə Aşura günü bu dəsmalla İmam Hürrün yarasını bağlamışdı). Şah İsmail bu dəsmalı öz kəfəninə qoymaq üçün açdırır. Qan axdığını görüb, yaranı başqa dəsmalla bağladılar, amma qan dayanmadığından həmin dəsmalla bağlamağa məcbur oldular. Hadisə Hürrün haqqındakı pis fikirləri aradan götürdü. Şah İsmail burada məqbərə tikdirib, xidmətçi təyin etdi.

HÜRRÜN TÖVBƏSİ

**Ey xosrovi-kovnü-məkan[1] əstəğfirullah, əttövbə-tövbə (2)**
**Oldum peşiman əl-əman, əstəğfirullah, əttövbə-tövbə (2)**

Etdim cəsarət mən əzəl, ey sibti-Taha,[2] əfv et bağışla
Mən rusiyəh[3] sən sahibi-ehsanü-əta, lütf eylə şaha
Üsyanə qərqəm, gəlmişəm, çox dildə yarə, ey miri-Bətha[4]
Rüxsarimə əşgim rəvan, əstəğfirullah, əttövbə-tövbə
***
Əvvəldəki əfkarıma[5] dilxəstə[6] gəldim, halım pərişan
Kirdarimə[7] rəftarimə qovma qapından, məhzunü-nalan[8]
Oldum özüm əhvalimə dilgirü-giryan,[9] qəlbim olub qan
Təpişi-dil[1] dildə nəhan, əstəğfirullah, əttövbə-tövbə

---

[1]Kainatın padşahı
[2]Peyğəmbər övladı
[3]Üzüqara
[4]ərəbisstan şahı
[5]Fikirlərimə
[6]Qəlbi yorğun
[7]əməllərimə
[8]Qəmli və naləli
[9]Ağlar və dilgir

***
Kəsdim səri-rahın[2] əzəl felimdə görrəm var iştibahım[3]
Əl damənindən[4] çəkmərəm, ey dadixahim[5] yoxdur pənahım
Titrir ayağım, əllərim, sinəmdə ahım, çoxdur günahım
Olmuş mənə virdi-zəban,[6] əstəğfirullah, əttövbə-tövbə
***
Rə”şə[7] düşüb əndamimə, mən binəsibəm, sər pa[8] əliləm
Üz qoymuşam dərgahivə, şaha qəribəm, əbdi-zəliləm[9]
Şərməndəyəm çün xiclətim var, bi təbibəm, məhzun dəxiləm
Ali-Əlidən nigaran, əstəğfirullah, əttövbə-tövbə
***
Düşdüm bəlayə onda ki, Ali-Rəsuli, saldım bəlayə
Çəkdim qətari itrəti Zəhra Bətuli, Kərbübəlayə
Girdabi-qəmdə saxladım, çox dil məluləm,[10] qərqəm bəlayə
Var üzrüm, ey şahi-şəhan, əstəğfirullah, əttövbə-tövbə
***
Qərq eyliyib tufan məni, ey məzhəri-Həqq, qərqi-məlaləm
Zülmətə saldım mən səni, ey nuri-mütləq, əfsürdə[11] haləm
Qurani-natiq, peykəri Qurana müştaq, pozğun xəyaləm
Ey ruhu iman, cismi can, əstəğfirullah, əttövbə-tövbə
***
Sinəmdə artar möhnətim, növrəstə Qasim, şahzadə Əkbər
Ə”zavü-dildən vəhşətim vardır hərasim,[12] ey şahi-məhşər
Salardın oğlanlaruvi, Əbbasi, Ovnu, həm Fəzlü-Cəfər

---

[1]Qəlbin döyüntüsü
[2]Yolunu
[3]Səhvim
[4]ətəyindən
[5]Köməyim, arxam
[6]Dilimin əzbəri
[7]Qorxu, vəhşət
[8]Başdan-ayağa
[9]Zəlil bəndə
[10]Kədərli
[11]Pərişan, qəmli
[12]Qorxum

Heydər bəyan, şirin zəban,[1] əstəğfirullah, əttövbə-tövbə
***
Oldum xəcalət, sizdən, ey Leylavü-Rübab, Gülsumü-Zeynəb
Əfv eyliyin, təqsirimin tedadı[2] yoxdur, kəşf oldu mətləb
Narahətəm, narahətəm, hər sübhü-hər şam, hər ruzü-hər şəb
Ali Rəsulü-banüvan,[3] əstəğfirullah, əttövbə-tövbə
***
Ya Rəbbi Rəhman "Qəmkeşə" rəhm eylə, qəlbin pak et riyadan
Vəsvasi cinnü-insidən, hifz eylə, şərri nəfsü-həvadən
Qəlbində gizlin dərdinə məyus olubdur, dərman dəvadən
Zikri olub ya Rəbb aman əstəğfirullah, əttövbə-tövbə

## HƏZRƏTİ MÜSLÜMÜN BALALARI

## EY HARİS EYLƏ BİR NƏZƏR

**Ey Haris, eylə bir nəzər Xudaya, vurma sən bizi (2)**
**Gətirmə ərşi ə"zəmi nəvayə, vurma sən bizi (2)**
***
Deyib Peyəmbəri Xuda, yetimə hörmət eyliyin
Çəkin nəvaziş ilə əl başına xidmət eyliyin
Verin təsəlli, dildəki qəmində şirkət[4] eyliyin
Evində düşmüşük bu gün bəlayə vurma sən bizi
***
Gətir ələ bu barədə Peyəmbərin rizasını
Gətirmə qəhrə, şərm elə, yetimlərin Xudasını
İki atasızın göyə ucaltma çox nəvasını
Bu qədri uyma aləmi fənayə vurma sən bizi
***
Yorubdu qüssələr bizi, bir ildi dustaq olmuşuq
Ata qəmində yanmışıq, misali qönçə solmuşuq
Bir aşina tapammadıq, gəzib zebəs yorulmuşuq

---
[1]Şirin dil
[2]Sayı
[3]Peyğəmbər əhli-Beyti, qadınları, əhli-əyalı
[4]İştirak

Dava tapaq bu dərdi bi dəvayə vurma sən bizi
***
Vəfa bağında bir gülük xəzanə vermə sən bizi
Cahanda hansı miziban[1] qonağın incidib belə
Vəfadən əhli Kufənin tapıb nədəndi fasilə
Nədəndi getmirsüz rəhi vəfayə vurma sən bizi
***
Vəfasız adlarız gərək düşə həmişə dillərə
Yaza müvərrixi zəman[2] bunu kitabü-dəftərə
Qonağının başın çəkər bu əhli Kufə xəncərə
Kəsik başı vurar bular cidayə, vurma sən bizi
***
Vəfa gülü əkilmiyib bu Kufədə bu şəhridə
Nə bağlarında var səfa, nə çeşməsində, nəhridə
Yetibdi Haşimilərə cəfası çox bu dəhridə
Amandı şirkət etmə bu cəfadə, vurma sən bizi
***
Bir ildi ayrı düşmüşük vətəndən ellər ağlıyar
Gələndə mövcə bəhrilər[3] axanda sellər ağlıyar
Vuranda zülfü-gül sitan, çəməndə yellər ağlıyar
Bizim də ahımız çıxar səmayə, vurma sən bizi

HƏZRƏTİ MÜSLÜM (əleyhis-salam)IN BALALARI

**Çəkmə xəncər olma qatil, (2) bu iki nalanə Haris**
**Vəhşətə salma yetimik, (2) gəlmişik əfğanə Haris**
***
Qönçə tək badi-xəzandan,[4] açmamış solduq çəməndə
Çıxmamış səyyad əlindən, tazədən düşdük kəməndə
Bir vəfalı bacımız var, indi yol gözlər vətəndə
Gəl bizi azad elə bax, Həzrəti Sübhanə[5] Haris
***

[1]Qonaq sahibi
[2]Zaman tarixçiləri
[3]Dəryalar tufana gələndə
[4]Xəzan yelindən
[5]Allaha

Vurmusan şiddətlə sili, zülm əliylə gül üzümdən
Zərbi-silidən rəvandır, qanlı yaş ağlar gözümdən
Qorxudan titrir vücudim, çəkmişəm əl öz-özümdən
Əl götür bizdən səni ey, rüfqətə[1] Qurana, Haris
***
Bu vilayətdə qəribik, bir nəfər yox aşinamız
Həm səğirik, həm qəribik, həm gedib əldən atamız
Gözləri yaşlı vətəndə, indi yol gözlür anamız
Suzi-ahimdən[2] həzər qıl, batma nahəq qanə Haris
***
Biz sənə axər qonağıq, gəl bizi öldürmə kəfər
"**Əkrimuz-zeyfə**"[3] buyurmuş, Müstəfa **"lov kanə kafər"**[4]
Kim qonağın, öz evində, öldürüb ey şumi-əbtər[5]
Eyləməzlər hətki-hörmət,[6] şər"idə mehmanə Haris
***
Sən vuranda xəncərə əl, qardaşım soldu saraldı
Titriyib badi-xəzan tək, qəlbimin aramın aldı
Ləblər oldu parə-parə, özgə bir əhvalə qaldı
Şərm elə döndərmə əşgi, barişi-neysanə[7] Haris
***
Tifli-məsumuq[8] bilirsən, bizdə yox bir zərrə təqsir
Eylərik hərçəndi şivən, eyləmir qəlbində təsir
Düşmə çox cəhlü-inadə, vurma sili çəkmə şəmşir
Hər yetimə rəhm olubdu ayeyi-Qurana Haris
***
Bu cinayətdən məramın, şayəd olsun mali-dünya
Gəl bizi sat bəndələr[9] tək, qətlimizdən eylə pərva[1]

---

[1]Dostluğa, yoldaşlığa
[2]Yanıqlı ahü-naləmdən
[3]"Qonağa hörmət edin"
[4]"Hərçənd kafir olsa da belə
[5]Zalım, məlun
[6]Hörmətsizlik
[7]Leysan yağışı
[8]Məsum uşaq
[9]Qullar

Ya bizi zində[2] apar et, bin Ziyadə olma tərsa[3]
Ya xilas eylər o zalim, ya salar zindanə Haris
***
Bilmirəm noldu götürdü, Fatimə məcər[4] başından
Qəbridən Müslüm cəhani, qərqə verdi göz yaşından
Qol-boyun olmuşdu ayrılmırdı qardaş qardaşından
Bir cəfa etdi salıb od, aləmi-imkanə Haris
***
Qönçə tək bir cüt gözəl baş, saqədən düşdü kənarə
Nə"şilər qərq oldu şətrə,[5] qəlbi Müslüm oldu parə
İki qardaş su üzündə, qol-boyun oldu dübarə
Şad olub dildən baxanda, ol iki qurbanə Haris

## HARİS ÖLDÜRMƏ BİZİ

**Haris öldürmə bizi, rəhm qılıb davərə bax**
**Cəddimiz Xətmi-Rəsul həzrəti-Peyğəmbərə bax**
***
Gərçi aləmdə bəla çəkməyə adətdi bizə
Möhnətü-cövrü-cəfa cümlə səadətdi bizə
Bu yetimlik qəmi qürbətdə kifayətdi bizə
Çəkmə xəncər bu iki dərbədəri müztərə[6] bax
***
Könlümüz ayinəsin rəngi küdurət bürüyüb
Cismimiz qürbət ara zülmü-sitəmdən çürüyüb
Canımız guşeyi zindani bəladən əriyib
Sən daha qılma cəfa şiri xuda, Heydərə bax
***
Qılma cari üzə bidadilə qanlı yaşımı
Rəhm qıl qardaşıma, kəs mənim əvvəl başımı
Məni öldürgilən azad elə bu qardaşımı

---

[1]Həzər et, qorx
[2]Diri
[3]Qorxaq
[4]Örtük
[5]Çaya
[6]Çarəsiz

Həqqi mənzuri qılıb Fatimeyi Əthərə bax
***
Hər bəla vardı cahan içrə bunun cani çəkib
Natəvan cani ilən zilləti dünyanı çəkib
Altı ay ac-susuz möhnəti zindani çəkib
Əriyən cismini gör, həm o axan gözlərə bax
***
Qılma ağuşa qızıl qanına dürri Ədəni
Bu yetim ölsə əgər, olmaz onun dəfn edəni
Qorxusundan necə gör lərzə tutub gül bədəni
Gül üzarindən axan qətreyi-əşki-tərə bax
***
İndi ki, qılmadı təsiri sənə suzü-güdaz[1]
Bari möhlət verin, ey Şümri, qılaq indi namaz
Axiri ömrüdə Həqqilə edək razü-niyaz
Yada sal axirəti, hali dəmi məhşərə bax
***
Sər-səri zülmü Əli gülşənini xar elədi
O iki qönçə gülü xarə giriftar elədi
Heç kim etməzdi bu zülmü ki o qəddar elədi
Ey "Fəna", sən elə ol şumi sitəm pərvərə bax

ATAMIZ ÖLÜBDÜ

**Atamız ölübdü rəhm et, bizi bi nəvayə Haris (2)**
**Üzümüzə vurma sili, nəzər et Xudaya Haris (2)**

Nə rəvadı zərbi sili, bu iki lətif üzarə
Bizə sili üstə sili, dəxi vurma sən dübarə
Dolub ağzımız qanilə, özün eylə bir nəzarə
Bu qədər təmayül etmə, sitəmü-cəfayə Haris
***
Qala hər uşaq atasız, ürəyi olar şikəstə
Atamız ölüb yetimik, bizi etmə dəsti bəstə[2]
Eyliyib cəfayi zindan, bizi xeyli zarü-xəstə

---

[1]Yanıqlı ah-nalə
[2]Qolları bağlı

Dəxi vermə zülmü-cövrin, bizə sən irayə[1] Haris
***
Əsəri-rizayi-Zəhra, gülü-baği-Heydərik biz
Çəməni-şəriət içrə, gülü-ruhi-pərvərik biz
Gülü-gülşəni-cinan[2] tək, odu çox müəttərik biz
Yaxınıq nəsəbdə əz bəs, Şəhi-Ənbiyaya Haris
***
İki bülbülük qəfəsdən, eliyibdi tazə azad
Nə rəva dübarə salsın, bizi dami mərgə[3] səyyad
Bizi qıl rəha,[4] o qəmli anamızı eylə dilşad
Anamızın indi ahı ucalıb səmayə Haris
***
Buyurub Rəsuli Əkrəm, eləyin qonağə hörmət
Atasızlara, qəribə, eləyin zebəs məhəbbət
Qonağıq qərib atasız, bizi sən elə himayət
Əməl eylə hökmü-şər"ə, yetiş irtiqayə[5] Haris
***
Necə bülbülün qəfəsdə, çəmən arizusu vardır
Necə ahuyi-rəməqdə, xitən arizusu vardır
Bu qəribələr dilində, vətən arizusu vardır
Vətən həsrətiylə ney tək, gəlirik nəvayə Haris
***
O iki yetim "Nasir", nə qədər edibdi nalə
Əsər etmiyibdi əslən, o ləini bəd xisalə[6]
Yetirib o bülbülani, çəməni həqqi qitalə[7]
Yara üstə vurdu yarə, dili-Müstəfayə Haris
***

## AŞURA GECƏSİNDƏ İMAM (əleyhis-salam)-IN DOSTLARININ VERDİYİ CAVAB

---

[1]Təqdim
[2]Cənnətin gülşən gülü
[3]Ölüm tələsinə
[4]Burax
[5]Yüksək məqama
[6]Məlun və bədxah xasiyyətli
[7]Onları qətlə yetirib

İmam (əleyhis-salam)-ın yolunda fədakarlıq edən, onun önündə rəşadət göstərən və mərd-mərdanə şəhid olan kişilər ilahi şəxsiyyətlərin ən yaxşı dostları idi; onlar əhli-əyallarının boşlamış, Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm)-in nəvəsinə qoşulmuş, onun yolunda qəhrəmanlıqla vuruşuraq, döyüş meydanına getməkdə bir-birindən irəli geçirdilər. Bu fədakar insanların öz mövlası, rəhbəri ilə olan sözləri bu idi ki: “Biz özümüzü sənə fəda edib səni düşmən əlindən hifz edəcəyik.” Aşura gecəsi onların dodaqlarında təbəssüm var idi, qəlblərində ölümdən zərrə qədər qorxu yox idi. Tezliklə şəhadətin yüksək mərtəbəsinə nail olacaqlarından, öz Allahları ilə görüşəcəklərindən sevinirdilər. İmam Hüseyn (əleyhis-salam) onlara “siz azadsınız, döyüş meydanından uzaqlaşa bilərsiniz”, deyəndə, narahat oldular, dedilər: –Biz heç vaxt səni tək qoymayacaq, bu diyardan geri dönməyəcəyik. Düşmənlər sənin canına daraşdığı halda, biz səni necə buraxıb gedə bilərik? Bu halda Allah yanında nə cavab verərik?
Onlardan bizi dedi: “Allaha and olsun ki, mən belə bir iş görmərəm; mən bu zalım tayfalar qarşısında nizəmi onların sinələrində sındırana, qılıncımla, dəstəyi ondan ayrılana qədər müqavimət gösərəcəyəm, onlara yara vuracağam, amma yenə də susmayacaq, düşmənə daşla həmlə edəcəyəm, öz rəhbərimin gözləri önüündə ölməyincə ondan ayırılmayacağam.”
Başqa birisi dedi: “Tək olan Allaha and olsun, əgər bilsəydim ki, sizin gözləriniz önündə ölüb sonra diriləcəyəm, sonra yenidən öləcəyəm və cəsədimi odda yandıracaqlar, bu halda dirilərdim və öldürülüb odda yandırılardım. Bu iş yetmiş dəfə də təkrar olunsaydı, yenə də sizdən ayrılmazdım.”
Üçüncüsü dedi: “Əgər min dəfə öldürülüb sonra dirilsəm və beləliklə də düşmənin şərini sizdən və ailənizdən dəf edə bilsəydim, bunu edərdim.”
Dördüncüsü dedi: “Əgər mən sizdən ayrılsam, daha yaşamağın mənası olmaz və bu halda yaxşı olardı ki, vəhşi heyvanlar məni diri-diri parçalasınlar.”
Aşura günü sübh İmam (əleyhis-salam) və dostları sübh namazını qılıb döyüşə hazırlaşdılar.

## AŞURA GÜNÜ SÜBH DÖYÜŞ HAZIRLIĞI

İmam Hüseyn (əleyhis-salam) 72 nəfərdən ibarət olan kiçik qoşunu xeymələrin qarşısına gətirdi. Bu qoşun 32 süvaridən, 40 nəfər piyadadan təşkil olunmuşdu. Qoşunda 70 yaşlı Müslüm ibni Ovsəcədən tutmuş, 14 yaşlı Qasim ibnil-Həsənə kimi müxtəlif yaşlılar var idi. Çadırların arxasındakı odun, qamış komalarına od vurmaqla düşməndən qorunurdu. Sağ cinahın sərkərdəliyi Zühey ibni Qinə, sol cinahınkı isə Həbib ibni Məzahirə, süvarlərin bayrağı Həzrət Abbasa tapşırılmışdı.

## AŞURA GÜNÜNDƏ İMAM (əleyhis-salam)-IN XİTABI

Özünü həlledici bir döyüşə hazırlayan İmam Hüseyn (əleyhis-salam) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in əbasını geydi, müşk ilə ətirləndi, ata minib əlində tutdu, yuxarı qaldırdığı Quranla birlikdə atını düşmənə tərəf çapdı. Allahın dərgahından pənah diləyən halda düşmənə xitab edərək dedi:–Ey Pərvərdigar, Sən hər bir çətinlikdə mənim arxam, ümidimsən. İlahi, Sən qəlblərin zəif, əməllərin süst olduğu, insanın dostları da onu tək qoyduğu, düşmənlər bədxahlıq üzündən bu (kimi) giriftarçılıqlarda şadlıq, şənlik etdiyi hər bir narahatçılıqda, pərişanlıqda yeganə arxasan. Ey Pərvərdigar, mən özümü Sənə tapşırıram, düşmənlərimdən təkcə Sənə şikayət edirəm. Təkcə arzum Sənə tərəf (gəlmək)dir. Səndən başqa kim məni qəm-qüssədən qurtara bilər? Yalnız Sən hər rəhmətin keşikçisi, hər fəzilətin sərvəri, hər bir arzu edənin son sığınacağısan.
İmam (əleyhis-salam) qılıncının qəbzəsinə dayanmış halda, uca səslə kufəlilərə belə xitab etdi: –Ey Kufə camaatı, sizi and verirəm Allaha, deyin görüm məni tanıyırsınızmı?
Dedilər: –Bəli, sən Rəsulullahın nəvəsisən.
İmam (əleyhis-salam) buyurdu: –Sizi and verirəm Allaha, deyin görüm cəddimin Allahın Peyğəmbəri olmasına inanırsınızmı?
Dedilər: –Allahı bu işdə şahid tuturuq.
Həzrət buyurdu: –Bilirsinizmi ki, mənim anam Fatimə, Peyğəmbərin qızıdır?
Dedilər: –Bəli, belədir.
Həzrət buyurdu: –İnanırsınızmı ki, mənim cəddəm (nənəm) Xədicə bu ümmət qadınları içərisində ilk müsəlmandır?
Dedilər: –Bəli.
Həzrət buyurdu: –Bilirsinizmi ki, əlimdəki bu qılınc Rəsulullahın qılıncıdır?
Dedilər: –Bəli.
Həzrət buyurdu: –Bilirsinizmi ki başımdakı əmmamə Rəsulullahın əmmaməsidir?
Dedilər: –Bəli.
Həzrət buyurdu: –Bilirsinizmi ki, atam Əli islamı qəbul edən ilk şəxsdir və onun elmi, biliyi hamıdan artıq, səbri hamıdan çoxdur və o, hər bir imanlı şəxsin mövlası (rəhbəri) sayılır?
Dedilər: –Bunların hamısını qəbul edirik.
Həzrət buyurdu: –Belədirsə, bəs nə üçün mənim qanımı tökməyi halal hesab edirsiniz?
Dedilər: –Bütün bu sözləri qəbul edirik, amma səni öldürməyincə, əl çəkən deyilik.
İmam Hüseyn (əleyhis-salam) bu sözləri buyuranda qızları və bacıları eşidib ağlayırdılar. Onların naləsi İmam (əleyhis-salam)-ın qulağına çatdı, Həzrəti Abbası, Əli Əkəri çağırıb dedi: –Onları sakitləşdirin, canıma and olsun, bundan sonra çox ağlayacaqlar!

## ƏLİ ƏSĞƏRİN ŞƏHADƏTİ

Əli Əsğər (Əbdüllah) südəmər çağında Kərbəlada şəhid oldu. İmam Hüseyn (əleyhis-salam)-ın dostları, köməkçiləri şəhid oldu, İmam (əleyhis-salam) tək qalıb ilahi təqdirə (qəzavü-qədərə) razı oldu və özünün məzlumcasına, susuz öləcəyini bildi, Əhli-hərəmin yanına gəlib onlara vidalaşdı, buyurdu ki: –Bəla və müsibət paltarını geyin, səbir paltarını yırtmayın. Allah sizin aqibətinizi xeyir, gözəl edəcək, düşmənlərinizi (dünya və axirətdə) cürbəcür əzablara düçar edəcik.

Sonra Əli Əsğərlə vidalaşmaq istədi, Həzrəti Zeynəb (əleyha-salam) onu gətirdi, İmam (əleyhis-salam) onu qucağına alıb üzündən öpdü, buyurdu: "Cəddin Mustəfaınn düşməni olan bu qövm Allah rəhmətindən uzaq olsun!

Sonra onu qoşununun qarşısına gətirdi, onun üçün su istədi. Amma Hərmələ boğazının altını nişan aldı, oxu atdı, ox boğazına sancıldı. İmam (əleyhis-salam) əlini onun boğazından axan qanın altına tutdu, ovcunu qanla doldurub göyə atdı, bir qətrə də olsun, o qandan yerə qayıtmadı[1]. Bu halda İmam (əleyhis-salam) buyurdu: "Bu müsibəti mənə asan edən şey budur ki, (bu iş) Allahın gözü qarşısında olmuşdur." İlahi, bu sənin yanında anasından ayrılan bala dəvədən heç də oz olmasın. İlahi, əgər (Öz) köməyini bizdən kəsmisənsə, onda onu, ondan da yaxşı olan bir şeyin əvəzi et və bizim intiqamımızı zalımlardan al. Bu fani dünyada bizə nazil etdiklərini axirət zəxirəmiz et.

İlahi, camaat içində sənin Rəsuluna ən çox oxşayan bir şəxsi öldürən tayfaya özün şahidsən. Qəlbimin parəsi olan bu uşağın qəmi qəlbimə od salmışdır.

Bu anda qeybdən səs gəldi: "Hüseyn! Onu yerə qoy, behiştdə onun üçün bir dayə hazırdır."[2]

## HƏZRƏTİ ƏLİ ƏSĞƏR (əleyhis-salam)-ın MƏRSİYƏSİ

**Əlim laylay, balam laylay, Əliyyü-Əsğərim laylay**

***

Əlim səni kim oxladı, Yaraları kim, bağladı
Nə"şün üstə kim ağladı, Əlim lay-lay, balam lay-lay

***

Mədinədən gətirmişəm, Bu ərsəyə yetirmişəm

---

[1]Bu, İmam Baqir (əleyhis-salam)-ın buyurduğudur. İmam Zaman (əleyhis-salam) da onun ziyarətnaməsində belə buyurmuşdur:
"Salam olsun əbdullaha (əli əsğərə) ki, onu oxa hədəf etdilər və atasının ağuşunda qətlə yetirdilər. Allah lənət eləsin Hərmələ ibni Kahil əsədiyə ki, ona ox atdı; və Allah onun qohum-əqrəbasına da lənət etsin"

[2]"Lühuf", (İbni Tavus); "Bihar", 10-cu cild; "Mənaqib", 2-ci cild; "Məsirül-əhzan", (ibni Nəma) "Təzəllümüz-Zəhra", "Müntəxəbi-ibni-Hərir", "Təzkirətül-xəvass" və Təbərsinin "Ehticac" kitablarından istifadə olunub.

Kərbəlada itirmişəm, Əlim lay-lay, balam lay-lay
***
Dərdindən mən cana gəldim, Əfşan zülfün ələ aldım
Göylərə zəlzələ saldım, Əlim lay-lay, balam lay-lay
***
Başuvu qoy dizim üstə, Yatma isti qumlar üstə
Üzüvü qoy dizim üstə, Əlim lay-lay, balam lay-lay
***
Boğazıma dəyən oxdur, Yazlsa hamıdan çoxdur
Xəcalətəm südüm yxdur, Əlim lay-lay, balam lay-lay

**Bağlanıbdır su yolu, ağlama biçarə bala (2)**
**Çarə yoxdur sinəmi, dağlama biçarə bala (2)**
***
İstidir bəs ki, hava isti saraldıb üzüvü
Taqətin yox açasan qanilə dolmuş gözüvü
Vurursan hey əl-ayaq çün itiribsən özüvü
Vurma dırnaq eləmə sinəmi çox yarə bala
***
Bağiban gördü susuzdan, gülü-gülşən saralıb
Laləvü-nəstərənü-jaləvü-süsən saralıb
Əndəlibani-çəmən həsrəti-güldən saralıb
Bülbülüm baxdı düçar oldu gülüm xarə bala
***
Bülbülüm pər vurursan baz edəsən şəhpərivi[1]
Qoyuram ziri-qümaşə[2] balaca əllərivi
Əli qoynunda fələk qoydu yazıq madərivi
Həsrəti dildə baxar həsrəti dildarə bala
***
Çu sitarə[3] axırsan, mən də dalınca baxıram
Təşnəsən, can verirsən, mən də ləbətşan baxıram
Qəlbimin şö"ləsinin sinəmə dudin[4] yaxıram
Açırsan göz, baxırsan gəh bu diləfkarə bala

---

[1]Qanad çalırsan qollaruvu açasan
[2]Qumaş parçanın altına
[3]Ulduz kimi
[4]Tüstü

***
Mən baxanda yumursan gözlərivi ağlıyısan
Atəşin ahilə qəlbü-sinəmi dağlıyısan
Çeşmə tək əşki-təri gül üzüvə bağlıyısan
Salısan şuri-şərər qəlbi-şərərbarə bala
***
Cam əlində dolanıb əmmələrin xeymələri
Olmadı su xəbəri hər yerə düşdü güzərim
Əyləşən, xeymə gəzən gördü halın var xətəri
Zülflərin aldı ələ saldı başa qarə bala
***
Təşnələblər su deyir çu susuz ahu mələşir
Zikri olmuş nigəran halilə ya hu mələşir
Müztərib vəhşətilə dil dolu tərsu mələşir
Dəstə-dəstə ilişir dami-cəfakarə bala
***
Cigərin suzişinə vardı dodağında güvah[1]
Qoyusan barmaquvi ləblərivə sinədə ah
Vay mənim bəxtimə oldum necə gör bəxti-siyah[2]
Gündüzüm zülmət olub, döndü şəbi-tarə[3] bala
***
And ola canüvə ey rahəti-dil, nuri bəsər[4]
And ola sinədəki ahüvə, ey teşnə cigər
And ola gözlərivin əşkini rüxsarə tökər
Getmərəm bir evə bir sayeyi-divarə[5] bala
***
Balası oxlanan ahu kimi hər an mələrəm
Elə billəm bələgin gəh açaram, gəh bələrəm
Gül sataşsa gözümə əşgimi gözdən ələrəm
Eylərəm gah sinəmi mən sənə gəhvarə bala
***
Şüəralar[1] yazacaq möhnətimi möhnətilən

---

[1]Cigərin yanmasına dodaqlarda şahid var
[2]Qara bəxt
[3]Qaranlıq gecəyə
[4]Gözlərimin nuru, qəlbimin rahatlığı
[5]Divarın kölgəsinə

Növhəxanlar oxuya qəmli səsi möhnətilən
“Qəmkeşin” əldə qələm dəftər ola fürsətilən
Sözləri zinət ola bəzmi-əzadarə bala

GƏL AL QUCAĞIMDAN BU GÜLÜ
**Gəl al qucağımdan bu gülü-pər-pəri Zeynəb (2)**
**Məqsudə çatıb, qanə batıb əlləri Zeynəb (2)**
*******
Can mürği qucaqimdə olub cənnətə azim[2]
Hurani-cinan oldu bu qurbanə mülazim[3]
Atdı beş gün daşın gəhvarə[4] nə lazım
Gəhvareyi-gor oldu bunun bəstəri[5] Zeynəb
*******
Mərdəfkən[6] oxa oldu nişan başı üzüldü
Şəbnəm kimi qan qəmzəsi müjganə düzüldü
Güldü oxa həsrət gözü ahəstə süzüldü
Tez bağrıma basdım bu gülü-əhməri[7] Zeynəb
*******
Tarixidə əllərdə ölən zülmilə çoxdur
Amma quzu qurbanımızın bir tayı yoxdur
Baxsan yarasından bilərsən ox necə oxdur
Nifrin[8] eliyərsən ox atan kafəri Zeynəb
*******
Şeşmahim olub fövci şəhidanə həmavaz[9]
Etdi atasın məhfili cananda sərəfraz[10]

---

[1]Şairlər
[2]Can quşu cənnətə gedir
[3]Cənnət huriləri bu qurbanla birgə oldular
[4]Beşik
[5]Qəbir onun beşiyi oldu
6
[7]Qırmızı gülü
[8]Qarğış
[9]Altı aylığım şəhidlər dalğası ilə eyni ahəng olub
[10]Allahın dərgahında atasını başıuca etsin

Bu nehzəti-üzmayə[1] olub xırdaca sərbaz
Oldu əlimin üstü onun səngəri Zeynəb
***
Bu rəsmidi[2] aləmdə tanır gövhəri sərraf
Hardan biləcək ləli-bədəxşan nədi nəddaf[3]
Çün xübrə deyil[4] Hərmələdə olmadı insaf
Sındırdı cəfa ilə gözəl gövhəri Zeynəb
***
Mən qönçeyi-nəşküftəni[5] meydanə apardım
Öz gövhərimi məhfili-cananə apardım
Təzriq eləsin qan rəgi-Quranə[6] apardım
Allah Özü oldu balama müştəri Zeynəb
***
Zəhra qonağın şövq ilə mehmanlara qoşdum
Ərzəndə[7] baha qanı gözəl qanlara qoşdum
İsmaili-şeş mahimi qurbanlara qoşdum
Bildim ki dözər firqətinə Hacəri Zeynəb
***
Hər gün ki "Təqai" ürəyi qanla dolanda
Dərgahizə üz qoyur qəmdən yorulanda
Olmuş mütəvəssil nə olar sizdə olanda
Boş salma yola, sən qapıdan nokəri Zeynəb

**Dilsiz balam ətşandı Allah, Allah**
**Öz dininə qurbandı Allah, Allah**
***
Soldu, saraldı güllərim cəfadən
Bir bu qalır gülzari Müstəfadən
Yox bir içim su od yağır həvadən
Bu süd əmər odlandı Allah, Allah

---

[1]Böyük inqilaba
[2]Qanundur
3
[4]Fənn əhli
[5]Açılmamış qönçəni
[6]Quran damarlarına qan vursun
[7]Dəyərli

***
Soldu Rübabın qönçeyi muradı
Kam almasın bu leşgəri fəsadı
Etmiş bizə təhrimi iqtisadi[1]
Su yolları bağlandı Allah, Allah
***
Su istədim bu qövmi bihəyadən
Şərm etmədi əhli cəfa Xudadən
Ox dəydi həlqidən çıxıb qəfadən[2]
Oğlum susuz Oxlandı Allah, Allah
***
Əhli Əraqın kinədir şüari
Oxlar bələkdə tifli şiri xari[3]
Əlvan olub alqanilə üzari
Bir gül kimi xəndandı Allah, Allah
***
Ərz eylərik biz ya İmami məzlum
Oxlandı ağuşundə tifli məsum
Bir zülm edib küffariyani başum[4]
Şümr öz cəfasın dandı Allah Allah
***
Bir ox qoyubdur Hərmələ kəmanə
Etdi Hüseynin Əsğərin nişanə
Min südəmər İranda batdı qanə
Min sinələr dağlandı Allah, Allah
***
Əhd etmişəm səbr eyləyəm bəladə
Yetmiş iki qurban verəm Minadə
Batam qanə bu yolda Kərbəladə
Zeynəb gələ əfqanə Allah, Allah
***
Mən dinimə qurban olan Hüseynəm
Quranə poştiban[1] olan Hüseynəm

---

[1]İqtisadi mühasirə
[2]Boğazdan dəyib boynun ardından çıxdı
[3]Südəmər uşağı
[4]Alçaq və fitnə-fəsad əhli

Mən hamiye Quran olan Hüseynəm
Can bezl edən canana Allah, Allah
***
Əhli-əyalım, qardaşım, cəvanım
Dinə fəda hətta bu xəstə çanım
Eşqinlə dolmuş püstü-üstüxanım[2]
Ləbriz olub peymanə Allah, Allah
***
Ya Rəbb behəqqi Xatəmi-Risalət
Eylə vücudin rəhbərin salamət
Eylər "Kərimi" inqilabə xidmət
Bu nehzətə qurbandı Allah, Allah

HƏZRƏTİ QASİM (Ə)-IN ŞƏHADƏTİ

Məhərrəmin 9-cu günü, Tasuanın gecəsi İmam Hüseyn əleyhis-salam səhabələrinə buyurdu ki, hamınız azadsınız, bunların işi mənimlədir, bu halda səhabələrin hamısı dedilər ki, ya Hüseyn, biz səni tək qoyub hara gedək? Eşidənlər bizə nə deyər? İmam Hüseyn (əleyhis-salam) onların vəfalı qaldıqlarını görəndən sonra buyurdu: "İndi ki, belədir, bilin ki, sabah hamınız qətlə yetiriləcəksiniz." Hamılıqca dedilər: "Əlhəmdü lillah! Bizə belə inayətlər etdiyinə görə Allaha şükür edirik. Bu bizim üçün bir müjdədir, şadlıq və sevincdir." Bu vaxt məclisin bir küncündə 13 yaşlı bir uşaq oturmuşdu. Adı Qasim ibnil-Həsən. O, öz-özünə fikirləşdi ki, ilahi, görəsən sabah mən də şəhid olacağammı və bu böyük feyz mənə də qismət olacaqmı. Digər tərəfdən də İmam buyurmuşdu ki, sizin hamınız şəhid olacaqsınız. O belə fikirləşirdi ki, mən uşaq olduğuma görə bəlkə də bu söz mənə aid deyil. Əmisinə xitabən dedi: Əmican, mən də qətlə yetirilənlərin cərgəsində olacağammı? Yazırlar ki, İmamın qəlbi riqqətə gildi, onun sualına cavab vermədi, amma soruşdu: De görüm ölüm sənin nəzərində necədir? Cavab verdi: Əmican, baldan da şiirin! Əgər desən ki, sabah sən də şəhid olacaqsan, mənə böyük və xoş bir müjdə vermiş olarsan. İmam buyurdu: Bəli, şəhid olacaqsan, amma ağır və çətin bir dərdə mübtəla olandan sonra. Qasim dedi: Əlhəmdu lillah ki, belə bir hadisə minim üçün baş verəcikdir!

Sabahı gün, Aşura günü, Həzrəti Əliəkbərin şəhadətindən sonra, Qasim İmamın hüzuruna gəlir, həddi-büluğa çatmadığından, silah əndamına uyğun gəlmir, yerlə

---

[1]Arxa, dayaq

[2]Dəri-sümüyüm

sürünür. İmama ərz etdi: Əssalamu əleykə, ya Əba Əbdillah! Əmi can, indi mənim növbəmdir, icazə ver, meydana gedim.
İmam dərhal icazə vermədi, ağlamağa başladı. Qasim İmamın əl-ayağını öpməyə başladı. Əmi qardaşoğlu qol-boyun olub ağlamağa başladılar. O icazə almaq üçün israr edir, İmam isə icazə vermir.Yazırlar ki, o ikisi bu səhnədə o qədər ağlaşdılar ki, hər ikisi haldan gedib bir-birindən ixtiyarsız aralandılar. Qasim dərhal ata minib meydana yollandı. Ömər Sədin qoşununda olan ravi deyir ki, bir vaxt gördük ki, bir uşaq ata minmiş, başına dəbilqə yerinə əmamə bağlamışdı. Çəkmələrinin də bağı açıq idi. Bu uşaq sanki ay parası idi. Düşmənlər onun rəcəz oxumasını eşidən kimi hər tərəfdən ona həmlə etdilər, birdən "Əmi can" səsi ucaldı. İki yüz nəfər onun yaralı bədənini dövrələyib biri başını kəsmək istəyirdi. İmam onun başı üstünə gəldi, hamısı qaçmağa üz qoydu, onu öldürmək istəyən məlun öz yoldaşlarının atlarının ayaqları altında paymal oldu. Cənab Qasim yerə yıxılmış, ağrının şiddətindən ayaqlarını yerə vururdu. Bu vaxt İmamın səsi eşidildi: "Mənə nə qədər ağırdır ki, sən öz əmini köməyə çağırasan, amma sənin əmin sənə heç bir kömək edə bilməsin. Mənə nə qədər ağırdır ki, başın üstündə hazır olam, amma sənin üçün bir iş görə bilməyim!"

HƏZRƏTİ QASİMİN NÖVHƏSİ

**Ölürəm hərayimə gəl əmu (2), Salıb atdan əhli-cəfa məni**
**Çətin halda dərk elə[1] yalquzam (2), Ey əzizi-Əhli-kisa[2] məni (2)**
***
Sən əzizi-Xatəmül-Ənbiya, həm əzizi-Rəbbi
Cəlilisən
Baban ərşə seyrə gedib sənin, əmu sən əzəldən
əsilisən
Bu Minadə teşnə fəda mənəm, bilirəm ki, sən
də xəlilisən
Kərəm eylə gəl başım üstə bir, eylə sərbülənd
ey ağa məni
***
Bədənim lətif idi atların, ayağında qalmağa
yox tabım
Başım üstə eyliyə həlhələ, sinəm üstə at çapa
əhli-Şam

---
[1]Gəl məni tap
[2]Məşhur hədisə görə, Peyğəmbər,

Gəl apar bu yaralı nə"şimi, baxıb ağlasın
o qərib anam
Mən özüm xiyamə gedəmmirəm, ki salıb kəməndə
qəza məni
***
Əmu gəl hərayimə düşmənim, bədənimi torpağa
qatmamış
Başımı susuz kəsə qatilim, səri-nizələrdə
ucaltmamış
Əmu xəsmi-kinə şüar ilə, bu susuz boğazıma
çatmamış
Gör alıb arayə negini[1] tək, bu güruhi qövmi
dəğa məni
***
Baxaram xiyamə tərəf əmu, hamı yollara
nəzər eylərəm
Yoluvi gözətdiyirəm dəxi, üzə cari əşkilər
eylərəm
O gələn qədəmlərə mən fəda, bilirsən ki, canü-sər eylərəm
Gəl edim ziyarət o əllərin, eylə bir də sən
də dua məni
***
Yeri vardı yeksər anam əgər, mühənimdə[2] qəlbini dağlasın
"Bala vay" deyə o əsiri-qəm, üzə seyli əşkini
bağlasın
Verə baş-başa Əli Əkbərin, anasıyla oxşayıb
ağlasın
Yaza növhə bir də mühibbilər, sala yadə əhli
əza məni
***
Eşidib bu səsimi xeymədən, buyurub Hüseyn ona
can bala
Gəlirəm hərayuvə qəm yemə, mənim ey əzizü-cavan
balam
Gülü-pər-pəri-çəməni-Həsən, nə tez oldun indi
xəzan bala

---

[1]Üzük qaşı
[2]Qəmimdə

Kəsilibdi taqəti qəlbimin, eyliyən zamanda səda
məni
***
Tapşıraydıin ömrü baharına, əssə sərsəri sitəm
ey bala
Elə yalquzam bu ürək sözün, kimə bilmirəm deyim
ay bala
Məni tək qoyubdu köməklərim, necə gör köməksizəm
ay bala
Gedirsiz özüz belə bi kömək, qoyursuz bu ləşkər
ara[1] məni
***
Xəm edibdi qəddimi qüssələr, mühəniqəmizdə
qocalmışam
Eliyibdi qəm məni xun cigər, mühəniqəmizdə qocalmışam
Bu qədər qəmə bala kim dözər,? Mühəni qəmizdə qocalmışam
Əlimin əsası düşüb yerə, yıxar indi mövci
bəla[2] məni

GƏL DADƏ ƏMU...

**Gəl dadə əmu, qalmışam əşrar arasında (2)**
**Soldurdu həvadis[3] gülüvü xar arasında (2)**
***
Əvvəl əmu bir həmlədə pozdum bu süfufi[4]
Vəhşətlə qoyub qaçmağa üz şamiyü-kufi
Düşmən o qədər vurdu mənə zəxmi-süyufi[5]
Şirin yıxılıb ərseyi-peykar[6] arasında
***
Rehlət eliyən gündən atam ey Şəhi-dövran
Sən zəhmətimi çəkmisən ömrüm sənə qurban

---

[1]Arasında
[2]Bəla dalğası, tufanı
[3]Hadisələr
[4]Düşmən dəstələri
[5]Qılınc yarası
[6]Döyüş meydanöında

Axır nəfəsimdir alıb ətrafımı üdvan
Gəl qoyma cənazəm qala küffar arasında
***
Gəl peykəri-məcruhimi[1] həml eylə xiyamə
Yalquz anama bir də gedim ərzi-salamə
Əfsus ki, dövran yetişib qoymadı kamə
Yandı ürəyim ahi şərərbar arasında
***
Hərçənd həyatimdən hüsul olmadı kamim
Səbt oldu vəli dəftəri-üşşaqidə[2] naməm
Bu cəngi-cədəldən bu idi ümdə məramım
Hürriyyətim elan ola əhrar[3] arasında
***
Düşdüm əmu can atlar ayağında nəfəsdən
Gəl tairi-ruhum[4] uça az qaldı qəfəsdən
Sındırdı qoşun sinəmi düşdüm dəxi səsdən
Qaldım yaralı, firqeyi-xunxar arasında
***
Tapşır xanım əmməm anamın könlünü alsın
Biçarə hərəmlər başına qarəmi salsın
Fəryadü-fəğan xeymələrində ucalansın
Səbt olsun adım dəftəri-əxyar arasında
***
Ox, nizə, qılıc hər nə gəlir əhli-şəqavət
Zülm ilə vurur canimə yox məndə də taqət
Almış arayə cismimi bi şərm cəmaət
Bir nöqtəyə bənzər xəti-pərgar arasında
***
Gəl dövri-bərimdə firəqi-batilə bir bax
Min nazilə əmməm darıyan kakülə bir bax
Tiğ əldə tutan kakülimi qatilə bir bax
Gəl can verirəm qövmi-sitəmgər arasında
***

---

[1]Yaralı bədənimi
[2]Aşiqlər dəftərində
[3]Azad insanlar
[4]Ruh quşum

Növhə yazar ağlar mənə biçarə Kərimi
Bu şövq ilə daim gəzər avarə Kərimi
Bir vəqfəni həmrah ola zəvvarə Kərimi
Ta sinə vurub ağlıya zəvvar arasında

HƏZRƏTİ QASİMİN NÖVHƏSİ

**Yandım ey əmu yandım, cürə su səvab eylə (2)**
**Yandı ləblərim yandı, qətrə su savab eylə (2)**
***
Qeyrətin fəda olsun, bu Səkineyi-nalan
Təşnəlik salıb dildən, qəlbimi edib nalan
Bu susus uşaqların, dilləri olub büryan[1]
İstidir, həlak olduq, qətrə su səvab eylə
***
Yox əmu təvan[2] məndə, qəlbidən alovlannam
Bəzi xırda ətfalun,[3] haluna baxıb yanam
"Əl-ətəş"[4] deyər söylər, yandım əl-əman yandım!
Gəlmişik dəxilik biz, qətrə su səvab eylə
***
Bağrı qan ürəklərdə, istidi təvan yoxdur
Bəzi xırda qızlardan, qalmağa güman yoxdur
Bizlərə bu ləşgərdən, bilmişəm əman yoxdur
Əsğərin həlak oldu, qətrə su səvab eylə
***
Var səxa[5] uzun qolda, ey vəfalı sərdarım
Dəstə qız uşaqları, var əmu qonaqlarım
Qət ümid olam səndən, yox dilimdə inkarım
Min ümid ilə gəldim, qətrə su səvab eylə
***
Bu bəla çölü qandan, hər tərəf gəlir cuşə

[1]Kabab
[2]Qüvvə, qüdrət
[3]Uşaqların
[4]Yandım, susuzdan!
[5]Səxavət

Əsğərə əmu baxsan gər, əlin vurar başə
Gəh rubab edər fəryad, gəh ölər gələr huşə
Ah çəkir deyir səqqa,[1] qətrə su səvab eylə
***
Xeymələr ara baxsan, teşnələb qalan çoxdur
Heç kəsin bibim Zeynəb tək ətəş[2] olan yoxdur
Həm babam da ətşandı,[3] nitqdən düşən çoxdur
Sən özün də ətşansan, qətrə su səvab eylə
***
Əkbərin qəmi səbrin, almış Ali-Tahadan
Qalmadı kömək yoxdu, Kərbəladə Sultanın
Eylə sən fəda bir-bir, bu Minadə qurbanın
Bir pənahımız sənsən, qətrə su səvab eylə
***
Ey Xuda qəsəm[4] verrəm, ol rəşid ələmdarə
Kərbəladə ətşanlar, şahzadeyi-ətfalə[5]
Əkbəri cavan qalmış, Əsğəri dilarayə
"Gülçinə" o kövsərdən, qətrə su səvab eylə

## ƏLİ ƏKBƏR (ƏLEYHİSSALAM) MEYDANA GEDİR

Bəni Haşimdən döyüşə getmək üçün icazə alan ilk şəxs İmam Hüseyn (əleyhis-salam)-ın oğlu cənab Əli Əkbər idi. İmam Hüseyn (əleyhis-salam) ona döyüş icazəsi verdi, əziz oğlu meydana yola düşdü. Bu əziz şəhidə Əkbər (ən böyük) ləqəbi verilmişdi, çünki onun yaşı İmam Səccad (əleyhis-salam)-dan çox idi. Bunu İmam Zeynül Abidin (əleyhis-salam) özü buyurmuşdur: İbni Ziyad o həzrətə "məgər Allah Əlini (Kərbəla hadisəsində) öldürmədi?" deyəndə, İmam Səccad (əleyhis-salam) buyurdu:"Mənim özümdən böyük bir qardaşım var idi, siz onu öldürdünüz." İbni Ziyad dedi: "Yox, onu Allah öldürdü." İmam Səccad (əleyhis-salam) buyurdu:
"Allah, ölüm vaxtı gəlib çatanda canları alar." (Zümər, 42)

---

[1]Su işinə baxan
[2]Susuz
[3]Susuzdur
[4]And
[5]Uşaqların şahzadəsi

Məlumdur ki, bu mübahisə, Əhli-beyt və İsmət hərəminin qadınlarını darül-imarəyə gətirib, onları camaata ağır bir yük kimi təqdim edəndən sonra baş vermişdir.
Bəli, İmam Hüseyn (əleyhis-salam) görürdü ki, əziz oğlu meydana yola düşür və əcəl peyki başının üstündə dolanır. Belə olan halda gözlərindən qan-yaş axıtmaqdan başqa bir çıxış yolu görmədi. (Rəvayətdə deyildiyi kimi, "gözləri yaşla doldu") İmam Hüseysn (əleyhis-salam) əllərini göyə qaldırıb dedi: "İlahi, şahid ol ki, camaat arasında xilqət, əxlaq və danışıq cəhətindən sənin Rəsulun Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-ə ən çox oxşayan bir şəxs onlara (düşmənlərə) tərəf gedir. Hər vaxt Sənin Rəsulun yadımıza düşəndə, ona baxardıq. İlahi, yerin bərəkətini onlaradan al, onların arasındakı birliyi təfriqəyə, ittifaqlarını pərakəndəliyə döndər. Onlara müxtəlif yollara sal, heç vaxt əmirləri onlardan razı salma, çünki onlar bizə kömək etməyə də"vət etmiş, sonra isə bizə qarşı çıxıb bizimlə (bizi öldürmək üçün) vuruşurlar. Sonra isə "Ali İmra"n surəsinin 33-34-cü ayələrini tilavət etdi: "Həqiqətən Allah Adəmi, Nuhu, İbrahim və İmran övladlarını aləmlərə seçdi. (Bunlar) bir zürriyyədirlər ki, bir-birindən törənmişlər. Allah çox eşidən və biləndir."
Əli Əkbər at üstündə meydana atıldı. O, meydana girəndə düşmənlər heç fikirləşmirdilər ki, qəlblərinə sancılacaq ölüm caynaq, yaxud varlıqlarını məhv edən bir ildırımdır ki, qılıncından od tökülür. O, hamını öz şücaəti ilə heydan etmişdi, bəziləri də qorxudan yerində donub qalmışdı. "Allahu Əkbər", "təbarəkəllah" təkbirləri ucalır, hər tərəfə həmlə edəndə düşmən qaçmağa üz qoyur, onunla qarşılaşmağa cürət etmirdilər. Sağ cinaha hücum edəndə ordakıları sol tərəfə qovur, sonra qoşunun mərkəzinə hücum edirdi. Beləliklə düşmən pəhləvanlarından 120 nəfəri qanlarına qəltan etdi. Əfsus ki aldığı çoxlu zərbələr, axan qanlar və suzuzluq döyüşü davam etdirmək üçün onda güc, taqət qoymamışdı. Son nəfəslərdə öz atasının mübarək camalından biz az mənəvi azuqə götürüb Müqəddəs dərgaha pərvaz etmək istəyirdi, odur ki, gileylənib bədəninə dəymiş ox-qılınc yaralarından, bu yaraların nəticəsi olan susuzluqdan şikayət etdi, dedi: "Susuzluq məni öldürdü, zirehin ağırlığı taqətimi kəsdi. Görəsən bir qurtum su varmı ki, qüvvət tapıb düşmənə həmlə edəm?!"
İmam Hüseyn (əleyhis-salam) ona elə bir müjdə verib onu sakitləşdirdi: "Sən ilahi rəhmətin sonsuz dəryasına daxil olmaq ərəfəsindəsən, onun gəmiçisi də cəddin Rəsulullahdır, səni öz **saf** canı ilə sirab edəcək ki, heç vaxt susamayacaqsan."
Bunu deyib öz barmağını onun ağzına qoydu. Əli Əkbər yenidən meydana atıldı. Bütün vücudu o sadiqanə nurla, sevinclə dolmuşdu. Qılıncı ölüm quşu kimi düşmənin başına enirdi. Nəhayət öldürdüyü kafirlərin sayı 200-ə çatdı. İntizar sona çatdı, ağ şəhadət quşu onun pak başının üstündə pərvaza başladı. Mərrət ibni Mənqəz Əbdi onun başını qılınca hədəf etdi, sonra arxadan kürəyini nizə ilə parçaladı. Əli Əkbər qanına qəltan olmuş halda atın boynundan asılndı, at onu

düşmən qoşununun içinə apardı. Düşmənlər onun pak bədənini tikə-tikə doğradılar. Son nəfəsdə öz İmamı ilə vidalaşmağı unutmadı, düşmənin ağır zərbələri altında atasını çağırdı, onun verdiyi vədənin həqiqətə çevrildiyini söylədi: "Bu mənim cəddimdir ki, sizə salam göndərir; o, şərbət camı ilə mənə elə bir şərbət içirtdi ki, ondan sonra bir daha susuzmaram. O (cəddim) buyurdu: "Sizin üçün də bir cam hazırdır" Bu sözü eşidən İmam Hüseyn (əleyhis-salam) şahin kimi oğlunun üstünə gəldi: Peyğəmbər ailəsinin ümidini torpağa düşmüş, qan içində qərq olmuş halda gördü. Atalıq məhəbbəti cuşa gəldi, özünü oğlunun tikə-tikə doğranmış bədəninə atdı, üzünü onun üzünə qoydu« Həyatının son anları idi, vidalaşmaq üçün fürsət qalmamışdı. İmam Hüseyn (əleyhis-salam) buyurdu: "Səndən sonra dünyanın başına kül olsun! Onları mehriban Allaha Rəsulullahın hörmətini pozmaqda hansı şey cürətləndirmişdir? Sənin atan, əmin və cəddinə çox ağırdır ki onları çağırasan, onlar da sənə cavab verməyələr, köməyə çağırasan, fəryadına yetişməyələr."
Həzrəti Əli Əkbərin şəhadətindən sonra İmam Hüseyn (əleyhis-salam) Ömər Sədin üstünə nə"rə çəkib buyurdu: "Allah nəslini kəssin, necə ki mənim nəslimi kəsdin, mənim Rəsulullah ilə olan qohumluğuala baxmadın. Allah səndə bərəkət qoymasın, səni elə bir adamın əlinə salsın ki, o sənin başını kəssin!"[1].
Sonra İmam Hüseyn (əleyhis-salam) ürəyinin parçasının–Əli Əkbərin parə-parə olmuş bədənini xeymələrə aparmaq üçün taqəti kəsildi, Bəni-haşim cavanlarını çağırdı ki onu şəhidlərin xeyməgahına aparsınlar..

ALLAHA TAPŞIRDIM SƏNİ

**Get Əli Əkbər oğul, Allaha tapşırdım səni(2)**
**Şibhi Peyğəmbər oğul Allaha tapşırdım səni(2)**
***
Çək qılınc Heydər kimi, bir həmlə et bu ləşkərə
Vur bu düşmən səflərin murü-mələx[2] tək bir-birə
Mümkün olsa bir içim su al Əliyyi Əsğərə
Təşnədir Əsğər oğul, Allaha tapşırdım səni
***
Kərbəla dəştin necə pər şurişü-qovğa dutub
Xeymələrdə indidən ahü-fəğan ərşə çatıb
Bir səni öldürməgə əldə ədu yekca dutub
Nizəvü-xənçər, oğul, Allaha tapşırdım səni
***

[1]"Lühuf", səh 63; "Təzəllümüz-Zəhra", səh116
[2]Qarışqa və çəyəirtkə

Kərbəla dəştində sən bir ahuyi-azadəsən
Tuş olarsan, qorxuram bir cansitan[1] səyyadə sən
Yekkəvü-tənha qalırsan bir nəfər şəhzadə sən
Çoxdu bu ləşkər oğul, Allaha tapşırdım səni
***
Gətdi qurbangahi-eşqə Şahi-məzluman səni
Həqq yolunda ta Xəlilasa[2] edə qurban səni
Zülm əliylə eyləyərlər qanıva qəltan səni
Şümrü-bədəxtər oğul, Allaha tapşırdım səni
***
Raciya bəzmi-əzadə yüz min ahu zar ilən
Laləgün eylə cəhani dideyi xunbar ilən
Söylə əhli-matəmə bu misrəyi təkrar ilən:
“Get Əli Əkbər oğul, Allaha tapşırdım səni”

**<u>Aç gözün qanına qəltanım oğul</u>**
**<u>Sənə qurban yaralı canım oğul</u>**
***
Səni kim qanuva qəltan elədi
Şüğlümi naləvü-əfğan elədi
Gözümün yaşını alqan elədi
Ovc edib göylərə əfqanım oğul
***
Ey olan gül kimi xəndan bala vay!
Ey üzü qan ilə əlvan bala vay!
Sənə canım ola qurban bala vay!
Ey mənim Yusifi Kən”anım oğul
***
Ey qızıl qanına gül tək boyanan
Ey şərəri atəşə qəlbi yanan
Xeymədə indi yolun gözlər anan
Ey olan sərvi-xuramanım oğul
***
Gərçi Şam əhli tutub sağ-solumi
Qoy salım boynuva bir cüt qolumi

---
[1]Can alan
[2]İbrahim Xəlil kimi

Xeymədə gözləyir itrət yoluvi
Necə yanmaz dili suzanım oğul
***
Evimi yıxdı yıxılmağun Əli
Bu qızıl qanə boyanmağun Əli
Çoxdi əxyamidə müştaqun Əli
Gözləyir itrəti nalanım oğul
***
Mənə Səd oğli vurur zəxmi zəban
Verir oğlanların izzətlə nişan
Eylədi dil yarası bağrımı qan
Dil açıb tənəmə üdvanım oğul
***
Ey "Kərimi", sən Hüseyn nökərisən
Bu müqəddəs qapunun nokərisən
Oxşa bu dillər ilə Əkbəri sən:
"Aç gözün qanına qəltanım oğul"

GÖRDÜ QOŞUN ŞİBHİ-PEYAMBƏR GƏLİR

**<u>Gördü qoşun şibhi-Peyambər gəlir (2)</u>**
**<u>Rəzmə, ala göz Əli Əkbər gəlir (2)</u>**
**<u>Əlində şəmşir, Hüseynə yavər, (1)</u>**
**<u>Dilində zikri Allahu əkbər (1)</u>**
***
Surəti on dörd gecəlik mahi tək
Qeyzidən ə"zası əsir kahi[1] tək
Ərşeyi-zin[2] üstə yədullahi tək
Rüb"ülüdür Qabizil-ərvahi[3] tək
Qəsd eliyib yıxmağa Xeybər gəlir
***
Titrədi ləşgər uca təkbirilən
Şirləri heyrandı bu Həq şirinə
Bir hərəkət gər verə şəmşirinə

---

[1]Budaq, tel
[2]Yəhər üstə
[3]Canları alan (əzrail) tək vahiməlidir

Salsa otuz min nəfəri girinə
Həmleyi-əvvəldə müzəffər gəlir
***
Başda fərəh bəxşidi əmmaməsi
Qaməti rə”nası zireh caməsi[1]
Var rəvişində xətər həngaməsi
Çün görünür ayrıdı bərnaməsi
Mərkəb açıb quş kimi şehpər gəlir
***
Görmüş idi kimsənə Peyğəmbəri
Tez ona təşbihi verib Əkbəri
Bir-birinə söylədi bu sözləri
Yusifi Kən”an idi ya da digəri
İbni Rəsulullaha yavər gəlir
***
Olsa Peyəmbər bu gələn şəxs əgər
Zəhmətimiz vay bizə getdi hədər
Ləblərinə versə təkan müxtəsər
Qüdrətilən ərşi yerə endirər
Etməyə şəqqül-qəmər əzhər gəlir
***
Dəhridə yoxdu ona həmta[2] kişi
Tiğinin[3] əldə belə var ləğzişi
Versə bu cəngahidə bir çərxişi
Bizlərin Allaha qalıbdır işi
Xirməni-küfrə tökər azər[4] gəlir
***
Qaçdı verən tiplərə arastələr[5]
Çıxdı yerindən pozulub dəstələr
Düşdü üz üstə yerə at üstələr
Tapdı şikəst dirhəmə vabəstələr[6]

---

[1]Paltarı
[2]Tay, bərabər
[3]Qılıncının
[4]Od, şö”lə
[5]Qoşunu sahmana salanlar
[6]Pullara bağlı olanlar məğlub oldular

Buldu öz amalına keyfər gəlir
***
Gördü Ömər Səd bu keyfiyyəti
Tez tanıdı Əkbəri məh təl"əti
Səslədi əşxasi duni fitrəti[1]
Verdi xəbər ləşgərə fövriyyəti[2]
Bu nə Pəyambərdi nə Heydər gəlir
***
Ey qoşun amadeyi-peykar[3] olun
Sədd eliyin tez bu cavanın yolun
Bu gələn Əkbərdi tutun sağ-solun
Himmət edin qoymuyun açsın qolun
Açsa qolun dadə mələklər gələr
***
Verdi qulaq əhli qoşun yeksərə
Gördülər həmd etdi Həqqi-Davərə
Söylədi salavat o Peyğəmbərə
Etdi təvəssül babası Heydərə
Başladı söz əvvəl o axır gəlir
***
Etdi bəyan: Xaliqi Mütləq bilin
Yüz neçə min qasidini haq bilin
Cəddimi onlaridən əsbəq[4] bilin
Dinə verib məntiqi rövnəq bilin
Kim ona şənidə bərabər gəlir

XƏNCƏR VURULDU ƏKBƏRƏ
**Xəncər vuruldu Əkbərə, Allahu Əkbər (2)**
**Qan doldu şəhla gözlərə, Allahu əkbər (2)**
**Allahu əkbər, Allahu əkbər**
Baş parçalandı torpağa Əkbər yıxıldı
Mislinki[5] mehrabə o gün Heydər yıxıldı

[1]Alçaq sifət şəxsləri
[2]Təcili həmləni
[3]Döyüşə hazır
[4]Daha üstün
[5]Elə bil ki

Əsdi dizi şahən-şəhi məhşər yıxıldı
Düşdü vücudi ləngərə, Allahu əkbər
***
Mənadə hali-Əkbərə Taha baş açdı
Gəldi vəliyyi-Xaliqi Yekta baş açdı
Pəhluları sınmış xanım Zəhra baş açdı
Qəm üz verib Peyğəmbərə, Allahu əkbər
***
Quran fədası xeymədə əfğanə gəldi
Birdən "oğul vay" səslədi meydanə gəldi
Etsin məhəbbət no cəvan qurbanə gəldi
Baxdı yaralı peykərə, Allahu əkbər
***
Məzlum atası səslədi Əkbər balam vay
Xətmi-Rəsulə dəhridə bənzər balam vay
Yatma bacın səslər aman ey qardaşım vay
Qızlar əl atdı məcərə Allahu əkbər
***
Meydanidə Əkbər cavan öldü cavanlar
Peyğəmbərə bənzər cavan öldü cavanlar
Dini-həqqə yavər cavan öldü cavanlar
Sədmə yetişdi əllərə, Allahu əkbər
***
Bir aşiq idi baş verib canana xatir
Qanə boyandı sərbəsər Quranə xatir
Canın verib İmamına, Qurana xatir
Gəllik əli boş məhşərə Allahu əkbər

## İMAM HÜSEYN ƏLEYHİSSƏLAMIN OĞLU ƏLİƏKBƏRİN BAŞI ÜSTÜNDƏKİ ZƏBAN-HALI

**Dur ayağa ey sən bu dəştidə (2), Şövq ilə verən imtahan oğul (2)**
**Səslənir gəlib başın üstünə (2), Bu qoca atan, mehriban oğul (2)**
***
Doğruyub səni əhli kin belə, Rahi həqqidə etmərəm gilə[1]
Dur verək barı bircə əl-ələ, Xeyməyə gedək mehriban oğul
***

[1]Giley

İndi Zeynəbin bağrı qan olur, Halı əmməvün özgə san olur
Xunidir gözündən rəvan olur, Ney kimi sızıldar cavan oğul
***
Aç gözün əya məzhəri Rəsul[1], Gözlüyür Səkinə yolun məlul[2]
İndi ağlayır xahərin oğul, Firqətində eylər fəğan oğul
***
Olmadın Əli gərçi kamiyab, Eyliyib vəli, qövmi bi hicab
Zülfün, əllərin qan ilə xəzab[3], Şil olaydı yarə vuran oğul
***
Dur gedək bu dəm xeymiyə Əli, İndi Zeynəbin şivən eyləyir
Çox məhəbbəti var sənə vəli, Firqətin olar çox giran[4] oğul

## YATMA YARALISAN

Dur ayağa eyləmə xab oğul, Quru yerdə yatma yaralısan
Ürəyimdə qalmadı tab oğul, Quru yerdə yatma yaralısan
***
Sən idin gülü çəməni ədəb, Belə yatmağa nə olub səbəb?
Gözün aç gəlib şahi teşnələb, Quru yerdə yatma yaralısan
***
Yola saldı əhli hərəm məni, Xeyməyə gərək aparam səni
Gözü yolda qoyma Səkinəni, Quru yerdə yatma yaralısan
***
Məni əfvi qıl Şahi teşnələb, Belə yatmağa bu olub səbəb:
Yaralanmışam dura bilmirəm, Dahi xeyməyə gələ bilmirəm
***
Səni gözləyir Əli qardaşın, Dizim üstə qoy mən alım başın
Mən olum fədası bu gözün yaşın, Quru yeyrdə yatma yaralısaln
***
Baba qoyma sən bacım ağlasın, Cigərin fəğan ilə dağlasın
Yaralanmışam dura bilmirəm, Dahi xeyməyə gedə bilmirəm
***

[1]Peyğəmbərin məzhəri,oxşarı
[2]Qəmli, pərişan
[3]Qırmızı,
[4]Ağır

Aparım səni bacın ağlasın, Səni ölməmiş görüb ağlasın
Gözünü bacın özü bağlasın, Quru yerdə yatma yaralısan
***
Quruyub susuzdan oğul dilim, Qırılıb ləşgər, köməyim elim
Mənə rəhm elə bükülüb belim, Quru yerdə yatma yaralısan
***
Gərək ağlasın gözü-Zakirin, Düşə dillərə sözü-Zakirin
Bu sözü deyir özü Zakirin, Quru yerdə yatma yaralısan

LƏB TEŞNƏ VERİB
**Ləb teşnə verib canın (2) cananə Əliəkbər**
**Qurban ola ümmətlər (2) ol canə Əliəkbər**
***
Sən şibhi-Peyəmbərdin, ol şahə çü bənzərdin
Sanki o şücaətdə, həm fatehi-Xeybərdin
Ləb teşnə Hüseyn oğlu, həm də ona yavərdin
Canın ona bəzl etdin, mərdanə Əliəkbər
***
Yoxdu sənə bir həmta,[1] həm kani-şücaətdə
Əbbas əmun tək sən, vardın o məhəbbətdə
Yoxdu sənə misl olsun, bir kimsə məlahətdə
Səndin bu gözəllikdə bir danə Əliəkbər
***
Sən kani-şücaətlən, yetdin səfi-ə”dayə
Ətrafın alıb ə”da, əl açdılar də”vayə
Görcək səni şirani, üz qoydular səhrayə
Səflər pozulub düşdü, tufanə Əliəkbər
***
Əmr eylədi Səd oğlu, ol ləşgəri bi arə
Etmişdi neçün Əkbər, bu gün sizi avarə
Lazımdı vurulsun ox, yoxdu dəxi bir çarə
Baxdı hamısı yeksər, fərmanə Əliəkbər
***
Dövrü-bərivi aldı, meydanidə kafirlər
Tənha səni kim gördü, çünki o sitəmgərlər

[1]Tay, bərabər

Tir ilə kaman əldə, həm tiğilə xəncərlər
Cismin boyanıb yeksər, alqanə Əliəkbər
***
Atdan yıxılan dəmdə, səslərdin o mövlanı
Qurbanı qəbul olmuş, görsün o da Minanı
Şahi-şühəda gəzdi, həsrətlə çü meydanı
Ağlar göz ilə baxdı, qurbanə Əliəkbər
***
Aldı dizinə başın, şahənşəhi məzluman
Gördü ki, axır qanin, zülfün tökülüb hər yan
Şəhla gözüvü tutmuş, tufani-bəladən qan
Döndü sinəsi qandan, ümmanə Əliəkbər
***
Nə”şin götürüb gəldi, həm itrəti-Zəhrayə
Verdi xəbəri əvvəl, həm Zeynəbi-Kübrayə
Sən eylə xəbər bacı, bu halı o ətfalə
Axmış necə gör zülfü, hər yanə Əliəkbər
***
Bu qəmdə edib nalə, fəryadü-fəğan Zeynəb
Saldı başına qarə, həm qəddi kaman Zeynəb
Ətfalə xəbər verdi, göz yaşi rəvan Zeynəb
Salmışdı səni indi, hicranə Əliəkbər
***
Məddahün edər nalə, ağlar bu müsibətdə
Munisi ola Əkbər, həm ruzi-qiyamətdə
Ta qəbri ola rövşən, bəlkə ola rahətdə
Hüzzarin edər lənət, üdvanə Əliəkbər

## ŞAHZADƏNİ HƏML ETDİ...

Şahzadəni həml etdi, xərgahə[1] vəfa şahi
Şivən səsi doldurdu, ta xeyməvü-xərgahi
Gəldi bacısı gördü, qan içrə batıb mahi
Səsləndi Əli qardaş, ömrüm şərəfü-cahi
**<u>Dur gör necə ovc eylər, ərşə bacuvin ahi (4)</u>**
***
Gördüm ki, baban səslər, ey vay vələdi qardaş

---
[1]Xeyməgaha

Bildim ki fələk başə, nə kül ələdi qardaş
Kül başına kim cismün, qanə bələdi qardaş
Düşmən odur cəşn[1] eylir, ey çərxi vəfa mahi
Dur gör necə ovc eylər, ərşə bacuvin ahi
***
Bu cismidi doğranmış, ya ki gülü xəndandır
Bu əbridi mah üzdə, ya pərdə çəkən qandır
Bu haşimi xalındır, ya lö"lövü-mərcandır
Ya mürği-həyatımdır, beylə itirib rahi
Dur gör necə ovc eylir, ərşə bacuvin ahi
***
Ey hüsnü-cəmalindən, Yusif aparan həsrət
Tövhidi yaratmışdı, hüsnündə yədi-qüdrət
Qan çahinə[2] qərq oldun, ey Yusifi mah təl"ət
Min babi-ələm[3] açdı, Yəqubə bu qan çahi
Dur gör necə ovc eylər, ərşə bacuvin ahi
***
Bülbül gülü tərk etsə, gülzarı qalar başsız
Qəmxanə olar gülşən, bülbül gəzə yoldaşsız
Hansı şil olan əllər, qoydu məni qardaşsız
Qardaşsızın aləmdə, gülməz üzü vAllahi
Dur gör necə ovc eylər, ərşə bacuvin ahi
***
Bu qəmdə gözüm yaşı, gör səbrim evin yıxmaz
Qəm mancanağı təndə, mürği-dilimi sıxmaz
Ömrüm nə qədər olsa, dildən bu mühən çıxmaz
Su mövc edə dəryadə, ləb teşnə qala mahi[4]
Dur gör necə ovc eylər, ərşə bacuvin ahi
***
Qəlbim qan idi qardaş, ya qan süzülür başdan
Ya gül üzüvə qandan, şəbnəm düzülür başdan
Ya Tanrı kəsib ömrüm, şanə üzülür başdan
Neylim edərəm nifrin, bu ləşgəri-gümrahi

---

[1]Bayram
[2]Qan quyusuna, dəryasına
[3]Qəm, kədər qapısı
[4]Balıq

Dur gör necə ovc eylər, ərşə bacuvin ahi
***
Qardaş sən idin axər, başımda fərəh taci
Səndən sora mən ollam, tiri-mühən amaci
Qol bağlı quşa bənzər, qardaşı ölən baci
Mən neylirəm aləmdə, səndən sora bu cahi
Dur gör necə ovc eylər, ərşə bacuvin ahi
***
Qoydu bacuvi ağlar, bu qövmi-duni qardaş
Hər kimdi cavan ölsün, öldürdü səni qardaş
Qəlbində olan yarə, yandırdı məni qardaş
Çox ağladım ağlatdım, bu oğlu ölən şahi
Dur gör necə ovc eylər, ərşə bacuvin ahi
***
Gəl "Ə"zəmi" fəryadə, bu söz çox əsər eylər
De Əkbərə göz yaşlı, məqbuli əgər eylər
Öz nokərinə gahi, şahzadə nəzər eylər
Bu növhəni ünvan et, göz yaşuvə sən gahi
Dur gör necə ovc eylər, ərşə bacuvin ahi

HƏZRƏTİ ABBAS (əleyhis-salam) DÖYÜŞ MEYDANINDA

Mübarizə bayrağını çiyninə götürən axırıncı kəs İmam Hüseyn (əleyhis-salam)-ın qardaşları idi, nəhayət onlardan təkcə Həzrəti Abbas (əleyhis-salam) qaldı. O, ucaboylu, göyçək bir kişi idi, ata minəndə ayaqları yerə çatırdı. Onun künyəsi Əbülfəzl, ləqəbləri Səqqa, Qəməri bəni Haşim idi və Kərbəlanın bayraqdarı hesab olunurdu. Qəməri bəni-Haşim şücaət nümunəsi, həmlə və döyüş aslanı idi. Onun heybətliliyi, qorxmazlığı surətindən görünürdü. Həzrət Abbas uşaqların susuzluqdan etdikləri nalələri eşidəndə, İmam (əleyhis-salam)-ın düşmənin dərya kimi ordusu arasında tək qaldığını görəndə səbir kasası doldu, yaralı bir aslan kimi irəli atıldı, Həzrətin qarşısında durub meydana getmək üçün izn istədi. Seyyidüş-şühəda onun şəhadət bağına pərvaz etmək istədiyini görəndə, izn verdi, buyurdu:
«Ê †g«Õ»†‰Ë«ΔÈ°†Ë‰„Ê†«Ô◊‰»†‰Áƒ‰«¡«‰«◊·«‰†‚‰È‰«Î†ÂÊ†«‰Â
«
**"Sən mənim bayraqdarımsan, lakin bu uşaqlar üçüün bir az su tap."**
Həzrəti Abbas (əleyhis-salam) su məşkini əlinə aldı, ata minib Fərata tərəf yola düşdü. O, bu böyük qoşundan heç də qorxmurdu. Suyun yanındakı mühafizəçiləri dağıtdı, suya qədəm qoydu, suyun sərinliyini hiss etdi və ovcunu su ilə doldurub içmək istəyəndə, İmam (əleyhis-salam)-ın susuzluğunu gözləri önündə canlandırdı. Özünə vacib etdi ki, suyu ovcundan yerə töksün; səy etdi ki, tez bir zamanda suyu

susuzluqdan ciyərləri yanan, dodaqları quruyan uşaqlara çatdırsın. Bunu görən düşmən ona həmlə etdi, amma o, qılınc zərbələri ilə düşməni yolun üstündən qovurdu. Bu vaxt Yəzid ibni Rəqa Cühəni Hükeym ibni Nofəlin köməyi ilə Əbülfəzl (əleyhis-salam)-ın yolu üstündə pusqu qurdu, gözlənilmədən ona həmlə edib sağ qolunu vurdular. Əbülfəzl (əleyhis-salam) qılıncı sol əlinə alıb yenidən döyüşə girişdi, buyurdu: “And ona Allaha, sağ qolumu vursanız da, yenə də sizdən əl çəkmərəm; öz dinimi, həqiqətən yəqinə çatmış İmamımı, doğruçu və əmin Peyğəmbərin nəvəsini himayə edəcəyəm.”
Bu vaxt Hükeym ibni Tüfeyl xurma ağacının arxasında pusquda idi, yerindən atılıb Əbülfəzl (əleyhis-salam)-ın sol qolunu da qılıncla vurdu. Həzrəti bayrağı və su məşgini sinəsinə yapışdırdı. Düşmən ona hücum etdi, yağış kimi yağdırdılan oxlar o həzrətin kürəyinə sancılırdı. Bu vaxt bir ox su məginə, bir ox isə mübarək sinəsinə sancıldı« bir ox isə sağ gözünə. Sonra nəmərdlərdən biri həmlə edib əmudla onun mübarək başına vurdu, başını qana qəltan etdi« Daha tab gətirə bilməyib uca səslə fəryad etdi :”Məndən sənə salam olsun, ya Əba Əbdillah.”[1] Seyyidüş-şühəda (əleyhis-salam) qardaşının səsini eşidəndə, şahin kimi başının üstünü aldı, buyurdu: "İndi belim sındı, çarəm azaldı, düşmənim mənə şəmatət etməyə başladı" Sonra sınıq qəlb, qəm-qüssə qonmuş üz, göz yaşı dolmuş gözlə xeymələrə qayıtdı[2]

**Öpərik bu təşti cami, edərik fəğan Əbülfəz (2)**
**İki qolların su üstə, qələm oldu can Əbülfəz (2)**
***
Sənin ol müqəddəs adın, yazılıbdı təşti-camə
Edirik Hüseyn əzasın, adüvə biz ya Əbülfəz
Nə qədər cahanda su var, tapacaq bu qəm idamə
Su görəndə əhli-aləm, deyəcəkdi can Əbülfəz!
***
Eliyir adın gələndə, sənə kainati təzim
O məzarüvə həmişə, eyliyir Fərati təzim
Sənə həşr olunca eylər, hamı paki zati təzim
Aduva həmişə təzim, eyləyir cahan Əbülfəz
***
Bu məqamü-şənivi yox, eliyən cahanda inkar
Eyliyir vüsuli-izzət, qapuva dəxil olanlar
Sənə dərdini həmişə, eyliyən ürəkdə izhar
O nəhani-dərdə dərman, olacaq əyan Əbülfəz

---
[1]“Təzəllümüz-Zəhra, səh.120
[2]Kibriti-əhmər 1-ci cibd, səh.159

***
Necə yanmıyaq bu qəmdən, necə gəlmiyək fəğanə
Necə xuni-qəlbi gözdən üzə etmiyək rəvanə
Boyanıb sənin su məşgin, su yolunda ləxtə qanə
Su görəndə seyli-əşgi, edirik rəvan Əbülfəz
***
Yetişəndə başın üstə, şəhi teşnə gördü nagəh
Səni torpağa yıxıblar, sitəmilə qövmi gümrah
Başın üstə açdı başın, dedi vay vəzirim ol şah
Başuvi alıb diz üstə, şəhi insü-can Əbülfəz
***
Dedi dur ayağə qoyma, məni bi kömək bu çöldə
Gülür əşqiya görəndə, məni beylə tək bu çöldə
Ürəyim yanır əlin yox, verək əl-ələ bu çöldə
Eliyir bu qəmli ahın, məni bağrı qan Əbülfəz
***
Sənin adın ilə "Nasir" dilini edibdi mənus[1]
Onu daimən bəladən, eləyən adını məhrus[2]
Budur arizusi dildə, ola bir də asitan bus[3]
Öpə pak dərgəhindən, ala tazə can Əbülfəz
***

BƏHRİ-TƏVİL
Səhmi-səlatilə Əbülfəzli çün
Ləşgəri ə"dayə nəmayan olub
Heydəri-Səftər kimi şəmşirini
Vurdu qoşun əhli-hərasan olub
***
Ərşeyi-zin üstə tutubdur qərar
Ba vüqar qabizül-ərvah kimi zülfüqar,
Səfləri ta ki elədi tarü-mar
Ahü-zar etdilə çox ləşgəri bi nəngü-ar
Səxt olub ol qövmə o dəm karizar[4]

---

[1]Üns tutulmuş
[2]Hifz
[3]Qapısını, astanasını öpmək
[4]Döyüş

Ba hezar[1] zəhmət ediblər fərar
Ta ki qoşun əhlinə qalib olub
***
Toz tutub hər bir tərəfi ol zaman
Kərbü-bəladə elə tufan olub
Girdü-qübar içrə uzun əlləri, ləşgəri
Vəhşətə salmış tutulub dilləri
Heydəri-Kərrar kimi ləşgərə, səflərə
Həmlə edib nəzmü-nizamın pozub
***
Təblü-dəhəl sövtü[2] tutub göyləri, yerləri
Gətirdi təmami-məlaikləri
Yadə salıb şiri-xuda Heydəri, Xeybəri
Lərzəyə salmışdı hamı ləşgəri
Olmayacaq sağ qutaran cəngidən
Ləşgəri-ədalərə elan olub
***
Səfheyi-meydanə olubdur rəvan
Ləxtə qan oldu qiyamət əyan
Səslədilər nuri Əli, əl-əman, bir zaman
Rəhm elə bu ləşgərə şiri-jiyan
Etdilər Səd oğluna axər bəyan, şamiyan
Qalmadı ləşgərdə can
Çarə elə ləşgərə can verməyə
Kufəvü-Şam əhli şitaban[3] olub
***
Keçmədi ol qədri ki əfsus ola, ba cəfa
Yarə vurub cisminə qövmi-dəğa
Bu sözü guya deyib ol ba vəfa, ya əxa
Dərk elə Əbbasuvi ey binəva
Qardaşuvin peykərinə gör necə
Ox düzülüb misli-gülüstan olub
***
Qaldılar heyran hamı ol qeyrətə, himmətə

---

[1]Min
[2]Tibil, şeypur səsi
[3]Tələsən

Yetmədi axər əcəba niyyətə
Aləmiyan əhli düşüb heyrətə, möhnətə
Ağladı qan cümlə bu keyfiyyətə
Ver gələ tövfiqi Xuda rəhmətə, zəhmətə
Salma bu dünyadə yetir şövkətə
Çün bu sözün yazmağın
Rəhmət əmuzadeyi nalan olub

İMAM HÜSEYN (əleyhis-salam) VƏ ƏBÜLFƏZLİN DEYİŞMƏSİ
**Əbbasım, qardaşım, qəm günü yoldaşım (2)**
**Aç qanlı gözün, sənə var sözüm (2)**
**Bu ağır qəmə, mən necə dözüm?! (2)**
***
Ya Əbbas, al nəfəs, sən səyimə ver səs
Bu halətindən, qaldım nigaran
Gəl etmə məni, hali pərişan
***
Cəngdə çox döyüşdün, artıq haldan düşdün
Zalimlər səni, edibdir xəstə
Qoyubsan başın, isti qum üstə
***
Canım qurban sənə, bir nəzər et mənə
Nə olub sənə, ey nuri Xuda
Gül ləblərindən çıxmayır səda
***
Gəl məni qoyma tək, dur ayağa gedək
Axı bu çöldə, tənha qalmışam
Mən də sənin tək, yaralanmışam
***
Sinən üstə başım, hey axır göz yaşım
Əlimdən gedir, əziz qardaşım
Tənha sən idin, mənim qardaşım
***
Qandır əl-ayağın, quruyub dodağın
Bu isti yerdə, susuz qalmısan
Su görməyən gül, kimi solmusan
***
Aç gözün bir təhər, bax gör olur nələr

Bağda ağlayır, güllər çiçəklər
Səni görməyə, gəlib mələklər
***
Ey Əbbas Hüseynəm, yanuva gəlmişəm
Heç olmasa de, sən ürək sözün
Nə olub qardaş, gülməyir gözün
***
Ey yarü-yavərim, sənsən balü-pərim (2)
Yatma qumlar üstə, qolsuz sərləşgərim
Qəlbim döyünür, qardaş dur gedək
Düşmən sevinir, qardaş dur gedək
**Əbbas, Əbbas,**
**Oğulsuzam mən, qardaşsızam mən (2)**
***
Qardaş yandı evim, sənsən arxam elim
Səni bu halidə, görcək sındı belim
Əşgivi qanə, qatma Əbülfəz
Düşmən çalır əl, yatma Əbülfəz
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən
***
Sən nə ba vəfasan,[1] dərdə mübtəlasan
Tez gəl sən yoluvi, gözləyir ulduzlar
Ay batsa batar, göydə ulduzlar
Yoluvi gözlür, xeymədə qızlar
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən
***
Ey qəmər təl"tim, izzətim şövkətim
Belimin qüvvəsi, dizimin taqəti
Yıxdı evimi, Ali-üməyyə
Əsir olacaq, Şimrə Ruqəyyə
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən
***
C A V A B
Sərvərim, rəhbərim, istəkli dilbərim

---
[1]Vəfalısan

Oxlanıb su məşgim, kəsilib əllərim
Aparma məni, balalar gözlər
Nazlı qızların, özün öldürər
Əbbas, Əbbas
Oğulsuzam mən, qardaşsızam mən
***
Ey şəhi-din hamiye-Quran Hüseyn
Qardaşuvi yıxdılar atdan Hüseyn
Ey şəhi-aləmeyn, dadə gəl ya Hüseyn
**Amandı qardaş, amandı qardaş**
**Yaralıyam mən, vəfalıyam mən**
***
Seyyidi sərləşgəri təthir elə[1]
Nokərivə lütfüvü təcdid elə[2]
Əldə ölən şirivi bir did elə[3]
Ey pənahım mənim, dadixahim mənim
Amandı qardaş, amandı qardaş
Yaralıyam mən, vəfalıyam mən
***
Dövrədə qollar sınıb ey naxuda[4]
Bəhri-qəmə qutəvərəm bərməla[5]
Yerdə üzüm, yolda gözüm gəl şəha
Ey şəhi tacidar, ver mənə iftixar
Amandı qardaş, amandı qardaş
Yaralıyam mən, vəfalıyam mən

FARSCA MƏRSİYƏ
**Mən qole qolzare Əliyyi Mürtəzayəm (2)**
**Hafizi pərçəmi xunini kərbəlayəm**
**Mənəm ya əyyühənnas, Babül-həvaic Əbbas**
***

[1]Pakla
[2]Təzələ
[3]Gör
[4]Gəmiçi
[5]Büsbütün qəm-qüssəyə batmışam

Kocayi, bebini madərəm Ümmül-Bənin
Əbbasət oftade əz səri zin bər zəmin
Rahi məra bebəstənd, Fərqi məra şekəstənd
***
Bəradər Hüseyn can biya suyi Əlqəme
Aməde əz cenan madəriman Fatime
Mən aşiqi to həstəm, Coda şode do dəstəm
***
Ey bəradər bebin, çe aməde bər sərəm
Əşko xun ayəd əz du dideqani sərəm
Mən aşiqi to həstəm, Coda şode do dəstəm
***
Başəd in axirin arizuye hizbullah
Busəm şeş guşeye qəbri Əba Əbdillah
Ey Yusifi Fatime, Hüseyn Hüseyn Hüseyn can

İmam Səccad (əleyhis-salam) buyurdu: –Allah rəhmət etsin əmim Abbasa, canfəşanlıq etdi, igidlik göstərdi və canını öz qardaşına qurban etdi, nəhayət qollarını qılıncla vurdular. Sonra Allah onun qollarını əvəzində ona iki qanad kəramət etdi, o qanadlarla məlaikələrlə birlikdə behiştdə pərvaz edir. Necə ki, Allah Cəfəri Təyyara iki qanad vermişdi. Həqiqətən Abbas (əleyhis-salam)-ın Allah yanında elə böyük mənzifləti vardır ki, bütün şəhidlər qiyamət günü o məqamı arzu edəcəklər.
Tarix yazanlar qeyd etmişlər ki, İmam Hüseyn (əleyhis-salam) döyüş meydanından kənarda bir xeymə qurmuşdu və səhabədən, Əhli-beytdən olan şəhidləri oraya aparırdı, hər şəhidi ora gətirəndə buyururdu: "Bu cür ölüm Peyğəmbərlərin və onların övladlarının ölümü kimidir."[1]
Təkcə qardaşı Abbası atdan düşdüyü yerdə, Fəratın yaxınlığında qoymuşdu ki, şərif qəbri də elə oradadır. Bunun bir sirri vardırsa, bu sirr bəsirətli inanlara gizli deyil: Qəməri-Bəni Haşimin məzarının ayrı olmasının səbəbi budur ki, ziyarətçöilər onu ziyarət etməyə tələssinlər, hacətləri olanlar ora pənah aparsınlar və onun kəramətlərini görməklə ümmət onun Allah yanında olan qədir-qiymətini, məqam və mənzilətini dərk etsinlər. Burada Allahın vəlisi, höccəti istəmişdir ki, Əbülfəzl (əleyhis-salam)-ın zahiri məqlam-mənziləti elə onun mənəvi və axirət məqamı səviyyəsində olsun. Və əgər İmam Hüseyn (əleyhis-salam) onu sair şəhidlər kimi

[1]"Biharül-ənvar", 10-cu cild.

müqəddəs evə (öz hərəminin yanına) aparsaydı, bu parlaq ulduz İmam (əleyhis-salam)-ın günəş nurlu vücudunun nurunda qərq olacaqdı.

DÜŞDÜ ƏBÜLFƏZLİN ADI DİLLƏRƏ

**Düşdü Əbülfəzlin adı dillərə (2)**
**Şiə fəda ol kəsilən əllərə (2)**
**Ey Əhli-beytə, səqqa Əbülfəzl**
**Babül-həvaic, mövla Əbülfəzl**
***
Ey adı səqqa özü ətşan ağa
Kani-kərəm mənbəyi-ehsan ağa
Parçalanan başuvə qurban ağa
Dəryayi-fəzlin, məna Əbülfəz
***
Ey atası Heydərə nuri-bəsər
Can ağa eşqindən ürəklər əsər
Dərdi olan adüvə qurban kəsər
Eylə muradın, bərca Əbülfəz
***
Ey geyən eşqilə vəfa caməsin[1]
Haq bəyənən iydəvü-bərnaməsin[2]
Parçaladın düşmən amannaməsin
Etdin Yezidi, rüsva Əbülfəz
***
Qoyma ürəklər qəm odunda yana
Lütf eliyib baxsan Azərbaycana
Məkkədə şiələr boyandı qana
Yorğundu şiə, can ya Əbülfəz
***
Səndən ağa lütfü-əta istərik
Ruhə səfa dərdə dəva istərik
Təzkireyi Kərbübəlan[3] istərik
Eylə bəratın imza Əbülfəz

---

[1]Paltarın
[2]Allahın bəyəndiyi işlər
[3]Kərbübəlaya getmək üçün icazə

ƏRƏBCƏ MƏRSİYƏ

(HƏZRƏT ƏBÜLFƏZLİN MEYDANDA YARALANDIĞI ZAMAN DEDİYİ RƏCƏZ)
(Həzrəti Əbəlfəzlin oxuduğu rəcəz)
Əqsəmtu billahil-əəzzil-ə”zəm
Və bil-hücuni sadiqən və zəmzəm
Və bil-hətimi vəl-fənəl-mühərrəm
Lə nəxzibənnəl-yövmə cismi bidəm
Dunəl-Hüseyni zil-fəxaril-əqdəm
İmamu-əhlil-fəzli vət-təkərrüm
La əhrəbul-məvtə izil-məvtu zəqa
Hətta uvazi fil-məsaliti ləqa
Nəfsi libnil-Mustəfat-tuhri vəfa
İnni ənəl-Əbbasu uğdu bis-səqqa
Və la əxafuş-şərrə yəvməl-multəqa
Vəllahi in qətətümu yəmini
İnni uhami əbədən ən dini
Və ən İmamin sadiqil-yəqini
Nəclin-nəbiyyit-tahiril-əmini
Ya nəfsi, la təxşəy minəl-kuffari!
Və əbşiri birəhmətil-Cəbbari
Ma ən-nəbiyyis-seyyidil muxtari
Qəd qətəu bi bəğyihim yəsari
Fə əslihim ya Rəbbi hərrən-nari

HƏZRƏTİ ZEYNƏBİN İMAM HÜSEYNƏ XİTABƏN ZƏBAN-HALI
**Qurban olum göz yaşuva az ağla qardaş (2)**
**Nə gəldi bəs qardaşuvə az ağla qardaş (2)**
Yoxsa ələmdarın ölüb qaldın köməksiz
Bir çarə qıl öz başuvə az ağla qardaş (2)
***
Yağış kimi gül surətə əşgin olursan
Qan yaş ilə rüxsarivi qanə bulursan
Sərləşgərin harda qalıb yalquz gəlirsən
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

***
Qardaş sənin halında var bir özgə aləm
Elani matəm eyləyir bu qanlı pərçəm
Getmişdin Əbbas ilə sən meydanə bahəm
Nə gəldi bəs qardaşuvə az ağla qardaş
***
Gəldi səsi qardaşuvə özün yetirdin
Söylə görüm qaldı özü ya əl gətirdin
Ya gəlmədi Əbbas özü məşgin gətirdin
Nə gəldi bəs qardaşuvə az ağla qardaş
***
Qardaş qəmini qardaşı öz göz yaşında
De bir görüm qardaşuvin nə var başında
Qalmış nədəndi gözlərin nizə başında
Nə gəldi bəs qardaşuvə az ağla qardaş
***
Qardaş fəraqində deyər söz başı qardaş
Dərdin bəyan et qan olur göz yaşı qardaş
Salmaz belə yalquz yola qardaşı qardaş
Nə gəldi bəs qardaşuvə az ağla qardaş
***
Bir də demə Əbbas adın başlanmasın yas
Bülbül qalar nə halə gör olsa gülü yas
Aləm bilir səndən Hüseyn ayrılmaz Əbbas
Nə gəldi bəs qardaşuvə az ağla qardaş
***
Mən porsişi hal eylərəm nə dillər ilə
Bəs neyləsin Zeynəb bacın bu qəmlər ilə
Getsə hara şahlar gələr sərləşgər ilə
Nə gəldi bəs qardaşuvə az ağla qardaş
***
Dadə çağırsa qardaşın qardaş verər səs
Ver bir xəbər Əbbasidən ey şahi bi kəs
Tək gəlmisən sərləşgərin harda qalıb bəs?
Nə gəldi bəs qardaşuvə az ağla qardaş
***
Təndən əlaqə rəxtini[1] aləmdə soydun

[1]əlaqə və bağlılıq paltarını

Doymazdın ondan sən Hüseyn nə oldu doydun?
Ya cismi bəndi-bəndini meydanda qoydun?
Nə gəldi bəs qardaşuvə az ağla qardaş

**Sən ki ey sərdar idin, din ehtiramın saxladın(2)**
**Başın üstündə odur əsrin İmamın saxladın (2)**

***
Kərbəladə nüsrət etdin dinə başi canilən
Açdı pər şəhbazi tək gül peykərin peykanilən
Verdi qiymət şahi din, canın sənə qurbanilən
Hörmətin var sən ki dinin ehtiramın saxladın
***
Gərçi aləmdə şəhi ətşanə sən qardaş idin
Qəm günündə leyk Hüseyni bi kəsə yoldaş idin
Orduyi islamidə sərbazi hazir baş idin
Verdin əldən əl vəli dinin məramın saxladın
***
Sən o radimərdisən[1] girdin Fəratə teşnələb
İçmədin su nəhridən çıxdın susuz ey ba ədəb
Əbdi saleh isminə oldun cahanda müntəxəb
Çün kəmiyyət nəfsivün əldə licamın saxladın
***
Eylədin ibrazi raz ey aşiqi canbazi din[2]
Əllərin, başın cahanda oldu payəndazi din
Peykərin şəmşirilə doğrandı ey sərbazi din
Məhşərə amma o zülmün intiqamın saxladın
***
Daşdı eşqin camı aldı qəlbivin aramını
Səfheyi cismində oxlar yazdı din əhkamını
Baxmadın sındırdılar zülmilə gülgün camını
Ta şikəstə dildə məhfuz eşqi camın saxladın
***
Şahi din Kərbübəladə qoydu bir bünyadi eşq[3]

---

[1]Alicənab
[2]Dinin fədakar aşiqi
[3]Eşqin yünövrəsi

Ta rümuzi eşqidən[1] agah ola əfradi eşq
Məktəbi eşqə müdir etdi səni ustadi eşq
Məktəbi eşqin gözəl nəzmü-nizamın saxladın
***
Ey əmin şiri şəhamət qabili təqdirisən
Ləşgəri ə"da bilirdi cəngidə çün şirisən
Şahi din əmr eyləmişdi çəkmədin şəmşiri sən
Şahi dinin hörmətü-şəni əzimin saxladın
***
İzni versəydi sənə sultani məzluman əgər
Ləşgəri əşrari eylərdin yəqin zirü-zəbər
Ey adı səqqa özü nokər adıyla müftəxər
Nə gözəl aləmdə sən mövla məqamın saxladın
***
"Ə"zəmi" yazdı cəhanə eşqin elan eylədi
Başü-cismin, əllərin islamə qurban eylədin
Nəfsivi qurbani nəfsi şahi ətşan eylədin
Həşrə dək öz nəfsivin şəni əzimin saxladın

ƏBBAS

***Əbbas, Əbbas, Əbbas, ey sahib-ələm qardaş (2)***
***Ey itrəti-əthara, səqqayi-hərəm qardaş (2)***
***Qan olub əşgin, oxlanıb məşgin (2)***
***Din üstə oldu qolların, ta qələm qardaş (2)***
***
Ey mahi bəni Haşim, gözlür səni ulduzlar
Qan içrə xüsuf etdin, gözlər səni al qızlar
Səslir səni xeyməndə, cam əldə susuz qızlar
***
Ey qafilə salarım, ey arxam elim qardaş
Ey gözlərimin nuru, arami dilim qardaş
İndi azalıb çarəm, dur sındı belim qardaş
***
Sən itrətə səqqasən, sərdari sipahimsən
Tufani həvadisdə, zülmatidə mahimsən
Aç gözlərini gəldim, qan içrə batan qardaş

---
[1]Eşqin rəmzlərindən

***
Ayrılmağa yox taqət, aç gözlərini qardaş
Salmış səni bu halə, hansı kafər qardaş
Xeyməndə səni gözlər, itrəti əthar qardaş
***
Sən pərçəm ələ aldın, sahib ələmim qardaş
Sən əzmi Fərat etdin, can baş ilə ey qardaş
Səs ver nə olub indi, düşdün bu yerə qardaş
***
Versən səsimə bir səs, aram taparam qardaş
Açsan gözüvi bir dəm, qüssəm dağılar qardaş
Yoxsa elə bu çöldə, bil sındı belim qardaş

YA HÜSEYN...
**Verrik anan Fatimiyə biz qəsəm (2), Qıl nəzər aşiqlərivə ya Hüseyn**
**Qoyma qalaq qəbrivə həsrət bu il (2), İstə bizi məhzərivə ya Hüseyn**
***
Yada düşər çün o zərihi təla[1], Ney kimi dildən edərik biz nəva
Bərməla eylərik həqqidən dua, Etsin o qəbri bizə qismət Xuda
Əxz eliyək xaki dərindən[2] şəfa
***
Türbəti pakın eliyək tutiya, Cari edək şövqilə sübhü-məsa[3]
Dərcdi bəsərdən köhəri por bəha, Ol hərəmi əthərivə ya Hüseyn
***
Yada düşər bülbülü-xunin pərin, Mərhəmi zəxmi dili qəm pərvərin
Sinəvün üstündə yatan Əsğərin, Mərhəmi zəxmi dili qəmpərvərin
***
Ziri qədəmində mələk mənzərin, Mahi liqa zöhrə cəbin Əkbərin
Sübhü həyatindəki əşk əxtərin, Gül kimi səd parə o gül peykərin
İstə hüzurində bu aşiqlərin, Tutsun əza Əkbərivə ya Hüseyn

QALƏ RƏSULULLAH (S)

---
[1]Qızıl zərih
[2]Qapının torpağından
[3]Sübh və axşam

Qalə Rəsulullah, nuru eyni:
“Hüseynü-minni ənə min Hüseyni”
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Dər vəsəti kuçə tu ra mizədənd
Kaş be cayi tu məra mizədənd
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Bu Hüseyn kimdi ki aləm hamı divanəsidi
Bu necə şəm”di ki aləm hamı pərvanəsidi
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Oldu əcəb tirə qara Kərbəla
Sibti Rəsul qətlə yetib vaveyla
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Daş götürüb vurmağa ol peykəri
Kufəlilər, Varisi Peyğəmbəri
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Oxladılar tifli Əli Əsğəri
Qanə bələşdi onun gül peykəri
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Şiələrin qara geyib ağlayır
Əkbərə Əsğərə əza saxlayar
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Zeynəb olub didəsi giryan ağa
Öldü Əli Əkbərin ətşan
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Qismət elə qəbrinə zəvvar olaq
Gəlib sənə Hüseyn əzadar olaq
**Hüseyn can, kərbəla, Hüsen, Hüsen, Hüsen**
***
Ya əvvələ Ali-Əba, Mövla Rəsuli Mustafa
***
Ya Saniyə Ali-Əba, Mövla Əliyyi Mürtəza

***
Ya Salisə Ali-Əba, Ya Fatimə Xəyrun-Nisa
***
Ya Rabiə Ali-Əba, Mövla Həsəni Müctəba
***
Ya Xamisə Ali-Əba, Hüseyn Şəhidi Kərbəla

RƏCƏZ

**Şahi təşnələb, Heydər oğluyam, Məhşərdə saqi kövsər oğluyam**
***
Əsğərim yanır, qövmi bihəya
Su verin ona, etməyin cəfa
Bu zülmi mənə görməyin rəva
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
Neyləmiş sizə Ali-Müstəfa?
Bu qədri zülmü görmüsüz rəva
Etmərəm sizə dəxi iltica
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
Getmiş əlimdən yarü-yavərim
Teşnə can vermiş ələm pərvərim
Doğranıb Qasim, nazlı Əkbərim
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
Ümmətə fəda verdim Əkbəri
Oxladız susuz Gümi Əsğəri
Ali Heydərin soldu gülləri
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
Rehlət edəndə Xətmül-Ənbiya
İki şeyi çün eylədi nida
Hörməti övlad, müshəfi Xuda

Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
Yaxşı saxladız bizə hörməti
Əvəzi hörmət, etdiz zilləti
Kafərlər edər sizə nifrəti
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
Bu günləri mən etmişəm qəbul
Yanmasın narə ümməti Rəsul
Şəfaət edər həm anam Bətul
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
Kim görüb böylə, zülmü-sitəmi
Kim qəbul edər bir belə qəmi
Hüseyndir tutan, qanlı pərçəmi
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam
***
“Məddahi” Əli arizu edər
Mümkün olsa ol qəbrüvə gedər
Qəbrü-pakuvi ağuşə çəkər
Şahi təşnələb, Heydər oğluyam
Məhşərdə saqi Kövsər oğluyam

QƏRİB HÜSEYN VAY
**Mənim yaralı qardaşım, çəkibdi çox bəla başım**
**Axır üzarə göz yaşım, qərib Hüseyn vay (2)**
***
Çəkir qətari sariban, gedir Dəməşqə karivan
Ruqəyyə oldu bağrı qan, oyan dalımca ver əzan
Qərib Hüseyn vay, qərib Hüseyn vay
***
Hanı əmiri ləşgərim, hayanda qaldı Əkbərim
Oyan yaralı sərvərim, sinəmdə qaldı əllərim
Qərib Hüseyn vay, qərib Hüseyn vay

***
Hərəmlər oldu dil kəbab, ediblər saçların niqab
Tutub vücudum iztirab, tapammır Əsğəri Rübab
Qərib Hüseyn vay, qərib Hüseyn vay
***
Solubdu zülm ilə çəmən, edim sənə nə çarə mən
Xəcalətəm bağışla mən, sənə tapammıram kəfən
Qərib Hüseyn vay, qərib Hüseyn vay
***
Yetişdi güllərin sənə, Əliyyi Əkbərin sənə
Yaralı Əsğərin sənə, bu Ovnü-Cəfərin sənə
Qərib Hüseyn vay, qərib Hüseyn vay
***
Bir iddə bağrı qan mənim, Rübabi natəvan mənim
Xərabə aşiyan[1] mənim, gülüb üzüm haçan mənim
Qərib Hüseyn vay, qərib Hüseyn vay
***
Gərək cəhanə od salam, xərabələrdə çox qalam
Ölə bu nazənin balam, o qanlı köynəyin alam
Qərib Hüseyn vay, qərib Hüseyn vay
***
Haçan vüsalə əl çatar, bağun sirişki qan çatar
Məgər bu qüssəni atar, danışmasam qanın batar
Qərib Hüseyn vay, qərib Hüseyn vay
***
Gərək öpəm bu həncərin,[2] bu parə-parə peykərin
Yanır bu qəmli xahərin, gedibdi əldən əllərin
Qərib Hüseyn vay, qərib Hüseyn vay

**Hər dəm deyərəm suz ilə ey vay Hüseyn vay (2)**
**Meydanda olan qanına gülnar Hüseyn vay (2)**
***
Nə zülmüdü eylibdü sənə qövmi sitəmgər
Bir bikəsə bu qədri vurub nizəvü-xəncər
Sağ yer tapa bilməm öpüm ey sərvəri bikəs
Öpdüm ayağın altını naçar Hüseyn vay!

---
[1]Xaraba yuva
[2]Boğazın

***
Bilməm bu nə sirdir anam oğlu məni bikəs
Başuvi kəsib Şümr nə olmuş əlüvə bəs
İstəkli bacun Zeynəbəm axər mənə ver səs
Söylə əlüvə neyliyib əşrar Hüseyn vay
***
İmdi məni səndən ayırır ləşgəri üdvan
Qol bağlı çəkir zillətilə gözləri giryan
Nə”şün arada qaldı əya şahi ləbə tşan
Qoymadı qılam dəfni bu küffar Hüseyn vay
***
Qılmış sənilə qövmi cəfapişə ədavət
Soymuş yaralı nə”şivi bu qövmi rəzalət
Qardaş çəkərəm həşrə kimi mən də bu zillət
Qoydum yaralı cismivü mən xar Hüseyn vay
***
Tərk etməz idim zülmilə bu vadiye şuri
Görsəndi məni qəmzədəyə arizu nuri
Olmuş bu gecə xabigəhin[1] Xuli tənuri
Dalunca gəlir həsrəti didar Hüseyn vay
***
Gəh Fatimə ağuşi sənin məhdi cəlalın[2]
Gəh ərşi Xudavəndi olub cayi vüsalin[3]
Gəh Xuli tənurində kül üstündə cəmalun
Gün tək çıxır ey xazini əsrar[4] Hüseyn vay
***
Ahim bacun ölsün bu gün aləmləri dağlar
Əssaə[5] gəlib Şimri bizi qol-qola bağlar
Başunlə məni Şamidə dərvazədə saxlar
Çün tənə vurar qövmi bədəfkar Hüseyn vay
***
Səndən necə mən ayrılım ey şahi Hicazım

[1]Yataq yerin
[2]Gözəl beşiyin
[3]Vüsal yerin
[4]İlahi sirlərin xəzinədarı
[5]Bu saat

Ahim sənilə kəşf edəcək aləmə razım
Var Şami yolunda sənilə razü-niyazım
Gör Şümr edəcək onda nə rəftar Hüseyn vay
***
Bu ərsədə nə"şindən əlimi üzərəm mən
Başə nə qədər qəmçi vurulsun dözərəm mən
Başunla Hüseyn çöldə piyadə gəzərəm mən
Düşvarüdü[1] çox təneyi əğyar Hüseyn vay
***
Başüvi vurub Şimri Sinan nuki cidayə
Bir kimsənə qalmubdu gələ imdi hərayə
Ümmid qalıb qardaş Hüseyn Zeynələbayə
Yox onda da kim taqəti qoftar Hüseyn vay
***
Ya Rəb bi həqqi xaliseyi zöhreyi Zəhra[2]
Qıl hacəti məşrueyi hüzzari[3] Sən icra
**Tuti** bu müsibətdə hər il səbt elə tuğra
Qıl şiələri halidən əxbar Hüseyn vay

Vidayi axərin edib (2) cənabi şahi övliya
Üqabin aldı ləşgərə, qətari natiqi Xuda
**Zəmanədə mənəm İmam (3)**
Ölüb Əliyyi Əkbərim
**Zəmanədə mənəm İmam**
Rəva deyil ki sağ qalam
**Zəmanədə mənəm İmam**
***
Yetib səfayi ləşgərə, dəhani dür fəşan açıb
İmami əsri vəzzəman, bu növ"ilə bəyan açıb
Atamdır babi Xeybəri, Əmiri möminan açıb
Vücudi baisi odur, zəmini asiman açıb
Sərasimi əraqini, o şahi insü-can açıb
Onun o tiği tizidir, şəriəti əzan açıb

---

[1]Çətindir
[2]Zəhranın gülünün həqqinə
[3]Hazır olanların şər"i hacəti

Fələk, mələk o sərvərə, edərlər hamı iqtida
Zəmanədə mənəm İmam
***
Mənəm hilali asiman, vücudi asiman mənəm
Dəruni nari eyliyən, əliylə gülsitan mənəm
Naməni atəşin edən, əmini mehriban mənəm
Əzəldə çeşmə axtaran, o ərsədə əzan mənəm
Çatıb müsibəti Xuda, rizayi insü-can mənəm
Əli Vəli balasıyam, əzizeyi cahan mənəm
Mən olmasam fəna olur, cahani şumi ma siva
Zəmanədə mənəm İmam
***
Dodaqlarım kəbabidir, gəlin edin səvabi siz
Rizayi Həqqə su verin, bu şahə cür"ə abi siz
Sitəm oduyla etməyin, bu sinəmi kəbabi siz
Olaydı həşr ilahiyə, verərmisiz cavabı siz
Nə qədri bilməyirsiniz, məadı siz, Kitabı siz
Qəmim budur ki çəkməyin, cəza günü iqabı siz
Verər əməl bizə görə, o gün Xudayi Həqq cəza
Zəmanədə mənəm İmam
***
Nəsihət eylədi nələr, o padişahi zülfirəng
Cəvabi gəlmədi ona, o qövmidən rizayi Həqq
Əl atdı Zülfüqarə ta, Yədullahı edib hərəm
Vuranda hər kəsə qılınc, kəsib keçib edib qələm
Qoşun dağıldı çöllərə, o dəştidə yatıb ələm
Çıxartdı sövti mərhəba, səvabi ərşə dəmbədəm
Fələk deyərdi mərhəba! Mələk deyərdi mərhəba!
Zəmanədə mənəm İmam
***
Əmini Cəbrəil də çün, baxırdı ərşidən yerə
Hüseynə baxdı ağladı, xitabı vurdu Heydərə
Gedəndə sən də ya Əli, mənimlə rəzmi Xeybərə
Çəkəndə Zülfüqarini, vuranda zərbi Əntərə
Nə növ"idir bu zövqilən, görüb çəkibdi dəftərə
Axıtdı əşgi həsrəti, belə dedi Peyəmbərə:
Əmoğlu Kərbəladı bu, Hüseyn haravü-mən hara!?
Zəmanədə mənəm İmam
***

Edəndə bəzmilən o gün, şücaət ilə Xeybəri
Yanımda sən kimi kömək, dağıldı zuri Heydəri
Hüseyn susuz bu gün özü, ölüb Əliyyi Əkbəri
Cəfa oxuyla oxlanıb, o şiri xarə Əsğəri
Təmami zülmüdən solub, bu çöldə qönçə gülləri
Batıbdı qanə qardaşım, olub ziyadə qəmlərim
Təmam olub köməkləri nə qövmü var, nə əqrəba
Zəmanədə mənəm İmam
***
Su deyib cümlə susuz verdilə can, 72 şiri jiyan
Həzrəti Əbbas Əbəlfəzlin iki dəsti qələm oldu
Ələm yatdı, qoşun sındı, cavan Qasimə yas
Tutdu Hüseyn qəmi Əkbər, rəbi ənvər, sözü şəkər
Əli Əkbər Bədəni xəncər ilə, parələnib, xaki Susuz yerdə, olub qaninə qəltan, Hüseyn ol şəhi Dil xəstə Əli Əsğəri gül dəstəsi tək aldı əl üstə, gəlibən durdu o dəm
Xəsmə bərabər, o mehri ənvər
Hulqumuna vuruldu peykan
Hərmələ kafər, qan içdi Əsğər
***
Ağladı Heydər, fatehi Xeybər
Qoşa gətirdi, Kərbübəlayə
Hüseyni zari, firqeyi kafər
Əqdimə bağlı, abi Fərati
Məhşərə dindü, o dəşti vəhşət
Xırda uşaqlar, mələşdi yeksər

Şimr[1] irəli çıxıb həyasızcasına dedi: –Ey Hüseyn ibni Əli, nə istəyirsən? İstədiklərini bizə başa sal, sənin məqsədini dərk edək.
İmam Hüseyn (əleyhis-salam) öz xitabəsini davam etdirdi: –Ey camaat, Allahdan qorxun və məni qətlə yetirməkdən əl çəkin. Bilin ki, mənim qanım sizə halal deyildir. Mənim hörmətimi sındırmaq rəva deyildir. Mən sizin Peyğəmbərin qızının oğluyam. Mənim nənəm Xədicə Peyğəmbərin arvadıdır. Siz o həzrətin ki

[1]Tarixin qəribəliklərindən biri budur ki, Şimr, vaxtilə Siffeyn müharibəsində Həzrəti əli əleyhissalamın qoşununda Müaviyəyə qarşı vuruşurdu, Həzrəti İmam Hüseyn (əleyhis-salam) da onu bir dəfə zindandan azad etdirmişdi. Amma Aşura günü İmam Hüseyn əleyhissalamın başını kəsdi. və onun azad etməsini də xatırlatdı, amma o qədər qəsavətli, daşürəkli idi ki, bu ehsanların heç bir təsiri olmadı.

buyuruduğu "Həsən və Hüseyn behişt cavanlarının sərvəridirlər" sözlərini eşitmişdiniz.
Şeyx Müfid yazır: "Sonra İmam Hüseyn (əleyhis-salam) öz atına minib uca səslə qoşunun hamısı, yaxud əksəriyyəti eşidən uca səslə buyurdu: "Ey camaat! Mənim sözümü eşidin, məni öldürməyə tələsməyin. İmakan verin, mən sizi vəzifəli olduğum şeylərə nəsihət edim və sizə höccəti tamam edim. Əgər insaflı olsanız, xoşbəxtliyə çatarsınız, yox əgər insanlıqdan əl çəkib məni təsdiq etməsəniz, ziyanını özünüz görəcəksiniz. Belə isə, öz məqsədiniz üçün bir yerə yığılın (ki gələcəkdə peşman olmayasınız). Sonra mənim barəmdə qəzavət edin və daha mənə möhlət verməyin. Şübhəsiz, mənim ixtiyar sahibim tək olan Allahdır ki O, yaxşı insanları himayə edəndir."
Bunu deyib Allah dərgahına şükür etdi, öz Allahına layiqincə həmd və sitayiş etdi. Sonra Onun Peyğəmbərinə, mələklərinə və sair peyğəmbərlərə salam göndərdi, daha sonra buyurdu: –Ey camaat, yaxşı-yaxşı baxın, görün mən kiməm, kimlə qohumam, sonra ağlınızı başınıza yığıb özünüzü məzəmmət edin. Baxın görün məni öldürmək sizin üçün rəvadırmı? Məni qətlə yetirmək etmək halaldırmı? Məgər mən sizin Peyğəmbərinizin qızının oğlu, onun canişini və əmoğlusunun oğlu deyiləmmi? Məgər mənim atam ilk mömin, Rəsulullahın pqyğəmbərliyinə şəhadət verən ilk şəxs deyildimi? Məgər seyyidüş-şühəda Həmzə mənim əmim deyildirmi? Məgər behiştdə iki qanadlı pərvaz edən Cəfər mənim əmim deyilmi? Peyğəmbərdən eşitdiyiniz "Həsən və Hüseyn behişt cavanlarının sərvəridir" kəlamı mənim və qardaşımın barəsində deyilmi? Əgər məni doğrudanışan bilsəniz elə–həqiqətdə də bu cürdür və Allaha and olsun ki, Onun yalan danışanlarla düşmən olduğunu eşitdiyim gündən, heç vaxt yalan danışmamışam–sözümü eşidin; yox əgər məni yalançı hesab etsəniz, onda sizin aranızda elə adamlar var ki, Peyğəmbərin bu sözü barəsində sizə xəbər verə bilər; Cabir ibni Əbdüllah Ənsari, Əbu Səid Xədəri, Səhl ibni Səd Samdi, Zeyd ibni Ərqəm, Ənəs ibni Malikdən soruşsanız, sizə deyərlər ki, onlar mənim və qardaşım barədə Peyğəmbərdən belə bir şey eşidiblər. İndi görün, bu qədər dəlil sizə, mənim qanımı tökməkdən əl çəkməyiniz üçün kifayət deyildirmi?
Şimr yenə də dedi: –Əgər sənin nə dediyini bildimsə, qoy Allaha şəkk əsasında ibadət edim. (Demək istəyirdi ki, sizin sözləriniz bizim üçün dərk olunmazdır, nə dediyini dərk etmirik.)
Həbib ibni Məzahir ona belə cavab verdi: –Ey Şimr! Allaha and olsun ki, sən Allaha 70 dolayısı yolla ibadət edirsən. Şəhadət verirəm ki, sən düz deyirsən və İmam Hüseyn (əleyhis-salam)-ın dediyini dərk etmirsən. Çünki sənin qəlbinə möhür vurulmuşdur, buna görə də qəlbində haqqa yer yoxdur.
İmam Hüseyn (əleyhis-salam) sözlərini davam etdirərək dedi: –Ey Camaat! Dediklərimdə şəkkiniz olsa da belə, deyin görüm mənim Peyğəmbərin qızının oğlu

olmağımda da şəkkiniz var? Allaha and olsun, məşriqlə məğrib arasında məndən başqa heç kim Peyğəmbərin oğlu deyildir; istər sizin aranızda olsun, istərsə də qeyrisində. Vay olsun sizə, məgər mən sizdən bir kəsi öldürmüşəm ki, onun qisasını məndən almaq istəyirsiniz? Yaxud sizin mal-dövlətinizi məhv etmişəmmi ki, onun əvəzində mənimlə vuruşursunuz? Yaxud bir kəsi yaralamışammı ki, qisasını məndən alırsınız?
Sizinləyəm ey Şibs, ey Hüccar, ey Qeys və ey Yəzid! Məgər siz məktubda mənə yazmamışdınız ki, "Meyvələr yetişmiş, bostanlar yaşıllaşmışdır və əgər sən bizə tərəf gəlsən, biz sənin intizarındayıq"?
Qeysə aşkar şəkildə xitab olunduqda, onun namərdliyi, vəfasızlığı hamının hüzurunda ifşa olunduqda tab gətirə bilmədi, İmam Hüseyn (əleyhis-salam)a dedi: –Biz sənin nə dediyini bimirik və sözlərini başa düşmürük. Sizin yalnız bir yolunuz var: Əmioğlun Yezid ibni Müaviyəyə tabe olun, o da sizə qarşı xoşagəlməz rəftar etməsin.
İmam Hüseyn (əleyhis-salam) buyurdu: –Yox! Heç vaxt belə bir iş görmərəm! Allaha and olsun, mən heç vaxt zilləti, xarlığı qəbul etmərəm, sizdən də qulların öz sahiblərindən qaçdığı kimi qaçmaram![1]

İMAM HÜSEYN (əleyhis-salam)-ın KUFƏLİLƏRƏ XİTABI
İmam Hüseyn (əleyhis-salam) bir daha öz atına mindi, Kufə ordusuna doğru hərəkət edib onlara dedi ki, bir neçə anlığa sakit olsunlar. Kufəlilər səs-küy, qarma-qarışıqlıq salaraq o həzrətin danışmasına imkan vermədilər. İş o yerə çatdı ki, İmam (əleyhis-salam) onlara qarşı qəzəblənib dedi: –Vay olsun sizə! Sizə nə olub ki, mənim sözlərimə qulaq asmaq istəmirsiniz? Mən sizi aydın hidayət yoluna çağırıram, hər kis mənə itaət etsə, yolu tapar, hər kəs mənə qarşı üsyankarlıq etsə, fəlakətə düçar olacaq. Və siz, ey camaat! Hamınız üsyankarsınız, haqq sözü eşitməkdən acığınız gəlir. **Ürəkləriniz** haramla dolmuş, qəlbləriniz möhürlənmişdir. Vay olsun sizə, niyə sakit olmursunsuz? Niyə sözlərimə qulaq asmırsınız?
Alçaqsifət kufəlilər azacıq özlərinə gəldilər, bir-birini danlayıb sakit oldular, İmam (əleyhis-salam)-ın sözlərinə qulaq asmağa başladılar. İmam (əleyhis-salam) əvvəlcə Allaha həmd-səna etdi, sonra Həzrət Peyğəmbərə, mələklərə və sair peyğəmbərlərə salam göndərdi, sonra buyurdu: –Həlak olasınız, ey camaat! Bu kişilikdəndirmi ki, bizi özünüzə tərəf çağırıb bizdən kömək istədiniz, biz də sizin də"vəti qəbul edib özümüzü təcili olaraq sizə çatdırdıq, indi bizim üzümüzə qılınc çəkib od yandırmısınız? Halbuki, bu odu biz özümüzün və sizin düşmənlərinizə qarşı hazırlamışdıq. Bu gün siz öz dostlarınıza qarşı kinə bəsləyir, düşmənlərinizlə əlbir olmusunuz. Halbuki, onlar sizin aranızda ədaləti bərqərar etməmiş, dünya

[1]Şeyx Müfid, "İrşad"

malından tamah gözü dikdiyiniz dəyərsiz həyatdan başqa bir şeyə ümid bağlamamısınız. Halbuki, bizim üçün nə bir hadisi baş vermiş, nə də zəifliyə, süstlüyə düçar olmuşuq. Vay olsun sizə ki, bizə kömək etməkdən əl çəkdiniz, bizə kömək etməyi xoşlamadınız, halbuki qılınclar qınında, qəlblər aram, düşüncələr möhkəm və qüvvətli idi. Amma siz fitnə odunu şö"ləndirib, çəyirtkələrin, kəpənəklərin o yana bu yana uçması kimi ona doğru tələsdiniz. Allahın rəhmətindən uzaq olasınız, ey ümmətin düşmənləri, ey cəmiyyəti tərk edənlər, ey Quranı özlərindən uzaqlaşdıranlar, ey şeytanın vəsvəsələrinə uyanlar, ey günahkarlar, ey Quranı təhrif edənlər, ey Peyğəmbər sünnəsinin nurunu söndürənlər, ey Peyğəmbərin övladlarının qatilləri, ey ilahi xilafət ailəsini məhv edənlər, ey zinakarların dəstəsinə qoşulanlar, ey möminlərə əziyyət verənlər, ey Quranı parça-parça edən zalım hökmdarlara kömək edənlər, necə də pis bir qədəm götürmüsünüz, necə də şiddətli əzab sizin intizarınızdadır! Doğrudan da zalımlarla əlbir olmaqdan, bizə kömək etməkdən əl çəkməyinizdən həya etmirsiniz? Bəli, Allaha and olsun ki, sizdə hiyləgərlik qədimdən vardır. Vücudunuzun kökləri hiylə ilə qarışmış, onun çirkin paltarı sizin əməllərinizin, rəftarlarınızın əndamına geydirilmişdir, qəlbləriniz onunla üns bağlamış, sinələriniz onunla dolmuşdur. Bəli, siz tamaşaçılar üçün ən pis meyvə, qəsbkar üçün ən dəyərsiz bir tikəsiniz. Allahın lənəti ilahi əhdi bağladıqdan sonra pozanlara, ayaq altına salanlara olsun. Siz özünüz Allahı öz işinizə ixtiyar sahibi seçdiniz, əhd bağladınız, amma onu pozdunuz. Siz elə əhd-peymanı pozanlarsınız. Ey camaat, agah olun ki, zinakar oğlu zinakar (Yezid) məni iki işin arasında qaymuşdur: ya qılınclarla doğranmaq, ya da xarlığı, zillətti qəbul etmək. Zillət bizdən uzaqdır. Allah, Onun Peyğəmbəri və möminlər bizi zilləti qəbul etməkdən çəkindirmişlər. Çünki bizim nəslimiz pak-pakizə, qəlblərimiz mənəvi inkişafdadır və heç vaxt alçaq, yaramaz və murdar adamlara tabe olmağı mərd-mərdanə şəhid olmaqdan üstün saymırıq. İlahi, mən höccəti tamam etdim, bunları pis aqibətdən çəkindirdim və indi öz azsaylı dostlarımla bu saysız düşmən qarşısında dayanıb vuruşacağam.

Bu vaxt İmam (əleyhis-salam) Fərvət ibni Müsəyk Muradinin şerindən bir neçə beyt oxudu: "Əgər qələbə qazansaq, elə qədimdən belə olmuşdur və əgər məğlub olsaq, yenə də qələbə bizimkidir. Qorxu, zəlillik və alçaqlıq bizim adətimiz deyildir, lakin alnımızda yazılıb ki, şəhadətə çataq və başqaları bizdən sonra hökumətə çatsınlar. Əcəl mənim tayfamın böyüklərini qətlə yetirdi, necə ki, qədimkilərlə də belə etmişdi. Bəli, əgər padşahlar əbədi olaraq dünyada qalsaydılar, biz də ölümdən xilas olardıq; və əgər böyük insanlar əbədi olsaydılar, biz də əbədi olaraq dünyada qalardıq. Belə isə sarsaq danışanlara de: "Ayıq olun ki, siz də bizim ona tərəf tələsdiyimizlə görüşəcəksiniz."

Sonra İmam (əleyhis-salam) belə buyurdu: "Allaha and olsun, siz (məni öldürəndən sonra) çox yaşamayacaqsınız, bir piyadanın ata minməsi müddətindən çox öz

arzunuza çatmayacaqsınız və bunun ardınca zəmanənin çarxı tərsinə fırlanacaq, dəyirman daşının oxu kimi nigarançılıq da, iztirabda qalacaqsınız. Belə isə öz fikirlərinizi bir yerə yığıb bir-birinizlə məşvərət edin ki, bu iş sizə gizli qalmasın. Sonra isə məni öldürün və bir an da olsa, möhlət verməyin. Mən öz Allahıma, sizin Allahınıza ümid bağlamışam və bilirəm ki, hər şey Onun qüdrəti dairəsindədir. Mehriban Allahın istəyi düzgün, ədalətli yolda möhkəm qərar tutmuşdur.
İmam (əleyhis-salam)-ın sözləri sona çatdı, Kufə qoşunu Rəsulullahın nəvəsinin son kəlamlarını –daş qəlbləri əridib suya döndərən sözləri eşitdilər, amma bu sözlər kufəlilərin qəsavət bağlamış qəlblərində əsla təsir buraxmadı.

**TƏZMİN**

***“Hüseynə yerlər ağlar, göylər ağlar”***
***Bətulo Mürtəza, Peyğəmbər ağlar.***
***(Dilriş)***

Hüseynin novhəsin (Dilriş) yazanda
Müsəlman səhldir ki, kafər ağlar.
Kor olmuş gözlərin qan tutdu Şimrin,
Ki görsün öz əlində xəncər ağlar.
***
Hüseynin köynəyi Zəhra əlində
Çəkər qeyha-qiyamət, məhşər ağlar.
Atanda Hərmələ ox Kərbəladə
Görəydin düşmən ağlar, ləşgər ağlar.
***

Rübab nisgil döşündə süd görəndə
Əliyyi Əsğəri yad eylər ağlar.
***
Başında kakili Əkbər həvasi,
Yel ağlar, sünbül ağlar, ənbər ağlar.
Yazanda Ali-Taha növhəsin mən,
Qələm gördüm sızıldar, dəftər ağlar.
***
Əli, şəqqül-qəmər, mehrab tilit qan,
Qulaq ver, məscid oxşar minbər ağlar
Əlidən, Şəhriyar, sən bir işarə
Qucaqlar qəbri, Malik Əştər ağlar.

Ey verən quru yerdə can Hüseyn
Rahi həqqidə can fəşan Hüseyn
İsti qumların üstə yarəli
Peykəri qalan qüslü qan Hüseyn
***
Tiğü-nizəvü-tiri düşmənə
Ey hədəf olan yarəli bədən
Hər yarəsinin qanı su kimi
Çöllərə axan teşnə can Hüseyn
***
Sən mənim Hüseynimsən aç gözün
Ver nişan özün cismi bi kəfən
Nitqə gəl soruş halimi əyan
Dərdlərim edim ta bəyan Hüseyn
***
Vurdu od cəfa ləşgəri Hüseyn
Yandı xeymələr cövri kinədən
Bali bəstə quş tək özüm gəhi
Vermişəm oda gahi didədən
Əşki tökmüşəm Abidin vəli
Çəkmişəm özüm çölə xeymədən
Va əba deyib xırda qızların
Mən də va əxa əl əman Hüseyn
***
Bir yanan çadır oldu mənzilim
Vurdu kufiyan qəmçi başıma
Ləşkəri cəfa taziyanələr
Vurdular əxa Ali Haşimə
Bir nə rəhm edən olmadı baxan
Ruyimə axan didə yaşimə
Tutdu qəlbimi qüssə nagəhan
Olmuşam odur natəvan Hüseyn
***
Gəlmişəm sənə dərdimi deyəm
Ver səsimə səs ey şəhi zaman
Ey yarasının məlhəmi turab
Təşnə su kənarində can verən
Çöllərə axan hər yarasının

Qanı su kimi yarəli bədən
Qəmli qəlbini cövri şamiyan
Kufiyan edib ləxtə qan Hüseyn
***
Ləşgəri cəfa qövmi əşqiya
Dövrəvi sənin aldı hər tərəf
Səngü-şəmşirü-tirü-nizəyə
Etdilər sənin peykərin hədəf
Yarə üstünə yarə vurdular
Nəzmilə nizamilə çəkdi səf
Yaralı sinən misli gülsitan
Oldu oxlara aşiyan Hüseyn
***
Xeymələr yanan vəqtə gəlmişəm
Dadə ya Hüseyn çox vurulmuşam
Gahi qaçmışam xeyməgahivə
Gahi məqtələ çox yorulmuşam
Gahi düşmənə nifrin eyləyib
Gah dayanmışam, gah yıxılmışam
Başıma vurub gahi kufiyan
Taziyanə gah şamiyan Hüseyn
***
“Qəmkeşə” nəzər eylə ya Hüseyn
Qərqidir bəla içrə ver nicat
İzni Xaliqi Zülcənah ilə
Həm həyatü-həm aləmi məmat[1]
Mövc edir bəla bəhri dadə gəl
Qıl xilas əya fülki sahiman
Rusiyahdı ərz eylər əl əman
Ey ümidi çarə cuyan Hüseyn
***

**<u>Zeynəbin qurbanların qardaş oyan dur sal yola (2)</u>**
**<u>Eyləmə məyusi dur başə dolandır sal yola (2)</u>**
***
Rahi eşqə yox bulardan qeyri zadi rahiləm[2]

---
[1]Ölüm dünyası
[2]Səfər azuqəsi

Zeynəbi məzlumənin gəl naümüd etmə belə
Bəndəqani Əkbərə[1] ver izni cəng azad elə
Zeynəbə bu mərhələ xoş imtahan dur sal yola
***
Bunlara məşqi cidalü-cəngi mən öyrətmişəm
Məktəbi də"va seçib çox fəslü-fən öyrətmişəm
Hər birinə dərsi cəngi tənbətən öyrətmişəm
Yatmayıbdır sübhə tək dərsi rəvan öyrətmişəm
***
Bu iki gül yadigari Cəfəri Təyyaridir
Fi səbilillah həmişə talibi peykaridir[2]
Gər bular nəvvadeqani[3] Heydəri Kərraridir
Bunlara şəhdi şəhadət nuşi can dur sal yola
***
Şənivə gərçi bular layiq deyillər ya Hüseyn
Töhfeyi dərvişi şah rədd eyləməz əmma Hüseyn
Sərbülənd eylə məni sən bil anam Zəhra Hüseyn
Qıl ta sandıq başə sal az yuban dur sal yola

## İMAM HÜSEYN (əleyhis-salam) KUFƏLİLƏRƏ HÖCCƏTİ TAMAM EDİR.

İmam Hüseyn (əleyhis-salam) müdam çalışırdı ki, müharibə odu mümkün olduqca gec qızışsın və kufəlilərə höccəti tamam etsin. Məhz bu səbəbə görə də özü Şam qoşununa tərəf getdi, onların qarşısında dayanıb bu böyük cəmiyyətə və ibni Sədə bir nəzər saldı. O, Kufənin böyük adamlarının içində idi. İmam (əleyhis-salam) buyurdu:–Dünyanı yaradan, onu məhv olmaq yeri qərar verən Allaha şükür olsun. Aldananlar məhz dünyaya aldananlardır, bədbəxtlər də dünya tələsində giriftar olanlardır. Ey camaat! Dünya sizi aldatmasın. Dünya, ona ümid bağlayan hər kəsi məyus edər; ona tamah salan hər kəsin arzusunu ürəyində qoyar. Bu gün mən görürəm ki, siz bir iş görmək üçün yığışmısınız. Allah doğrudan da bizim nə mehriban Allahımız var və siz də necə nankor insanlarsınız! Siz özünüz mənə itaət

---

[1]əkbərin qullarına
[2]Həmişə Allah yolunda döyüşü istəyən
[3]Nəvələr

etməyinizi, Rəsulullaha iman gətirməyinizi iqrar etdiniz. Amma indi o həzrətin ailəsi ilə müharibə etmək üçün qollarınızı çırmalayıb onu öldürmək istəyirsiniz.

## HƏMDƏN LƏKƏ YA ALAH

Həmdən ləkə ya Allah, Şükrən ləkə ya Allah
İğfir ləna ya Allah, Allah, Allah, Allah ya Allah
Allah ya Allah, Ya Allahü-ya Rəhman
Ya Allahü-ya.Rəhim, Ya Allahü-ya Məlik
***
Hüseyn mövlayi məzluman-2, Hüseyn ləb teşneyi Quran
Hüseynim vay Hüseynim vay
***
Əntə məbudi ilahi, Ya ğiyasəl müstəğisin
Hüseyn cəmalinə qurban, Hüseyn hər bir dərdə dərman
***
Ya Allahu ya Məlik, Ya Allahu ya Qüddus
Ya Allahu ya Səlam, Ya Allahu ya Mömin
Ya Allahu ya Əzim, Ya Allahu ya Mənnan
***
Ey dərd! Dərdə mübtəlayəm, Dər hüzurət ru siyahəm
Dərgəhət ümidgahəm, Şükrən ləkə ya Allah
Həmdən ləkə ya Allah
***
Hüseyn məhbubi aləmdi, Hüseyn sərdarin ə''zəmdi
Hüseynə hər gün Aşura, Hər il hər ay mühərrəmdi
Hüseyn mövlayi məzluman

## HARA GEDİRSƏN AY BABA

**Hara gedirsən ay baba (2), Dalınca ağlıyan gəlir (2)**
**Başında yarə var dayan, Yaravu bağlıyan gəlir**
***
Dedi qızım niyə məni, Belə qaçıb qabaqladın
Müsafirəm gözəl balam, Məni yol üstə saxladın
***
Evim yıxıldı vay ana, Batıbdır əllərim qana
Gəlib dalınca gör necə, Bir əldə qarə məcərin

***
Vəfasız aşiqəm əgər, Sənin qəmindən yanmasam
Gəlincə qətligahidən, Yol üstə mən dayanmasam
***
Ata gedib bala qalıb, Gəlibdi öz xiyaminə
Nə parə məşgə baxmadı, Nə batmadı su qəminə

**Qoyun qılım namazımı (2), Sora kəsin boğazımı (1)**
**Qonağızam vəfalıyam (2), Yaralıyam, yaralıyam (2)**
***
Su yoxdu dəstəmaz alam, Üz üstə səcdədə qalam
Ölüb əzan deyən balam, Cigər yanır əzalıyam
***
Bəla çölün duman tutub, Bu gülşəni xəzan tutub
İki gözümü qan tutub, Görürsüz ibtilalıyam
***
Çü dadü-kinə əkmiyin, Cinayətə tələsmiyin
Başımı teşnə kəsmiyin, Ki başı macəralıyam
***
Məni qoşun nədən vurar, Ərazili zəman[1] vurar
Gələn vurar gedən vurar, Solan gülün misalıyam
***
Çıxıb kamani kinədən, Dəyibdi ox bu sinədən
Əl üzmüşəm Mədinədən, Həmişə Kərbəlalıyam
***
Mən aşiqi şəhadətəm, Əmiri-mülkü-vəhdətəm
Fədayi-rahi-izzətəm, Bir aşiqin cəlalıyam
***
Köməklərim batıb qana, Düşüb hərəsi bir yana
Sızıldaram yana-yana, Ki ney kimi nəvalıyam
***
Gəlib qan ağlıyan bacım, O sinə dağlayan bacım
Gözümü bağlayan bacım, Deyir başı bəlalıyam
***
Kimim qalıb ki yar ola, Dönəmmirəm sağa-sola
Balalarım baxır yola, Ruqəyyədən aralıyam

---
[1]Zəmanənin ən rəzil v əalçaq adamları

***

Hüma kimi qəfəsdəyəm, Sorağı dadi-rəsdəyəm[1]
Ki axərin nəfəsdəyəm, Fəna olub bəqalıyam

HÜSEYN VAY

**Ey şiə bu gün söyləyin ətşan, Hüseyn vay**
**Ləb təşnə olan ümmətə qurban, Hüseyn vay**
***
Meydanda qalan bikəsü-biyar, Hüseyn vay
Ətrafın alan ləşgəri əşrar, Hüseyn vay
Hər yanə baxıb görməyən ənsar, Hüseyn vay
Bir ahi çəkib eyləyən əfqan, Hüseyn vay
***
Bir yanda görüb Əkbəri öz qanına qəltan
Bir yanda ələmdari olan xak ilə yeksan
Qasim bədəni lalətək ağuşdə qızıl qan
Bir yanda olan xeyməsi talan, Hüseyn vay
***
Bu Kufəvü-Şam əhli, bu birəhmi sitəmkər
Əldə hərə bir tirü-kaman, nəzəvü-xəncər
Həmlə eləyüb ol şahə ol firqeyi kafər
Atdan yıxılıb mənbəyi iman, Hüseyn vay
***
Xəncər əlinə aldı o dəm Şümr cəfacu
Ta yetdi Hüseynin başının üstə o bədxu[2]
Su istədi, Şümr vermədi bir cür"ə ona su
Əmma ki, deyib, təşnə verən can Hüseyn vay
***
Üz qoydu o dəm, xeymələrə ləşgəri üdvan
Bu hali görüb Ali-Rəsul, oldu hərasan
Zeynəb dedi bimarə: əya, Abidi nalan
Yoxsa ki, olub qanına qəltan, Hüseyn vay?
***

---

[1]Köməyə çatan
[2]Bədəxlaq

Əl açdı o dəm, qarət üçün ali-şəyatin[1]
Hər nə var idi xeymədə əsbabi-səlatin[2]
Qarət eləyib, bərhəm eliyüb bəzmü-büsatin
Ey şiə deyin xeyməsi talan, Hüseyn vay
***
Bir od vurub afaqidə bu zadeyi Süfyan
Ta məhşər olunca yanacaq aləmi-imkan
Nazim, bu qəmi zikr elə ta var nə qədər can
Vur başa söylə qüslü olan qan, Hüseyn vay

## DÜNYA MÖMİN ÜÇÜN ZİNDANDIR

İbni Babəveyh İmam Baqir (əleyhis-salam)-dan rəvayət etmişdir ki, İmam Zeynəl-Abidin (əleyhis-salam) buyurub: Aşura günü düşmən qoşunundakılar çox qorxurdu, halbuki sayları qat-qat çox idi. və İmam Hüseyn (əleyhis-salam)-ın əshabını mühasirədə saxlamışdılar. Amma qəlbləri çox qorxaq, rəngləri qaçmış, ayaqları lərzəyə düşmüşdü. Lakin İmam Hüseyn (əleyhis-salam) və onun səhabələrinin üzləri sevinclə dolu idi, rəngləri qparlamış, qəlblərində xatircəmlik sakitlik daha çoxalmışdı. Səhabələrdən bəziləri deyirdilər ki, İmam Hüseynə (əleyhis-salam) baxın, ölümdən qorxusu yoxdur və şəhadəti arzulayır. İmam Hüseyn (əleyhis-salam) onların sözlərini eşitdi, onlara xitabən buyurdu: –Səbr edin ey əziz övladlarım. Ölüm sizin üçün bir körpü köimidir, ondan keçib pis vəziyyətdən əbədi nemətlərə, əbədi behiştə yollanacaqsınız, Sizlərdən kimdir ki zindandan qəsrlərə köçmək istəməsin? Ölüm sizin düşmənləriniz üçün isə qəsrlərdən zindana, əzaba getmək kimidir. Atam mənə xəbər vermişdir ki, Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm) belə buyurmuşdur: “Dünya möminin zindanı, kafirlərin cənnətidir. Ölüm isə möminlərin öz behiştlərinə, kafirlərin isə öz əzablarına doğru bir körpüsüdür. Ata-babalarımdan da yalan eşitməmişəm.

## İMAM HÜSEYN (əleyhis-salam)-ın SƏHABƏLƏRİ BEHİŞTDƏ ÖZ YERLƏRİNİ GÖRMÜŞDÜLƏR

İbni Babəveyh yazır: “Bir nəfər İmam Sadiq (əleyhis-salam)-dan soruşdu: –Yəbnə Rəsullah, İmam Hüseyn (əleyhis-salam)-ın səhabələri öləcəklərini bildikləri halda ni üçün cihada iqdam etdilər və qorxusuz olaraq özlərini döyüş dəryasına vururdular?

---

[1]Şeytanın övladları
[2]Soltanlıq vasitələri, avadanlıqları

İmam Sadiq (əleyhis-salam) buyurdu:–Çünki, onların gözlərindən pərdə götürülmüş, behiştdəki mənzillərini görmüşdülər, buna görə də döyüşə getməkdə bir-birindən qabağa keçirdilər ki, ölüb öz mənzillərənə çatsınlar, öz hurilərini bağrılarına bassınlar.
Qütb Ravəndi Əbu Həmzə Somalidan nəql etmişdir ki, İmam Səccad (əleyhis-salam) belə buyurub: "O gecə (ki, onun sabahı atam şəhid oldu) atamın yanında idim. İmam o gecədə səhabələrinə buyurdu: –Gecə düşmüş, qaçmaq yolu sizin üçün açılmışdır bu gecəni qənimət sayıb qaçın. Bu zalımlar məni tələb edirlər, başqa heç kimlə işləri yoxdur. Əgər məni öldürsələr, sizin dalınızca gəlməyəcəklər. Mən öz beyətimi sizin boynunuzdan götürdüm.
İmam Hüseynin (əleyhis-salam) səhabələri dedilər: –Allaha and olsun ki, bu heç vaxt olası bir iş deyildir.
İmam (əleyhis-salam) buyurdu: –Sabah hamınız öldürüləcəksiniz və heç biriniz canını qurtara bilməyəcəkdir.
Hamılıqla dedilər: –Allaha şükr edirik ki, bizə səninilə şəhid olmaq kimi kəramət etmişdir!
İmam (əleyhis-salam) onlara dua etdi, buyurdu: –Başınızı göyə qaldırıb yuxarı baxın. Elə ki, başlarını qaldırdılar, öz dərəcə və mənzillərini görüb tanıdılar, onlara məxsus olan huriləri, qəsrləri, nemətləri gördülər. Elə bu səbəbə görə də onlar Aşura günü nizə-şəmşirlərə doğru gedirdilər ki, öz mənzillərinə daha tez çatsınlar və əbədi nemətlərdən bəhrələnsinlər. Əbu Həmzə Somali deyir ki, İmam Səccad (əleyhis-salam) buyurdu: "İmam Hüseyn (əleyhis-salam)-ın o günü bir daha gəlməz: bu ümmətdən olduqlarını iddia edən otuz min namərd o məzlum İmamı araya aldılar, hər biri onun qanını axıtmaqla Allaha yaxınlaşmaq istəyirdilər (yəni qürbətən iləllah niyyəti ilə öldürmək istəyirdilər). İmam Hüseyn (əleyhis-salam) onlara movizə etdi və Allahı onların yadına saldı, lakin onlar nəsihətləri qəbul etmədilər, ondan əl çəkmədilər, nəhayət onu zülm ilə öldürdülər.

## İMAM HÜSEYN (əleyhis-salam)-IN VİDALAŞMASI

İmam Hüseyn (əleyhis-salam) axırıncı vidalaşmada hərəmdəki xanımlara buyurdu: –Qəm paltarı geyib bəlalara hazırlaşın. Bilin ki Allah sizin hamınızın mühafizəçinizdir. O, sizə düşmənlərin şərrindən nicat verəcək, işlərinizin aqibətini xeyir, gözəl edəcək, düşmənlərinizi cürbəcür əzablara mübtəla edəcək. Bunların müqabilində sizə cürbəcür nemətlər, kəramətlər əta edəcəkdir. Belə isə şikayətlənməyib qədir-qiymətinizi azaldacaq sözləri dilinizə gətirməyin.[1]
Düşmənlərin yırtıcılıq xislətindən tam agah olan İmam Hüseyn (əleyhis-salam) mübarizənin son dəqiqələrində xeymələrə qayıtdı, buyurdu: –Mənə nimdaş və

[1]"Cəlaül-üyun" (əllamə Məclisi)

köhnə bir paltar verin, paltarlarımın altından geyinim. Mən öləndən sonra heç kim ona tamah gözü dikməsin.
İmam (əleyhis-salam) meydana yola düşdü, düşmənlə qəhrəmancasına döyüşdü, onlardan o qədər qırdı ki, hamısı qaçmağa məcbur oldular.

YARALANDIM BACI ZEYNƏB
**Ələ dəsmal alıb ağla, Yaralandım bacı Zeynəb**
**Özün gəl yaramı bağla, Yaralandım bacı Zeynəb**
***
Keçər ahum oxu daşdan, Üzüldüm qohum-qardaşdan
Atam Heydər kimi başdan, Yaralandım bacı Zeynəb
***
Əgər ki sinə dağlarsan, Yaralı görsən ağlarsan
Gəlib sən yaxşı bağlarsan, Yaralandım bacı Zeynəb
***
Peyğəmbərin gülü soldu, Əmmaəməm qan ilə doldu
Mənə ölmək yəqin oldu, Yaralandım bacı Zeynəb
***
Oğul yox səsləyəm dadə, Bu gündə yetsin imdadə
Xəbər tutub gələ dadə, Yaralandım bacı Zeynəb
***
Ölüb ənsar, ələmdarım, Düşüb qaolsuz ələmdarım
Sən ol mənim pənahdarım, Yaralandım bacı Zeynəb
***
Fələk aramımı aldı, Məni dərdə. qəmə saldı
Səkinə atasız qaldı, Yaralandım bacı Zeynəb

İMAM HÜSEYN (əleyhis-salam)-IN ŞƏHADƏTİ
Nəhayət Şimrin əmri ilə qoşun kütləvi şəkildə İmam Hüseynə (əleyhis-salam) hücum edib onu mühasirəyə saldılar, oxçular hər tərəfdən o həzrətə ox yağdırmağa başladılar. O qədər ox vurdular ki, İmamın müqəddəs cismi oxların çoxluğundan görünmürdü. Şimr öz qoşunu ilə İmamı (əleyhis-salam) xeymələrdən ayırdı, amma o həzrətin azadlıqsevər ruhu heç də icazə vermirdi ki, öz sağlığında övladlarına, xanımlara və xeymədəkilərə bir zərər yetişsin. Buna görə də uca səslə fəryad etdi: “Vay olsun sizə, ey Əbu Süfyan övladlarına tabe olanlar! Əgər dininiz yoxdursa və qiyamat günündən qoxmursunuzsa, heç olmasa bu dünyada azad insan olun, öz milli keçmişinizə hörmət qoyun necə ki özünüzü ərəb tayfasından hesab edirsiniz.”

Bu kəskin fəryad çəkic kimi düşmənlərin başına oturdu, Şimr əmr etdi ki, geri qayıtsınlar. Yaralar bir-birinin ardınca İmamın mübarək cisminə endirilirdi, qan o həzrətin bədənindən fəvvarə kimi axırdı, həzrətin son nəfəsləri idi. Bu dəmdə Saleh ibni Vəhəb nizə ilə İmam (əleyhis-salam)-a həmlə etdi, o həzrətin bel sümüyünü sındırdı. İmam (əleyhis-salam) atdan yerə yıxıldı. Bu hadisəni görən Həzrət Zeynəb (əleyha-salam) özünü Ömər Sədə yetirib dedi: –Ey Ömər, sənə yaraşarmı ki, Əbu Əbdillahı öldürsünlər, sən də durub baxasan?

Ömər Səd heç nə demədi. Bu halda Həzrət Zeynəb fəryad edib dedi: –Sizin aranızda bir müsəlman tapılmazmı?

İmam Hüseyn (əleyhis-salam) piyada döyüşü davam etdirir, özünü nizələrdən, oxlardan kənara çəkir yenidən düşmənə həmlə edirdi. Sonra Kufə qoşununa xitab edərək son sözlərini buyurdu: –Məni öldürmək üçün yığışmısınızmı? Allaha and olsun, məndən sonra Allah bəndələrindən heç birini öldürməyəcəksiniz. Allah məni öldürdüyünüzə görə sizə qzəblənəcəkdir. Aləmlərin Allahına and olsun, mən ümidvaram ki sizin namərdliklərinizin qarşısında Allah məni əziz edəcək, mənim intiqamımı sizdən elə alacaqdır ki, heç özünüz də dərk etməyəcəksiniz. Agah olun, mənim öldürülməyim səbəbi ilə içərinizdə qan axıdılması çoxalacaq, mütəal Allah Öz qəzəbini sizə artıracaq, nəhayət dərdli axirət əzabına düçar olcaqsınız.

Yazırlar ki, İmam (əleyhis-salam)-ın bədəninə 72 yara vurmuşdular. Zəiflik o həzrətə qələbə çalırdı. O, bir anlığa dincini almaq üçün dayandı. Bu anda uzaqdan ona tərəf bir daş atdılar. Daş mübarək alnını yardı, qan üzünə axdı, İmam (əleyhis-salam) köynəyini qaldırıb alnının qanını silmək istədi, Bu vaxt üç şö”bəli bir ox o həzrətin qəlbinə sancıldı. Həzrət üzünü göyə qaldırıb dedi: “İlahi, Sən bilirsən ki, bunlar elə bir şəxsi öldürürlər ki, yer üzündə ondan başqa Peyğəmbərin heç bir oğlu yoxdur.”

İmam (əleyhis-salam) oxu qəlbindən çıxartdı, qan fəvvarə kimi axmağa başladı. Heç kim o həzrətə yaxınlaşmağa cürət etmirdi. Çünki “İmam Hüseyn (əleyhis-salam)-ın qatili” kimi Allah dərgahında sorğu-suala tutulmaqdan qaorxurdu. Şimr nə”rə çəkdi: –Vay olsun sizə, nə üçün durmusunuz? Analarınız matəminizdə otursun. İrəli gedin işi birdəfəlik qurtarın!

Atlılar, piyadalar hər tərəfdən o həzrətə hücüm etdi. İrəli gələn ilk şəxs İmam (əleyhis-salam)-ın zərbəsi ilə həlak oldu. İkinci şəxs İmam (əleyhis-salam)-ın çənəsini yaraladı. Sinan ibni Ənəs həyasızcasına irəli gəldi, nizəsi ilə İmam (əleyhis-salam)-ın sinəsini yardı, sonra bir ox atıb o həzrətin mübarək boğazını yaraladı. İmam Hüseyn (əleyhis-salam) yerə oturdu, ölləri ilə qanını üzünə yaxdı, buyurdu: “Bu halda Pərvərdigarımın körüşünə gedəcəyəm, halbuki, bunlar mənim haqqımı qəsb etmişlər!”

Hilal ibni Nafe deyir: “Mən Ömər Sədin ləşkərində idim ki, birdən belə bir səs eşitdim: “Ey əmir, muştuluğumu ver, Şimr Hüseyni qətlə yetirdi!”

O əzizlər qan içində çabalayırdılar, Kufə yırtıcıları onların bədənlərinnin bəndlərini bir-birindən ayırırdılar Seyyidüş-şühədanın vücud günəşini (kainatın yaranış səbəbini, mövcudatın hərəkət mərkəzini) görərdin ki, ox qılınc zərbəsindən bədəndə sağ yeri qalmamışdı, qanlı Kərbəla elə bir şəhidlər oylağı idi ki, heç bir peyğəmbərə, heç bir peyğəmər canişininə nəsib olmadı və ilahi təqdirdə (qəzadü-qədərdə) yalnız şəhidlər sərvəri (İmam Hüseyn (əleyhis-salam) bu şəhidlər oylağında olan ləyaqətinə nail oldu. Bu Kərbəla elə bir yer idi ki, yer sakinləri ki heç, üstəlik səma əhlini, mələkləri də heyrətdə qoymuşdu. İmam Riza (əleyhis-salam)-ın buyurduğu kimi, bu gün (Aşura) elə bir gün idi ki, İmam əbədi olaraq gözləri yaralı, ağlar qəlbləri qanlı etmişdir[1]"
Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) də bu barədə buyurmuşdur: "Həqiqətən İmam Hüseyn (əleyhis-salam)-ın qətlindən möminlərin qəlbində hərarət (iman odu) vardır ki, heç vaxt sönməyəcəkdir."[2]
İmam Hüseyn (əleyhis-salam)-ın qızı Səkinə deyir: Elə ki düşmən şəhidlərin arvad-uşaqlarını cənnazələrin arasından çəkirdi, özümü atamın cənazəsinin üstünə atdım, onu bağrıma basdım. Bu vaxt müqəddəs hülqumundan bu səsi eşitdim: "Şiələrim! Hər vaxt sərin su içsəniz, məni yad edin: bir qərib, yaxud şəhid barəsində eşitsəniz mənə ağlayın."[3]
İmam Hüseyn (əleyhis-salam)-ın müqəddəs qiyamının hədəflərindən biri də bu idi ki, əməvilərin İslam Peyğəmbərinin adı altında camaata hökmranlıq edən rüsvayçı işgəncələrə son qoysun, onların müsəlmanlara rəhbərlik üçün ləyaqətsz olduqlarını, bu iş üçün azacıq da olsun insani və ürfi nişanələrə malik olmadıqlarını isbat etsin. Bu hədəflər onların son dərəcədə daşürəkli, qəsavətli olmalarını, onların törətdikləri cinayətləri, faciələrini açıb göstərməklə mümkün olacaqdı. Heç kim hətta adi bir şəxsə belə bu cür faciələri, cinayətləri rəva görməzdi, o ki qala Peyğəmbər camalının aynası, böyük Əhmədi xülqünün nişanəsi! İmam Hüseyn (əleyhis-salam) isbat etdi ki, belə bir faciələrə o əl atmaq ilahi namus məcralarından inhirafa yuvarlanmaqdır, fəzilət mələkələri dairəsindən uzaqdır. Onların hətta heyvanlarda da müşahidə olunmayan bu əməlləri göstərir ki, heç bir dəlillə İslam ümmətinə hakim olmaq ləyaqətləri yoxdur. Həzrəti Zeynəb əleyha-salam İmam Hüseyn əleyhis-salama matəm saxlayanda deyirdi:
*"ey bazar ertəsi günü qətlə yetirilən!"* İmam Hüseyn (əleyhis-salam) cümə günü qətlə yetirilib, amma Həzrət Zeynəb (əleyha-salam) bu sözlə demək istəyir ki, bu faciənin əsl səbəbkarı Peyğəmbərin vəfatından sonra, bazar ertəsi günü Əbubəkrin

[1]"əl-İsabə (Şeyx Səduq) səh 76
[2]"Müstədrəkül-vəsail" c.2 səh 217
[3]"Misbahü-Kəf"əmiv", səh 376.

xilafəti qəsb etməsi olmuşdur. Əbubəkr Ömərі, Ömər də Osmanı xilafətə təyin etdi. Osman da Quranın "xəbis şəcərə" adlandırdığı sülalədən olmaqla, öz nümayəndəsi olan Müaviyənin Şamdakı hökmranlığını möhkəmlətdi, o da Həzrət Əli (əleyhis-salam)-ın əleyhinə qiyam etdi, beyət etmədi, İmam Həsəni hiyə ilə qətlə yetiridi, sonra oğlu Yezidi xəlifə təyin etdi, o məlun da Peyğəmbər övladını məzlumcasına qətlə yetirdi.

**Olmadı cavab istədi gedə, Gəldi guşinə nagəhan səda:**
**Mən Hüseynivəm qardaşı ölən, Oğlu doğranan getmə Zeynəba**

***

Ləşgəri ədüv payimal edər, Yerdə cismimi bir dayan bacı
Sinəm üstə gör at dolandıran, Qövmi kinəni bir dayan bacı
Gərçi xeymələr od tutub yanar, Suzi ahilən bir dayan bacı
Atların ayağında peykərim, Səslə: va Hüseyn, va Mühəmməda!

***

Xeymələr yanar qoyma Abidi, Xeymədə qala odlara yana
Vur özün oda sinən üstə al, Çək bacı o bimarı bir yana
Xırda qızlarım odda yanmasın, Başda məcəri damən odlana
Su kimi qanım çöllərə axar, Başımın olar məskəni cida

***

Şimri dün vuran vəqtə qızları, Ver qabağa sən əllərin bacı
Qoyma çox sala sərsəri xəzan, Dadü-naliyə gəlmiyə sənin
Dad edən şirin dillərin bacı, Səbr elə müsibətlərə necə
Səbr edib anan Xeyrətünnisa

***

Gün batar gələr bəcdəli cəfa, Kari fitnəcu peykərim tapar
İncidər mənim yara cismimi, Ol şəqiyyü-qəddarü-nabekar[1]
Fikri vardı yığmağa qarətə, Barmağımda əngüştərim tapar
Xaric eyliyə bilməz axırı, Barmağım kəsər ol duni dəğa

***

Daşları kənar eylə birbəbir, Peykərimin üstündə ağlama
Nizə ox qılıc parəsinə çox, Baxma əşgivi ruyə bağlama
Öz sefid olan ruyivə bacı, Qanımı yaxıb sinə dağlama
Ta yaran batar qanimə olar, Çarəsiz olan dərdlərə dəva

***

İsti qumların üstə bi kəfən, Rəsi nizədə rəsi ənvərin[2]

---

[1]Alçaq
[2]Nizə başında nurlu başın

Bir tərəfdə Əbbasü, Əkbərin, Fəzlü-Qasimin, Ovnü, Cəfərin
Açdı başını va əxa deyən, Va əba deyən Ali Müstəfa
Dəftərü-qələm əldə sailəm, Dərgəhizdə hər sübhü-hər məsa

**<u>Dolanır Əli qızı məqtəli (2), Qan içində bir bədən axtarır</u>**
**<u>Yolun üstə qafilə ləng olur (2), Bacı qardaşa kəfən axtarır (2)</u>**
***
Əli başda dörd tərəfə qaçır, Dayanır çuxur yerə baş vurur
Gör nə yerdi duxti Əbu Turab[1], Qədəmin turabə yavaş vurur
Yadına o səhnə düşübdü ki, Hamı bir yaralıya daş vurur
Pozulubdu gülşəni arizu, Gülü-bülbülü-çəmən axtarır
***
Deyir Allahım bu əzizlərin, Nədən aşiyanəsi[2] qalmayıb
Qolu bağlı quşlarımın evi, Talanıbdı lanəsi[3] qalmayıb
Soyulub vücudi Hüseynimin, Başı yox nişanəsi qalmayıb
Görürəm hərayə anam gəlib, O da qanlı pirəhən[4] axtarır.
***
Yorulub oturdu yerə bibi, Alıb ətrin odlanıram Hüseyn
Bu qədər ki daş tökülüb yerə, Keçə bilmirəm yanıram Hüseyn
Bədənin nüması[5] pozulsa da, Yenə mən səni tanıram Hüseyn
Məni sən çağır yerivi bacın, İtirir dübarədən axtarır
***
Hərəkət zamanı qəm əhlinə, Yaranıbdı bu qüssəli mənzərə
Özünü çəməndə hər əndəlib[6], Yetiribdi bir gülü-pər-pərə
Analar sürudi vida[7] oxur, Biri Qasimə, biri Əkbərə
Elə bir Rübab itirib özün, Əli başda süd əmən axtarır
***
Üsərayi xəsteyi Neynəva[1], Hamı dildə ahü-nəva gedir

---

[1]əbu Turabın, yəni Həzrət əlinin qızı
[2]Yuvası, sığınacaq yeri
[3]Yuva
[4]köynək
[5]Görünüşü, forması
[6]Bülbül
[7]Vida nəğməsi

Anadır başında qara gedir, Bacıdır ürəkdə yara gedir
Düzülüb nizamə kəcavələr, Şühəda qalır, üsəra gedir
Doludur ürəkləri dərdilən, Vəli xəlvət əncümən[2] axtarır
***
Gediri Səkinə yavaş-yavaş, Üzünün tozun yuya Əlqəmə
Deyə şərhi halını mubəmu[3], Su yanında sahibi pərçəmə[4]
Əmu can dur əllərüvə fəda, Kömək eylə carəsiz əmməmə
Çağırır hərəmdə bibi səni, Gözü yoldadı gələn axtarır
***
Olub Əhli-beytə zəmanə tay, Kərəmin sönübdü çıraqları
Bala qızlar istiri naqəyə, Minə leyk, titrir ayaqları
Kimə mehman gedir ey Xuda, Gözü yaşlı Kufə qonaqları?
Görəsən Mədinə hayandadır?, Gözü Zeynəbin vətən axtarır

HÜSEYNİM VAY
Zəbihi ə”zəmi dini Mühəmməd[5]
Hüseynim vay, Hüseynim vay Hüseynim
Nişani taci ayini Mühəmməd
**<u>Hüseynim vay, Hüseynim vay, Hüseynim (2)</u>**
***
Ərəblər həlqə verdi misli zəncir
Aradə çün negin[6] bir seyyidi pir
Yağış tək üstünə yağdırdılar tir[7]
O qədri qan gedib zə”f etdi təsir
Hüseynin ta əlindən düşdü şəmşir
Peyğəmbərlər dedi ba sovti təkbir:[8]
Hüseynim vay, Hüseynim vay, Hüseynim
***

---

[1]Neynəvanın yorğun əsirləri
[2]Gizli məclis
[3]Birbəbir
[4]Bayraqdar
[5]Mühəmməd dininin ən böyük qurbanı
[6]Üzük qaşı kimi
[7]Ox
[8]Təkbir səsi

İmamın Zülcənah ilhamın aldı
Xəm etdi dizlərini nim xiz[1] qaldı
Yerin torpağı cuş etdi ucaldı
Qum üstə şehpərin[2] Cəbrəil saldı
Tutub Zəhra onu ağuşə aldı
Dedi: ey cani madər bu nə haldı?
Hüseynim vay Hüseynim vay, Hüseynim
***
Düşüb gəhvarə tək cünbiş cəhanə[3]
Yetib rə"şə kürrati asimanə[4]
Şəbih oldu həva atəş fişanə[5]
Hüseyn gəlmiş məqami imtəhanə
Dəmi xəncər dayanmış üstüxanə[6]
Gəlib göydən sədayi aşiqanə:
Hüseynim vay, Hüseynim vay, Hüseynim
***
Çıxıb cənnatidən cəddi Peyambər
Əliyyi Mürtəza ilən bərabər
Dalınca Müctəba dilbəndi Heydər
Xəlilü-Adəmü-Nuhi müəmmər[7]
Gəriban çakü-aşofte mükəddər
Hüseyni görcəkin səsləndi yeksər:
Hüseynim vay, Hüseynim vay, Hüseynim
***
Qara toz qovzanıb səthi cəhandən
Uçan quşlar çəkib əl aşiyandən
Çıxıb zəccə sədası cinniyadən
Mülki məsuridən kərrubiyandən[8]

---

[1]Yarı qalxmaq
[2]Qamadını
[3]Dünyaya beşik kimi həyəcan düşüb
[4]Göyün kürələrinə vəhşət, titrəyiş çatıb
[5]Hava atəş yağdırana oxşadı
[6]Xəncər sümüyə dayanmış
[7]Uzun ömürlü
[8]Mələkut aləmindən

Nidayi qeybi gəldi asimandən:
Hüseynim vay Hüseynim vay Hüseynim
***
O yandan təblü-şeypurun sədası
Ömər Sədin başında Rey həvası
Dayamış müntəzir Şimrin cidası
Bu yandan Zeynəb ney tək nəvası
Hüseynin sinədə dörd min yarası
Dəmadəm səslənir Zəhra anası:
Hüseynim vay, Hüseynim vay, Hüseynim
***
İmamın ömrünün axır zəmanı
Hərəmlər tərk edib xeymə səranı
Görüb sərnizədə nuri Xudanı
Hücum etdi o matəm karivani
Araya aldılar qanlı cidanı
Nəva doldurdu dəşti Neynəvanı:
Hüseynim vay, Hüseynim vay, Hüseynim
***
Nümayandır Hüseynin gözlərindən
Çəkir guya xəcalət xahərindən
Pərişan zülfü qarə məcərindən
Səda gəldi kəsilmiş həncərindən:[1]
Bacı qorxma bu Şamın ləşgərindən
Hərəmlər səs veribdi dövri bərdən:
Hüseynim vay, Hüseynim vay, Hüseynim
***
Oxursan nə gözəl Qu"ran Hüseynim
Qoyubsan aləmi heyran Hüseynim
Xəcalət çəkmə məndən can Hüseynim
Sənə Zeynəbdi həmpeyman Hüseynim
Anam Zəhra sənə qurban Hüseynim
Deyərəm titriyir meydan Hüseynim
Hüseynim vay, Hüseynim vay, Hüseynim
***
Görüb qanlı başı qaçdı Səkinə
Ona sarı yaxınlaşdı Səkinə

---

[1]Boğazından

İki qollarını açdı Səkinə
O nizəylə qucaqladı Səkinə
Kəsik başilə ağlaşdı Səkinə
Səfər peymanı bağlaşdı Səkinə
Hüseynim vay, Hüseynim vay, Hüseynim

## ŞƏHİDLƏRİ İMAM SƏCCAD (əleyhis-salam) DƏFN EDİR

Məhərrəm ayının 13-də Həzrət Səccad (əleyhis-salam) şəhid olmuş atasını dəfn etmək üçün Kərbəlaya tələsdi. Çünki hər İmamın qüslü, kəfənini İmamdan başqası öhdəsinə ala bilməz.
Bu sözümüzün şahidi İmam Riza (əleyhis-salam)-ın Əliyyibni Əli Həmzə Bətainini söhbətidir. İmam Riza (əleyhis-salam): –De görüm Hüseyn ibni Əli İmam idimi?
Dedi: –Bəli.
İmam Riza (əleyhis-salam) –O şəhid olandan sonra (onun qüslü, kəfəni dəfni) kimin öhdəsinə idi?
Dedi: –Həzrəti Səccad (əleyhis-salam)-ın.
İmam Riza (əleyhis-salam): –O vaxt Həzrət Səccad harada idi?
Dedi: –İbni Ziyadın zindanında idi, amma ibni Ziyad xəbər tutmadan oradan çıxdı, gedib atasını dəfn etdi, sonra ziyndana qayıtdı.
İmam Riza (əleyhis-salam) –Əliyyibni Hüseynin Kərbəlaya gəlməsinə, atasını dəfn edib yenidən qayıtmasına qüdrət verən şəxs Allah bu zamanın da İmamına qüdrət verər ki, Bağdada gedib atasının (İmam Museyi Kazimin) dəfn işini görməyə qüdrət verər, halbuki o (zamanın İmamı) həbsdə, əsirlikdə də deyildir[1].
Elə ki, İmam Səccad (əleyhis-salam) Kərbəlaya çatdı, gördü ki, bəni Əsəd qəbiləsi sərgərdan qalmış, bədənlərdə baş olmadığı üçün, nə edəcəklərini bilmirdilər.
Həzrəti Səccad (əleyhis-salam) şəhidləri adbaad tanıtdırdı. Ah-nalə, ağlaşma səsləri ucaldı. Bəni Əsəd qəbiləsinin arvadları saçlarını yolur, sinələrinə döyürdülər. Sonra İmam Səccad (əleyhis-salam) o məzlum atasının pak cənazəsinə tərəf getdi, onu bağrına alıb ucadan ağlamağa başladı. Cənazəni qəbir qazılacaq yerə gətirib bir az trrpaq götürdü, birdən hazır bir qəbir açıldı, üstündə də üstü açıq zərih göründü. Cənazənni təklikdə qəbrə qoydu. (Bəni Əsəddən heç kim bu işdə İmam Səccada kömək etmirdi) Sonra buyurdu: “Mənim yanımda bir kəs var ki, mənə kömək edir.” Cənazəni qəbrə qoyandan sonra dodaqlarını atasının kəsilmiş damarlarına qoydu, buyurdu: “Xoş o yerin halına ki, sənin pak cəsədini ağuşuna alıb. Sənə nədən

---

[1]İsbatül-vəsiyyət, (Məs”udi) səh 113.

deyim? Gözlərimə yuxu görünməyən qəm-qüssəmdənmi? Məndən sənə salam olsun, ey Rəsululla-hın oğlu, Allahın rəhmət və bərəkəti sənə olsun!"
O, İmam Hüseynin (əleyhis-salam) qəbri üstündə belə yazdı. "Bu, Hüseyn ibni Əliyyibni Əbitalibin qəbridir. Onu susuz və qərib öldürdülər."
Sonra əmisi Abbas (əleyhis-salam)a tərəf getdi, onu, elə asimanda mələkləri dəhşətə bürümüş, behişt hurilərini ağlar qoymuş əvvəlki halda gördü, əyilib əmisinin boğazının kəsilmiş damarlarını öpdü, dedi: "Ey Qəməri Bəni Haşim, səndən sonra kül olsun dünyanın başına! Məndən sənə, ey şəhid, xalis salam olsun, Allahın rəhməti və bərəkəti sənin halına şəamil olsun."
Sonra Həzrət Abbas (əleyhis-salam) üçün də bir qəbir qazıb buyurdu: "Mənim yanımda köməkçilərim var." O həzrət bəni Əsəd qəbiləsinə buyurdu ki, onlarda iki başqa böyük qəbir qazsınlar, birində Bəni Haşimin, digərində isə səhabələri dəfn etsinlər[1].
Hürr şəhid olandan sonra qohumları onu döyüş meydanından çıxarmış, onun iydiki qəbri olan yerə gətirmişlər. Yazıblar ki anası döyüş meydanında var imiş, görəndə ki düşmənlər şəhidlərin başlarını kəsib bədənlərini tapdalayırlar oğlunu bu yerə gətirmişdir.[2]

## İMAMLAR ALLAH ƏMRİNƏ TABEDİRLƏR

Səffar deyir: Bir gün İmam Baqirin (əleyhis-salam) səhabələri onun hüzurunda oturmuşdular. Həzrət buyurdu: Təəccüb edirəm o kəslərə ki, bizim vilayətimizi (rəhbərlik haqqımızı) qəbul və bizi İmam hesab edirlər, bizə itaət etməyi Allaha itaət etmək kimi özlərinə vacib etmişlər, lakin öz əməllərində süstlük etməklə bizim məqamımızı alçaldırlar, bizim məqamımızı bilib tanıyanlara, bizim fəzilətimizi bəyan edənlərə irad tutur, onlara mübaliğə nisbəti verirlər. Güman edirsiniz ki, aləmlərin Allahı öz dostlarına itaət etməyi, tabe olmağı xalqa vacib edib asimanların və yerin xəbərlərini onlardan (İmamlardan) gizli saxlasın və onlara və başqalarına baş verən hadisələri onlara xəbər verməsin?

---

[1]Seyyid Nemətullah Cəzairi "əl-ənvarün-nö"maniyyə kitabında (səh.345) qeyd etmişdir ki, Şah İsmayıl Səfəvi (Xətai) Bağdadı fəth edəndən sonra İmam Hüseyn (əleyhis-salam)-ın ziyarətinə gedir. Ona xəbər çatır ki, alimlərdən bəzisi Hürrün tövbəsi məqələsini qəbul etmirlər. əmr edir ki, qəbri açsınlar. Qəbri açanda görürlər ki, elə bil indicə şəhid olmuş, bədəni də çürüməmişdir. Onun başında bir parça olduğunu görürlər. Şah İsmayıl onu təbərrük üçün açıb götürmək istəyirdi. Elə ki açır, yaradan qan axmağa başlayır. Nə qədər çalışırlarsa və başqa parçalarla bağlayırlarsa, qanı saxlaya bilmirlər. Yalnız İmamın (əleyhis-salam) bağladığı parça ilə bağladıqdan sonra qanı dayanır.
[2]"əsrarüş-şəhadət"

Həmran dedi: –Canım sənə fəda olsun, mənə xəbər ver görüm Əliyyibni Əbitalib, Həsən və Hüseyn (əleyhimüs-salam) Allah dini yolunda qiyam etdilər, halbuki, zülm, tüğyan əhli onlara zəfər çaldı. Bu necə olan işdir?
Həzrət Baqir (əleyhis-salam) buyurdu: –Ey Həmran! İlahi elmdə belə yazılmış, qəzavü-qədərdə belə qərar qoyulmuşdu. Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm)-in buyurduğuna görə “Bizdən (İmamlardan) xüruc (qiyam) edən və sakit olan hər bir şəxs elm və agahlıq üzündən xüruc etmiş, elm və agahlıq üzündən sakit olmuşlar. Ey Həmran, əgər bəla nazil olma və zülm əhli onlara (İmamlara) qələbə çalırdılarsa onlar həmişə Allahdan istəyirdilər ki, o tüğyançıların mülkünü, padşahlığını məhv etsin, onları qəbul etsəydi, və o bəlaları onlardan dəf etsəydi, tüğyançıların padşahlıqlarını təsbehin ipinin qırılmasından və dənələrinin bir-birindən ayrılmasından da tez bir zamanda məhv edərdi. Amma İmamlar (əleyhis-salam) təslim olmaq razılıq məqamında idilər və Allahın onlar üçün məsləhət gördüyü işlərdən qeyrisini istəmirdilər. Ey Həmran, onlara üz verən (müsibətlər) günah üzündən deyildi ki, o günahı görmüş olalar, yaxud Allahla müxalifət etməmişdilər ki, onun cəzasına çatmış olalar. Lakin bu müsibətlərin səbəbi bu idi: Allah istəyirdi ki, onlar bu müsibətlərin vasitəsi ilə behiştdə yüksək (mənəvi) məqamlara çatsınlar. Ey Həmran, onların barəsində pis fikirləşmə, Aşura günü İmam Hüseynin (əleyhis-salam) dostları, köməkçiləri qılınc, nizə zərbələrindən özlərində heç bir dərd, ağrı hiss etmirdilər. Bu barədə İmam Baqir (əleyhis-salam) buyurdu: “Cəddim Hüseyn (əleyhis-salam)-ın fədakar köməkçiləri düşmənin qılınc, nizə zərbələri altında ağrı hiss etmirdilər.”
MƏRSİYƏ

Dur ey xədəngi nizəyə nişanə qardaş
Bacun ediblər Kufəyə rəvanə qardaş
Olum o qanlı peykərin fədası qardaş
Gedən təmami qarətə əsasi qardaş
Bu gül bədəndə qalmayan libası qardaş
Dur ey müinim, du nuri eynim
Bu nazlı canə, fəda Hüseynim
***
Bu qürbət ölkədə Hüseyn, bacın olub xar
Gül üzlü qızların olub əsiri küffar
Şotor səvari baş açıq yanında əğyar
Nə var pənahım, nə dadixahım
Bu qədri zülmə, nədir günahım?
***
Nə qədri çəkmişəm bu gün qəmi müsibət

Təmami rəxti zivərim olundu qarət
Vururlar qəmçi başimə edər şəmatət
Bu qövmi küffar, edərlər azar
Nə bir pənahım, nə rəhm edən var
***
Zibəs dəyibdi sinəvə xədəngi peykan
Olubdu lalə tək tənin sərasər al qan
Soyublar nə”şivi Hüseyn, qoyublar üryan
Gedib təvanım, üzüldü canım
Çıxar səmayə, Hüseyn fəğanım
***
Vuranda xeyməgahə od bu qövmi əşrar
Dağıldı çöllərə hamı bu Ali Əthar
Od içrə qaldı bir nəfər zəifü-bimar
Nə onda taqət, nə məndə qüvvət
Nə qədri çəkdim, bu gün əziyyət
***
Olub hərəmlərin bu gün əsiri üdvan
Qorosnə təşnə qızların bu çöldə veylan
Edib rəvanə Kufəyə bu qövmi süfyan
Bu hali müztər, nə yarü-yavər
Saği solunda, sipahi kafər
***
Bu Kufədə xanımlığım düşübdü yadə
Varımdı şani şövkətim Hüseyn ziyadə
Necə gedim özüm əsir başun cidadə
Nə başda məcər, nə zibü-zivər
Ediblər qarət talandı yeksər
***
Götürmə Kufə möhnətin bəyanə Nazim
Bu qəmli qissə od salar cəhanə Nazim
Gəlir bu qəmdə şiələr fəğanə Nazim
Tutarlar matəm, ba çəşmi pürnəm
Fəğanü-nalə, edərlər hər dəm

ŞAMİ-QƏRİBAN NÖVHƏSİ

**<u>Mətbəx səradır, [1] Zəhrayi nalan (2), Bərpa edibdir, şami qəriban (2)</u>**
**<u>Biyər ey islamə olan qurban, Yaralı başı kəsilən ətşan</u>**
**<u>Ya Hüseyn məzlum, ya Hüseyn məzlum (2)</u>**
***
Virdi[2] olub "va veyla" anavun, Sındırma qəlbin, Zəhra anavun
Gözün aç mən gözlərivə qurban, Mənə səs ver sözlərivə qurban
***
Mən ki cahanda, oldum şəhidə, Sitəmlə oldu, qəddim xəmidə[3]
Ağaran gisulərimə[4] bir bax, Bu sınan pəhlulərimə[5] bir bax
***
Aç gözlərin ey, dəryayi rəhmət, Mən gəlmişəm bax, cəddim Peyambər
Anavu dindir, sərfəraz[6] eylə, Qanlı baş ilə, pişivaz eylə
***
Əhvalım olub, rəncurü-xəstə[7], Mən gəlmişəm bax, qəlbi şikəstə
Mən oğul məzlumiye dövranəm, Mənə səs ver ki, səsi giryanəm[8]
***
Başın dalınca, gəldim tənurə, Döndü bu mənzil, vadiye surə
Anavam mən məhrəmi aşkarə, Bu yaralı başuvə zəvvarəm
***
Din üstə dözdüm, mən hər bəlayə, Düşdü güzarım Kərbübəlayə
Boyadın gisulərimi qanə, Bura gəldim şami qəribanə

## *HƏZRƏTİ ZEYNƏBƏ XİTAB*

Zeynəb, Zeynəb, Zeynəb

---
[1]İmam Hüseyn əleyhissalamın mübarək başının qoyulduğu mətbət, təndir
[2]Dilinin əzbəri
[3]Bükülmüş
[4]Saçlarıma
[5]Qabırğalarıma
[6]Başıuca
[7]Yorğun, əzab görmüş
[8]Ağlar

Kənzi həya[1] Zeynəb, kani vəfa[2] Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Dərd aşina Zeynəb, qərqi bəla Zeynəb
**Qəm qəhrəmanı (2) Zəhra nişanı**
**Ey ruhi ba iman,[3] (2) canım sənə qurban**
***
Zeynəb, Zeynəb, Zeynəb
Sərgəşteyi dövran, avareyi tufan[4]
Zeynəb, Zeynəb, Zeynəb
Məcdi əhdi peyman,[5] şiri şahi mərdan
Zeynəb, Zeynəb, Zeynəb
Məhbubeyi canan,[6] Quranına qurban
***
Zeynəb, Zeynəb, Zeynəb
Şəmşiri du balından, borrəndə bəyan[7] Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Qardaş başı üstündə, zülfü ağaran Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Səhrayi müsibətdə, qəmdən qocalan Zeynəb
***
Zeynəb, Zeynəb, Zeynəb
Qardaş başının qanı, zülfündə həna Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Peymani Həqqə məfxər,[8] Qurana olan yavər
Zeynəb, Zeynəb, Zeynəb
Hücbü-ədəbə məhzər,[9] şənü-şərəfi mənbər
***

---

[1]Həya və ismət xəzinəsi
[2]Vəfa simvolu
[3]İmanlı ruh
[4]Dövranın avarəsi, tufanların avarəsi
[5]əhd-peymana əzəməti
[6]Cananın, yəni Allahın sevimlisi, məhbubəsi
[7]İkiağızlı şəmşirdən də kisici bəyaan
[8]Həqqin peymanına iftixar
[9]İslami hicabın ədəbin məzhəri, simvolu

Zeynəb, Zeynəb, Zeynəb
Daim gözü qan yaşlı, başında qara məcər
Zeynəb, Zeynəb, Zeynəb
Zəhrası ölən gündən, amaci bəla[1] Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Təvili rəsa Zeynəb, təşbihi Xuda[2] Zeynəb
***
Zeynəb, Zeynəb, Zeynəb
Mehrabi ibadətdə, təfsiri dua Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Müşgüldə rəca[3] Zeynəb, hər yerdə dəva Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Pərvəndeyi xunini Şahi-şühəda[4] Zeynəb
***
Zeynəb, Zeynəb, Zeynəb
Möhkəm sözü üstündə, mərdanə duran Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Kaxi sitəmü-zülmü, qol bağlı yıxan Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Çox qəmçi dəyən başın, qəmdə ağaran Zeynəb
***
Zeynəb, Zeynəb, Zeynəb
Yollarda pərəstari yorğun üsəra[5] Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Hər qafileyi nehzətdə, öz nehzətinə qiymət
Zeynəb, Zeynəb, Zeynəb
Əvvəldə görən izzət, axırda çəkən zillət
***
Zeynəb, Zeynəb, Zeynəb
Ağlar gözü qürbətdə, qardaşlarına həsrət
Zeynəb, Zeynəb, Zeynəb
Can sinədə söylərdi, vay bəxti qara Zeynəb

---

[1]Bəlaların hədəfi, bəlalarla tuş olan
[2]Allahın mütəşabeh ayələrini düzgün və aşkar təvil və təfsir edən
[3]Ümid
[4]Şəhidlər ağası Hüseynin qanlı hərəkatının sənədi
[5]Yorğun əsirlərin yollardakı başçısı, qəyyyumu

Zeynəb, Zeynəb, Zeynəb
Həm nayibə Zəhrayə, həm dininə pirayə[1]
***
Zeynəb, Zeynəb, Zeynəb
Ağzında şirin sözlər, qəmdən dolanan "vay"ə
Zeynəb, Zeynəb, Zeynəb
İstəkli Ruqəyyəylə, səbri olan həm sayə
Zeynəb, Zeynəb, Zeynəb
Heç tapmıyan ömründə, bir ləhzə səfa Zeynəb
***
Zeynəb, Zeynəb, Zeynəb
Can nəqdini bi nüsxə, ərzani verən[2] Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
55 il ömründə, göz yaşı tökən Zeynəb
Zeynəb, Zeynəb, Zeynəb
Qürbətdə ölən yalqız, möhtaci kəfən Zeynəb

EY XANİDANİ HEYDƏRİN QƏMXARI ZEYNƏB
**Ey xanidani Heydərin qəmxarı Zeynəb (2)**
**Şamə apar bu pərişan qızları Zeynəb (2)**
Gülzarımız oldu xəzan bu Kərbəladə
Sən qur əza qurbanlara viran sərədə
Oxşa Hüseyni, Fatimə oxşarı Zeynəb
***
Səbr eylə səbrin səddini dünyada yıxma
Zəhra anan tək səbridən bir ləhzə çıxma
Hər şəhridə didaruvə gəlləm darıxma
Ey karivani möhnətin saları[3] Zeynəb
***
Başım gedibdi Xuliyi nadana mehman
Sər nizədə pişvaz elə gəlmə pərişan
Dəysə yaralı başıma daş etmə əfğan
Yarın yaralı görsə xoşdur yarı Zeynəb

---
[1]Bəzək, zinət
[2]Canını din yolunda ucuz qiymətə satan
[3]Başçısı

***
Baxma yaralı əllərə gəlmə fəğanə
Mən aşiqəm səngi qəmə olam nişanə
Düşsə gözün düşmən evində xeyzəranə
Möhkəm danış bidar elə əğyarı Zeynəb
***
Oldu Ruqənyyəm kərçi düşmən dəstgiri
Dünyaya gəlməz bu qızın bir də naziri
Şamə kimi ağuşə al qəmli səfiri
Qoyma ola əşki üzarə cari Zeynəb
***
Səy et bunu salim yetir viran səraye
Eylə nəvaziş hər zaman gəlsə nəvayə
Ahı Yezidin qəsrini versin fənayə
Sərkub edər[1] xırda qızın əşrarı Zeynəb
***
Az səinnilə çox səbr edib dərdi bəladə
Qəlbim yanıbdı möhnətində fövqəladə
Həsrətlə can versə bu qız viransərada
Ollam bunun mən əvvəli zəvvarı Zeynəb

## ƏHLİ-BEYTİN KUFƏYƏ DAXİL OLMASI

61-ci ilin məhərrəm ayının onu keçib getdi, şənbə, məhərrəmin 11-ci günü, İbni Səd öz ölülərinin cəsədlərini kəfənə bükdü, onlara meyit namazı qılıb hamısını bir yerdə basdırdı. Lakin şəhidlərin parça-parça olmuş bədənlərini elə o cür, günün altında qoyaraq öz qoşunu ilə birlikdə Kufəyə yola düşdü. Kufə darvazasına çatanda, İbni Ziyadın tərəfindən göndərilən qasid ona dedi: –Bu gün əsirləri şəhərdən kənarda saxla!
Übeydullahın bu işdən məqsədi bu idi ki, əsirlərin şəhərə girməsi üçün lazım olan şəraiti tənzim etsin. Məhərrəmin 12-də Əhli-beyt əsirləri Kufəyə gətirildi, əsirlərin qabağında 72 kəsik baş nizələrə vurulmuş halda aparılırdı.
Şimr ibni Zilcövşən sevinc, şadlıq bürümüş halda hamıdan qabaq atını çapır, öz ətrafındakılara əmr edirdi ki, camaatı nəzarət altında saxlasınlar. Arvad-kişi, böyük-kiçik hamı əqirlərə tamaşa etmək üçün yolun ətrafında dayanmışdılar.

---

[1]Məğlub edər

Əsirlər şəhərə daxil olanda camaat nizələrdə İmam Hüseynin (əleyhis-salam), Həbib ibni Məzahirin, Müslüm ibni Ovsəcənin başlarını görüb hamısını tanıdılar. Sonra Əhli-beyt arvad-uşaqlarını, Həzrət Zeynəbi, Ümmü-Gülsümü gördülər, Camaatın gözündan həsrət, peşmançılıq yaşı axırdı.
"Tamaşaçılar"dan bəziləri deyirdilər –Tfu! Lənət olsun sizə, ey alçaq yırtıcılar! Rəsulullahın ciyərinin parəsini də"vət etdiniz, sonra öldürdünüz, arvad-uşağını Roma əsirləri kimi özünüzlə gətirdiniz.
«Camaatdan ağlamaq səsi hər tərəfi bürüdü.

HƏZRƏTİ ZEYNƏB (əleyha-salam)IN XÜTBƏSİ

Birdən əsirlərin içərisindən Zeynəbi Kübra (əleyha-salam) əli ilə işarə etdi ki, sakit! Hamı onu tanıdı. O, Əmirəl-mömininin (əleyhis-salam) qızıdır, uzun illər elə bu Kufədə bu camaatın yanında yaşamışdı. Hamı onun ehtiramına sakit oldu, hətta dəvələrin zınqırovlarının səsi də kəsildi, qorxunc bir sükut hər yeri bürüdü. Birdən o alimə xanım sözə başladı:
–Həmd olsun Mütəal Allaha, salam olsun Mühəmməd Rəsulullaha (səlləllahu əleyhi və alihi və səlləm) və onun övladlarına, yaxşı insanlara, pak insanlara.
Ey kufəlilər! Ey hiyləgər və riyakar camaat, ey vəfasızlar, əhd-peyman pozanlar. Bizə ağlayır, göz yaşı axıdırsınızmı? Bizə təəssüflənirsinizmi? Həmişə göz yaşınız axar olsun, nalələriniz kəsilməsin. Çünki bizim gözlərimizi ağlar, qəlbimizə dağ vurdunuz. Siz saçlarını yaxşı-yaxşı darayıb sonra hörüklərinin hamısını açıb bir-birinə qırışdıran arvada oxşayırsınız. Siz əvvəl də məkr, hiylə ilə saçlarınızı möhkəm hördünüz, sonra isə açdınız. Sizin aranızda yalandan, xudbinlikdən, fitnə-fəsaddan, düşmənçilikdən başqa bir şey yoxdur.
Siz kənizlər kimi yaltaqlanır, düşmənlər kimi hiylə işlədirsiniz. Siz eynilə zibillikdə köyərən bitgiyə, qəbrə zinət verən gümüşə bənzəyirsiniz.
Doğrudan da axirətiniz üçün nə qədər də pis azuqə toplamısınız! Çünki Allahı qəzəbləndirmiş, özünüz üçün əbədi əzab hazırlamısınız. Bizi öldürəndan sonra halımıza ağlayırsınızmı? Allaha and olsun ki, ağlamağa layiqsiniz; daha çox ağlayıb, az gülün; çünki siz öz adınıza elə bir əbədi rüsvayçılıq damğası vurmusunuz ki, heç bir su onu pak etməz. Xatəmən-nəbinin ciyər parasını, behişt əhlinin cavanlarının ağasını, öz əməlisaleh adamlarınızın pənahgahı olan bir insanı öldürməyi necə cübran edəcəksiniz? Hər halda və hər hadisədə ona pənah aparırdınız, o sizin qanunlarınızı icra edirdi, düşmənlərlə höcətlətməşdə sizin yol göstərəniniz idi, narahatçılıq baş verəndə, ona təvəssül edirdiniz. O sizin böyüyünüz idi, şəriət hökmlərini ondan öyrənirdiniz. Ey camaat! Çox piis bir günaha batmısınız. və qiyamətiniz üçün çox pis bir şey hazırlamısınız. Ölüm olsun sizə, məhv olasınız! Sizin səyləriniz daha fayda verməyəcək. Əlləriniz qırılsın. Özünüz üçün ziyan zərər yığmısınız. Dünya və axirət ziyanına düçar, ilahi əzaba

layiq olmusunuz. Xarlıq və yoxsulluq sizə qələbə çaldı. Vay olsun sizə, ey Kufə camaatı! Heç bilirsinizmi ki, Allah Peyğəmbərinin hansı ciyərinin parçalamısınız? Peyğəmbərin hansı hörmətini tapdalamısınız? Və necə ismət hərəmlərini pərdəsiz çölə salıb, əsir etmisiiz? Ey camaat, böyük bir zülm, son dərəcədə çirkin bir iş görmüsünüz, az qalır ki, sizin bəd əməllərinizdən asimanlar yarılsın, yer parçalansın, qayalar uçsun. Sizin iyrənc işləriniz, rüsvayçı hərəkətləriniz yerləri, göyləri bürümüşdür. Göydən qan yağmasına təəccüb edirsinizmi? Amma bilin ki, axirət əzabınız ən şiddətli tərzdə, xaredici, rüsvayedici olacaqdır. Heç kəs sizə kömək etməyəcək. Allahın sizə verdiyi bu möhlət əzabınızı heç də yüngülləşdirməyəcək, çünki, O, günahkarları cəzalandırmaqda heç vaxt tələsməz; O, intiqam vaxtının keçib getməsindən heç də qorxmur. Bilin ki, Allah pusquda, günahkarların intizarındadır."[1]

Həzrəti Zeynəb (əleyha-salam) əli ilə işarə etdi ki, hamı sakit olsun. Onlar səslərini elə kəsdilər ki, elə bil nəfəslər sinələrdə həbs edilmişdi. Çoxları belə bir kütləni sakitləşdirməyə, səs-küylərini yatırtmağa qadir deyildi, lakin Zeynəbin peyğəmbərcəsinə olan ilahi heybəti, onların dillərini qurutdu. Sonra öz ildırım kimi gurultulu xütbəsini xatircəmliklə, sonsuz şücaətlə və vüqarla axıra kimi söylədi.

Həzrəti Zeynəb (əleyha-salam) o böyük izdihamın içərisində, daha doğrusu, düşmən nizələrinin arasında Bəni Üməyyənin rüsvayçı əməl dəftərini ifşa etməklə, onları əbədiyyətə qədər rüsvay etdi, onlarda azacıq da olsa, izzət, şövkət qoymadı.

Ravi deyir: Camaat pərişanlıq və peşmançılığın şiddətindən xəcalətli halda başlarını aşaağı salaraq hönkür-hönkür ağlayırdılar. Nübüvvət sülaləsinin, risalət mədəninin, behişt cavanlarının sərvərinin qətlə yetirilməsi kimi qara ləkəni özlərindən necə dəf edəcəklərini bilmirdilər. Artıq iş-işdən keçmişdi, əbədi ziyankarlığı, ilahi qəzəbi özləri üçün satın almışdılar, dünya rüsvayçılığını özlərində görmüşdülər. Bəli, axirət əzabı daha çətin, üzücüdür. Əgər bunu bilsəydilər!

## İMAM HÜSEYN (əleyhis-salam)-IN QIZI HƏZRƏTİ FATİMƏNİN (salamullahi əleyha) SÖYLƏDİYİ XÜTBƏ

Həzrəti Zeynəb (əleyha-salam)-ın xütbəsindən sonra İmam Hüseyn (əleyhis-salam)-ın qızı Fatimə birz xütbə söyləyərək, kufəlilərin hiylərinin üstündən pərdələri götürdü. O xütbənin bir hissəsi belə idi: "Ey Kufə camaatı! Ey hiyləgər hoqqabazlar! Bilin ki, Allah təbarək və təala bizi sizin vasitənizlə, sizi isə bizim vasitəmizlə imtahan etdi. Bizim imtahanımızın nəticəsi çox yaxşı oldu–Allah bizə Öz lütfünü şamil etdi. Lakin siz Allahın yer üzündəki höccətini, elm və hikmət xəzinəsini nahaq yerə şəhid etdiniz, Böyük Allah Öz Peyğəmbəri Həzrət

[1]"Lühuf,", səh..90

Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in vasitəsi ilə bizim ailəmizə lütf etdi, bizi Öz məxluqlarının çoxundan üstün etdi. Amma siz nankor camaat, bizi təkzib edib kafir oldunuz, qanımızı nahaq yerə axıtdınız, əmlakımızı qarət etdiniz, elə təsəvvür etdiniz ki biz qeyri-müsəlman övladıyıq. Siz bir az bundan qabaq cəddim Həzrət Əli (əleyhis-salam)-ni, dünən isə atam Hüseyni şəhid etdiniz. İndi bizim qanımız sizin əllərinizdən damır, bu da ürəklərinizdə bizə qarşı bəslədiyiniz keçmiş kin-küdurətdən irəli gəlmişdi. İndi gözləriniz aydın, qəlbləriniz şad olsun. Siz Allaha qarşı hiylə işlətdiniz, amma O, ən yaxşı tədbir tökəndir. Allah sizi öz cəzanıza çatdıracaq, Onun əzabının intizarında olun. Allah sizi bir-birinizin canına salacaq, çünki siz bizim qanımızı axıtmış, əmlakımızı qarət etmisiniz. Əlinizdən çıxanlara təəssüf etməyiniz faydasızdır. Baş verən hadisəyə şadlıq etməyiniz də səmərəsizdir. Bu dünyada bir-birinizin canına düşəcək, axirət əzabında da əbədi qalacaqsınız. Allah zülmkarlara lənət etsin. Ey kufəlilər, vay olsun sizə, heç bilirsinizmi ki, hansı əllərlə bizi vurdunuz? Hansı ayaqlarla bizə tərrəf gəldiniz? Heç bilirsinizmi ki, bizimlə necə döyüşə atıldınız? Allaha and olsun ki, qəlbləriniz rəhmsiz, ürəkləriniz daşdır. Allah qəlbinizə, qulaqlarınıza, gözlərinizə möhür vurmuş, şeytan sizin çirkin əməllərinizi gözünüzdə gözəl cilvələndirmiş, gözlərinizə pərdə çəkmişdir. Hidayət yolunu seçə bilmirsiniz. Ey Kufə əhli, əlləriniz kəsilsiin, görün risalət xanədanından nə qədər qanlar sizin boynunuzdadır! Siz Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qardaşına–cəddim Əliyyibni Əbitalibə qarşı, onun övladlarına, pak ailəsinə qarşı nə hiylələr etmədiniz!"
İmam Hüseyn (əleyhis-salam)-ın qızının sözləri elə bu minvalla davam etdi. Nəhayət camaat dedi: –Ey Peyğəmbər oğlunun qızı, daha bəsdir, qəlbimizi yandırdın, kökümüzü odladın.
Bu vaxt Ümmü-Gülsüm sözü xülasələşdirib dedi: –Üzünüz qara olsun, niyə İmam Hüseynə (əleyhis-salam) kömək etmədiniz? Niyə onu şəhid etdiniz? Niyə bizim mal-dövlətimizi qarət və özümüzü əsir etdiniz? Niyə o pak qanları axıtdınız?

## İMAM SƏCCAD (əleyhis-salam)IN XÜTBƏSİ

Sonra İmam Zeynül Abidin (əleyhis-salam) camaata buyurdu ki, sakit olsunlar, hamı dərhal sakitləşdi. Həzrət xütbəni belə başları: Həmd olsun Allaha, salam olsun Peyğəmbərə və onun Əhli-beytinə! Ey Kufə camaatı, hər kəs məni tanıyırsa heç, hər kəs də məni tanımırsa, bilsin ki, mən Əliyyibni Hüseyn ibni Əliyyibni Əbitalibəm. Mən o kəsin oğluyam ki, Fəratın sahilində heç bir günahı olmadan, heç bir cinayət işi görmədən başını kəsdilər, mal-dövlətini qarət etdilər, arvad-uşağını əsir etdilər. Mən o kəsin oğluyam ki, işkəncə altında şəhid edildi və bu iftixar bizə kifayətdir. Ey camaat, sizi Allaha and verirəm, deyin görüm siz atama məktub yazıb məkr və hiylə üzündən onunla peyman bağlayan, sonra isə onu öldürənlər deyilsinizmi? Ölüm olsun sizə ki, axirət üçün çox pis nameyi-əm"mal

hazırlamısınız. Əgər Peyğəmbər sizə desə ki, “siz mənim oğlumu öldürdünüz, hörmətimi saxlamadınız, ona nə üzlə baxacaqsınız?
Həzrət Səccad (əleyhis-salam)-ın sözü bura çatanda, kufəlilər uca səslə ağlamağa başladılar, Həzrət buyurdu:–Allah rəhmət eləsin o kəsə ki, mənim Allah, Onun peyğəbəri və Əhli-beyti barədə öyüd-nəsihətimi qəbul edir. Çünki bizim getdiyimiz yol Peyğəmbərin yoludur.
Birdən kufəlilər hamılıqla haray çəkib dedilər ki, biz səninləyik Lakin Həzrəti Səccad (əleyhis-salam) onlara cavab verdi: –Heyhat, heyhat, ey hiyləgərlər! Atamın başına gətirdiklərinizi mənim də başıma gətirmək istəyirsiniz? Heç vaxt! Allaha ond olsun ki, bizim yaralarımız hələ də sağalmamışdır. Atam dünən şəhid oldu, arvad-uşağı əsir oldu. Bu, unudulası deyildir. Bütün varlığım yaralıdır. Xahişim budur ki, bizim əleyhimizə qiyam etməyin, heç xeyrimizə də qiyam etməyin.

## ƏHLİ-BEYT İBNİ ZİYADIN MƏCLİSİNDƏ

Əsirlər daha sonra İbni Ziyadın məclisinə gətirildi. O, fəthdən qürurlanıb sərməst halda, əlindəki çubuqla İmam Hüseyn (əleyhis-salam)-ın pak başına, dişlərinə vururdu. Zeyd ibni Ərqəm ona kəskin etiraz edib, məclisdən çıxdı. Həzrət Zeynəbi Kübra tanınmaz halda məclisə daxil olub oradakı qadınlardan ayrıldı, kənizləri onu dövrəyə aldılar. Lakin nübüvvət cəlaləti, İmamət heybəti onun şərif vücudundan elə aşkar olurdu ki, İbni Ziyadı özünə cəlb etdi, dedi:–Özünü bizdən gizlədən və qadınlardan kənarda duran bu arvad kimdir?
Dedilər: –Əlinin qızıdır.
O məlun qərara aldı ki, Zeynəbin (əleyha-salam) üryinə daha başqa bir yara vursun, dedi:–Allaha şükür olsun ki, sizi rüsvay etdi, sizi qılıncdan keçirtdi, **həyatınızı** bərbad etdi.
Heydəri Kərrarın qızı burada o məlunla zillət cəbhəsindən üzləşmədi; uşaqları qocaldan, başı fələklərə çatan, dağları qübarlı edən müsibətləri dilə gətirmədi; bundan böyük müsibət ola bilərdimi? –Özünün qanına qəltan olmuş ailəsini, Kərbəla çölündə, bədən üzvləri parça-parça olmuş, kəfənsiz, qüslsüz bədənlərindən başqa bir şey gözə dəyməyən halda qoyub gəlmişdi. Öldürülənlərin başında əziz qardaşı, behişt cavanlarının sərvəri dururdu ki, öz qanı ilə qüsl olmuş, atların nalları bədənini doğram-doğram etmişdi, Kərbəlanın isti qumlarını kəfən etmişdi. Ailəsinin, qardaşlarının ölümündən sonra qardaşının pərişan qəlbli övladını bir halda himayə etdi ki, arvadlar şivən qoparmış, uşaqlar əl-ətəş naləsini asimana ucaltmışdı. Amma Zeynəbin ümdə vəzifəsi İmam Səccad (əleyhis-salam)-ı himayə etmək idi. O həzrət xəstəliyin hərarətindən yanırdı, amma bu qızdırmaya baxmayaraq, kafirlər onun boynuna ağır zəncir vurmuşdular
Bu müsibətlərdən təkcə biri insanın qəlbini dağlayar, hətta qəzəblənmiş aslanı da belə acizliyə, süstlüyə düçar edərdi. Amma Əmr ibni Əbdüvəddi, Mərhəbi öldürən,

Xeybər darvazasını yerindən qoparan Əli (əleyhis-salam) qızı xatircəmlik, qəlbi yəqinlə dolu olan okeanın sahilinə yan aldı, ən nüfuzlu bəsirətdən bəhrələndi. O həzrətin şənində təkcə bunu demək kifayətdir ki, onun bu elmi, zəkası heç bir müəllim, alim tərəfindən olmamış, əksinə, Allah tərəfindən ona verilən ilahi bəxşişlərdən bəhrələnirdi.
İmam Səccad (əleyhis-salam) bu barədə buyurur: "Ey əmmə, əlhəmdülillah sən təlim görməmiş bir alimə, dərrakəli bir insansan ki, bu dərrakəni bəşərin öyrəndiyi yolla öyrənməmisən (Yəni bunu Allah vermişdir)."
Məhz bu səbəbə körə də Zeynəbi kübra bu ağır müsibətlərə baxmayaraq, atası Əmirəl-möminin (əleyhis-salam) kimi elə qüdrətli kəlamlar danışdı ki, qılıncdan iti olan bu kəlamlar ox kimi Übeydüllahın qəlbinə sancılırdı. Həzrəti Zeynəb buyurdu: -Bunlar elə bir tayfa idilər ki, Allah şəhid olmağı onlar üçün yazmışdı. Onlar öz əbədi yerlərinə tələsdilər. Çox çəkməz ki, Allah onlarla səni bir yerə yığar, sizi (onların qarşısında) haqq-hesaba çəkər, onda bax gör qələbə kimin olacaqdır, ey Mərcanənin oğlu, anan matəmində otursun!
Bundan sonra İbni Ziyad İmam Səccad (əleyhis-salam)ı məclisdə gördü, soruşdu: -Bu cavan kimdir?
Dedilər: –Əliyyibni Hüseyndir.
İbni Ziyad dedi: –Məkər Allah Əliyyibni Hüseyni öldürmədimi?
İmam Səccad buyurdu: –Mənim Əli adlı böyük qardaşım var idi ki, camaat onu öldürdü.
İbniZiyad dedi: –Yox, onu Allah öldürdü!
İmam Səccad (əleyhis-salam) "Zümər" surəsinin 43-cü ayəsini qiraət etdi: "Allah əcəl çatan vaxt canları alar."
İbni Ziyad dedi: –Mənim hüzurumda hazırcavablıq edirsən? Əmr edərəm, boynunu vurarlar!
Zeynəb (əleyha-salam) bu sözü eşitcək dərhal buyurdu: –Ey ibni Ziyad, sən daha bizdən heç kimi sağ qoymadın. Mənim də qətlimə hökm ver!
İmam Səccad (əleyhis-salam) öz əmməsini sakitləşdirdi, ibni Ziyada xitabən dedi: –Məni ölümlə hədələyirsən? Məgər bilmirsən ki, (Alah yolunda) öldürülmək bizim adətimizdir və bizim əzəmətimiz şəhadətdədir?[1]

## HƏZRƏTİ ZEYNƏBİN İBNİ ZİYADIN MƏCLİSİNDƏKİ NİTQİ

Mahi mehrabi ibadət,[2] gövhəri kərbü-vəfa[3]

---

[1]"Rövzətüs-səfa", 3-cü cild, səh173
[2]İbadət mehrabının ayı
[3]Qəm və vəfa gövhəri

Zeyni əb[1], fəxrül-əimmə[2], şərəfi əhli həya[3]
Şir zən[4], düxti Əli[5], məzhəri Xatuni cəza[6]
Aşiqi-dərbədəri-eşqi qəməfzayi-Hüseyn[7]
Vaqifi niyyəti sövdayi mühənzayi Hüseyn[8]
Zinəti teşneyi por cuşişi kəlmati Xuda[9]
Sözü möhkəm, özü ərzəndə[10] vəkili-şühəda[11]
Əmmeyi Məhdiye möv"ud[12], kəfili üsəra[13]
Atəşin kəlmələri zinəti tarixi bəşər[14]
Müstəbid[15] şəxslərə məntiqi elami xətər[16]
Kə"beyi məqsədü-məqsudi olan Kərbübəla
Fidyəgahı[17] şühəda məqtəli[18], ehramı qara
Xeyməvü-təll[19] arasında eləyən səyi Səfa[20]
Zəmzəmi bəhr kimi mövc eliyən[21] nəhri Fərat[22]
Nisfi yanmış çadırı rütbədə fəxri Ərəfat

---

[1]Atasının zinəti
[2]İmamların fəxri
[3]Həyalıların ən şərəflisi
[4]Şir ürəkli, qorxmaz
[5]əli qızı
[6]Qiyamət gününün xanımı Fatimeyi Zəhra əleyha səlamın cilvəsi
[7]Hüseynin qəmli eşqinə dərbədər aşiq
[8]Hüseyn əleyhissalamın möhnətli eşq niyyətinə vaqif
[9]Qaynar Allah kəlamlarının susuzu və zinəti
[10]Dəyərli
[11]Şəhidlərin vəkili
[12]Məhdi əleyhissalamın bibisi
[13]əsirlərin başçısı, sərpərəsti
[14]Bəşər tarixinin zinəti
[15]Zalım, qaniçən
[16]Xətər elan edən bir məntiq
[17]Qurbangahı
[18]Şəhidlərin qətlə yetirildiyi yer
[19]Xeymə ilə kiçik təpəcik
[20]Həccdə Səfa və Mərva dağları arasında qaçmaq əməli
[21]Dalğalanan, təlatümə gələn
[22]Fərat çayı

Hafizi əhli hərəm[1], hamiye fərzəndi Rəsul[2]
Helmidə misli Həsən, zöhdü-ibadətdə Bətul
Ağlayan, qibleyi taətdə verən səcdəyə tul[3]
Qəmi çox, qüssəsi çox, cami bəladən mədhuş[4]
Zülfü ağ, qaməti xəm, qəlbi yara, xanə beduş[5]
Yeri var ərz ola Zəhra evin abad olsun
Bağı üdvanidəki qəm ürəyin şad olsun
Səndən ilham alan qız gərək ustad olsun
Ana sözü deyilsə, müsəlləmdi[6] sər məktəb olar
Zəhra, hər ana sən kimi olsa, qızı da Zeynəb olar
Olmasaydı qızuvun məntiqi bürrası[7] əgər
Oğluvun nehzətinə[8] yetmiş idi dəsti xətər[9]
Neynəva faciəsindən yox idi indi əsər
Dəsti təhrif[10] ilə xuni şühəda bitmişdi
Beyrəqi[11] küfr ucalıb din ələmi yatmış idi
Üməmin[12] nəslini sərkub eliyən Zeynəbdi
Kufə əşrarini[13] məğlub eliyən Zeynəbdi
Səni bu bəzmdə[14] məhbub eliyən Zeynəbdi
Onun eşqi səbəb olmuş o axan göz yaşuva
Səni Zeynəb gətirib, gəlməmisən öz başuva
Məclisə Zeynəbin eşqilə cəm olmuş hüzzar[1]

---

[1]əhli Beytin keşikçisi
[2]Peyğəmbərin övladının himayəçisi
[3]Səcdəni uzadan
[4]Dəhşətli
[5]Köçəri həyat
[6]Şübhəszdir
[7]Kəsərli məntiqi
[8]İnqilabına
[9]Xətər əli, xain əl
[10]Təhriflə
[11]Bayraq
[12]Bəni Üməyyənin
[13]ə"yanlarını
[14]Məclisdə

Hərənin qəlbidə bir hacəti, bir mətləbi var
Dərgəhində mütəvəssildi hamı təziyədar
Hamı mayildi o mərziyyə şiyəndən[2] danışaq
Xanımın Kufədəki çəkdiyi qəmdən danışaq
Valiyi Kufə Rəsulullah ilən etdi inad
Məclisə çəkdi Əli qızlarını ibni Ziyad
Ləkkədar eylədi tarixi o napak nihad[3]
Dövrəyə aldı o məclisdə oğul qardaşını
Təxtinin üstünə qoydurdu Hüseynin başını
Elə məğrur eləmişdi onu fəthin əsəri
Şad olub güldü, kəsik başa düşəndə nəzəri
O qəzibi gətirib əldə cəfa gərdişinə[4]
Neçə yol qamçını endirdi Hüseynin dişinə
Zeydi Ərqəm dayana bilmədi durdu ayağa
Saxla əl! İbni Ziyadə dedi–ey şumi dəğa[5]
Heç bilirsən ki qəzibin dəyir hansı dodağa?
Vurma o qanlı dodağa mənə səlb oldu[6] dözüm
Görmüşəm Xatəmi Peyğəmbər öpəndə mən özüm
Gətirib qeyzə Ziyad oğlunu Zeydin süxəni[7]
Qoymayırsan, dedi şad olmağa məclisdə məni
Ömrümün xoş günüdür, cəşn edirəm mən ələni[8]
Çək xəcalət üzüvə tökmə belə göz yaşuvi
Pirsən[9], yoxsa bu saət kəsərəm mən başuvi
Tərk edib Zeyd gözü yaşlı o bəzmi xətəri[10]
Üsərayə dolanıb ibni Ziyadın nəzəri
Gördü bir iddə[1] yetimə qızı əfsürdələnib[2]

---

[1]Hazır olanlar, məclisə gələnlər
[2]Mərziyyə (həzrəti Zəhra ə.s) xasiyyətli
[3]Bədzat, zatı xarab
[4]Hərəkətinə
[5]Məlun
[6]Dözüm məndən alındı
[7]Sözü
[8]Aşkar bayram edirəm
[9]Qocasan
[10]Xətərli məclisi

Məclisin rö’’bü[3] veribdir onlara hökmü-sükut
Arada bir uca boy ovrət[4] oturmuş məhbut[5]
Üsərayə tutb üz aldı Ziyad oğlu xəbər:
Kimdi bu övrəti bi vahimə, məğrurə sifət?
Öləni yoxdu bunun Kərbü-müəlladə məgər?
Eliyib məclisimin əhlini təhdid oturub
Üsəranın vəsətində elə bil şir oturub
Vermədi Zeynəbi Xatun o namərdə cavab
Ayağa durdu kənizin birisi etdi xitab:
Məzhəri Fatimə Zeynəbdi bu ey xanə xərab
Zeynəb adın eşidən vəxtidə ol kani fəsad[6]
Fəvəran eylədi[7] qəlbində olan büğzü-inad[8]
Dedi Zəhra qızına: Həmd edirəm Allaha
Zeynəb!Bizi nüsrətlə[9] yetirdi hədəfi dilxahə[10]
İstəyirdi gedə övladi Əli birahə[11]
Dəsti Mənnan[12] sizi rüsvay elədi, xar olduz!
Zahir oldu yalanız, zarü-giriftar olduz!
Dedi Zeynəb: –Edirəm Zati Xudavəndə səna
Bizi Peyğəmbər ilə eyləyib əngüştnüma[13]
Pakidir damənimiz[14] eybdən, ey şumi dəğa!
Bağı xilqətdə[15] tikansız, vəli biz misli gülük

---

[1]Bir neçə
[2]ÇPərişan olub
[3]Heybəti
[4]Qadın
[5]Vüqarla
[6]Fəsad yuvası, ocağı
[7]Cuşə gəldi
[8]Kinə, düşmənçilik
[9]Qələbə ilə
[10]Ürəyimiz istəyən məqsədə
[11]Azğınlığa, inhirafa
[12]Allahın əli
[13]Barmaqla göstərilən
[14]Nəcib ailədənik
[15]Xilqət bağında

Fasiqi Həqq eləyər xar, o da ki biz deyilik
O şəqi[1] gəldi dübarə belə qoftar elədi[2]
Bu şəmatətli sözü Zeynəbə izhar elədi:
Qardaşınla de görüm Haqq necə rəftar elədi?
Də''viye səltənət[3] eylirdi Hüseyn ibni Əli
Verməyibdi o səbəbdəndi bizə beyət əli
(Qan Zeynəbin damarlarında cuşə gəldi)
Gördü ki, Zeynəb Übeydullah olub özbaşına
Ələnən[4] bəzmdə tövhin[5] eliyir qardaşına
Elə fikr etmə pənahəndə olub[6] göz yaşına! Yox!
Bəhri por mövcilə[7] tufanə özün vurdu xanım
Üsəranın vəsətindən[8] ayağa durdu xanım
Dedi qızlara: nə qorxun nə də gül tək saralın!
Ləşgərim, siz düzülün nəzmilə dövrəmdə qalın
Dedi Gülsumə bacı, sağaldan hanı bu dil yaranı?
Danışım mən bacı, sən saxla Ruqəyyə balanı
Qardaşın başın nida eyliyib meracın
Kə''beyi eşqə çəkib yetmiş iki üşşaqın
Sipər etdi özünü itrətinə, Quranə
Qoymadı sədmə yetə, sureyi Ərrəhmanə
Tez olur, qalibi, məğlubu tanır əhli cahan
Mədh edər qardaşımın nehzətini[9] pirü-cavan
Sənə tarixdə lənətdi fəqət namü-nişan[10]
İftixar oldu şəhadət xələfi Tahayə[11]
Qabiliyyət hanı səndə baxasan mənayə?!

---

[1]Bədbəxt, zalım
[2]Danışdı, dedi
[3]Hakimiyyət iddiası
[4]Açıq-aşkar
[5]Hörmətsizlik, narəva sözlər demək
[6]Pənah aparıb, sığınıb
[7]Dalğalı dənizlə
[8]Arasından, ortasından
[9]İnqilabını
[10]Ad-san, əlamət
[11]Peyğəmbər xələfinə, övladına

Zinəti cənnəti məvadi[1] Hüseyn sən kimsən?
Höccəti Zati təvanadı[2] Hüseyn, sən kimsən?
Sinə pərvərdeyi Zəhradı[3] Hüseyn, sən kimsən?
Dayəsi oldu viladətdə behişt hurası
Mənbəyi feyz olacaq dəhheyi Aşurası[4]
Qardaşımdır şərəfi əhli yəqin, sən kimsən?
Fəxr edir adına Firdövsi bərin[5], sən kimsən?
Tərpədibdir beşiyin Ruhul Əmin, sən kimsən?
Olma sən fikr elədin Kufədə münsif[6] yoxdu?
Fatimə oğlunu burda tanıyan çox-çoxdu!
Y Ə B N Ə Z İ Y A D !
Həmd ola zümreyi mərdani Xuda[7] bizdəndi!
Əhli əzkarü-ibadatü[8] dua bizdəndi!
Nücəba[9] zümrəsi bizdən, şühəda[10] bizdəndi!
Elmü-helmü-siləvü[11] cudü[12] kərəm bizdəndi!
Rahi vəhdətdə[13] olan pişqədəm bizdəndi!
Əvəzində buların zülmü-cəfa sizdəndi!
Fasiqü-facirü-bişərmü[14] həya sizdəndi!
Əhli mey, əhli xəta, əhli zina sizdəndi!
Dinü Quranilə də”vayə çıxan sizdəndi
Atamı Kufədə mehrabə yıxan sizdəndi!

---

[1]Cənnətin zinəti
[2]Qüdrətli Allahın höccəti
[3]Zəhra əleyhissalamın sinəsiidə tərbiyə olunmuş
[4]Aşura ongünlüyü
[5]Cənnətin ən yüksək mərtəbəsi
[6]İnsaflı adam
[7]İlahi insanlar zümrəsi
[8]Zikr və ibadət əhli
[9]Nəcib insanlar
[10]Şəhidlər
[11]Qohum-əqrəba ilə əlaqələrin qorunub saxlankması
[12]Ehsan
[13]Vəhdət yolunda
[14]Həyasız

Hövzü-Kövsərdə siqayət eliyən[1] bizdəndi!
Düz yola xəlqi hidayət eliyən bizdəndi!
Mərəzi şirkə[2] təbabət eliyən bizdəndi!
Beyti Məmuridə[3] təfsir deyən bizdəndi!
Qabi qovseynidə[4] təkbir deyən bizdəndi!
Zülmilə qəsbi xilafət eliyən sizdəndi!
Qan töküb qətlü-cinayət eliyən sizdəndi!
Baş açıb xeyməni qarət eliyən sizdəndi!
Şərəfin cifeyi dünyayə[5] satan sizdəndi!
Südəmər dilsiz uşağə ox atan sizdəndi!
Od sizin, şö”lə çəkən xeymə səra bizdəndi!
Əl kəsən sizdən olub dəsti səfa[6] bizdəndi!
Sili sizdən, rüx Əli nüma[7] bizdəndi!
Xeyzəran[8] çatdı sizə, qanlı dodaq bizdəndi!
Küllər üstündəki məzlum qonaq bizdəndi!
M Ə R C A N O Ğ L U !!
Elə fikr eyləmə payəndədi[9] fəthü-zəfərin
Aşkar oldu bu gün fitnələrin, hiylələrin
İnqilab eyləmişəm Kufədə, yoxdu xəbərin
Mən özüm nazir idim[10] mərdümün[11] ey vay səsinə
Qeyrətin var qulaq as sən də Hüseyn vay səsinə!
Atəşin kəlmələrim qüdrətivi etdi zəif
Tanıdı məhmilimin üstə məni nisvani ətiq[12]

---

[1]Su paylayan
[2]Şirk xəstəliyinə
[3]Quranın mübarək “Qədr” gecəsində nazil olduğu yerdir rəvayətə görə, Kəbə Evinin üstündə, 4-cü asimandakı yerdir.
[4]Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in meraca getdiyi vaxt Allaha ən yaxın məqam.
[5]Dünya leşinə, cəmdəyinə
[6]Səfa əli
[7]əli xasiyyətli üz
[8]Məlun Yezidin İmam Hüseyn əleyhissalamın mübarək dodaqlarına vurduğu çubuq
[9]Möhkəm, dayanıqlı
[10]Baxırdım
[11]Xalqın, camaatın
[12]Nəcib qadınlar

Riqqət əli verdi batıb əşgi qəmə surətlər
Başların yoldu tamaşayə gələn övrətlər
Zeynəbin nitqi Ziyad oğluna çox gəldi giran
Təxtin üstə otura bilmədi səlb oldu təvan

HƏZRƏTİ ZEYNƏBİN YÜKSƏK MƏQAMI

İmam Cavad (əleyhis-salam)-ın qızı Həkimədən itaətləri vacib olan şəxslər barəsində soruşum o, İmamları (əleyhis-salam) bir-bir mənə saydı, nəhayət Höccətibnil-Həsənə çatdı, onun da adını çəkdi. Ondan soruşdum ki, on ikinci İmam haradadır. Cavab verdi ki, qeyb aləmindədir.
Soruşdum: –Bəs onda şiələr kimə pənah aparsın?
Dedi: –Onun nənəsinə, İmam Həsən Əsgərinin anasına.
Dedim: –Mənə əmr edirsən ki, bir arvadı öz yerinə canişin qoyan bir adamı özümə İmam seçim?
Dedi: –Bu, İmam Hüseyn (əleyhis-salam)a iqtida etməkdir, zahirdə bacısı Zeynəbə vəsiyyə etdi. İmam Səccad (əleyhis-salam)-ın elmlərindən çıxan hər bir şey Zeynəb (əleyha-salam)-ın dilindən idi, beləliklə İmamət işi gizli qaldı[1]
Elə bu dəqiq məsələyə görə də izzət və din yolunun şəhidi öz bacısını özü ilə yanaşı apardı, çünki, o həzrət bilirdi ki, onun müqəddəs hədəfləri öz şəhadəti ilə, Bəni Üməyyənin səltənət hiyləsi ilə başqa cür olacaq; və əgər bacısının kəskin nitqləri olmasa, o şəhadətin həqiqəti məsx olunacaq (tərsinə cilvələndiriləcək), xüsusilə də Peyğəmbər ailəsi qılıncların, nizələrin mühasirəsində olan ağır vəziyyətdə Həzrət Zeynəb (əleyha-salam) qılıncdan da kəsərli olan bir nitq ilə İbn Ziyadın, Yezidin cinayətləri üstündən pərdələri götürdü.

Etdi əvvəl başda möhkəm məcərin Zəhra qızı
Ay kimi gün surətin əfraddan pünhan eylədi
**kufədə Zəhra qızı məhşər nümayan eylədi[2] (2)**
**Başladı bir xütbə dərsi xəlqi heyran eylədi (2)**
*****
Dur nisar etsin[3] həyanın ba ədəb gənzinəsin

---

[1]“Kəmalüd-din”, s. 25; “Qeybət” (Şeyx Tusi səh. 148)
[2]Aşkar etdi, göstərdi
[3]Təqdim etsin

Başlıyıb bir xütbə qəlbinin ayinəsin
Ali süfyanın o dəm tətil olub kabinəsi
Həqqü-həqqaniyyətin dünyaya elan eylədi
***
Gördü Kufə izdihamın Zeynəbi bala məqam
Səslənibdi "üskütu"[1] aya nədir bu izdiham?
Qət olub səslər, düşüb qorxu ürəklərdə təmam
Heydəri Kərrarı guya[2] əzmi meydan eylədi
***
Bir şücaət göstərib ol dəmdə düxti Bu turab[3]
Kufənin vəz"in[4] dəyişdi Zeynəbi Ülya cənab
Dəydi Kufə bir-birə başlandı şurü-inqilab
Bu vəziyyət ali Süfyanı peşiman eylədi
***
Kufədə zahir olubdu sövləti Şiri Xuda[5]
Bir-birə söylüb gəlib yoxsa Əliyyəl Mürtəza?
Kimdi bu məhmildə salmış aləmə şuri nəva
Nitq ilə bünyani zülmü[6] beylə viran eylədi
***
Nuru zülmətdə görən söylüb gündüzdü şəbdi bu?
Bu şücaətdə əsir olmaz əcəb mətləbdi bu!
Vazeh[7] oldu xəlqə ta Zəhra qızı Zeynəbdi bu
Eşqini təsdiqi əhli kovni imkan[8] eylədi
***
Zeynəbi ki dərsi eşqi Mürtəzadən məşq ala
Bir vücudi ki, onu başdan ayağə eşq ala
Kim şəhamət istəsə ondan gərək sərməşq ala
Kim deyər eşqində Zeynəb zərrə nöqsan eylədi?!

---

[1]"Sakit olun" (ərəbcə)
[2]Sanki
[3]əbu Turabın–Həzrəti əlinin qızı
[4]Vəziyyətin
[5]Allah Şirinin heybəti
[6]Zülmün əsasını
[7]Aşkar, aydın
[8]İmkan əhlinə təsdiq eylədi

***
İstədi qoftar[1] ilə şəxsiyyətin versin nişan
Gülşəni Zəhradə söylüb bir güləm ənbər fişan[2]
Zeynəbəm cəddim Peyambər kimdə var bu şən coşa
Xarici ad qoydu, qövmi ümmə[3] ünvan eylədi
***
Din yolunda dəstgirəm[4] xoşdu xuni dil[5] yeyəm
Əynimə rəxti əsarət[6] dinim əmr eylib geyəm
Naqə[7] üstə sizlərə hər yerdə dərsi din deyəm
Çün mənə bu hökmü-şər"i Həyyi Rəhman eylədi
***
Gövhərəm gəncineyi ismətdə[8] mən Zəhra rəviş
Eyliyib Zəhra məni bu gündən ötrü pərvəriş
Eyliyəm isbati həqq ey kufiyani bədməniş
Hansı bir millət İmamın qanə qəltan eylədi?
***
Ol kəsik baş ki, görürsüz şahi ətşan başıdır
Müstəfa dilbəndi Zəhra cisminə can başıdır
Heykəli tövhididir mənayi Quran başıdır
Əsdi Quran üstə məzlum əhli Quran eylədi

BİSMİLLAH
Olsa hər kimsədə bu zövqü səfa bismillah
Eyliyə kim səfəri Kərbübəla bismillah
Biz ki amadə[9] olub eyləmüşük əzm cinan[10]

---

[1]Nitq, danışıq
[2]Müşg-ənbər saçan
[3]Avam camaata
[4]Mübtəla
[5]əzab-əziyyət
[6]əsirlik paltarı
[7]Dəvə
[8]İsmət xəzinəsində
[9]Hazır
[10]Behişt əzmi ilə

Siz də hümmət edün[1] ey əhli vəfa bismillah
***
Baxma ki, murdar olan cifəsinə dünyanun
Beş gün ömründə çox incitmə, əzizim, canun
Aqil ol kuşiş elə möhkəm elə imanun
İstəsən gər edəsən Həqqi riza bismillah
***
Bu əziz ömrüvü sərf etmə fəna dünyayə
Səlma bihudə yerə başuvi çox qovğayə
huşiyar ol özüvə cəm elə bir sərmayə
Çox peşiman olarsan ruzi cəza[2] bismillah
***
Mərifətçün gətiriblər səni bu dünyadə
Tuşə kəsb eyliyəsən bu səfəri üqbadə
Pürxətərdür[3] səfərün kimsə yetişməz dadə
Qeyri bu pənci təni Ali-əba bismillah
***
Xamisi Ali əba olmuş Hüseyni bikəfən
Ol qəribü-Kərbəla avareyi şəhr-vətən
Başü-canundan keçüb ümmət yolunda şövqilən
Şiə lazımdır tuta hər il əza bismillah
***
Yatmayun qəflətlə çox ey şiələr, bidar[4] olun
Ömrüzi sərf etməyün bica yerə hüşyar olun
Qəbrinə hər il Hüseynün sidq ilə zəvvar olun
Hacətün olsa olur onda rəva bismillah
***
Mətləbün olsa əgər ağla Hüseynə sübh-şam
Gör tədarük səfəri Kərbübəla eylə xuram
Qoy üzün dərgəhinə ixlas ilə eylə salam
Üz qoyub bu dərgahə şahü-gəda bismillah
***
Çün olub icad küll kainatə bu səbəb

---

[1]Səy göstərin, çalışın
[2]Qiyamət günü
[3]Təlatümlü, xətərli
[4]Ayıq, huşyar

Məhrəmu əsrar həqdür məxzəni elmü-ədəb
Daxili cənnət olur zəvvar laşək bisəbəb
Türbəti hər dərd üçün olmuş şəfa bismilah
***
Rövzəsin hər kəs edə ömründə bir dəfə təvaf
Sanki yüz il edüb o Kəbə evində etikaf
Nazima bazari Yusifdir ələ al bir kəlaf
Qoy qədəm meydani rəzmə çək səda bismillah

KƏRBƏLA FACİƏSİ BİR QUŞUN DİLİNDƏN
**(MƏDİNƏ ƏHALİSİNƏ XİTABƏN)**
**kərbəla çölündən sizə nişan (2)**
**Pərlərimdə mən qan gətirmişəm**
**Su kimi olub göz yaşım rəvan**
**Haləti pərişan gətirmişəm (2)**
***
Qasidəm özüm bir quşam vəli
Təkbətək gəlin halimə baxın
Qonmuşam bu divarın üstə mən
Rəngi ruhi əhvalıma baxın
Qan mürəkkəbi ox qələm yazın
Şərhi nameyi balimə baxın
Təşnə ləblərin halini bəyan
Etməyə çox ünvan gətirmişəm
***
Bağladı suyun yolların ədüv
Ali Heydərin ruyinə təmam
Əldə tiği kin, dildə ≤üqtülü≥[1]
Qətligahə üz qoydu əhli Şam
Oldu qızların zikri əl ətəş
Yandı ləbləri əllərində cam
Oldu südəmər oxlara nişan
Axdı su kimi qan gətirmişəm
***
Süd əmər bala, yəni Əsğərin
Halını görən düşmən ağladı
Verdi əlləri üstə can Hüseyn

[1]"Öldürün"

Çəkdi ahi dil, dildən ağladı
Su yanında doğrandı no cəvan
Verdi Əkbəri can gətirmişəm
***
Batmışam Hüseyn qanına özüm
Ətrilən dolub pərlərim mənim
Qırmızı gülə bənzərəm açıb
Qönçəli gülü-peykərim mənim
Yəsrib əhli siz bir qulaq asın
Dərk edin hamı sözlərim mənim
Tez edin o Suğraya siz bəyan
Rəngi sorxi əlvan gətirmişəm
***
Dəstə quş idik dəstə cəm ilən
Kərbəladə biz hazır olmuşuq
Xeymələr yanan vəqtə qızların
Hali zarinə nazir olmuşuq
Xeyməgəhdə gah qətligahidə
Va Hüseyn deyib zahir olmuşuq
Ox tamam bədənlərdə ləxtə qan
Su kimi rəvan qan gətirmişəm
***
Od vuruldu odlandı xeymələr
Qaçdı çöllərə Ali Müstəfa
Ahü-zar ilən səslənirdilər
Rəhm elə Xuda yandıq odlara
Bəzi səslənir əmmə hardasan
Bəzi "ya əxa", bəzi "ya" əba
Xırda qızların halını əyan
Surətimdə əl"an gətirmişəm
***
Şamü-Kufənin qan tökənləri
Qurdular o səhradə bir əsas
Qarə badilər əsdi aləmə
Tutdu vahimə vəhşəti həras
Məşkini salıb çənginə gedib
Su gətirməyə tacidari nam
Qolları qələm verdi teşnə can
Tutdu gözlərin qan gətirmişəm

***
Sədri zinidən düşdü torpağa
Qətligahidə şahi insi can
Əldə hərbələr firqeyi cəfa
Aldı dövrəsin nizə ox vuran
Hər gələn vurub hər gedən vurub
Gəldi nagəhan Şimr ilə Sənan
Dildə qalmayıb taqətü-təvan
Ya Rəhimi, Rəhman gətirmişəm
***
Qəmkeşəm sənə ya Hüseyn özün
Həşridə başöım üstə sayə sal
Qoyma hali məhşərdə əl"əman
Qəlbimi tuta möhnətü-məlal
Dəftəri qələm əldə hazıram
Ömrümü şəbü-ruzü-mahü-sal
Va Hüseyn deyib etmişəm fəğan
Rusiyahəm ünvan gətirmişəm

## HƏZRƏTİ ZEYNƏBİN CAN ÜSTÜNDƏKİ ZƏBAN HALI

**Gözü yoldayam, hanı bir gələn (2)**
**Ölürəm Həsən, ölürəm Hüüseyn**
**Bacızam mənə gətirin kəfən (2)**
**Ölürəm Həsən, ölürəm hüseyn**
***
Nə rava çırağı məhəbbətin,
Bu çətin zəmanidə yanmasın
Özüzü mənə yetirin bu can
Yorulan bədəndə yubanmansın
Kəfən istədim, məni əfv edin
Bu sözüm Hüseynə toxunmasın
O yatıbdı qəbridə bi kəfən
Ölürəm Həsən, ölürəm Hüseyn
***
Həsən ey gözəlliyinin sözü
Deyilən Hicazü-Əraqidə
Töküləndə teşnə cigərlərin
Mən idim əcəb tərəvə silən

Belə bir zəmani fəraqidə
O bəlalı başuvi saxlayan
Bilirsən kimidi qucağida?
–Mən idim əcəb tərivi silən
Ölürəm Həsən, ölürəm Hüseyn
***
İki munisim, iki həmdəmim
İki afitabə[1] məsəl sözüm
İki rəhbərim, iki sərvərim,
İki dilbərim, iki xoş sözüm
İki qardaşım, iki sevimlim
Biri sağ gözüm, biri sol gözüm
İki nuri-dideyi Bul-Həsən[2]
Ölürəm Həsən, ölürəm Hüseyn
***
Nə qədər yazıb yazımı qara
Qələmi qəzavü-qədər mənim
Xətər oldu Zeynəbə həmqədəm
Hara getdim olmadı iymənim[3]
Nə bəlalı çöl mənə qəbr olub,
Nə Mədinə torpağı mədfənim
Bacıza olur hara gör vətən!
Ölürəm Həsən, ölürəm Hüseyn
***
Gəhi könlümü aparıb Bəqi
Gəh aparıbdı qəlbimi Kərbəla
Nə Bəqidən mənə səs gəlir
Nə yetir dadıma Neynəva
Nə təbibim oldu nə bir dava
Ürəyim yaralı qəlbim yaralı,
Bədənimdədir qara pirəhən
Ölürəm Həsən, ölürəm Hüseyn
***
Bədənimdədir qara pirəhən

---

[1]Günəşə
[2]Əbul-Həsənin (Həzrəti əlinin) iki gözünün iki nuru
[3]Əmin-amanlıq

Ölürəm Həsən, ölürəm Hüseyn
Necə aşiqəm bilirsiz özüz
Mənə sizsiz olmadı xürrəmim
İlin ağladım on iki ayın
Nə səfər ayın, nə məhərrəmin
Kül ola, məgər verələr yelə
Apara yel hər yerə zərrəmi
Yenə eşqidən deyərəm süxən
Ölürəm Həsən, ölürəm Hüseyn
***
Görün izzəti mənamızın tozuna
Batım bələşim gedim
Qəmi Əkbərə, qəmi Qasimə
Hər ikizlə mən mələşim gedim
Üçümüz dodaq-dodağa qoyaq
Ki doyunca busələşim gedim
Deyim ax Hüseyn, deyim ax Hüseyn
Ölürəm Həsən, ölürəm Hüseyn
***
Mən Zeynəbəm, 2-3 ildə ömrüm baş axtarır
Can üstə intizar gözüm qardaş axtarır
Qəlbim tutuldu öz vətənimdə qalammadım
Bildim mən Ruqəyyə balam yoldaş axtarır.

FƏRYAD O ZAMANDAN Kİ
**Fəryad o zamandan ki, Şamə üsəra gəldi**
**Həm Zeynəbü həm Gülsum, həm Zeynül-ibad gəldi**
***
Təxt üstə Yezid ol dəm, Şümrə dedi ey cəllad
De Kərbübəladə sən, nə zülm elədin icad
Kim oldu zəlil axir, kim oldu axır dilşad
Kim izzü-cihad oldu, kim aldı liqa gəldi
***
Kim oldu şəhid əvvəl–Əbbas ələm pərvər!
Ondan sora kim oldu–şəhzadə Əliəkbər!
Ondan sora kim oldu–ol Qasimi gül peykər!
Ondan sora kim oldu–ləb teşnə Ələəsğər!
Kim oldu şəhid axir–Şahənşəhi bi yavər

***
Hökm eylədim ol şahə bağlandı su yolları
Göndərdi sudan ötrü Əbbas Ələmdarı
Can rerdi o ləb təşnə düşdü yerə qolları
Ol dəmdə başı üstə Şahi şühəda gəldi
***
Firdövsidə Zəhranın qırdı belini qəmdən
Nə şərmi Xudadən mən, qıldım nə Peyambərdən
Bir tiri atıb vurdum, hülqi Əliəsğərdən
Matəmzədə Zeynəb çün, həngamə bəla gəldi
***
Aldım əlimə xəncər, mən Şümri sitəmpərvər
Hökm eylədim ol dəmdə, bağlandı hamı səflər
Tökdüm şərər əflakə, od tutdu cəhan yeksər
Zeynəb baş açıq şamə, ol bəxti qara gəldi
***
Gül dəstəsi tək bağlı, övladi Əli bör-bir
Üryan dəvə üstündə, ta bəstə qolu zəncir
Daxil elədim Şamə, qıldım fələki dilgir
Min dərdə "Zəbih" ilə, bu əhli əza gəldi.

## XIRDA QƏBRÜVƏ ZEYNƏBİN QURBAN

**Dur gedək qızım gedir karivan**
**Xırda qəbrüvə Zeynəbin qurban**
***
Deyirdin əmmə gedək vətənə
Mənzilin olub şəhri Mədinə
Bacı bəs hanı mənim güllərim
Qalıbsan məndən kənar ellərdə
Xırda qəbrivə Zeynəbin qurban
***
Mənim bülbülüm düşmüsən dildən
məgər nə olub küsmüsən məndən
Əsir qəribə oxşayan olmaz
Dur gedək qızım gedir karivan
Xırda qəbrivə Zeynəbin qurban
***

Qəribəm qızım ağlayan olmaz
Yetim qəbrini yoxlayan olmaz
Əsir qəbrindən oxşayan olmaz
Dur gedək qızım gedir karivan
Xırda qəbrüvə Zeynəbin qurban
***
Xaraba mənzildə yatmadım balam
Rahat olmadım yatmadım balam
Torpaqlr olub baluşun bala
Dur gedək qızım gedir karivan
Xırda qəbrüvə Zeynəbin qurban
***
Şümrü-bihəya çox vurub səni
Qətil eyləyib incidib səni
Qərib ölməyin yandırıb məni
Dur gedək qzım gedir karivan
Xırda qəbrüvə Zeynəbim qurban
***
Nalə eylərəm ağlaram səni
Yatmaram qızım ağlaram səni
Zakirəm söylərəm ağlaram səni
Dur gedək qızım gedir karivan
Xırda qəbrüvə Zeynəbin qurban

**Ruqəyyə nazlı surətin, qoyma divarə (2)**
**Bu kərbəla yollarına, baxma avarə (20**
**Ağlama, Ruqəyyə (2)**
***
Həva dolar yağar vəli, sən kimi dolmaz
Çəməndə gül solar vəli, sən kimi solmaz
Cahanda çox yətimə var, sən kimi olmaz
Ağlama, Ruqəyyə (2)
***
Xərabədən kənara çox, getmə məhparə
Vurur bu Şamın qızları qəlbivə yarə
Çətindi ayrılıq bala, məndə yox çarə
Ağlama, Ruqəyyə (2)
***

Üzarə bir belə qızım, tökmə göz yaşın
Bibin kimi bəlalərə, tuş olub başın
Bu Şamın əhli bilməsin, yoxdu qardaşın
Ağlama, Ruqəyyə (2)
***
Torpaqlar üstə can verir, Zamini ahu (2)
Canın Həqqə qurban verir, Zamini ahu (2)
Yox bir kəs, ağlasın, gözlərim bağlasın (2)
***
Musər-Rizanı etdilər, zülmilə məsmum[1]
Qürbət vilayətdə qalıb, hər nədən məhrum
Çatmır əli bir kimsəyə, can verir məzlum
Yox bir kəs, ağlasın, gözlərin bağlasın
***
Namə yazıb Məsuməyə, çox məlal ilə
Də”vət edib Tusə onu çox cəlal ilə
Məsumə düşdü çöllərə, şuri hal ilə
Yox bir kəs, ağlasın, gözlərin bağlasın
***
Məsumə Qumda can verir, sinədə namə
Öldü Rizanı görmədi, oldu həngamə
Qaldı Cavadı əmməsiz, gün dönüb şamə
Yox bir kəs, ağlasın, gözlərin bağlasın
***
Bir kəştiye bi sahilə,[2] bənzərəm əl”an
Gülzaridə solmuş gülə bənzərəm əl”an
Küncü-qəfəsdə bülbülə, bənzərəm əl”an
Yox bir kəs, ağlasın, gözlərin bağlasın
***
Zəhr aldı Şahi Tusidən, taqətü-yara
Qəlbi yananda səslənir, vay ana Zəhra
Yetməz səsi bir kimsəyə, can verir tənha
Yox bir kəs, ağlasın, gözlərim bağlasın
***
Gahi dodaqlardan çıxıb, yandıran sözlər
Səslir Cəvadım gəl atan, gəl yolun gözlər

[1]Zəhərlədilər
[2]Sahilsiz gəmiyə

Gahi baharın əbritək, yaş tökür gözlər
Yox bir kəs, ağlasın, gözlərin bağlasın

**<u>Viranədə nazlı balam (2) can verdi dincəldi</u>**
**<u>Bu düxtəri şirin zəban (2) can verdi dincəldi</u>**
***
Bəxti o tiflin ovcidən düşdü sərazirə[1]
Yeksər ata-qardaşların, çəkdilər şəmşirə
Kərbübəladən Şaməcən, bağlandı zəncirə
Yatmaq ona oldu haram, can verdi dincəldi
***
Qaldı orada bikəfən, Allah balam öldü
Bir kimsənə yox dəfn edə, Allah balam öldü
Asudə oldu zülmüdən, Allah balam öldü
Hər zəhmətə etdi davam, Allah balam öldü
***
Hər bir gecə Əkbər boyun, oxşardı yatmazdı
Şimri görən gün ol gecə, qorxardı yatmazdı
Çox yalvarardım yat qızım, ağlardı yatmazdı
***
Qüslün verən yoxdu nədən, öldü balam öldü
Öz məcərində dəfn edin, öldü balam öldü
Sönməz odun yandım dedin öldü balam öldü
***

**<u>Axşam oldu nənə, (2) qurban ollam sənə</u>**
**<u>Sən də yaralı, mən də yaralı (2)</u>**
***
İndi səs ver mənə, (2) başlayaq şivənə
Sən də əzalı, mən də əzalı.
***
Qapıları bağlayaq, sinəmiz dağlayaq
Səs qoşub ağlayaq
Ay çıxdı göydə, söndür çırağı
Xəlvət edək bu qəmli otağı
***

---
[1]Yüksəkdən üzü aşağı düşdü

Hər gün axşam olur qəlbimə qəm dolur
Gün tək rəngin solur
Gündə atamı, qəlbimə sallam
Məsciddən çıxıb, qapıda qallam
***
Hər gün aldım xəbər, dedin axşam gələr
Axşam oldu səhər
Hey qaş ağardı, şəfəq saraldı
Babam gəlmədi, gözüm saraldı
***
Qəlbimi qəm alır, qəm-qəm üstən yağır
Gözlərim əşg gəlir
Yol gözləməkdən, düşdüm ayaqdan
Hamı yətimi, tanır uzaqdan
***

Anasının cavabı:
Gəl düşək çöllərə, üz tutaq göylərə
Tapşıraq ellərə
Atan gedəndən, getmiş qonaqlar
Sinəmi dağlar, bağlı otaqlar
***
Ey qəmər təl’’ətim, dürrü-por qiymətim
Boynu çiynində, səbr evim yıxma
İzzətim, şövkətim, qəlbidə həsrətim
Allah kərimdi, oğlum darıxma
***
Ey mənim naz gülüm, sevgili yaz gülüm
Dərdivi yaz gülüm
Tapşır ərizən, badi səbayə
Əbbas atandan, eylə gilayə
***
Gül əkdim bal dərəm, qəlbim etdi vərəm
Vay mənə neylərəm
Sən hər güləndə, dərdim azalır
Baba deyəndə, rəngin saralır
***
Sinəmi dağlama, çarəmi bağlama
Oxşayıb ağlama

Canım bu şirin, sözlərə qurban
Əbbasa bənzər, gözlərə qurban
***
Qoy silim gözlərin, bir öpüm ləblərin
Salmışam bəstərin
Süzdü gözlərin, birdən axıldı
Yat dincəl oğlum, sübhə yaxındır
***
Gözlərin gözəldi, ləblərin əsəldi
Səndə xoş məsəldi
Bu sərvi qamət, bu mahi mənzər
Başdan ayağa, Əbbasə bənzər
***
Dörd gül əkdim dərdim, qalmıyıb bir dərdim
Dörd oğul becərdim
Dörd güldən əl"an, bir qönçə qaldı
Düşmən kam aldı, bağban qocaldı

Bəşir mədinəlilərə xitab edərək dedi: –Ey əhli-Mədinə! Daha sizin üçün Mədinədə qalmağa yer yoxdur. Çünki İmam Hüseyn (əleyhis-salam) qətlə yetirildi, buna görə də ürəyim qan ağlayır. Onun bədəni Kərbəlada qana qəltan olmuşdur və (müqəddəs) başını nizədə şəhərbəşəhər gəzdirdilər.
Bəşirin sözləri bura çatdıqda, camaat başlarına-vurur, "Vay Hüseyn, Vay Hüseyn, vay məzlum!" deyib ağlayırdılar. Bir neçə nəfər Bəşirin ətrafına yığışıb soruşdular: –Bəs ismət və təharət Əhli-beyti indi haradadır?
Bəşir dedi: –Əhli-beytin sağ qalanları şəhərin kənarındadır. Ey Mədinə əhli, haliyədə İmam Səccad əmmələri, bacıları ilə birlikdə sizin yaxınlığınızda, şəhərin kənarında çadır qurmuş, məni sizin yanınıza göndərmişdir ki, sizi baş vermiş hadisələrdən agah edim. Gəlin gedək onları sizə göstərim.
Camaatın ah-nalə, şivən səsləri fələklərə yüksəlirdi. Qadınlar başlarına, üzlərinə vurub deyirdilər: "Ey müsibətlər anası! Ey Zeynəb! Ey Əlinin qızı, sənin üçün ciyərlər dağlandı. Ey səbir və müqavimət dağı, ey Zeynəbi Kübra! Sənin çəkdiyin müsibətlər nə qədər ağır və böyükdür!

İMAM SƏCCAD (əleyhis-salam)IN MƏDİNƏ ƏHALİSİNƏ SÖYLƏDİYİ XÜTBƏ

Mədinə əhalisi Həzrət Zeynəbin, Həzrət Səccad (əleyhis-salam)-ın ətrafına yığışıb şivənlə, ah-nalə ilə başsağlığı verməyə başladılar.
İmam Səccad (əleyhis-salam) özünün (camaata) yalgöstərmə vəzifəsinə əməl edib gələcək hərəkət tərzini təyin etmək üçün əli ilə işarə edib camaatı sakitləşdirdi. Hamı hörmət əlaməti olaraq sakit oldu. Sonra o həzrət Allaha həmd edərək buyurdu: “Allaha şükür edirik–həyatın çətinlik və giriftarçılıqlarında, dərdli bəlalarda, qəm-qüssəli hadisələrdə, böyük ağır, qəmmi müsibətlərdə, çətin bəlalarda! Ey camaat, Allaha şükür olsun ki, bizi böyük müsibətlərlə imtahan etdi. İndi islamda Əba Əbdillah Hüseyn (əleyhis-salam) və onun itrətinin öldürülməsi, o cənabın ailəsinin əsir edilməsi kimi ağır itki baş vermişdir. O həzrətin müqəddəs başını nizə başında şəhərbəşəhər diyarbadiyar gəzdirdilər. Bu, elə bir faciədir ki, misli görünməyib. Ey camaat, sizdən hansı biri Hüseyn (əleyhis-salam)-ın şəhadətindən sonra şad olacaq? Hansı bir qəlb ona görə qəmgin olmaz? Hansı göz yaş axıtmadan çəkinər? Halbuki, atamın şəhadətində asimanlar ağladı, dəryalar öz dalğaları ilə ona ağladılar; asimanların, yerin fəryadı ucaldı, ağacların şəxələri, dəryadakı balıqlar, müqərrəb mələklər və bütün səma əhli bu müsibətdən cuşa gəldi, matəm saxladı.
Ey Mədinə əhli, hansı qəlb Hüseyn (əleyhis-salam)-ın qətlindən təsirlənmədi? Hansı qulağın islamda baş vermiş bu itkini eşitməyə taqəti var?
Ey camaat, bizi pərakəndə edib şəhərbəşəhər dolandırdılar, öz şəhər və diyarımızdan elə uzaqlaşdırdılar ki, elə bil biz Türküstan, yaxud Kabul əhliyik. Biz heç bir günah, təqsir, yaxud xoşagəlməz işə əl atmadan bu qədər zülmü bizə rəva gördülər; elə bir zülm ki, bunu heç öz əcdadlarımızdan da eşitməmişdik. Allaha and olsun, əgər Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) bizi onlara sifariş etmək yerinə, onlara bizi öldürmələrini əmr etsəydi, bizim barəmizdə rəva gördükləri bu zülmdən, sitəmdən artıq iş görə bilməzdilər. Bu müsibət necə ürəkyandıran, acı və çətin idi! Allah onların bizə qarşı etdikləri bu qədər zülmün hesabına yetişəcəkdir. Çünki intiqam alan və qüdrətli yalnız Odur.
Bu xütbədən sonra Əhli-beyt (əleyhimüs-salam) karvanı Mədinə camaatının naləsi, şivəni altında şəhərə daxil oldu. Əhli-beytin gözləri Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qəbrinə düşəndə, nalələr göyə qalxdı: “Va Cəddah! Va Mühəmmədа! Ya Rəsuləllah, sənin gözlərinin nuru Hüseyni susuz öldürdülər, sənin Əhli-beytini romalı əsirlər kimi şəhərbəşəhər, şəhidlərin başları ilə birlikdə dolandırdılar.”
Həzrəti Zeynəb (əleyha-salam) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məscidinin çatıb qapıdan yanınıda dedi:
“Ey mənim əziz cəddim, Hüseyn (əleyhis-salam)-ın şəhadət xəbərini sənə gətirmişəm!.”

“Ey əhli-Mədinə! Daha sizin üçün Mədinədə qalmağa yer yoxdur. Çünki İmam Hüseyn (əleyhis-salam) qətlə yetirildi. Buna girə də göz yaşım yağış kömi yağır, Onun bədəni Kərbəlada qana qəltan olmuşdur və (müqəddəs) başını nizə başında şəhərbəşəhər gəzdirdilər.
Bəşirin sözləri çatdıqda camaat başına, gözünə vurur, deyirdilər: Vay Hüseyn, vay Hüseyn-vay məzlum!
Bir neçə nəfər Bəşirin ətrafına yığışıb soruşdular: –Bəs ismət və təharət əhli-beyti indi haradadır?
Bəşir dedi: –Əhli Beytin sağ qalanları şəhərin kənarındadır. Ey Mədinə əhli, haliyədə İmam Səccad əmmələri, bacıları ilə birlikdə sizin yaxınlığınızda, şəhərin kənarında çadır qurmuş, məni isə sizin yanınıza göndərmişlər ki, sizi baş vermiş hadisələrdən agah edim. Gəlin gedək onları sizə göstərim.
Camaatın ahü-naləsi əl səsləri fələklərə yüksəlirdi. Arvadlar başlarına üzlərinə vurub deyirdilər:–Ya müsibətlər anası! Ey Zeynəb! Ey Əlinin qızı, sənin üçün ciyərlər dağlandı. Ey səbr və müqavimət dağı, ey Zeynəbi Kübra! Sənin çəkdiyin müsibətlər nə qədər ağır və böyükdür?

## İMAM SƏCCAD (əleyhis-salam)-IN MƏDİNƏ ƏHALİSİNƏ SÖYLƏDİYİ XÜTBƏ

Mədinə əhalisi Həzrət Zeynəbin, Həzrət Səccad (əleyhis-salam)-ın ətrafına yığışıb şivənlə, ah-nalə ilə başsağlığı verməyə başladılar. İmam Səccad (əleyhis-salam) özünün (camaata) yolgöstərmə vəzifəsinə əməl edib gələcək hərəkət tərzini təyin etmək üçün əli ilə işarə edib camaatı sakitləşdirdi. Hamı ona hörmət göstərərək sakit oldu. Sonra o həzrət Allaha həmd edərək buyurdu: –Allaha şükr edirik həyatın çətinlikləri və giriftarçılıqlarında, dərdli bəlalarda, qəm qüssəli hadisələrdə, böyük ağır, qəmi müsibətlərdə, çətin bəlalarda! Ey camaat, Allaha şükür olsun ki, bizi böyük müsibətlərlə imtahan etdi, İndi islamda böyük itki baş vermişdir. Əba Əbdillah (əleyhis-salam) və onun itrətinin öldürülməsi, o cənabın ailəsinin əsir edilməsidir. O həzrətin müqəddəs başını nizə başında şəhərbəşəhər, diyarbadiyar gəzdirdilər. Bu elə bir faciədir ki, misli görünməyib. Ey camaat, sizdən Hansı biri Hüseynin (əleyhis-salam) şəhadətindən sonra şad olacaq? hansı bir qəlb ona görə qəmkin olmaz? Hansı göz yaş axıtmadan çəkinər? Halbuki, atamın şəhadətində asimanlar ağladı, dəryalar öz dalğaları ilə ona ağladılar. asimanların, yerin fəryadı ucaldı, ağacların şaxələri, dəryadakı balıqlar, müqərrəb mələklər və bütün səma əhli bu müsibətdən cuşa gəldi, matəm saxladı. Ey Mədinə əhli, hansı qəlb Hüseyn (əleyhis-salam)-ın qətlindən təsirlənmədi? Hansı qulağın islamda baş vermiş bu itkini eşitməyə taqəti var? Ey camaat, bizi pərakəndə edib şəhərbəşəhər dolandırdılar, öz şəhər və diyarımızdan elə uzaqlaşdırdılar ki, elə bil biz Türküstan,

yaxud Kabul əhliyik. Onlar heç bir günah, təqsir, yaxud xoşagəlməz işə əl atmadan islam dinində dəyişiklik etmə kimi heç bir iş olmadan bu qədər zülmü bizə rəva gördülər. Elə bir zülm etdilər ki, bunu heç öz babalarımızdan da eşitməmişdik. Allaha and olsun, əgər Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) bizi onlara sifariş etmək yerinə onları bizi öldürməyə əmr etsəydi, bizim barəmizdə rəva gördükləri zülmdən, sitəmdən artıq iş görə bilməzdilər. Bizim imtahanımız üçün olan bu müsibət necə ürəkyandıran, acı və çətin idi? Allah onların bizə qarşı etdikləri bu qədər zülmün hesabına yetişəcəkdir. Çünki intiqam dlan, qüdrətli yalnız odur. Bu xütbədən sonra Əhli-beyt karvanı Mədinə camaatının naləsi, şivəsi altında şəhərə daxil oldu. Elə ki, əhli-beytin gözləri Peyğəmbərin qəbrinə düşdü, nalələr göyə qalxdı: Va Cəddah! Va Mühəmməda! Ey Rəsuləllah, sənin gözlərinin nuru Hüseyni susuz öldürdülər, sənin əhli-beytini Roma əsirləri kimi şəhərbəşəhər, şəhidlərin başları ilə birlikdə dolandırdılar.
Həzrəti Zeynəb (əleyha-salam) Peyğəmbər məscidinin qapısına çatıb qapının yanında dedi: Ey mənim əziz cəddim, Hüseynin (əleyhis-salam) şəhadət xəbərini sənə gətirmişəm.

İMAM ZAMAN ƏLEYHİSSALAMA XİTAB

**Ey sərvəri din[1], şahi mübin[2], höccəti Sübhan[3]**
**Gözəl aduva qurban (2)**
**Ürəklər dolu qandır, yetiş dadə amandır (2)**
***
Axır nə qədər sayəneşin mehridir asan
Gəl ey xosrovi xuban[4]
Axır nə qədər tul tapar müddəti hicran
Gəl ey xosrovi xuban
Axır nə qədər şiə qalar, didəsi giryan[5]
Gəl ey xosrovi xuban
***
Sən gəlməsən islah ola müşküldü bu dünya
Dolub zülmilə dünya

---

[1]Dinin sərvəri, başçısı
[2]Aşkar padşah
[3]Allahın yer üzündəki höccəti, sübutu
[4]Yaxşı insanların ağası
[5]Gözləri ağlar

Koştarü-fsadilə dolub dəhri səlapa
Dolub zülmilə dünya
Yoxdur çəkən asudə nəfəs qüssədən əsla
Dolub zülmilə dünya
***
Ey höccəti Həqq, şibhi Rəsul[1], natiqi Quran
Gəl ey xosrovi xuban
Zəhra balası, dadə yetiş, ey şəhi mərdan[2]
Gəl ey xosrovi xuban
Sənsiz nə qədər səbr eləyər, şiə müsəlman
Gəl ey xosrovi xuban
***
İfritü-sitəm sayə salıb bərqi[3] cəhanə
Gəl ey şahi zəmanə
Hər guşədə məzlum gəlib ahü-fəğanə
Gəl ey şahi zəmanə
Qəm atəşi hər ləhzə çəkər dildə zəbanə
Kəl ey şahi zəmanə
Zülmün odu çox şö"lə salıb külli cəhanə
Gəl ey şahi zəmanə
Zülmün dayağı rəhm eləmir pirü-cəvanə
Gəl ey şahi zəmanə
***
Gözlərdən olub Fatimənin qəbri nihandır
İşim ahü-fəğandır
Göz qəbrə dəyəndə o xanım əşgi fişandır
İşim ahü-fəğandır
Gəl qalmaya gizlində onun qəbri amandır
İşim ahü-fəğandır
Olmuş sənə bu şiə fəda əşgi rəvandır
İşim ahü-fəğandır
Oğlanlarının qəmlərinə göz yaşı qandır
İşim ahü-fəğandır
***

[1]Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in oxşarı
[2] Mərd insanların şahı
[3] Dünya işığına

Dilsiz balanın yerdə qalıb qundağı şaha
Dirəng eyləmə[1] şaha
Yandı sitəmi Hərmələdən itrəti-Taha
Dirəng eyləmə şaha

[1] Yubanmaq